# İŞİD DÖYÜŞÇÜLƏRİ İLƏ

## BİRGƏ HƏBSXANADA



### ŞƏRİN QARŞISINDA İMAN

PETER YAŞEK

REBEKANIN ƏMƏKDAŞLIĞI İLƏ

# İŞİD DÖYÜŞÇÜLƏRİ İLƏ
## BİRGƏ HƏBSXANADA

### ŞƏRİN QARŞISINDA İMAN

PETER YAŞEK
REBEKANIN ƏMƏKDAŞLIĞI İLƏ

Originally published in English under the title
*Imprisoned with ISIS* by Petr Jašek
Copyright © 2020 by Voice of the Martyrs

© 2023 for the Azeri edition.
Translated by permission. All rights reserved.
ISBN-10: 1684510090
ISBN-13: 978-1684510092
İŞİD döyüşçüləri ilə birgə həbsxanada
Peter Yaşek

Copyright © 2020 "Şəhidlərin səsi"
Müəllif hüquqları qorunur. Tənqidi və rəy məqalələrində qısa sitatlar istisna olmaqla, nəşr materiallarının istifadəsi və artırılması nəşriyyatın yazılı icazəsi olmadan qadağandır.

*“Çünki sizə yalnız Məsihə iman etmək deyil Onun uğrunda əzab çəkmək üstünlüyü də ehsan olundu .”*

Filipililərə 1:29

# SUDANDA İSLAMIN KƏSKİNLƏŞDİYİ DÖVRDƏ

Sudanda milyonlarla insan kəskin yoxsulluq, aclıq və siyasi qeyri-sabitlik içində yaşamaqla mübarizə aparsa da, şəriət qanunu və islamçı rəhbərlərlə idarə olunan bir ölkədə İsa Məsihə iman edənlər daha sərt bir reallıqla üzləşirlər. Artıq otuz ildir ki, Sudan hökuməti etnik olaraq ərəb olmayanlarla yanaşı məsihçiləri də hədəfə alıb.

Keçmiş prezident Ömər Həsən əl-Bəşir 1989-cu ildə hərbi çevriliş yolu ilə hakimiyyətə gəlib bütün Sudanda ciddi İslam qanunlarını tətbiq etdikdən sonra onun qəddar rejimi məsihçiləri qorxudur, həbs edir və işgəncələrə məruz qoyurdu. Ölkədə islamı daha da inkişaf etdirmək məqsədi ilə kilsə binaları dağıdıldı və bombardıman edildi.

1993-cü ildə Birləşmiş Ştatlar Sudanı Üsamə bin Laden də daxil olmaqla islamçı terror qruplarının üzvlərinə sığınacaq verdiyinə görə onu terrorizmə dəstək olan dövlətlər siyahısına daxil etdi. 2005-ci ildə ölkədə uzun müddət davam edən vətəndaş müharibəsi sülh sazişi ilə bitdi və nəticədə 2011-ci ildə Sudanın cənubu müstəqil bir ölkə oldu. Bəşir vətəndaş üsyanlarını yatırtmaq üçün Darfur bölgəsinin qərbində dinc əhali arasında terror törətmək üçün ərəb milislərini cəlb etdi. Nəticədə üç yüz minə yaxın insan həlak oldu və dörd milyon insan didərgin düşdü.

Ölkə parçalanmazdan əvvəl Bəşir Sudanın cənubunda, o cümlədən Mavi Nil bölgəsində və Nuba dağlarında iki milyona yaxın məsihçinin ölümündə iştirak etdi. Nuba dağlarında məsihçiliyin bütün izlərini silmək üçün Sudan ordusu məsihçi kəndlərinə, kilsələrinə, məktəblərinə və xəstəxanalarına dörd mindən çox bomba

atdı. İmanlılar cinayətkar sayılır, həbs edilir, işgəncələrə və saxta ittihamlara məruz qalır, ölümə məhkum edilirdilər.

2009-cu ilin mart ayında Haaqada yerləşən Beynəlxalq Cinayət Məhkəməsi altmış beş yaşlı Bəşirin həbsi üçün əmr verdi. Vəzifədə olan dövlət başçısına qarşı bu, ilk sərəncam idi. O, müharibə cinayətləri ilə yanaşı, Qərbi Sudanda kütləvi qırğın, deportasiya, işgəncə və zorlama da daxil olmaqla insanlığa qarşı cinayətlərdə ittiham olundu. Növbəti il, Darfur əyalətində soyqırım təşkil etdiyinə görə ikinci sərəncam verildi.

Sərəncamlara baxmayaraq, 2019-cu il aprelin 11-nə qədər bir neçə ay etirazlardan sonra Sudan ordusu diktatoru devirənə kimi Bəşir ölkəyə rəhbərlik etməkdə və məsihçilərə qarşı terror törətməkdə davam etdi.

Bu kitabda yazılan hadisə Sudanda Bəşirin — qəddar insanın xalqa rəhbərliyinin bitməsindən bir neçə il əvvəl baş vermişdi.



# ÖN SÖZ

*Bazar günü, 19 may 2013-cü il*

Ağır polad qapı çırpılaraq bağlandı və məni havasız bir otağa saldılar. Qapı çirkli bej rəngli boya ilə rənglənmişdi və yuxarıda on-iyirmi santimetrdən artıq olmayan bir pəncərə var idi. Soyuq döşəmə plitələri üzərində oturaraq mən özümü unudulmuş hiss edirdim.

Fikirlərim qızım Vandaya yönəlmişdi. Biz həm də onu Vava adlandırırıq. O, gözəl, ağıllı və gənc qızdır. Gələn həftə tibb fakültəsini bitirəcək. Həyatındakı ən vacib anı onunla birlikdə qeyd etmək əvəzinə mən bu bağlı kameraya təcrid olunmuşdum. Dərin həyəcan və qəzəb hissi məni bürüdü.

Qəflətən divarlar ətrafımda bulanlıqlaşdı və otaq qaranlığa qərq oldu. Sinəmdə ürəyimin dayanmadan döyündüyünü hiss etdim. Tər damcıları alnımdan axaraq gözlərimə süzüldü. Onları göynətməyə başladı. Qollarımı hərəkət etdirməyə çalışdım, amma onları qadıra bilmədim.

Birdən üzərimdə isti mələfə, yumşaq çarpayı və tanış rahat yeri hiss etdim. Əlim titrəməyə başladı və mən onu həyat yoldaşım Vandaya toxunmaq üçün uzatdım. Onun sübh şəfəqləri altında parıldayan uzun saçlarını gördüm. İyirmi üç il əvvəl biz evləndiyimiz gün olduğu kimi o gözəl idi.

Mən rahatlıqla nəfəs aldım və başımı yenidən yastığa qoydum.

Bu çox dəhşətli yuxu idi. Fikrimdə çoxlu suallar yarandı, onlar təlatümlü dalğalar kimi düşüncələrimə qarşı üsyan edirdi. Bu yuxu

görəsən Allahdan bir xəbərdarlıq idimi? Mən hansı səbəbə görə həbs oluna bilərəm?

Biz yataqdan qalxıb kilsəyə getmək üçün hazırlaşdıq. Həmin bazar günü kilsəmizin Kladno şəhərindən olan üzvləri Almaniyanın sərhədinə yaxın əsrarəngiz kurort şəhəri Karlovı Varıda yerləşən bacılar yığıncağını ziyarət etməyi planlaşdırmışdı.

Biz Vandayla maşına əyləşib dostlarımızla birlikdə qərbə doğru saat yarım yol getdik. Kəndin yanından keçərkən yol boyu mən az danışdım. Düşüncələrim suallarla dolmuşdu. "Mən necə həbsdə ola bilərəm? Bəlkə, vergilərimi ödəyərkən səhvə yol vermişəm."

Biz kilsə binasına tez çatdıq. Dayanacaqda bizi gözləyən kilsə rəhbəri ilə görüşmək üçün maşından düşdüm. O mənim fikirli olduğumu hiss etdi və soruşdu: "Peter, hər şey qaydasındadır?"

"Bəli, hər şey qaydasındadır" — deyə çaşqınlıq içərisində cavab verdim. Nə desəm, nə etsəm də o qəribə hissdən azad ola bilmirdim. Həbsxana qapısındakı kilidin səsi yaddaşımdan silinmirdi. Son üç il ərzində bu yuxu həyatımda narahatlıq yaradırdı, sanki daxilimdə yatıb mürgüləyirdi və nə vaxtsa ayılacağını gözləyirdi.



# 1

*İki il yarım sonra*

2015-ci il dekabrın 10-u gecə saat 2-yə yaxın idi. Mən artıq dörd gün idi ki, Sudanda idim və evə qayıdıb ailəmlə birlikdə olmağı səbirsizliklə gözləyirdim. Həyat yoldaşımı, onun hazırladığı dadlı yeməkləri, yatağımın rahatlığını düşünərək yenidən mənə tanış olan intizar hissini yaşadım.

Bir saat sonra uçacağım təyyarə Xartum şəhərindən yola düşəcəkdi. Mehmanxanadakı otağımı tərk etməzdən əvvəl qalan bir neçə dəqiqədən istifadə etmək istədim. Praqada evdə məni gözləyən həyat yoldaşım Vandayla Skype vasitəsi ilə əlaqə saxladım. Onun səsini eşidərkən gülümsündüm. Onunla qısa danışdım və həyat yoldaşımı tezliklə görmək ümidi ilə söhbətimi bitirdim.

On ildən artıqdır ki, Afrika regionunda “Şəhidlərin səsi” xidmətini idarə edirəm. İşim məndən təhlükəli yerlərə — məsihçilərin dəhşətli təqiblərə məruz qaldığı ölkələrə — səyahət etməyi tələb edirdi. Buna görə də mən həyat yoldaşım Vanda ilə telefon mesajları, zəngləri və Skype video zəngləri vasitəsilə ünsiyyət yaradırdım. Məxfi söhbətlərimiz üçün biz elektron məktublarla əlaqə saxlayırdıq və bizim xüsusi şifrə sözlərimiz var idi.

Həyat yoldaşım və uşaqlarım bilirdilər ki, mənim hər bir səfərim müəyyən risklərlə doludur və ziyarət etdiyim yerlərdə çoxlu təhlükəli vəziyyətlərlə üzləşə bilərəm. Eyni zamanda ailəmi lazımsız yerə qorxutmaq da istəmirdim. Hər dəfə səfərə çıxanda onların qorxu hissi keçirmələrini istəmirdim.

Həmin gün mən yola düşərkən Vandanın yatmış olacağını bildiyim üçün təyyarəm Sudandan çıxmazdan öncə, Nayrobiyə endikdən sonra, Nayrobidən çıxanda, Amsterdama çatarkən və Amsterdamdan çıxanda ona mesaj göndərəcəkdim. Əgər hər şey qaydasında getsə, Vanda mənim sonuncu mesajımı təyyarə Praqa uçuş-enmə zolağına endikdən sonra alacaqdı. Həyat yoldaşım məni qarşılamaq üçün dərhal hava limanına gəlməli və mən binadan çıxdığım vaxtda orada olmalı idi.

Bu səfərdə turist kimi səyahət etdiyim üçün köynək və cins şalvar geyinmişdim. Həyat yoldaşımın tikdiyi gizli kəmərimdə pulumu və ikinci pasportumu gizlətmişdim. Uçuşum çox erkən olduğu üçün gecəni yatmamışdım. Duş qəbul edib, saçımı kəsdim.

Paltarlarımı əlimdəki çamadana qoydum və noutbukumun çantasını açdım. Orada xarici pasportum, sürücülük vəsiqəm, fotoaparatım, günəş eynəyim, mobil telefonum, USB cihazım, xarici sərt disklərim və noutbukum var idi. Əgər noutbukum oğurlansaydı belə, mühasibat məlumatları olan şifrələnmiş mikro-SD çipi cüzdanımın arxa cibində olduğu üçün heç bir məlumat əldə etməzdilər.

Noutbuk cəmi bir ay əvvəl konveyerdən çıxan müasir, ən son buraxılış idi. Təqib olunan məsihçilərin başlarına gəlmiş hadisələri bu noutbukumda qeydə almışdım. İndi mənim və onların həyatı məhz onu qorumağımdan asılı idi. İnternet seansları arasında rəqəmsal yaddaşı azaltmaq üçün brauzerin tarixini təmizləmişdim və WiFi-yı qeyri-aktiv etmişdim. Noutbuk həmişə mənimlə olurdu. Əgər kiminsə əlinə keçsəydi belə, onda yalnız Nigeriyaya son səfərimdən olan turist kimi çəkdiyim fotoları görəcəkdi.

Ancaq Nigeriya fotoşəkilləri sadəcə saxtakarlıq idi. Əsas həssas məlumatlar və keçən gecə çəkdiyim şəkillər noutbukun sərt diskində şifrələnmişdi və ora daxil olmaq demək olar ki, qeyri-mümkün idi.

Son dörd gün ərzində qaldığım “Cənnət” oteli ilə üzbəüz yerləşən, açıq havada, səs-küylü “Ozon” adlı kafedə gizli görüşlər keçirirdim. Masaları və oturacaqları günəşdən qorunmaq üçün böyük qəhvəyi çətirləri olan “Ozon” kafesi görüşlərimiz üçün ideal

bir yer idi. Görüşlərin biri səhər yeməyi, digəri nahar, o birisi isə şam yeməyi vaxtına düşürdü. Mühacirlərin, Sudandakı müxtəlif beynəlxalq məktəblərdə təhsil alan xarici tələbələrin və professorların əhatəsində mən ağdərili adam kimi qeyri-adi görünmürdüm.

Oteldən çıxmazdan əvvəl qalan fotoşəkilləri şifrələdim və onları fotoaparatımdan sildikdən sonra sərt diskin şifrələnmiş bölməsinə köçürdüm və otağa son dəfə nəzər saldım. Əlimdə kiçik çamadanım və çiynimdə noutbuk çantam əvvəlcə dəhlizdən və sonra zaldan keçdim.

Bu sadəcə olaraq səhər tezdən başqa bir uçuş üçün oteli tərk etmək vərdişi idi. Axır ki, mən evdə olacaqdım.

Xoşbəxtlikdən, bu səhər tezdən yollar nisbətən boş olacaqdı. Oteldən hava limanına getmək üç dəqiqədən çox çəkməyəcəkdi. Uçuş başlamazdan əvvəl qeydiyyat və pasport yoxlanması üçün bir saat vaxt lazım olacağını nəzərə alaraq sürücünün saat 2-də gəlməsini planlaşdırdım.

Artıq saat 02:05 idi və mən qaranlıq küçədə dayanıb gözləyirdim. Sürücüdən bir xəbər yox idi. Bir neçə dəqiqədən sonra otelin qeydiyyat mərkəzindən sürücünün gecikməsi barədə soruşmaq üçün geriyə qayıtdım.

"Sizinlə başqa bir sərnişin də gedəcək" — deyə o bildirdi. Mən oteldən küçəyə çıxıb gözlədim. Hər keçən dəqiqə kiçik bir əbədiyyət kimi görünürdü. Amma mənimlə getmək istəyən sərnişin gəlib çıxmadı. "Bəlkə bu, oteldəki qeydiyyat işçisinin məni yubandırmaq üçün bir bəhanəsi idi."

Mən qeydiyyat mərkəzinə qayıtdım və nəhayət, xidmətçi sürücünü çağırdı. O, çantalarımı götürməyi təklif etdi, mənsə ona yalnız əlimdəki çamadanımı verdim. Biz maşına mindik və sürücü arxamca qapını örtdü. Maşın yola düşdü.

Mən düşündüyüm kimi, bir neçə dəqiqəyə hava limanına çatdıq. Sıxlıq olmayan terminala daxil olub Keniya Hava Yollarının qeydiyyat masasına doğru yollandım. Xidmətçi mənə üç minik bileti verdi. Hər biri yolumun müəyyən bir hissəsi üçün idi. Mən bilet-

lərdən ikisini noutbukumun çantasına qoyub pasport yoxlanmasını gözləyən sərnişin növbəsinə baxdım. Ertəsi gün bu vaxt mən artıq Afrikadan evə dönmüş olacağam və öz yatağımda yatacağam.

Pasport yoxlanması köşkü istiqamətinə addım atmışdım ki, kiminsə çiynimə toxunduğunu hiss etdim.

İngiliscə səlist danışmayan bir kişi ciddi səslə özünü təqdim etdi: "Sudan təhlükəsizlik xidməti. Zəhmət olmasa, bizimlə gedək!"



# 2

Zabitlər tərəfindən seçilməyim məni narahat etmirdi. Səfər etdiyim bəzi ölkələrdə hava limanının təhlükəsizlik xidməti səyahət edən sərnişinlərin ölkədən qaçaqmalçılıq yolu ilə pul çıxarmaması üçün tez-tez axtarışlar aparırdı.

Mən öz-özümə dedim ki, onlar sadəcə olaraq çantamda olanları nəzərdən keçirirlər. Bir neçə sualdan və baqajıma qısa nəzər saldıqdan sonra Keniyaya yollanacağam.

İki mühafizəçi qara şalvar və açıq rəngli, qısaqol köynək geyinmişdi. Məni masa və bir neçə stul olan kiçik dindirmə otağına apararkən onların kəmərlərinə bağlanmış tapancalarını gördüm. Orada divar rolunu oynayan müvəqqəti, boz arakəsmələr var idi. Tavanı olmayan otaq ətrafdakı səs-küylə dolu idi.

Mən saatıma nəzər saldım. Əgər mən qırx beş dəqiqəyə yola düşəcək təyarrəmə çatmaq istəyirdimsə, onda bu sorğu-sualı sürətləndirməli idim. Mühafizəçilər ingiliscə mükəmməl danışa bilmirdilər, ona görə də onlarla fransızca danışdım. Onlar gözlərini mənə zilləmişdilər. Sudan və Rusiya yaxın münasibətdə olduğuna görə mühafizəçilərlə bir neçə kəlmə rus dilində danışdım. Yenə də onlardan heç bir reaksiya görmədim. Sonra alman dilində, nəhayət öz çex dilimdə danışdım. Amma nə desəm də sözlərimə heç bir cavab vermədilər.

“Noutbuk!” — deyə onlardan biri səlist olmayan ingiliscə əmr etdi.

Mən noutbukumu çıxarıb stolun üstünə qoydum. Mühafizəçi onu işə saldı və sistemin yüklənməsini gözlədi. O, kompüteri mənimlə üzbəüz çevirib şifrəni tələb etdi.

"Xeyr, bu mümkün deyil" — deyə mən qəti fikrimi bildirdim. Sərt disk şifrələnmiş olsa da, məlumatlarımı onlarla bölüşmək fikrim yox idi.

Mühafizəçilər noutbukumla məşğul olarkən mən sakitcə telefonumu kəmərimdən çıxardım. Mənim telefonum elə proqramlaşdırılmışdı ki, PİN kodu on dəfə səhv daxil etdikdən sonra özü yenidən formatlaşırdı. Telefonda olan bütün məlumatları silmək üçün bir-birinin ardınca səhv PİN kod daxil etməyə başladım. Beşinci cəhddə isə telefon dondu və davam etmək üçün daha beş dəqiqə gözləməli oldum. Telefonu tez söndürdüm ki, onu açmaq üçün şifrəm tələb olunsun və əgər baş barmağımı düyməyə qoymağa məcbur etsələr, barmaq izim işləməsin.

Mühafizəçilərdən biri telefonda nəsə yazdığımı gördü. Məncə o, kiməsə zəng etdiyimi düşündü və əlini uzadıb telefonu tələb etdi. Tam söndüyünə əmin olmaq üçün telefonuma baxdım və sonra ona uzatdım. Mühafizəçi telefonumu yenidən işə salmadı.

"Kamera!" — deyə o tələb etdi. Kameramı ona verdim və onunla məşğul olmağa başladı. Elə bu vaxt hava limanının işçisinin adımı ucadan elan etdiyini eşitdim: "...Peter Yaşek..." Erkən yola düşdüyüm üçün iki gün idi ki, yatmamışdım. Tez bir zamanda təyyarəyə minmək istəyirdim ki, dincəlim. Həyacanım artmağa başladı.

"Siz məni uçuşuma gecikdirirsiniz!" — deyə əsəbi halda mühafizəçiyə şikayət etdim.

"Problem yoxdur" — deyə o ərəbcə cavab verdi.

Mühafizəçi qarşısındakı kağız yığınını qarışdırdı və məndən soruşdu: "Sizin bura səfər etməkdə məqsədiniz nədir?"

Mən cavab verdim: "Mən turistəm".

Mühafizəçi pasportumu, turist vizamı və polis qeydiyyatını diqqətlə yoxladı və dedi: "Burada turist vizası yoxdur".

Mən yenidən saatıma baxdım. Səhər saat 3:00 idi və təyyarəmin qapısı artıq bağlanmışdı. Təyyarə mənsiz uçurdu və mən daha sonrakı uçuşla uçmalı idim.

Bu vaxt həyat yoldaşımı düşündüm. O, yuxudan oyanıb məndən heç bir mesaj almayanda narahat olacaqdı. O gün günortadan sonra qızım daxili xəstəliklər üzrə buraxılış imtahanı verəcəkdi. Mühafizəçi əlindəki çamadanımla heç maraqlanmırdı və mən bu vaxt qızım Vava üçün dua etdim. Mühafizəçi mənə çantamı işarə etdi. Sərt diskləri və ya USB diskləri kimi başqa rəqəmsal yaddaş cihazlarının olub-olmadığını soruşdu.

O, noutbuk çantamı axtardı, xarici sərt diskləri və digər rəqəmsal cihazları çıxardı. İkinci pasportumu tapanda onun gözləri parladı.

Beynəlxalq ölkələrə tez-tez səyahət etdiyim üçün Çexiya hökuməti mənə üç pasport vermişdi. Qarşıdan gələn səfərə görə viza almaq üçün pasportlardan birini göndərsəydim, yenə də qalan ikisi ilə səyahət edə bilərdim. Onlardan biri hava limanının təhlükəsizliyinə təqdim etmək üçün, digəri isə ehtiyat üçün idi.

Amma mühafizəçilər mənim ikinci pasportumu nəzərdən keçirdilər və sonra bir-birlərinə qəribə baxdılar. Onlar düşünürdülər ki, mən casusam. Sonra pasportlarımı götürüb otaqdan çıxdılar və böyük, ağ mobil telefonla qayıtdılar.

Bir mühafizəçi telefonun ekranına toxunaraq dedi: “Bax, bax, bu şəklə bax!”

Mən gözlərimə inanmadım. Bu, “Ozon” adlı kafedə sudanlı pastorla ilk görüşlərimdən çəkilmiş bir şəkil idi. Üz ifadələrimdə təəccübümü gizlətməyə çalışdım və dedim: “Bu mənim şəklim ola bilər, bəlkə də yox”.

“Onun adı nədir?” — deyə mühafizəçi telefondakı digər kişini göstərərək soruşdu.

Mən cavab vermədim.

Mühafizəçi barmağını ekranda sürüşdürdü və başqa bir fotoşəkli göstərdi.

“Bəs bu kimdir?” — deyə o israr etdi.

“Nə olub? — deyə mən çiyinlərimi çəkərək soruşdum. “Mən burada bəzi adamlarla tanış olmuşam” — deyə əlavə etdim.

“Hansı adamlarla?” — deyə soruşdular.

“Mən əvvəllər tanıdığım bəzi dostlarımla görüşmüşəm” — deyə cavab verdim.

Mühafizəçi telefonumdakı şəkilləri göstərərək sualları təkrarladı. Mən isə onlara heç bir məlumat vermədim.

Mühafizəçilər ərəb dilində əsəbi halda bir neçə söz deyib otaqdan çıxdılar. Bir neçə dəqiqədən sonra qəhvəyi şalvar və sarı damalı gödəkçə geyinmiş zabit qapıdan içəri keçdi. O digər kişilərdən rütbəcə üstün idi, lakin heç nə demədi. Zabit kiçik otağın küncündə səssizcə dayandı, mühafizəçilər isə məni sorğu-sual etdilər. Suallarına cavab verməkdən imtina etdiyimə görə onlar ən yüksək rütbəli zabiti hava limanına çağırmağa məcbur oldular. Suallarına cavab verməkdən yan keçməyim onları qəzəbləndirdi.

Saat 3:45-də mühafizə xidmətinin zabiti dindirmənin heç bir nəticə vermədiyini başa düşdü. O, ərəb dilində xeyli danışdı və bir neçə saniyə ərzində mühafizəçilər sənədlərini toplayıb əlimdəki çamadanımı, noutbuk çantamı və pul kisəmi müsadirə etdilər.

“Sən bu mühafizəçilərə cavab vermək istəmədin? Ona görə də indi bizimlə gələcəksən” — deyə zabit məni hədələdi.

# 3

Mənim düşdüyüm vəziyyət əslində iki ay əvvəl Əddis-Əbəbə şəhərində kiçik bir konfransda iştirak etmək üçün Efiopiyaya səfərim zamanı başlamışdı. Görüş bir həftə davam etdi. Bu, Sudan ölkəsindəki məsihçi rəhbərlərin bir-biri ilə məsləhətləşmək, bir-birini təchiz təchiz etmək və həvəsləndirmək üçün bir imkan idi.

Konfransda mən on beş Sudan vətəndaşı, ondan çox əcnəbi, missionerlər və bir neçə il əvvəl Sudandan qovulmuş məsihçilərlə görüşdüm. Səfərimin məqsədi yeni əməkdaşlıqlar qurmaq, məsihçilərin təqiblərini qiymətləndirmək, bölgədəki pastorlara və rəhbərlərə bu barədə on dəqiqəlik təqdimat vermək idi.

Konfransda Həsən adlı bir keşiş mənə Məsihə imanına görə Sudanın paytaxtı Xartum şəhərində dəhşətli şəkildə eybəcər hala salınmış Darfurdan olan bir gənc məsihçi haqqında danışdı. Üzü, sinəsi və əlləri də daxil olmaqla, bədəninin səthinin təxminən üçdə biri zədələnmişdi.

İmanına görə belə əziyyət çəkən o gənc üçün ürəyim ağrıdı, onu görmək istədim. Mən dünyada İsa Məsihə imanına görə böyük çətinliklərə düçar olmuş bir çox kişi, qadın və uşaqlarla görüşmüşəm. Hər dəfə bədənlərində Məsihin izlərini daşıyan insanlarla rastlaşanda bütün dünyada təqib olunan bacı-qardaşlarımızın mənəvi və fiziki ehtiyaclarında onlara dəstək olan təşkilatlarla işləməyə mənə imkan verdiyi üçün Rəbbə minnətdaram.

“O gəncin tibbi yardıma ehtiyacı varmı?” — deyə soruşdum.

Həsən dedi: “Bəli. Vaxtınız olsa, Sudana gəlib onunla danışa bilərsinizmi?”

Bir neçə gündən sonra xəsarət almış məsihçi gənclə görüşmək üçün Afrikaya getmək ümidi ilə Praqaya qayıtdım. Mən 2002-2011-ci illər arasında Sudana on dəfədən çox səfər etmişəm və əsasən ölkənin cənub hissəsinə getmişəm. Lakin bu yaxınlarda orada olmamışdım. 2011-ci ildə cənubi Sudanın ayrılmasından sonra bütün ölkədə məsihçilərə qarşı düşmənçilik artmışdı.

2005-ci ilin yanvarında Sudan Xalq Azadlıq Hərəkatı və Sudanın rəsmi hökuməti davam edən vətəndaş müharibəsinə son qoymaq, ölkədə demokratiyanı inkişaf etdirmək və neft satışından əldə olunan gəlirləri ədalətli şəkildə bölüşdürmək məqsədilə Əsaslı Sülh Sazişi imzaladı. Razılaşmada həmçinin Sudanın iki hissəyə ayrılması ilə bağlı təfərrüatların işlənməsi üçün altı illik cədvəl də müəyyən edildi. 2011-ci ildə Sudanın ərazisi coğrafi olaraq Nuba dağları ilə ayrılmış iki müstəqil ölkəyə — Sudan və cənubi Sudana çevrildi. Sudan ölkəsinin demək olar ki, hamısı müsəlmandır, cənubi Sudan və Nuba dağlarında isə əhalinin böyük hissəsi məsihçilərdən ibarətdir.

Bu gün dünyada təxminən beş milyon nubalı var və onların təxminən 1,5 milyonu Nuba dağlarında yaşayır. Onların qalanları ölkədən qovuldu, əksəriyyəti isə Sudanın digər bölgələrinə getdi. Nuba əhalisinin yarısından az bir hissəsi özünü məsihçi sayırdı və onlar prezident Ömər əl-Bəşir və onun totalitar rejimi üçün böyük təhlükə hesab olunurdu. Prezident Bəşirin məqsədi Sudanı tamamilə islamlaşdırmaq və ərəbləşdirmək idi. Buna görə də Xartumdakı İslam hökuməti Nuba xalqını və onların İslam qanunlarına təhdidini aradan qaldırmaq məqsədi ilə əhaliyə hücum etdi və Nuba dağlarında yüz qırx kilometrlik dağlıq bölgədə humanitar yardımı qadağan etdi. Hətta prezidentin rejimi dövründə əraziyə səfər etmək belə qanunsuz idi.

Prezident Bəşir Nuba dağlarında yaşayan məsihçilər tərəfindən təhlükə hiss etdi. Sadəcə olaraq Nuba xalqının mövcud olması vətənə xəyanət edən kimi sayılırdı. Bəşirin qurduğu hökumətin

fikrincə, Nubaya qarşı törədilən vəhşilikləri işıqlandıran hər kəs casus hesab olurdu.

* * *

Bu səfər üçün viza almaq gözlədiyimdən də asan oldu. Viza ərizəsini təqdim etmək üçün mənə lazım olan yalnız bir şey — Sudanda mehmanxanada rezerv etmək idi. Ona görə də Xartumdakı “Cənnət” otelində bir otaq rezerv etdim və tələb olunduqda işçilərə səfərimi yerli polisdə qeyd etmələrini təşkil etdim.

Oteldə otağım hazır idi. Müraciətimin rədd olunacağını bildiyim üçün turist vizasına görə Sudan səfirliyi olan ən yaxın şəhərə, Vyanaya getdim. Mənim başqa seçimim yox idi. Viza üçün müraciət etdiyimə görə belə qısa müddətdə kilsə rəhbərlərindən hər hansı biri ilə görüşməyə vaxtım yox idi. Dini vizaya görə müraciət üçün kilsə konfessiyalarından birinin mənə dəvət məktubu təqdim etməsi üçün kifayət qədər vaxt yox idi. Vaxt məhdudiyyətlərini nəzərə alaraq, Sudanın islamçı hökumətinin mənə dini işçi vizası verməsi çox çətin idi. Hər hansı bir ölkəyə ilk dəfə səfər edəndə ölkəni tanımaq üçün iş görüşləri ilə yanaşı, bəzi məşhur yerləri də görməyə çalışırdım. Ona görə də turist vizası almağım məqsədəuyğun idi. Mənim kimi xidmətçi üçün məsihçilərin təqib olunduğu ölkəyə gedərkən sağ qalmağıma heç bir zəmanət yox idi. Bəzən bütün planlaşdırılan görüşlər heç bir əngəl olmadan baş verə bilərdi, amma bəzən də təhlükəsizlik və ya gözlənilməz vəziyyətlər üzündən bir məsihçi ilə belə görüşmək imkanı olmaya bilərdi.

Sudan səfirliyinə otel, aviabilet rezervlərimi, tələb olunan sənədləri təqdim etdim və iki saat ərzində turist vizasını aldım.

Planlaşdırılan səfərlə əlaqədar oktyabrda konfransda tanış olduğum gizli pastorlar və məsihçilər şəbəkəsi ilə əlaqə saxlamağa başladım. Bəziləri mənə cavab vermədi, digərləri isə şəhərdən kənarda olacaqlarını söylədi. Lakin biz təhlükəsiz e-poçtdan istifadə edərək

və mesajlarımızın hökumət rəsmiləri tərəfindən ələ keçirildiyi təqdirdə şübhə yarada biləcək sözlərdən çəkinərək Xartuma səfərim üçün plan tərtib etdim. Mənə bu işdə bir neçə nəfər, xüsusən də, Nuba dağlarından olan pastor Həsən kömək etdi.

Mən Xartuma çatdıqdan sonra yenicə sökülən kilsələrin xarabalıqlarını ziyarət edə bildim. Talan edilmiş, yandırılmış və buldozerlə dağıdılmış kilsənin şahidi olmaq bir qədər çətin idi. Bunları görəndə kilsənin üzvləri üçün kədərləndim və evdəki öz kilsəm üçün təşəkkür etdim. Amma o qədər də şoka düşmədim. Mən kilsələrin tez-tez xarabalığa çevrildiyi bir çox ölkələrdə illərlə təqiblərə cavab layihələrini idarə etmişdim. Xartumda bu ibadət yerlərinin əksəriyyəti Sudan hökuməti tərəfindən hədəfə alınan və ağır təqiblərə məruz qalan Nuba dağlarındakı imanlılarla dolu idi. Hökumət kilsələrin rayonlar üzrə olan qanunlarını pozduğu üçün onların binalarının söküldüyünü iddia etdi, lakin bu, məsihçiləri təqib etmək üçün yalnız bir bəhanə idi. Bütün binalar onilliklər idi ki, köhnə idi. Nuba xalqı Sudan rejiminin rəsmi düşməninə çevrilmişdi, ona görə də siyasi, mədəni və mənəvi təqiblərə məruz qalmışdılar. Mənim fikrimcə bu ağır təqibin əsl səbəbi aydın idi. Bu məsihçilər Rəbb İsanın bütün xalqları, o cümlədən İslam hakimiyyəti altında olanları Onun şagirdi etmək tapşırığına əməl edirdilər. Bu, onların ən böyük "cinayəti" idi.

Bu cəsur məsihçilərin imanlarına görə əzab çəkdiklərinin şahidi olmaq mənim onlara kömək etmək əzmimi daha da möhkəmləndirdi. Hökumət tərəfindən onlarla pis rəftar olunması məni məyus etdi və çox kədərləndirdi. Lakin mənim çoxillik təcrübəm var idi və "Şəhidlərin səsi" təşkilatının əlaqələr şəbəkəsi sayəsində onlara kömək etmək yollarını müəyyən etmək üçün yaxşı təchiz olunmuşdum.

Dağılmış binalar məsihçilərə vurulan travma ilə müqayisədə zəif görünürdü. Nəhayət, səfərimin son günündə Əddis-Əbəbədə pastor Həsənin mənə danışdığı, tibbi yardıma ehtiyacı olan gənclə görüşə bildim. Bilirdim ki, bu görüş onun və mənim həyatımı təhlükəyə sala bilər, ona görə də gənci "Ozon" kafesinə dəvət

etmədim. Əvəzində biz axşam vaxtı onun yaşadığı yerə yaxın bir yerdə görüşməyə razılaşdıq.

Mənim tərcüməçim Monim adlı məsihçi vaxtilə müsəlman olmuşdu. O, həm də təqiblərlə tanış idi. Məsihə iman etdikdən sonra o həbs olunmuşdu və elektrik cərəyanı ilə işgəncələrə məruz qalmışdı. Magistr dərəcəsini bitirməli olduğu vaxt təhlükəsizlik polisi Monimi qəsdən həbs etmiş və onu institut proqramını tərk etməyə məcbur etmişdi. Onun cəsarətinə heyran olmuşdum və dil bilmə qabiliyyətinə görə ona təşəkkür etdim.

Monimlə mən hökumətin hücumu zamanı bədəni çox yanmış Əli Ömər Musa adlı gənclə görüşdük. Mən onun tibbi yardımı və yanıqlarından sağalması üçün hansı həkimlərin ona kömək etməsi barədə soruşdum. Monimin köməyi ilə Əlidən köynəyini çıxarmasını xahiş etdim ki, onun xəsarətlərinin fotolarını ətraflı çəkə bilim. Bu fotoşəkilləri çəkməkdə məqsədim "Şəhidlərin səsi" təşkilatı ilə işləyən həkimlərdən ona ən yaxşı tibbi yardım göstərmək üçün məsləhət almaq idi.

Mən Əlidən iman barədə soruşdum. O, suallarımı ya səhv başa düşdü, ya da cavab verməkdən çəkindi. Monim əyilərək mənə sakitcə izah etdi ki, Əlinin bizimlə otaqda oturan dostları və tələbə yoldaşları onun Məsihə imanı haqqında heç nə bilmirlər. Təəccüblü deyil ki, o, İsaya tabe olmaq üçün İslamı tərk etmək barədə açıq danışmaq istəmədi!

Əli ilə görüşdüyümüz evdən çıxanda Monimlə birlikdə başqa bir görüş təşkil etdik və orada mən sonradan onun İsanın Allahın Oğlu olduğuna necə inandığına dair tam məlumat ala bildim. Bu hadisə mənə gənc olanda Çexoslovakiyada kommunizm dövründə məsihçilərin məruz qaldıqları təqibləri xatırlatdı.

Bu görüşlərdən sonra - mən bu həssas söhbəti Sudandakı sonuncu görüşüm kimi planlaşdırmışdım. Əlinin bədən xəsarətinin şəkillərini noutbukumun şifrəli bölməsinə köçürmüşdüm.

İndi masanın üstündəki noutbukumu Sudan hava limanının iki mühafizəçisi yoxlayırdı.

# 4

İki mühafizəçi məni dindirmə otağından çıxarıb hava limanından çöldə gözləyən ağ rəngli “Land Cruiser” maşınına mindirdi. Bu markalı maşın Xartumun tozlu küçələrində gedən maşınlardan biri idi. Sudan Milli Kəşfiyyat və Təhlükəsizlik Xidmətlərinin qərargahına getmək üçün beş dəqiqəlik yolda arxa oturacaqda oturdum. Mühafizəçilər məni generalın kabinetindəki gözləmə otağına apardılar və qəhvəyi rəngli dəri divanda əyləşdim. Orada mərkəzi hava və istilik sistemi yox idi, amma səhər saat 04:30-da belə, əynimdəki cins şalvarımda və köynəyimdə mənə soyuq deyildi.

Mən saatlarla gözlədim. Əlində AK-47 silahı olan bir kişi otağın kənarında stulda oturaraq çıxış qapısını mühafizə edirdi. O yuxuladı və çənəsi sinəsinə düşdü, mən qaçmaq imkanlarım barədə düşündüm. Amma bilirdim ki, mühafizəçi hər an oyana bilər.

Təxminən üç saatdan sonra iki təhlükəsizlik işçisi gəlib məni gözləmə zalından çıxartdı.

“Mən səfirlik və ailəmlə əlaqə saxlamaq istəyirəm” — deyə fikrimi bildirdim.

Onlar xahişimə məhəl qoymayaraq məni dindirmə otağına apardılar.

“Sən “Şəhidlərin səsi” təşkilatı ilə işləyirsən?” — deyə müstəntiq soruşdu.

Gördüyüm işi təhlükə altına sala bilməzdim, ona görə də onlara məlumat verməmək yollarını düşündüm. Sorğu-sual zamanı mən hikmətlə cavab verməli idim, çünki bu, başqa ölkələrdə yaşa-

yan məsihçilər üçün təhlükə yarada bilərdi. Texniki cəhətdən mən "Şəhidlərin səsi" təşkilatının işçisi deyildim. Mən orada sadəcə müstəqil podratçı kimi işləyirdim, ona görə də sual verəndə əminliklə "xeyr" cavabını verməkdə çətinlik çəkmədim.

O, sualı təkrarladı.

Mən dedim: "Mən əziyyət çəkən insanlara kömək etmək istəyən bir məsləhətçiyəm". Sonra xəstəxana rəhbərliyində işlədiyimi vurğuladım. Müstəntiq qovluqdan bir kağız çıxardı və adların siyahısını oxumağa başladı, hər adı oxuyandan sonra qısa fasilə etdi.

Siyahıda keçən oktyabr ayında Efiopiyada görüşdüyüm pastorların adı idi. Fikrim yenidən konfransa, foyedə gəzərkən gördüyüm bir neçə sudanlı kişiyə qayıtdı. Hətta o vaxt onların şübhəli göründüyünü düşünmüşdüm. İndi başa düşdüm. Həmin adamlar hökumət agentləri imiş və onlar konfransda iştirak edən məsihçilər haqqında məlumat toplamaq üçün göndərilmişdilər.

Düzünü desəm, Əddis-Əbəbədə görüşdüyüm insanların hamısının adlarını xatırlamadım, amma xatırladığım adları belə onlara verməkdən imtina etdim.

Bir neçə dəqiqədən sonra müstəntiq qovluğu bağlayıb dedi: "Sən bilirsən ki, cavab verməsən səni burada daha çox saxlamalı olacağıq?"

O məni yenidən otağa qədər müşayiət etdi. Sonra mən divanda oturub saatlarla gözləməli oldum.

Nəhayət, Sudan Təhlükəsizlik məmuru məni sorğu-sual otağına aparanda gördüm ki, noutbukum masanın üstündədir, xarici sərt disklərim də kameramın yanındadır. Sudana səfərimdən əvvəl köhnə noutbukumdakı fotoşəkilləri yenisinə köçürmüşdüm. Xarici sərt diskimdən bütün şəkilləri sildiyimə 100% əmin idim və sorğu-sual zamanı kompüterin şifrələnmiş bölməsində təhlükəsiz şəkildə qorunan hissəsindən narahat deyildim. Mən əmin idim ki, onların əlinə düşən cihazlarımda heç nə yoxdur.

Ancaq eşitdiyim növbəti söz bədənimi titrətdi.

Müstəntiq noutbukumun düyməsinə toxundu və mən tanış səsi eşitdim: *"İndi biz Nuba dağlarındayıq"*. Bu, mənimlə xidmət edən həmkarımın səsi idi.

Görəsən niyə xarici sərt diskimdə 2011-ci ildə çəkilən video qalıb?

2012-ci ildə qızğın mübahisəli Nuba dağlarında ikinci müharibənin əvvəlində rəhbərlər ilə birlikdə onu sənədləşdirmək və təqib olunan imanlılara yardım etmək üçün ora getmişdim. Mənim kimi onlar da Sudanı cənubi Sudandan ayıran dağlıq bölgədə illərdir ki məsihçilik xidməti ilə məşğul olurdular, amma Bəşirin hakimiyyəti bu işləri qanunsuz hesab edirdi.

Nuba dağlarına yardım aparan təyyarə reyslərimiz var idi. Bu, onların son uçuşu oldu, çünki təyyarələrin enməsinə daha icazə verilmədi. Tezliklə hava məkanı bağlandı və uçuş-enmə zolaqları bombalandı. 2011-ci ildən bəri Sudan hökuməti bu növ yardım işini məhdudlaşdırmaqda davam edir və onlar cinayətkarları ciddi şəkildə axtarırdılar. On beş il ərzində prezident Bəşirin göstərişi ilə Nuba dağları davamlı olaraq bombalanırdı, yalnız bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatı partlayışlar barədə məlumat verən insanları dinləmişdi. İndi baxdığım videoda danışan dostum belə insanlardan biri idi.

"Bəs bu video mənim yeni noutbukuma necə düşüb?"

Sonra müstəntiq masanın üstünə təyyarənin gövdəsində oturmuş iki kişinin şəklini qoydu. Mən onları dərhal tanıdım. Diqqətlə baxanda gördüm ki, şəklin altında "müharibə zonasına doğru gedirik" sözləri yazılmışdı.

Birdən hər şey aşkar oldu. Sudan Təhlükəsizlik xidməti mənim xarici sərt disklərimdən silinmiş videoları və fotoşəkilləri bərpa edə bilmişdi. Bunlar köhnə noutbukumdan yeni noutbukumun sərt diskinin şifrələnmiş bölməsinə köçürdüyüm video və şəkillər idi. Onlar həm də həbs olunmazdan əvvəl keçən gecə Əlinin xəsarət almış bədəninin çəkdiyim silinmiş şəkillərini bərpa etməyin yolunu tapmışdılar.

"Bu adamın adı nədir?" — deyə müstəntiq gənc məsihçi tələbənin şəklini göstərərək soruşdu. Mən cavab verməkdən imtina etdim. Görəsən onlar silinmiş şəkilləri necə bərpa ediblər? Sonra nə baş verdiyini anlayanda boynumdan onurğama kimi soyuq bir hiss keçdi və qarnımda dəhşətli ağrı hiss etdim. Mən əmin idim ki, şəkilləri silmişdim, amma kameranın SD yaddaş kartında olanları silərkən qovluqların bərpasını qeyri-mümkün edən xüsusi proqramdan istifadə etməmişdim.

O bir kağız parçası çıxardı və Skaypdakı dostlarımın adlarının siyahısını oxumağa başladı. Sudan təhlükəsizlik xidməti mənim Skayp hesabıma daxil olub, məni "Şəhidlərin səsi" təşkilatı və digər məsihçi xidmətində olan işçilərlə əlaqələndirmək üçün kontaktlarımdan istifadə edirdi.

İndi anladım ki, çətin bir vəziyyətə düşmüşəm. Sudan hökumətinin mənə qarşı ciddi iddiası ola bilərdi, çünki onların zülmkar qanunlarına görə, məsihçi işləri ilə məşğul olanlar təkcə casus deyil, həm də dövlətin düşməni hesab olunurdu.



# 5

Bir neçə saatdan sonra məni yenidən sorğu-sual otağına apardılar və gördüm ki, stolun üstündə fotoşəkillər səpələnib. Onlar mənim “Cənnət” otelinə girdiyim, çıxdığım, foyedə gəzdiyim, “Ozon” kafesində yemək yediyim və sökülən kilsəni ziyarət etdiyim zaman çəkilən fotoşəkillərim idi. Sən demə əvvəlki dörd gün ərzində Sudan hökumətinin agentləri məni izləyib Xartumdakı hər bir fəaliyyətimi sənədləşdiriblər. Müstəntiq diqqətimi gecəgörmə kamerası ilə çəkilmiş yaşıl rəngli fotoşəkillərə yönəltdi. Onlar gecə-gündüz məni izləyiblər. Mən təşviş içində bir az da narahat oldum, amma zahiri görünüşümdə bunu gizlətməyə çalışdım.

Nəhayət, müstəntiq bir SD kartı çıxarıb stolun üstünə qoydu. Yaddaş kartım şifrə ilə qorunurdu və orada mühasibatlıq işlərimlə əlaqədar sənədlərimin surəti vardı. Maliyyə xərclərimi qeyd etmək üçün həmin kartı səyahətə çıxanda pul kisəmin içində saxlamışdım. Sudan təhlükəsizlik xidmətinin müstəntiqi üçün bu kart mənim casus olduğuma dair daha bir sübut idi.

Mən dedim: “İcazə verin, səfirliklə əlaqə saxlayım. Ailəmlə əlaqə saxlamağa icazə verin”.

Müstəntiq cavab vermədən məni yenidən gözləmə otağına apardı, sonra bir neçə saatdan sonra bir neçə dəqiqəlik sorğu-sual üçün geri qaytardı. Bu günün qalan hissəsində və gecəyə qədər belə davam etdi. Mən arvadım Vandanın nə qədər narahat olacağını və vəziyyətimin nə qədər pis olduğunu düşünürdüm. Müstəntiq eyniliyi pozmaq və ayaqlarımda durğunluq yaranmaması üçün pilləkənlərdə gəzməyimə icazə verdi. Gecə yarısı idi, lakin Sudan

təhlükəsizlik xidmətinin (Sudan Milli Kəşfiyyat Xidmətinin) binasında hələ də gərgin iş gedirdi və mən işçilərin pilləkənlərlə qalxıb enməsini seyr edirdim.

Burada gözləyərkən kommunizm dövründə Çexoslovakiyada məsihçi olduqlarına görə illərlə təqiblərə məruz qalan valideynlərimi düşündüm. Mən 1960-cı ildə, ölkəm hələ Sovet İttifaqının Şərq Bloku adlanan birliyinin bir hissəsi olarkən məsihçi ailəsində anadan olmuşdum. Mən doğulmamışdan on il əvvəl kommunistlərin işğal etdiyi bütün Avropada məsihçilər dəhşətli işgəncələrə, həbslərə və ölümə məruz qalmışdılar. Bu, hökumətin bizi çox təqib etdiyi və təsdiq edilmiş, nəzarətində olan kilsələrdən kənarda imanımızın tətbiqini qadağan etdiyi bir dövr idi.

Atam pastor olduğu üçün ailəmiz tez-tez başqa yerlərə köçürdü. Mən dördüncü sinifdə oxuyanda yenidən bir şəhərə köçdük. Dərs ili ərzində yeni yerə köçmək çox çətin idi. Sinif yoldaşlarım həmişə məndən soruşurdular: "Atan harda işləyir?"

Bu çox adi bir sualdır, amma mən həqiqəti söyləməyə qorxurdum. Düşünürdüm ki, sinif yoldaşlarım atamın pastor olduğunu bilsələr, mənə güləcəklər və ona görə də atamın arıçılıqla məşğul olduğunu söyləyirdim. Cavabım tamamilə yalan deyildi, çünki atam hobbi olaraq arı saxlayırdı. Ancaq ürəyimin dərinliklərində yalan danışdığımı bilirdim və bu zaman İncildən İsanın şagirdi Şimon Peter Rəbbi tanımadığını deyərək Onu inkar etməsi hekayəsi yadıma düşürdü (Luka 22:54-62).

Məsihi inkar etməyim uşaqlıqdan məni izləyirdi və buna görə mən utanırdım. On beş yaşım olanda Məsihin ardınca getməyə başlayanda, Xilaskarımı bir daha inkar etməyəcəyimi qərara aldım.

Mən orta məktəbdə oxuyanda gizli polislər atamın xidmət etdiyi kilsəyə tez-tez baş çəkirdilər. Onlar atamın xidmətini izləyir, nəzarət etdir və sonra onun məsihçi fəaliyyəti barədə hökumətə xəbər verirdilər. Valideynlərim kilsədəki işlərindən əlavə ölkənin hər yerində gənclər üçün şagird hazırlamaq proqramına gizli rəhbərlik edirdilər. Bir gün məktəbdən evə gələndə gördüm ki, valideynləri-

min hər ikisi həbs olunub. Gizli polis onları azad etməzdən əvvəl hərtərəfli sorğu-sual etmişdi.

Həmin təcrübələrə görə dindirmə zamanı necə cavab verməyi atam mənə öyrətmişdi. O, mənə suallara ardıcıl və dəqiq cavab verməyin vacib olduğunu demişdi, çünki müstəntiqlər cavablardakı fərqi aşkar etmək üçün tez-tez eyni sualları yenidən verirdilər. O, həm də mənə müstəntiqin artıq bildiyi məlumatla bilmək istədiyi məlumatı diqqətlə ayırmağı öyrətmişdi.

Növbəti gün nə olacağını bilmirdim və məni qarşıda nələr gözlədiyini hiss edirdim, lakin Zəbur kitabında Allahın Davuda verdiyi vədi yada salıb təsəlli tapırdım: “Rəbb avam adamı qoruyur, O məni düşkünlüyə düçar olanda qurtardı” (Məzmur 116:6).

Məzmur üzərində düşünəndə bir adamın pilləkənlərlə mənə tərəf gəldiyini gördüm. Onun çal saçları, uzun saqqalı və açıq rəngli dərisi var idi. Sudanlılardan daha çox ərəbə oxşayırdı. Mən onu əvvəllər görmüşdüm. O, iki ay əvvəl Əddis-Əbəbədəki “Çörçill” otelinin foyesində oturmuşdu. Ağlıma bir fikir gəldi: “Sudan təhlükəsizlik xidməti mən ölkəyə gəlməzdən əvvəl mənim haqqımda hər şeyi öyrənmişdi”.



# 6

Mən Xartum şəhərindəki hava limanında dindirilərkən həyat yoldaşım Vanda dörd min kilometr uzaqda şimal-qərbdə, Praqadakı evimizdə səbirsizliklə məndən bir xəbər gözləyirdi.

Səhər saat 7:30-dan sonra Vanda narahat olmağa başladı. Onun hesabladığı vaxtla saat 2-də uçuşum Sudandan başlamazdan əvvəl məndən mesaj almalı idi. Ən geci səhər saat 7:30-da mən Nayrobidən Amsterdama gedən kimi o məndən ya mesaj, ya da Skype vasitəsilə bir xəbər almalı idi. *"Bəlkə Peter uçuşunu ötürüb?"* — deyə qadın təəccübləndi. Vanda bilirdi ki, saat 17:30-da təyyarəm Praqaya enməli idi, lakin axşam yaxınlaşsa da, heç bir xəbər yox idi. O, aviaşirkətin cədvəllərini yoxlayarkən həmin gecə Amsterdamdan daha iki uçuş olduğunu gördü. Axırıncı uçuş saat 22:30-da idi.

Vanda katolik kimi böyümüşdü. Onun fermer babasının torpaq sahələrini kommunistlər ələ keçirmişdi və onlara qarşı müqavimət göstərdiyinə görə babasını həbs etmişdilər. Erkən yaşlarından o, Allahla maraqlanmamışdı. İyirmi yaşlarının əvvəllərində Vanda xəstəxanada, mənim işlədiyim şöbədə işləməyə başlamışdı.

Bir gün iş növbəsində olarkən mən başqalarının oxuması üçün qəsdən Müqəddəs Kitabı otaqda qoyub getdim. Bir neçə həftə sonra kiminsə kitabı oxuduğundan şübhələndim. Şöbə müdiri Müqəddəs Kitabı oradan götürməyi tələb edəndə Vanda mənə yaxınlaşıb kitabı istədi.

1989-cu ilin noyabr ayında Məxməri inqilab zamanı Çexoslovakiyada kommunizmin divarları dağılmağa başlayanda Vandanın

da qəlbindəki istehkamlar dağılmağa başladı. Bir müddət sonra o, məsihçi oldu. On beş yaşımda şərqi Almaniyadakı yay düşərgəsində Məsihi qəbul edəndə özümə söz vermişdim ki, heç vaxt kommunizm dövründə evlənməyəcəyəm və uşaq da böyütməyəcəyəm. Ancaq bu cəsarətli, gözəl qadın çiçəklənən məsihçi imanı ilə məni ovsunladıqca həyatımda hər şey dəyişdi.

Vaxt keçdikcə Vanda ilə ünsiyyətimiz daha da artırdı, saatlarla İncil və İsa Məsihə olan ümumi fikirlərimiz haqqında danışırdıq. Tezliklə bizim bu dostluğumuz məhəbbət münasibətinə çevrildi və 1990-cı il aprelin 6-da biz evləndik. Ölkəmizdəki adətə görə toyumuzdan sonra Vandanın soyadı Vanda "Yaşkovoy" oldu. Çex dilində onun mənası Yaşekə "mənsubdur" deməkdir.

Vanda mənə etibar etmişdi və biz birlikdə gələcəyimizi, nəyin bahasına olursa olsun Məsihə əmanət etmişdik.

* * *

Mənim dindirildiyim gün qızım Vava daxili xəstəliklər üzrə son imtahanını başa vurdu və sonra axşam dostları ilə birgə bayram keçirdi. Axşam saat 22:30 radələrində anasından narahat edən bir mesaj aldı. Atası itkin düşmüşdü. Vava cəld evə tələsdi.

O, qardaşı ilə anasını sakitləşdirməyə çalışdı: "Bəlkə zəng etmək üçün vaxtı olmayıb. Bəlkə uçuşlar arası vaxtı az olub".

İngilis dilini mükəmməl bildiyi üçün telefon zənglərinə qızım Vava cavabdeh idi, lakin mən itkin düşəndə o nə edəcəyini bilmirdi. Səyahət etdiyim zaman tutacağım otel otağım və uçuşlarım haqda həmişə Vandaya məlumat verirdim. Həyat yoldaşım birinci pastorumuza zəng etdi. Vəziyyətlə əlaqədar dərhal kilsəmiz dua etməyə başladı. Kilsəmizin üzvləri mənə görə daima dua etmək üçün qeydiyyatdan keçdilər. Qızım Vava "Şəhidlərin səsi" təşkilatının işçilərinə evə gəlmədiyimi bildirdi və sonra Çexiya polisinə zəng edib dedi: "Atam Sudandan qayıtmalı idi. Amma gəlib çıxmayıb. Nə baş verdiyini bilmirik".

Vava və Vanda Çexiya polis idarəsinə bu barədə ərizə yazdılar. Polis məmuru ailəmizin maliyyə vəziyyəti, mənim əlaqə məlumatlarım, ailə tarixçəmiz, qohumlarımız barədə və mənim tapılmağımda onlara kömək edəcək başqa məlumatlar istədi. Nəhayət, polis mənim adımı İnterpolun itkin düşənlər siyahısına əlavə etdi.

Bütün gecəni ailəm bundan sonra nə edəcəkləri barədə onlayn axtarışlar apardı. Ertəsi gün səhər Vava Sudanın Vyanadakı səfirliyinə zəng etdi, lakin bir şey əldə etmədi. Sonra o, Çexiyanın Sudandakı maraqlarına nəzarət edən Qahirədə yerləşən Çexiya səfirliyinə zəng etdi. Ancaq Misirin dövlət idarələrində cümə istirahət günü olduğuna görə telefona heç kim cavab vermədi və o, səsli mesaj qoydu. Sonra Praqadakı Çexiya Xarici İşlər Nazirliyinə zəng edib dedi: "Atamız itkin düşüb. Sizin köməyinizə ehtiyacımız var".

Təəccüblüdür ki, cümə günü günortadan sonra Çexiyanın Qahirədəki səfiri qızım Vavanın telefon zənginə cavab verdi və səfərimlə bağlı suallar soruşdu: "Atanız Sudana nə məqsədlə gedib?"

Vava ona dedi ki, atası oraya turist kimi səfər edib.

"Onun həbs olunması üçün hansı səbəblər var?" — deyə səfir soruşdu.

"Biz məsihçi ailəsiyik" — deyə Vava cavab verdi və Praqadakı kilsəmizin adını qeyd etdi. Səfir mənim haqqımda bir az məlumat tapmağa çalışacağına söz verib söhbəti bitirdi.

Ancaq tezliklə Vava mənim turist olmağım barədə məlumat verməkdən imtina etdi, çünki Sudan adətən insanların gəzməyə getdiyi, görməli yerləri olan bir ölkə deyildi. Üstəlik, arvadım və ya uşaqlarım olmadan təkbaşına məzuniyyətə getməyim də qəribə görünərdi.

Bütün gün ərzində saysız-hesabsız telefon zəngləri oldu, qızım Vava və oğlum Peter Vanda ilə birlikdə dua etdilər. "Şəhidlərin səsi" təşkilatının direktor müavini evimizə gəldi və dərhal arvadım Vava ilə telefon danışıqları apararaq işə getdi.

Onlar Xartumdakı "Cənnət" otelinə zəng vurdular və bildilər ki, mən gecə saat 2-də hava limanına yola düşmüşəm. Sonra

otelin xidmət sürücüsünü çağırdılar, lakin o, ərəbcə danışdığından heç bir məlumat ala bilmədilər. Kenya hava yolları nümayəndəsi bildirdi ki, mən uçuş üçün qeydiyyatdan keçmişəm, lakin təyyarəyə minməmişəm.

Axırıncı olduğum yer Xartum hava limanı idi, ona görə də ailəm düşünürdü ki, mən qaçırılmamışam. Vanda narahatlıq gətirən reallıqdan qorxurdu, mən Sudan hökumətinin nəzarətində idim.



# 7

Gecə yarısı gözətçi məni generalın kabinetindəki divanda yuxudan oyadıb yenidən dindirmə otağına apardı. Mən cəld zehnimi və bədənimi sorğu-sual üçün oyatmağa çalışdım. Zabit əlində qovluqla otağa daxil oldu. Üç gözətçi çağırıb qovluğun içindəkiləri göstərdi və sənədləri imzaladı. Sonra o, qovluğu bağlayıb mühafizəçilərdən birinə uzadanda nə baş verdiyini anladım.

Məni həbsxanaya aparırlar. Sənədlərlə dolu qovluq və Xartumda görüşdüyüm şəxslərin şəkilləri mənə bildirdi ki, növbəti uçuşa qədər məni sorğu-sual etməyəcəklər. Onlar məni sonrakı uçuşa gecikdirmək üçün çoxlu iş əlavə etdilər. Onlar məni həbs edirdilər və mənim burada qalmağım yəqin ki, qısa zaman olmayacaqdı.

Çamadanımı və paltarlarımı mənə qaytardılar, amma müstəntiqlər iki pasportumu, şəxsiyyət vəsiqəmi, sürücülük vəsiqəmi, noutbuk çantamı və onun içindəkiləri özlərində saxladılar.

Tam silahlanmış iki mühafizəçi məni kiçik, ağ rəngli Kia markalı maşının arxa oturacağına itələdilər. Onlardan biri sürücünün yanındakı sərnişin oturacağında əyləşdi, digəri isə əlində avtomatla yanımda oturdu.

İyirmi dəqiqəlik yoldan sonra maşın nisbətən kiçik, qeyri-adi, dörd mərtəbəli binanın, Sudan Milli Kəşfiyyat Xidmətinin siyasi məhbuslar üçün xüsusi yerinin yanında dayandı. Mühafizəçilər məni içəri gətirib qovluğumu həbsxananın baş məmuruna verdilər. Beləliklə, məni həbsxanaya qəbul etmək prosesi başladı.

“İbtidai məktəbdə nə vaxt oxumusan?” — deyə məmur soruşdu. Bu qəribə sual idi, amma məni təəccübləndirən sual deyildi.

Mən bilirdim ki, Sudan təhlükəsizlik məmuru mənim, ailəm və tanıdığım insanlar haqqında mümkün qədər çox məlumat toplamağa çalışacaq. Mən bu cür sorğu ilə tanış idim. Bu, Çexoslovakiyada insanları həbs edərkən kommunist məmurlarının sorğusuna bənzəyirdi. Əsəblərimi cilovlamaq üçün dərindən nəfəs aldım.

Mənə qarşı istifadə edə biləcəyi hər hansı məlumatı məmura vermək niyyətində deyildim, ona görə də susdum. Cavab verməkdən imtina edəndə o, səssizcə mənə baxdı. Mən artıq qırx səkkiz saat oyaq qalmışdım və yorğun idim. Cavab verənə qədər məmurun məni gözləmək niyyətində olduğunu başa düşdüm, ona görə də qeyd etdiyim bir neçə təsadüfi tarix dedim.

“Ananın adı nədir?” — deyə o davam etdi.

Mən dedim: “Anam on səkkiz il əvvəl vəfat edib”.

Amma o, ərə getməzdən əvvəlki soyadını saxlamışdı. Bu məlumatın çox da əhəmiyyət vermədiyini düşündüm, ona görə də cavab verdim.

Məmur növbəti sualı axtararaq qarşısındakı kağıza baxıb dedi: “Üç qohumunuzun valideynləri kimlərdir?” Bu suallar bir müddət davam etdi və mən prosesi sürətləndirmək məqsədilə yarımçıq, çox vaxt dəqiq olmayan cavablar verdim. Saatım müsadirə olunmuşdu və dəqiq vaxtı bilmirdim. Ən azı gecə saat 1:00 olmalı idi.

Məmur suallarını bitirib məni həbsxana fotoqrafına təhvil verdi. O, öndən və yandan mənim şəklimi çəkərkən anladım ki, burada qalmağım bir gecədən çox çəkəcək.

Çamadanımı onlara təhvil verməzdən əvvəl həbsxana gözətçisi mənə oradan bir neçə paltar — bir əlavə şalvar, iki köynək, alt paltarı və bir cüt corab götürməyə icazə verdi. Mən oradan sabunu, diş fırçamı və diş məcunumu götürdüm, amma mühafizəçilər kəmərimi və yüngül yay gödəkçəmi özümlə həbsxanaya gətirməyi qadağan etdilər. Afrikaya səfər edərkən adətən əlavə dəsmal götürürdüm, lakin “Cənnət” otelində bir otaq tutduğum üçün bu səfərdə onu gətirməyə ehtiyac görmədim. İndi buna görə peşman idim.

Mühafizəçilər məni və başqa bir məhbusu üçüncü mərtəbəyə çıxaran liftə apardılar. Dəhliz sakit və qaranlıq idi; yuxarı baxanda gördüm ki, lampaların çoxu işləmirdi. Dəhlizlə gedərkən kameranın qapılarındakı kiçik pəncərələrin bəzilərindən işıq süzüldüyünü gördüm. Dəhlizin qaranlıq və kameraların tam işıqlı olması mühafizəçilərə hər kamerada nələrin baş verdiyini görməyə imkan verirdi, amma məhbuslar dəhlizdəki mühafizəçiləri görmürdülər.

Məni müşayiət edən mühafizəçilər bir kameranın qarşısında dayandılar. Onlardan biri qapının kilidini açıb yanımdakı adamı məhbuslarla dolu otağa saldı. Mən də onun arxasınca getmək istədim, amma mənə gözləməyi əmr etdilər.

Dəhliz boyunca gedib başqa bir kameranın qarşısında dayandıq. Mühafizəçi qapının kilidini açıb, içəri keçməyimi işarə etdi. Otağın sərt, ağ işığı var idi və döşəmədə beş kişi uzanmışdı. Altıncı kişi isə metal çarpayıda uzanmışdı. Mən içəri girən kimi dustaqlar yerlərindən tərpəndilər. Bu kameralar əslində bir məhbus üçün nəzərdə tutulmuşdu. Bu binanı inşa edənlər yeddi kişinin belə kiçik bir məkana salınmasını planlaşdırmamışdılar.

Mühafizəçilər çıxıb gedərkən onların arxasınca baxanda gözlərim ağır metal qapının üstündəki ləkələnmiş, çirkli, bej boyaya sataşdı. Mühafizəçi arxadan qapını bağlayanda mən avtomatik bağlanan kilidin səsini eşitdim.

O andaca həmin kilidin səsini və bu həbsxana otağını xatırladım, sanki nə vaxtsa burada olmuşdum.

Amma bu dəfə artıq yuxu deyildi.



# 8

Mən ətrafıma baxdım, təxminən iki metr yarım eni və dörd metr uzunluğu olan bir həbsxana otağını yeddi nəfərin necə bölüşəcəyini düşündüm. Divarlar çirkli idi və otağı qarışqalar, milçəklər və ağcaqanadlar bürümüşdü. Tualet və duş qəbul etmə otağının qısa, yellənən, taxta qapısı var idi və hamamın ətrafından kif iyi gəlirdi. Duş tamamilə xarab olmuşdu, qərb tipli metal tualet isə pasla örtülmüşdü. Divardakı şlanqdan su axırdı, amma öyrəndim ki, suyu ancaq gündə bir-iki dəfə verirdilər, bəzən isə tam bir həftə su gəlmirdi. Mən burada su axan vaxt butulkaları doldurub saxlamağı öyrəndim.

Otaqda bir çarpayı, dərindən paslanmış metal çərçivə və stul ilə birlikdə masa var idi. Kəskin bədən qoxusu otağı bürümüşdü. Belə bir vəziyyətdə qaldıqca qarnımın çökdüyünü hiss etdim. Görəsən buna nə qədər dözməliyəm?

Yerdə uzanmış kişilərin döşəkləri və yorğanları var idi. Tualetin girişinin yanında uzanmağım üçün bir az yer ayırdım ki, onlar bir-birinə yaxınlaşsınlar. Altımda döşək olmadığına görə nazik köynəkdə çirkli kafeli olan döşəmə üzərində uzananda üşüdüm. Hər iki əlavə köynəyimdən istifadə edərək müvəqqəti üstümü örtdüm. Köynəklərimdən biri ilə bədənimin yuxarı hissəsini, digəri ilə ayaqlarımı örtdüm. Dekabr ayındakı soyuqdan qorunmaq üçün bunlar mənə kömək etmirdi. Belə getsə mən xəstələnəcəyimi düşünürdüm. Başımın üstündə şiddətli işıq otağı bürüyürdü. Arvadım və uşaqlarım haqqında düşündüm: “Görəsən onların bu narahatlığına

nə vaxt son qoyulacaq?" Bunu sanki ağır bir daş kimi qarnımda hiss edirdim.

Mən bu həddən artıq basırıq, çirkli kameranın soyuq döşəməsində sağa-sola çevrilərək bir neçə saat yatmağa çalışdım.

* * *

Təxminən saat 04:30-da səhər azanının gur səsi məni yuxudan oyatdı. Səhərin ilk şəfəqləri otaqlara düşməzdən əvvəl azan səsi həbsxanada kameralara yayılaraq hər bir müsəlmanı oyatdı. Mən isə tam oyanmışdım.

Ətrafımdakı kişilər ayağa qalxıb səhər dəstəmazını almağa başladılar. Onların uzun saqqalı var idi, ancaq bığ olan yerdə tükləri az idi. Mən bu cür müsəlmanları başqa ölkələrdəki ekstremistlər arasında əvvəllər də görmüşdüm. Onların əksəriyyəti ərəb kişilərinə məxsus adi uzun cələbiyyə geyinmişdi. Hamamda yuyunmağa girə bilsinlər deyə onların yolundan çəkildim. Lüləyi olan plastik butulka təmiz görünmürdü, amma bilirdim ki, adətə görə müsəlman kamera yoldaşlarım yuyunmadan səhər namazlarını qıla bilməzdilər.

Onlardan biri mənə ingiliscə otağın arxa küncünə işarə edərək dedi: "Biz dua edəndə oyanıb burada dayanmalısan. Biz səninlə üz-üzə dayana bilmərik".

Mən otağın bir küncündə durub hər kəsin qarşısındakı yarı dolu su butulkasına baş əyməsini seyr etdim. Hər dəfə onlar döşəməyə doğru əyilərək görmədiyim bir şeyə toxunurdular. Dua edərkən kişilərin səsi otağı bürüdü və bu hərəkəti onlar on dəfədən çox təkrar etdilər.

Dua etdikdən sonra otaqda gəzmək üçün yer az olduğundan kişilər qayıdıb öz döşəklərində oturdular. İngiliscə danışanlar mənə suallar verməyə başladılar: "Hansı ölkədənsən və niyə buradasan?"

Mən dedim: "Mən Çexiyadanam. Dörd günlük səfərdən sonra ölkəni tərk edirdim ki, Sudan milli kəşfiyyat xidməti məni

hava limanında həbs etdi. Noutbukumu, kameramı və telefonumu müsadirə etdi".

"Sənin işin nədir?" — deyə soruşdular.

Mən ağdərili avropalı olduğum üçün bilirdim ki, məsihçi olduğumdan şübhələnirlər, amma onlara buraya sudanlı pastorlarla görüşmək üçün gəldiyimi demədim. Əvəzində onlara səhiyyə idarəsinin nəzdində olan özəl məsləhət şirkətim haqqında danışdım və Sudana turist kimi gəldiyimi izah etdim. Onlardan biri dedi: "Bizim burada qəzetimiz yoxdur. Dünyada görəsən nə yeniliklər var?"

İlk ağlıma gələn bir ay əvvəl Parisdə baş verən 13 noyabr terror aktı oldu. "Şəhərin bir neçə yerində hücumlar nəticəsində yüz iyirmi doqquz nəfər ölüb" — deyə izah etdim. Əlavə etdim ki, İŞİD kamikadze partlayışlarına və kütləvi atışmalara görə məsuliyyəti öz üzərinə götürüb.

Qəflətən otağa bir sükut çökdü və sonra onlar bərkdən "Allahu Əkbər!" — deyə qışqırdılar. Mən qorxub dərindən nəfəs aldım. Gözlərim bərəldi. Kişilər yerdən qalxıb bir-birlərini sevinclə qucaqladılar. Onlar zəfərlə qollarını qaldırıb basabas kameramızda rəqs edir, bir-birinin kürəyinə vurub gülümsəyirdilər. Mən divara tərəf addımladım, əllərim nəm idi. Üst dodağımda və alnımda tər damlaları var idi və çalışdım ki, titrəməyim.

Bir neçə dəqiqə ərzində kamera yoldaşlarım Fransadakı uğurlu terror aktını qeyd etdilər. Müsəlmanların bu cür bayram etməsini televiziyada görmüşdüm, amma ilk dəfə şəxsən bunu yaşamaq mənim üçün bir sarsıntı idi.

O dəhşətli anlarda anladım ki, mən İslam ekstremistləri ilə birlikdə qalıram. Yaxın günlərdə kamera yoldaşlarımın İŞİD-in üzvləri olduğunu aşkar edəcəkdim.



# 9

Kamera yoldaşlarımdan biri əczaçı kimi təhsil almışdı. O, ingilis dilini mükəmməl bilirdi və mənə izah etdi ki, Türkiyədən Suriyaya keçərkən həbs olunub və orada tibbi təcrübəsini “Xilafət”ə xidmət etməyi planlaşdırırmış. Tezliklə anlayacaqdım ki, kamera yoldaşlarım arasında belə sadiq olan tək o deyil. Onlar İslam Dövlətinə istinad etmək üçün ərəbcə “DAİŞ” sözlərin baş hərflərindən istifadə edirdilər.

Sudan hökuməti islamçı sünni hökuməti olsa da, onlar İŞİD-in (həmçinin sünni müsəlmanların) ölkənin daxilində yayılmasını istəmirdilər. Prezident Bəşir hökuməti qorxurdu ki, belə qruplaşma nəzarətsiz böyüsə, bir gün hökumətin Sudan xalqı üzərindəki hakimiyyəti üçün rəqib ola bilər. Hökumət həmçinin bəzi qərb dövlətləri ilə diplomatik münasibətləri yaxşılaşdırmağa çalışırdı və “terrorla mübarizə”də “müttəfiq” kimi görünmək bu səylərin əsas hissəsi idi.

Mən hər gün beş dəfə otağımın küncündə dayanıb İŞİD üzvləri olan kamera yoldaşlarımın əyilərək dua etdiklərinin şahidi olurdum. Bu müsəlman kişilər həbsxanadakı otağımızın döşəməsində Məkkəyə istiqamət göstərmək üçün yarı dolu su butulkasını qoymuşdular ki, qibləyə doğru düzgün namaz qıla bilsinlər.

Ekstremistlər hər səhər ayağa qalxıb, əqidəsində ciddi olmayan müsəlmanların üstündən yorğanlarını dartaraq, “Namaz! Namaz!” — deyə qışqıraraq onları yuxudan oyadırdılar. Bu qatı müsəlmanlar arxada dayanırdılar ki, öndə namaz qılanların düzgün duruşlarına, baş əymələrinə və diz çökmələrinə nəzarət etsinlər. Onların Quranın düzgün izahına dair göstərişlərini izlədikcə mənə

aydın oldu ki, qatı islamçı kamera yoldaşlarım başqalarını öz işlərinə qoşmaq üçün çalışırdılar. Mən onların ruhları üçün kədər hissi ilə kiçik, kilidli kameramızda mənə bəslədikləri nifrət hissi arasında qalırdım. Kameramızda üç-dörd Quran var idi, ona görə də mən dönə-dönə mühafizəçilərdən mənim üçün Müqəddəs Kitab gətirməsini xahiş edirdim. Onlarsa sadəcə mənə gülürdülər.

İslam insanların və heyvanların üzlərini təsvir edən rəsm əsərlərini qadağan edir, ona görə də kamera yoldaşlarım əvvəlki məhbuslardan qalan rəsmləri ört-basdır etmək üçün otağımızın divarlarına çəhrayı diş pastası sürtmüşdülər. Aclığımızı doyurmaq üçün burada heç vaxt kifayət qədər yemək olmurdu.

Biz birlikdə eyni qabdan əl ilə yemək yeyirdik. Bir çox sudanlılar tualet kağızından istifadə etmədiyinə, kamera yoldaşlarım tualetdən istifadə etdikdən sonra nadir hallarda əllərini sabunla yaxşıca yuduqlarına və qismən də suyun gündə bir, ya iki dəfə gəlməsinə görə iştahımı itirirdim. Onları incitməməyə çalışırdım və yeməyimi ayırırdım, amma hər gün daha da arıqladığımı və zəiflədiyimi hiss edirdim. İnfeksiyanın qarşısını almaq üçün iki litr su və həbsxananın verdiyi qırmızı karbolik sabunla yuyunurdum. Bacardığım qədər əllərimi yuyurdum. Bu sabunun qoxusu mənə 1960-cı illərdə Çexoslovakiyadakı xəstəxanalarda istifadə edilən dezinfeksiyaedici maddələri xatırladırdı.

Əczaçı da kamera yoldaşlarım kimi İŞİD-ə sadiq idi. Onlardan hətta bir neçəsi radikal cihadçılar kimi döyüşmək üçün Suriyaya getmişdi. Digərləri ora getmək istəyirdilər, lakin hələ də buna nail olmamışdılar. Onlar burada radikalizmə və müxtəlif digər cinayətlərə görə, qeyri-rəsmi pul dəyişdirmək, qanunsuz silah, qızıl alveri və ya rəsmi icazə olmadan benzin satmağa görə həbs edilmişdilər.

Günəşli günlərdə tavana yaxın olan tutqun şüşəli pəncərədən işıq düşəndə özümü ümidli və rahat hiss edirdim. Həbsxana otağımdan o tərəfdəki həyəti görməsəm də, pəncərədən çölə gözəl mənzərə açılırdı. Buludsuz günlərdə səhər on beş dəqiqəyə yaxın

günəşi görə bilirdim, bu da ruhumu təzələyirdi. Günəş yerini dəyişəndə isə otağımızı yenidən kölgələr bürüyürdü. Mənə həmişə soyuq idi.

Bir gün qapıdakı kiçik pəncərədən baxanda oradan bir gözətçinin keçdiyini gördüm.

“Mənə örtmək üçün nəsə verə bilərsiniz?” — deyə diqqətini cəlb etmək üçün qapını döyərək soruşdum.

Mühafizəçi dayanıb gülümsədi və dedi: “Sən Çexiyadansan. Soyuq havaya öyrəşmisən. Sənin üçün ədyal yoxdur”. Yeganə ümidim o idi ki, otağımızdakı məhbuslardan biri azadlığa çıxsın və onun çirkli yorğanı mənə qalsın.

Həbsdə olmağımdan bir həftə sonra tək çarpayılarda yatan adamlardan biri mənə yaxınlaşdı. Ailəsi ona yenicə ikinci təzə sarı-narıncı çiçəkləri olan yumşaq ədyal gətirmişdi və onu mənə vermək qərarına gəldi.

“Bu sənin üçündür” dedi və gözləri yaşla doldu. Onun hədiyyəsi məni təsirləndirdi və bu hisslər gözlərimdə öz əksini tapdı. Həbsxanaya gələndən bəri nəhayət, ilk dəfə mənə isti olacaqdı. Bu mehriban davranış mənə təsir etdi. Dəhşətli vəziyyətdə belə, Allahın qayğı və xeyir-duasını xatırladım. Rəbb duama cavab vermişdi.

“Sənə əvəzində verəcək heç nəyim yoxdur. Mən sənin üçün nə edə bilərəm?” — deyə soruşdum.

Sonradan onun dedikləri məni təəccübləndirdi və məndən xahiş etdi: “Mənim üçün dua et”.

Mən soruşdum: “Allaha doğru yolu tapmağınız üçün dua edə bilərəmmi?”

O cavab verdi: “Bəli, lütfən dua edin ki, Allaha gedən doğru yolu tapa bilim”.

Dörd gündən sonra o, həbsdən azad oldu və onu bir daha görmədim.

* * *

2012-ci ildə Sudan təhlükəsizlik xidmətinin direktoru Salah Abdallah Qoş indi qaldığım dörd mərtəbəli həbsxananın tikintisinə nəzarət etmişdi. Üst iki mərtəbədə təxminən qırx kamera var idi. Onların altındakı mərtəbədə ofislər yerləşirdi, birinci mərtəbə isə dindirilmələr və işgəncələr üçün ayrılmışdı. Dördbucaq şəklində olan bu bina nisbətən müasir olsa da, mən bura gələnə qədər artıq bərbad vəziyyətə düşmüşdü. 2012-ci ilin noyabrında binanın tikintisi başa çatdıqdan sonra Qoş prezident Ömər əl-Bəşiri devirmək üçün çevriliş etməkdə ittiham edildi və özünün tikdirdiyi həbsxanada altı ay həbsdə qaldı.

Sudanın təhlükəsizlik xidmətinin həbsxanası Britaniya modelinə uyğun tikilmişdi. Mənə dedilər ki, buradakı çarpayı, masa, tualet kimi metal əşyalar və bəzi digər materiallar Böyük Britaniyadan gətirilib. Bununla belə, tikinti keyfiyyətsiz idi. Binanın izolyasiya sistemi rütubətdən qorumaq üçün yararlı deyildi və su nadir hallarda gəlirdi. Binada kondisioner sistemi var idi, amma mənə dedilər ki, yay aylarında temperaturu sabit saxlaya bilmir. Müsəlmanların dəstəmaz almaqları üçün su verirdilər, lakin çimmək üçün kifayət qədər su heç vaxt olmurdu.

İngilislər hər otağı bir məhbus üçün nəzərdə tutsalar da, Sudan həbsxanasının rəhbərliyi bu kameraların hər birinə adətən yeddi nəfər yerləşdirirdi. Lakin Darfur və Nuba dağlarından olan məhbusları — Bəşir rejiminin güman edilən düşmənlərini isə bir kameraya on beş nəfəri salırdılar. Kamera yoldaşlarım mənə bu yaxınlarda məhbus axınının olduğunu deyəndə, bir otaqda "cəmi" yeddi nəfər olduğumuza şükür etdim.

Adətən səyahət edəndə mən özümlə bir şüşə aspirin, parasetamol və kofein tərkibli baş ağrısı dərmanı götürürdüm. Mühafizəçilər onu mənim çamadanımda tapmışdılar və müəyyən etmişdilər ki, ondan müntəzəm olaraq qəbul edirəm. Onların müntəzəm olaraq mənə dərman verməsi gülməli gəlirdi. Yəqin ki, onların fikrincə əgər bu dərmanı belə qəbul etsəm mənə xeyrindən daha çox zərər verə bilər. Hər gün səhər susuzluqdan yaranan baş ağrılarımdan

əziyyət çəkdiyim üçün mənə bir tablet dərman gətirirdilər və mən onu həvəslə içirdim. Bu dərmanlara həqiqətən ehtiyacım olacağı təqdirdə, çamadanımda gizlətdiyim İmodium və Malaron (malyariyaya qarşı) dərmanlarını da tapmışdılar.

Sudan qanunları Sudan təhlükəsizlik xidməti məhbuslarını məhkəmə və ya hökm olmadan müxtəlif müddətlərlə saxlamağa icazə verirdi. Məsələn, pul dəyişdirənlər və qızıl qaçaqmalçıları dörd ay müddətinə həbs edilə bilərdi. Kamera yoldaşlarım olan İŞİD üzvləri isə bir ilə qədər saxlanıla bilərdilər.

Mən hər gün onların hekayələrini dinləyirdim və İsanın məhəbbətini bölüşmək üçün yollar axtarırdım. Bir gün günortadan sonra kişilərdən bir neçəsi müsəlmanların təbliği ilə İslamı qəbul edən bəzi Amerikalı pastorlar barədə danışıb öyünürdü. Məsihçilik və İslamın bəzən xrislam adlandırılan səhv və qarışıq dini Avropa və Yaxın Şərqin bəzi ölkələrində yayılmışdı. İŞİD üzvü olan kamera yoldaşım iddia etdi ki, "həqiqi din budur".

Əlbəttə, İsaya imanında çox ciddi olmayan bəzi məsihçilər İslamın prinsiplərinə əməl etməyə qərar veriblər. Amma mən bilirdim ki, bütün dünyada Məhəmmədi tərk edib İsa Məsihin ardınca gedən yüz minlərlə insan var. Mübahisə etmək istəmirdim, amma ümid edirdim ki, heç olmasa kamera yoldaşlarımın fikrində onları düşündürəcək bir toxum əkəcəyəm.

Mən ona dedim: "Başqa insanlarla görüşmüşəm. Onlar Nigeriyadan olan cəsarətli məsihçilərdir". O anda Monika adlı gənc qadının başına gələn hadisə barədə düşünürdüm.

2009-cu ilin iyul ayında şimali Nigeriyanın Mayduquri şəhərində Monika və əri motosikletlə yol gedirdilər. Cümə axşamı idi və onlar Müqəddəs Kitabı öyrənmək üçün kilsəyə gedirdilər. Yolda gedərkən birdən kamuflyajlı hərbi forma və maska geyinmiş islamçı yaraqlılar onların yolunu kəsdilər. Kişilərin əlində uzun, iti bıçaqlar və avtomat tüfənglər var idi. Monika və əri bilirdilər ki, bu adamlar Nigeriyanın şimalına hücum edən cihad terror qruplaşması olan Boko Haramın üzvləridirlər.

"Sizin dininiz nədir?" — deyə silahlılardan biri əlində bıçaq ilə hədə-qorxu gələrək irəli addım atıb soruşdu.

"Biz məsihçiyik" — deyə Monika və əri cəsarətlə cavab verdilər.

Yaraqlılardan biri dedi: "Siz müsəlmançılığı qəbul etməklə həyatınızı xilas edə bilərsiniz". Müsəlmanların imanını qəbul etmək üçün onlara dedilər: "Əşəhədi təkrarlayın!"

Lakin Monika ilə əri bundan imtina edib dedilər: "Biz İsaya inanırıq və məsihçi olaraq qalacağıq".

Boko Haram yaraqlısı bıçağını qaldırıb sürətlə Monikanın ərinin boynunu vurdu. Ərinin öldüyünü və ona kömək edə bilməyəcəyini görən Monika qaçdı. Kişilər əllərində bıçaqla onun ardınca qaçdılar. Tezliklə o, çiynində ağır bir əl hiss etdi.

Yaraqlılar Monikanı tutdular.

Qəzəbli yaraqlılardan biri bıçaqla onun boğazını kəsdi. Boynundan qan axaraq Monika yerə yıxıldı, bir müddət huşunu itirdi. Kişilər qadının öldüyünü güman edərək, onu çirkli su olan xəndəyə atdılar və iki saat yarım orada qaldı. Monika xəndəkdə huşsuz vəziyyətdə qalarkən onu əhatə edən ağ libaslı səmavi varlıqlar gördü.

Nəhayət, kənd polis işçiləri Boko Haramın son hücumunun qurbanlarını müəyyən etmək və cəsədləri basdırmaq üçün gəlib çıxdılar. Onlar Monikanı xəndəkdən çıxardılar, lakin o tərpənəndə təəccübləndilər. Monika danışa bilmədiyindən işarə ilə su istədiyini bildirdi. Polislərdən biri ona içmək üçün su verdi, lakin su boğazındakı kəsikdən çölə süzüldü.

Polis Monikanı yerli xəstəxanaya apardı və orada bir neçə əməliyyatdan keçdi. Həkimlər onun nəfəs alması üçün boğazına bir cihaz qoydular. Monika cihazın dəliyini barmağı ilə bağlayaraq pıçıltı ilə danışırdı.

Monika ilə ilk tanışlığımı yaxşı xatırlayıram. "Şəhidlərin səsi" təşkilatı məni ona tibbi yardım göstərməyimiz üçün göndərmişdi. Monikanın ərinin öldürülməsi, ona qarşı amansız hücum və onların hər ikisinin Məsihə imanlarındakı cəsarət barədə eşidəndə çox təsirləndim. ABŞ-dakı "Mayo" klinikasından olan həmkarım Mo-

nikadan müsahibə almaq üçün suallar hazırlayarkən onun xəstəlik tarixçəsini nəzərdən keçirdi və video çəkməklə onun xəsarətlərini sənədləşdirdi. Bu, Monika üçün ağır bir yük idi və müsahibəyə başlamaq üçün münasib suallar verməyə çalışdım.

Nəhayət, mən ona sadə bir sual verdim: "Monika, Rəblə ünsiyyətiniz necədir? Bu dəhşətli hadisədən sonra Rəblə münasibətiniz necə dəyişdi?"

Mən onun cavabını heç vaxt unutmayacağam. Danışmadan əvvəl Monika dərindən nəfəs aldı, sonra şəhadət barmağı ilə boğazdakı cihazın dəliyini bağladı ki, hava onun zədələnmiş səs tellərindən keçsin. Nəhayət, boğazındakı cihazın köməyi ilə xırıltılı səslə pıçıldadı: "Gözlərimi əbədiyyətə yönəldirəm. Mən indi baxışlarımı İsaya yönəltmişəm."

Xırıltılı və ağrılı pıçıltılarla Monika mənə hücumdan əvvəl özünü və ərini "yaxşı" məsihçi hesab etdiyini söylədi. Əvvəllər o, təzə paltar, gözəl bir avtomobil və ya ev almaq məqsədilə pula qənaət etməyə çalışırdı. İndi isə ərinin ölümündən və özünün möcüzəli şəkildə qurtulmasından sonra o, bütün həyatını İsaya xidmətə həsr etmək istəyirdi. Monika son əməliyyatından qısa müddət sonra Boko Haram yaraqlılarının törətdiyi hücumlar zamanı ərlərini itirmiş dul qadınlara kömək etmək məqsədilə "Şəhidlərin səsi" təşkilatında təhlükəli bir işə başlamışdı. Həyatı təhlükə altında olanda "Şəhidlərin səsi" təşkilatı onu iki dəfə başqa yerə köçürməli oldu.

Mən həbsxana otağımdakı adamların Monikanın hekayəsini bilmələrini istədim, çünki bu, İsa Məsihə imanın güclü şəhadəti idi, ona görə də onlara danışmağa başladım. Monikanın ərinin qətli barədə danışarkən otaqdakı İŞİD üzvləri məni dayandırdılar. Hətta balaca qızı olan ali təhsilli əczaçı da gülməyə başladı. Bu, heç vaxt təqlid edə bilməyəcəyim narahatedici, pis bir gülüş idi və bilirdim ki, otağımızdakı İŞİD üzvlərinə bir daha məsihçilərin təqibi barədə danışmayacağam. Ərini dəhşətli şəkildə itirən və özü də ağır yaralanan qadına heç olmasa insan kimi hörmət gözlədiyim halda bu cavan, ali təhsilli İŞİD üzvləri gülüb deyirdilər: *"Allahu Əkbər!"*

* * *

Gecə saatlarında mən kamera yoldaşlarımın Liviya, İraq və Suriyadakı *mücahid* partizan döyüşçüləri üçün dua etdiklərini eşitdim. Onlar ərəb dilində danışdıqlarına görə dualarından bəzi söz və ifadələri anlaya bildim. Onlar Allahdan uğur və lütf istəyərək dua edirdilər, lakin bu dualar gün ərzində onlardan eşitdiyim əzbərdən deyilən dualardan tam fərqli idi. Bu, onların öz sözləri ilə ifadə olunan şəxsi duaları idi

Başqa bir dəfə də burnu tutulduğundan yata bilməyən əczaçının yüksək asqırması məni yuxudan oyatdı. Yatmaq əvəzinə o dua etmək qərarına gəldi. Mən onu diz çökmüş, qollarını yuxarı qaldırmış, gözlərindən yaş süzülərək azadlığa buraxılması və ailəsinə qovuşması üçün səssizcə dua etdiyini gördüm. Başqa gecələrdə otağımızdakı İŞİD-in digər üzvləri də yuxudan oyanıb bu cür dualar edərək, öz sözləri ilə Allaha yalvarırdılar.

Kamera yoldaşlarımdakı bu həlimlik əlamətləri məni ruhlandırdı və ürəyim onların Allahı tanımasına can atırdı. Misir kimi başqa ölkələrdə vaxtilə qatı müsəlman olmuş məsihçilərlə tanış olmuşdum. Bu İŞİD üzvlərinin həssaslığını və insanlığını görmək mənə ümid verirdi və çox vaxt dualarımda İsa Məsihdən Özünü onlara Rəbb, Xilaskar və Tanrı kimi göstərməsini xahiş edirdim.

Bir-birinin ardınca əzablı günlər keçdikcə fikirləşirdim ki, görəsən Rəbb İŞİD üzvü olan kamera yoldaşlarımın qəlbini dəyişəcək, yoxsa həbsxanada onların əlindən əzab çəkəcəyəm?



# 10

Sudanda həbs olunduqdan bir həftə yarım keçmişdi, amma hələ də Qahirədəki Çexiya səfirliyinə və ya ailəmə zəng etmək üçün mənə icazə verilməmişdi. Əlimdən yalnız gözləyib dua etmək gəlirdi. Gözləmə Sudan təhlükəsizlik xidmətinin sorğu-sual strategiyasının mühüm bir hissəsi idi. Nə qədər çox gözləməli olsanız, onların suallarına bir o qədər tez cavab verəcəyinizi güman edirdilər. Mənim kimi yeni məhbus üçün gözləmək dözülməz bir işgəncə idi. On gün mənim üçün əzablı bir əbədiyyət kimi hiss olunurdu. Vanda haqqında düşüncələr ağlımdakı boşluğu doldururdu və bilirdim ki, mənə görə narahatdır. Görəsən o, harada olduğumu bilir? Düşüncələrimi Allaha yönəldib dua edirdim və evə qayıdacağımı düşünərək bu fikirlərin öhdəsindən gəlirdim.

Nəhayət, növbəti dindirilmə dekabrın 20-də baş tutdu. Məni kameradan çıxarıb həbsxananın birinci mərtəbəsinə apardılar və orada məni tanıdığım bir adam qarşıladı. Bu, hava limanındakı yüksək rütbəli Sudan təhlükəsizlik xidmətinin zabiti idi. O, ingiliscə danışırdı və həbsimlə bağlı son qərarı vermək üçün çağrılmışdı. Mən ondan müsahibə götürdüyüm pastor Həsən, Monim qardaş və Məsihi qəbul edən müsəlmanlar haqqında suallar verəcəyini gözləyirdim. Lakin Sudan təhlükəsizlik xidmətinin müşahidələrinə, kameramın SD kartındakı foto və videolarla birlikdə əldə etdiyi sübutlara əsasən o, yəqin ki, belə suallar verməyə ehtiyac görmürdü.

Sorğu-suala tutmaq əvəzinə mənə bir vərəq uzatdı. Orada ingilis dilində yazılmış qısa bir mətn görəndə təəccübləndim. Kağızı oxuyanda gözlərimə inanmadım. Nəhayət ailəmə zəng edə

biləcəkdim! Xartum şəhərindəki hava limanında həbs olunduğum andan ailəmlə əlaqə saxlamaq üçün yalvarırdım. O vaxtdan bəri həyat yoldaşımın və uşaqlarımın ümumiyyətlə, mənimlə heç bir əlaqəsi yox idi. Nəhayət, yaxşı olduğumu onlara deyə bilərdim. Ürəyim döyündü, əlim titrəməyə başladı, qəlbimi həyəcan və rahatlıq hissi doldurdu.

Müstəntiq mənə bir telefon verdi və xatırladığım yeganə nömrəni, həyat yoldaşımın mobil nömrəsini yığdım. Kağızdakı sözləri demək üçün mənə otuz saniyə vaxt verilmişdi.

"Yalnız ingiliscə, yalnız ingiliscə danışın" — deyə o təkid etdi.

Telefon zənginin getdiyini eşitdim. Mən dedim: "Bu, həyat yoldaşımın nömrəsidir, amma o, ingiliscə danışmır. Arvadım telefonu qızıma verə bilər".

Birdən telefonda həyat yoldaşım Vandanın səsini eşitdim və çex dilində dedim: "Mənəm, amma mən yalnız ingiliscə danışmalıyam".

"Peter, sənsən?" — deyə o ağladı və dərhal telefonu Vavaya verdi. Mən kağızdakı sözləri oxudum:

"Mən yaxşıyam". Səsim titrədi və mən onu gizlətməyə çalışdım. Sonra ona dedim: "Bir az anlaşılmazlıq oldu və mən həbs olundum, amma tezliklə sizinlə əlaqə saxlamağa çalışacağam".

Qızım dedi: "Biz Qahirədəki səfirliklə əlaqə saxlamışıq. Hamı sənin üçün dua edir".

"Mən yaxşıyam və tezliklə sizinlə əlaqə saxlamağa çalışacağam" — deyə fikrimi bildirdim.

Otuzuncu saniyədə mən kağızdan oxumadım. Öz sözümlə dedim: "Mən sizi çox istəyirəm". Qızım Vavanın ağladığını eşidəndə ürəyim parçalandı. Prokuror mənə işarə etdi və istəmədən dəstəyi asdım. Bu qısa zəng ailəmə olan dərin həsrəti aradan qaldırmaq üçün çox az idi, amma indi onlar heç olmasa sağ olduğumu bilirlər. Mühafizəçi məni yenidən həbsxana otağıma aparanda ürəyimin sıxıldığını hiss etdim və gözlərim yaşla doldu.

* * *

Ertəsi gün, dekabrın 21-də mühafizəçi mənə baş çəkmək üçün kiminsə gəldiyini dedi. Bu mənim üçün şok bir xəbər idi. Mənə baş çəkmək istəyən şəxsin həbsxana binasında mənimlə görüşməsinə icazə verilmədiyinə görə mühafizəçilər məni başqa bir yerə aparmaq üçün hazırlaşdılar. Biləklərimə və topuqlarıma ağır zəncirlərlə qandal vurduqda özümü nikbin və ümidli hiss etdim. Məni çöldəki mikroavtobusa doğru apardılar və mən yöndəmsiz şəkildə maşına mindim. Çünki mühafizəçilərdən ikisi AK-47 avtomatı, digər dördü isə daha kiçik silahlarla silahlanmışdı. Mühafizəçilər "Milli Klub" adlanan binaya qədər qırx beş dəqiqəlik yolda mənə qoşuldular. Xartumda xüsusi Sudan təhlükəsizlik xidmətinin binası gözəl mənzərəli bağlarla əhatə olunmuşdu. Sanki sudanlılar mənə yüksək səviyyəli məhbus kimi baxırdılar. Qandallar biləklərimdə dərin iz qoydu.

MKTX bu görüşdən bir gün əvvəl telefon danışığına izacə verilməsini təşkil edən Çexiya səfirliyinin baş konsulunun ofisindən xəbər tutmalı idi. Onlar konsulluq məmuruna ailəmlə telefonla əlaqə saxlamağa icazə verdiklərini bildirməli idilər. Nəhayət, maşın dayananda yanımdakı mühafizəçi məni mikroavtobusdan çölə çıxardı. O, qandallarımı çıxardı, amma biləklərimdə qandalların yeri ağrıyırdı.

Konsulluq məmuru, Çex hökuməti tərəfindən Qahirədə yaşamaq və regionda Çexiya vətəndaşlarının maraqlarını qorumaq üçün təyin edilmiş məmur Stepan Slama idi. O, kostyum və qalstuk geyinmiş ağdərili kişi idi. O, mənimlə görüşmək üçün Misirdən Sudana gəlmişdi. Onun kim olduğunu anlayanda o qədər sevindim ki, az qala ağlayacaqdım və bütün söhbətin çex dilində olacağını biləndə sevincdən daha da həyəcanlandım. Cənab Slama arxayınlıqla dedi:

"Ailəniz sizin saxlanmağınızdan xəbərdardır və onlar yaxşıdırlar".

Mən dərindən nəfəs aldım və ona Sudan Təhlükəsizlik Xidmətinin xarici sərt diskimdəki bərpa edərək tapdığı fotoşəkillər və videolar, xüsusən də, Nuba Dağları ilə bağlı video haqqında danışdım. Bunun işi necə çətinləşdirəcəyi ilə maraqlandım, ona

görə də çex əlifbasından istifadə edərək onun üçün Nuba sözünü diqqətlə hərflədim. O mənə dedi ki, Sudanın MKTX bir ay ərzində işimi məhkəməyə verəcək. İlkin məlumata görə, onlar məni pələng dəriləri qaçaqmalçılığına görə ittiham edirdilər.

Mən bu yalan ittihama inanmayıb güldüm. Məgər Sudanda pələng var?

Sudanlılar bu yaxınlarda bir isveçrəli missioner, bir neçə amerikalı və koreyalı pastora qarşı ittiham irəli sürmüşdülər. Son vaxtlar Sudanda digər şəxslər də müxtəlif növ məsihçi işlərinə görə həbs edilmişdilər. Cənab Slama izah etdi ki, bu ittihamlar adətən üç-dörd ay ərzində həll olunurdu. Mən bunu eşitdiyimə sevindim, amma bilirdim ki, Milad bayramında ailəmlə birlikdə evdə olmayağacam.

On gün əvvəl MKTX-nin həbsxanasına gəldiyim vaxtdan həzm sistemim yaxşı işləmirdi. İŞİD üzvləri ilə birlikdə həbsdə olduğum üçün indiyə qədər tualetdən tam istifadə etməmişdim və mədəm ağrıyırdı. Lakin görüş başa çatdıqda və mən Milli Klubu tərk etdikdən sonra konsulluq əməkdaşı ilə görüşüm məni ruhlandırdı. O, dostcanlı və mehriban bir insan idi və məni sakitləşdirməyə çalışdı, eyni zamanda işimlə bağlı real gözləntilər təklif etdi. Daxilən böyük bir rahatlıq hiss etdim. Tək olmadığımı anlayanda bu mənə son dərəcə təsəlli verdi. Çex hökuməti həbsimdən xəbərdar idi. Onlar məni buradan çıxarmağa çalışırdılar.

Mən həbsxana otağıma qayıtdım və nəhayət, on bir gündən sonra ilk dəfə idi ki, beynim və canım rahatlaşdı.

* * *

Cənab Slama mənə xəbərdarlıq etdi ki, azadlığa çıxmağım çox güman ki, üç ay çəkəcək. Lakin yeni il ərəfəsi yaxınlaşdıqca MKTX tezliklə məhbusları azad edəcəyi barədə şayiələr yayılmağa başladı. Şayiələrə görə, əvvəlcə əcnəbilər, daha sonra isə kiçik cinayətlərdə ittiham olunan məhbuslar azad ediləcəkdi.

Dekabrın 23-də axşam kameramın qapısının açıldığını eşitdim. Qanımda adrenalin artdı və qəlbimdə bir ümid hissi yarandı.

Görəsən məni azad edəcəklər? Doğrudanmı mən evdə olacağam?

Qapının açılmasını gözlədim və böyük təəssüflə dəhlizdə yeni bir məhbusun dayandığını gördüm. Azad olunmayacağımı anlayanda ruhdan düşdüm. Kişi otağa göz gəzdirdi və gözləri mənə dikildi. Otağımızda həyatın dəyişəcəyini anladım.

Abd əl Barinin boyu metr yarımdan çox deyildi və çəkisi isə yüz iyirmi kiloqram olardı. Onun soyuq baxışları, qara saçı və saqqalı var idi və mükəmməl ingilis ləhcəsi ilə danışırdı. O, kameramıza gələn kimi onun keçmişi haqqında öyrəndim. O, Birləşmiş Krallıqda universitetə getməzdən əvvəl Səudiyyə Ərəbistanında böyümüş, silah alveri və qaçaqmalçılığı ilə məşğul olmuşdu. Onu silah qaçaqmalçılığı ilə məşğul olan dəstənin başçısı olmaqda şübhəli şəxs kimi həbs etmişdilər. Abd əl Bari Avropadakı İŞİD döyüşçülərini silahla təmin etməklə fəxr edirdi. O, Cənubi Sudanda pulemyotları iki yüz dollara alıb, Böyük Britaniyada beş min funta satırmış. Bu gəlirli biznes onu İngiltərədəki uğurlu İT biznesini tərk etməyə vadar etmişdi. O, həyatını Avropadakı İŞİD döyüşçülərini silahla təchiz etməyə həsr etmişdi.

Bu yeni məhbus əvvəlcə mənimlə mehriban davrandı, adımı və həbs olunmağımla bağlı hər şeyi soruşdu. Amma sifətinin ifadəsi, həddən artıq mehribanlığı və ümumi davranışları fikrində nəyinsə olduğunu göstərirdi və mən ondan şübhələnirdim.

Tezliklə, kamera yoldaşımdan eşitdim ki, Abd əl Bari məhz mənim kamerama keçmək üçün xüsusi icazə istəyib.

* * *

Dekabrın 24-də gecə saat 3 radələrində əlim suya dəydiyinə görə oyandım. Ədyalım və paltarım yaş idi. Mən bilirdim ki, həbsxana otağımıza su gəlmirdi. Gecənin bir vaxtı boru partlamışdı. Ətrafa baxdım ki, su həbsxana otağımızın döşəməsini örtmüşdü.

Həbsxanadan tez bir zamanda azad olunmaq arzum yerinə yetmədiyinə görə çox məyus oldum. İndi ümidim boşa çıxmışdı. Ailəm məndən uzaqda olduğu üçün ağlayaraq Rəbbə səssizcə şikayət etməyə başladım.

Elə bu vaxt heç vaxt unuda bilməyəcəyim bir anda Dancumanın üzünü aydın gördüm.

2015-ci il yanvarın 28-də islamçı silahlıları şimali Nigeriyanın müharibə nəticəsində dağılmış, məsihçilərin yaşadığı kiçik Nunkvo kəndinə hücum etdilər. Hücum başlayanda on üç yaşlı nigeriyalı Dancuma Şakara kənddə idi. O, dul qadın olan anası ilə birlikdə yaşayırdı. Dancuma dostları ilə balıq tutmağı və oynamağı xoşlayan adi bir nigeriyalı oğlan idi.

Ancaq çərşənbə günü səhər saat 6:00-da Dancumanın həyatı həmişəlik dəyişdi. Mindən çox silahlı ekstremist, çoban qiyafəsində gizlənən və Boko Haramın dəstəyi ilə kəndə soxularaq evləri yandırmağa və məsihçiləri öldürməyə başlayanda Dancuma atəş səsinə oyandı. O, canını qurtarmaq üçün qaçdı, ancaq üzünü kəsən, sağ gözünü çıxaran, sol qolunu sındıran və cinsiyyət orqanını kəsən üsyançılardan xilas ola bilmədi.

Dəhşətli vəhşilik iyirmi üç nəfərin ölümünə və otuz səkkiz nəfərin yaralanmasına səbəb oldu. Dancumanın yaraları o qədər dəhşətli idi ki, kəndlilər onun yaralı bədəninin yanından keçərək öldüyünü güman edirdilər. Hətta onun üçün qəbir də qazdılar. Amma Dancuma sağ qaldı. Özünə gəlib ağladı və ona kömək etmələrini istədi. Kəndlilər tibbi yardım alması üçün onu təqribən 24 km aralıda olan ən yaxın şəhərə apardılar.

Üç ay sonra, şikəst və kor olmasına baxmayaraq Dancuma parlaq təbəssümünü gizlədə bilmədi. Gənc məsihçi ona hücum edənlərə nifrət bəsləmirdi və o insanlar barəsində belə dedi: "Mən onları bağışlayıram, çünki nə etdiklərini bilmirlər".

"Şəhidlərin səsi" təkşilatının köməyi ilə çoxsaylı əməliyyatlardan sonra Dancuma anasının yanına qayıtdı. Sidiyinin həmişə özü ilə daşıdığı paketə axması üçün qarnının aşağı hissəsində daimi

kateter qoyulmuşdu. Lakin Dancuma hücumda ölməyib başqalarına İsa haqqında danışmaq üçün sağ qaldı. Onun məzarı Xilaskarının qəbri kimi hələ də boşdur.

Su basmış həbsxana otağımda dayananda Dancumanın simasını gördüm, onun üzü gülümsəyirdi. Dancuma və onun yaşadığı vəhşiliklər barəsində düşünəndə qəlbimin dərinliklərində ifadə olunmayan şikayətlərdən utanırdım. Gec-tez mən evə qayıdacağdım. Rahat həyatımı davam etdirəcəkdim, amma Dancuma ölüb dirilənə qədər bir daha görə bilməyəcək. O andan etibarən hər gün onun üçün dua etməyə başladım.

* * *

Milad gecəsi kamera yoldaşlarımla birgə otağımızı təmizləyib əşyalarımızı qurutmağa başladıq. Diqqətimi yayındırmağa çalışırdım. Bu, mənə Milad bayramını — məsihçilərin il ərzində ən çox gözlədikləri ibadət gününu və Çexiyadakı ailəmdən başqa bir şey barədə düşünməyə imkan verirdi. Məsihin doğum gününü ailəmin mənsiz qeyd etməsini düşünəndə mənə çarəsizlik və tənhalıq hissi gəldi. İlk dəfə idi ki, mən Milad bayramını həyat yoldaşımdan və uşaqlarımdan ayrı keçirirdim. Həbsxana otağımızı yığışdıran zaman ağlımda Milad mahnılarını, uşaq vaxtı atamın mənə öyrətdiyi nəğmələri xatırlayırdım.

İçimdəki melodiyalar bir müddət məni ruhlandırdı, amma ailəmlə bağlı xatirələr göz yaşlarımın yaranmasına səbəb olanda həbsxana otağımı basmış su kimi onları düşüncələrimdən sildim.



# 11

Mənim evdə olmadığıma görə həyat yoldaşım və uşaqlarım ailəmizin maliyyə idarəçiliyini öyrənməli olacaqdılar. Ancaq indi daha vacib bir şey qızım Vavanın diqqətini çəkdi. Qəbzləri yazmaqda anasına kömək etmək üçün Vava yemək masamızda oturdu və noutbukunda Skype hesabını açdı. Birdən qızım mənim onlayn olduğumu gördü və cəld yazdı:

“Ata, sən oradasan?” Cavab yazan olmadı, lakin Vava gördü ki, kimsə onun yazdıqlarını oxudu.

“Atamla danışa bilərəmmi?” — deyə o soruşdu. Yenə də cavab yazan olmadı.

“O mənim atamdır. Onunla danışa bilərəm?” — qızım yenə yazdı.

Vava başa düşdü ki, kimsə mənim Skype hesabıma daxil olub onun yazdıqlarını izləyir. Birdən boynunun arxasında sanki elektrik keçdiyini hiss etdi. Əgər mənim Skype hesabıma gizli daxil ola biliblərsə, görəsən başqa hansı məlumatları əldə edə bilərdilər? Vava yerindən sıçradı, həm Skype hesabıma, həm də şəxsi elektron poçtuma avtomatik giriş imkanı olan iPad-i götürüb şifrəmi dəyişməyə çalışdı. Vanda qaşlarını çataraq narahatlıqla qızının hərəkətini izləyirdi. Vava unudulmuş şifrə barədə Skype-a bildiriş verdi və bir neçə saniyə ərzində elektron poçt qutuma giriş məlumatını yeniləmək üçün link gəldi.

İndi ailəm mənim onlayn hesabıma tam nəzarət edirdi. Tezliklə elektron poçt qutumda avtomatik bildiriş mesajı göründü. Kimsə Skype şifrəmi ikinci dəfə dəyişməyə çalışırdı və bu dəfə mesaj ərəbcə idi!

* * *

MKTX-nin həbsxanasındakı mühafizəçilərin əksəriyyəti İŞİD məhbuslarından qorxurdu və onlara başqa kameralara baş çəkmək üçün imkan yaradırdı. Yeni il ərəfəsində məhbuslar prezident Bəşirin qeyri-siyasi işlər üzrə həbs olunanlara amnistiya verilməsini səbirsizliklə gözlədikləri bir vaxtda kameramızı xoş bir ab-hava bürüdü. Hamımız yeni il üçün azadlığa çıxmağı düşünərək sevinirdik. Abd əl Bari mənə dedi ki, onun kameramıza köçürülməsinin səbəbi bayram əhval-ruhiyyəsi ilə bağlıdır, amma onun gizli bir məqsədinin olduğundan şübhələnirdim.

Abd əl Barinin mənə qarşı münasibəti hər gün pisləşirdi. Hər gün səhər çayımız gələndə o, çirkli plastik fincanıma iki santimetrdən çox qaynar çay tökmək istəmirdi. Abd əl Bari məni küncdə qalmağa məcbur edib özü daha çox yer tutmaqla, aqressivlik və hədə ilə kamerada hərəkətimi fiziki olaraq məhdudlaşdırmışdı. O həm də mənə əmr edərək deyirdi: “Biz dua etdiyimiz zaman, sən küncdə durmalısan”.

Mənim küncdə dayanmağım Abd əl Barini daha qane etmirdi. O, mənə bildirdi ki, onlar namaz qılan zaman mən tamamilə hərəkətsiz qalmalıyam, kameranın qapısındakı kiçik pəncərədən çölə baxmamalıyam. O əmr edərək dedi: “Sən daha burada dayana bilməzsən. Tualetə get!” Kamera yoldaşlarım Abd əl Barini başçı hesab edirdilər və onun göstərişlərinə tabe olmağımı istəyirdilər. Özümü tamamilə tək hiss edirdim və təhlükəsizliyimlə bağlı getdikcə daha çox narahat olurdum.

Hətta ilk vaxtlar mənimlə mehriban münasibət bəsləyəndə belə Abd əl Bariyə heç vaxt ölkəyə nəyə görə gəldiyimi deməmişdim. Mən yalnız Efiopiyadakı dostlarıma baş çəkdiyimi və Sudan hava limanının təhlükəsizlik xidmətinin telefonumu, noutbukumu və kameramı müsadirə etdiyini demişdim.

Tezliklə Abd əl Barinin mənim kamerama keçməsinin səbəbini başa düşdüm. O, bizim kameraya məndən məlumat toplayıb

müstəntiqə çatdırmaq və necə əziyyət çəkdiyimi görmək üçün gəldiyini açıqladı.

* * *

Bir ay əvvəl, mən Xartuma getməzdən əvvəl Vanda ilə birlikdə Çexiyanın Avstriya ilə cənub sərhəddində yerləşən Yindrixuv Hrades şəhərindəki xəstəxanada sınıq ayağına görə əməliyyat olunan atama baş çəkmişdik. Atamın bədəni zəif idi, amma səksən doqquz yaşında olmasına baxmayaraq ağlı ülgüc kimi iti idi.

Ona Sudana səfər edəcəyimi bildirdim və əmin etdim ki, bu dəfə cənubdakı vətəndaş müharibəsi olan yerə deyil, Xartuma gedəcəyəm.

Atam dərindən nəfəs alaraq dedi: "Mən sənin üçün dua edəcəyəm".

İndi yanvarın ilk həftəsi idi və kameramda yuxuya getmişdim. Yuxuda atamın yaşadığı evi görürdüm. Bacım mətbəxdə toplaşan ailə üzvləri üçün yemək hazırlayırdı. *Olmaya Rəbb mənə nəsə demək istəyir?*

Yuxudan oyananda iki şeyə əmin idim: yuxumda atamı görmədim və bizim böyük ailə sonuncu dəfə dəfn mərasimi üçün toplaşmışdı.



# 12

2016-cı ilin yanvar ayının ilk həftəsində MKTX-nin işimi məhkəməyə verəcəyini gözləyirdim. Mən bu tarixi cənab Slama ilə görüşəndən bəri gözləyirdim. Yanvarın 10-da həbs olunmağımdan bir ay keçirdi. Əgər o vaxta qədər işim məhkəməyə verilməsəydi, onda azad olunacağdım.

Bununla belə, yanvarın ilk həftəsi gəlib keçdi, tezliklə başa düşdüm ki, MKTX-nin müstəntiqi qəsdən yalan məlumat verməklə məni aldadıb. Bu, mənim üçün tanış bir taktika idi, kommunizm dövründəki təqiblərdə də bundan istifadə edirdilər.

Mən özümü məyus və gücsüz hiss edirdim. Çexiya konsulluğunun əməkdaşının yanvarın 9-da gəlmədiyini gördükdə mən daha çox həyəcanlandım.

“Mən səfirliklə əlaqə saxlamaq, ailəmə zəng etmək istəyirəm” dedim. Onlar xahişimi yerinə yetirməkdən imtina etdikdə, hər şeyi öz əlimə almaq qərarına gəldim. Aclıq aksiyasına başladım.

Məni Şimali Koreyada həbs olunanda aclıq aksiyasına başlayan Avstraliya vətəndaşı olan həmkarımın xatirəsi ruhlandırdı. O, qoca olduğuna, yemək yemədiyinə görə vəziyyəti tez pisləşmişdi, nəticədə şimali koreyalılar onu azad etmək qərarına gəlmişdilər. Aclıq aksiyası onun işinə yarayıbsa, bəlkə mənə də yarayacaq. Aclığa dözə bilsəm, bəlkə sudanlılar da məni buraxacaqlar.

Sudanda aclıq aksiyası cinayət sayılırdı və mən qərarımın ciddiliyini dərk etdim. Sudan qanunlarına görə, aclıq aksiyası keçirən məhbus həyətdəki dirəyə bağlanaraq yanına yemək və su qoyula bilər. Əgər yenə də yeməkdən imtina edərsə, o, məhkəməyə verilə

və bədəninin pisləşməsinə görə ittiham oluna bilər. Amma mənim fikrim qəti idi və atamın illər öncə qırx günlük ruhani orucunu xatırladım. Əgər o tək su ilə aclıq keçirə bildisə, onda mən də belə edə bilərəm.

Şükürlər olsun ki, mühafizəçilərim mənim barəmdə heç vaxt məhkəməyə müraciət etmədilər və səkkiz gün ərzində heç bir yemək yemədim. Mühafizəçilərin səhər gətirdiyi çörək və çaydan, saat 11-də gətirdikləri *fuhl* adlı bişmiş lobya yeməyindən imtina etdim. Günorta qaynadılmış kartof və balqabaqdan hazırlanan *qara* adlı yemək də məni şirnikləndirə bilmədi. Axşama gətirilən bir nimçə *şeriya* adlanan əriştədən imtina etmək daha asan idi, çünki bu şirin yemək adətən kifli olurdu. Əvəzində yalnız su içirdim və mühafizəçilərin gətirdikləri aspirin tərkibli baş ağrısı dərmanını qəbul edirdim. "Görəsən bu dərmanı ac qarına içməyim xora yaratmaz?" Mənim yeməkdən imtina etməyim otağımdakı İŞİD yoldaşlarımı heyran etmişdi. Onlar mənim aclığımı Ramazan ayında tutduqları dini oruca bənzədirdilər, amma onların oruc tutmaları səhərdən axşama kimi olurdu və sonra isə bütün gecəni acgözlüklə yemək yeyirdilər.

Yanvarın 13-də aclığa başladığım gündən dörd gün sonra mən dəhşətli vəziyyətdə idim. Artıq əynimə boş olan şalvarım yalnız plastik torbalardan düzəltdiyim kəmərin köməyi ilə belimdə dayanırdı. Nə beynimdə, nə də bədənimdə güc yox idi və mən hərəkətsiz halda yerdə uzanmışdım. Bir vaxtlar yaxşı bildiyim ilahilər ağlımdan itməyə başlayırdı. O ilahilərdən yalnız bir hissəsini xatırlaya bilirdim, amma yenə də onları Rəbb üçün oxudum. Bu, Rəbb üçün yıxılmaq üzrə olan bir insanın zəif qurbanı idi.

Mühafizəçilər məni MKTX-nin xəstəxanasına apardılar, orada tibb işçiləri çoxlu müayinələr apardılar. Həbsdə olduğum bir ay ərzində on beş kilo arıqlamışdım. Həkim çox mehriban idi və qan analizimin nəticələrini mənə göstərdi. Hemoqlobinin çox aşağı olması məni narahat etdi. Qan azlığım var idi, dəmir çatışmazlığına səbəb ya aclıq keçirməyim ya da daxili qanaxma ola bilərdi. Bu

laboratoriya nəticələrimin əhəmiyyətini mən analitik kimya, hematologiya və qanköçürmə sahəsində iyirmi illik təcrübəmə əsasən deyə bilirdim. Etirazlarıma məhəl qoymayaraq, həkim qanımda qlükozanın səviyyəsini yüksəltmək üçün damardaxili dekstroza köçürülməsini təyin etdi və bu, aclıq aksiyamı daha dörd gün davam etdirmək üçün mənə kifayət qədər enerji verdi.

Həbsxanaya qayıtdım, amma qanımda hemoqlobinin aşağı olması heç ağlımdan çıxmırdı. Bilirdim ki, qanımda oksigen aşağıdır, bu da öz növbəsində beynimə təsir edirdi və diqqətimi cəmləməkdə çox çətinlik çəkirdim.

Özümü darısqal kamerada sıxışdırılmış hiss edirdim, daima müsəlman dualarını və ərəbcə Quranın oxunmasını eşidirdim. Bu vaxta qədər ərəb dilində o qədər dini ayələr əzbərləmişdim ki, artıq müəzzin və ya imam ola bilərdim. Daim başım gicəllənsə də, fikrimi cəmləməkdə çətinlik çəksəm də beynimdə ərəb sözləri dövr edirdi. Mən həmişə ailəmi, onların dolanmaqları və özlərini necə təmin etmələri barədə düşünərək narahat olurdum. Hətta öz dualarımdakı sözləri seçməkdə çətinlik çəkirdim.

Yanvarın 17-də səhhətimlə bağlı çox narahat olduğum üçün aclıq aksiyalarımı dayandırdım. Mən vəziyyətimi özüm idarə etməkdən vaz keçdim və əvəzində həyatımdakı hər şeyi, o cümlədən həbsxanada qaldığım müddəti də Rəbbə verdim. Sonuncu dəfə yemək yediyim gündən səkkiz gün keçmişdi. Növbəti səhər çəkimi və gücümü artırmaq üçün mühafizəçilər səhər yeməyimə iki balaca qab qatıq və iki qaynadılmış yumurta da əlavə etməyə başladılar.

* * *

Həbsxana kameramızda *"Allahu Əkbər"* demək olar ki, daimi olaraq səslənirdi. Bu, müsəlmanların azanının bir hissəsi idi və hər kəs bunu gündə fasiləsiz olaraq, hər dua etdikdə yüz dəfə təkrar edirdi. Kiçik qapalı otaqda oturub kamera yoldaşlarımın baş əyib dua etmələrinə və Quranın oxunmasına qulaq asmalarına tamaşa

edirdim. Bütün gün ərzində cingiltili səsləri və təkrarlanan duaları eşitməyimə görə psixi sağlamlığım üçün narahat olmağa başladım və düşüncəmi başqa bir şeylə məşğul etmək üçün onların səsindən daha güclü nəyəsə ehtiyacım var idi.

Yanvarın son günlərində müsəlman kamera yoldaşlarım dua edərkən Rəbb ağlıma ilahilər göndərməyə başladı. Müsəlmanların yerə əyilməsini seyr edərkən uşaq vaxtı atamın mənə öyrətdiyi "Rəbbin qarşısında hər diz çökəcək" ilahisini xatırladım. Çexoslovakiyada şagirdliyi öyrənmək üçün gizli kilsə görüşlərimiz zamanı biz himn oxuyardıq. İndi kameramda həmin sözlər yadıma düşdü. Müsəlmanlar namaz qılarkən mən ilahini düşüncəmdə təkrar-təkrar oxuyurdum və bu mənə Rəbbimin adını ucaltmağa kömək edirdi. Hər gün beş dəfə üzü tualetə tərəf dayanarkən, hər dəfə "Onun qarşısında hər diz çökəcək, hər dil Rəbb olduğunu etiraf edəcək" ifadəsini fikrimdə oxuyaraq təkrarlayırdım. Belə etməklə özümə xatırladırdım ki, hər kəs bir gün Rəbbimin qarşısında diz çökəcək. Mən Məsihdəki qələbəmin əbədi gerçəkliyini anlamağa başladım. Psixoloji vəziyyət üçün çox narahat olduğum anlarda Müqəddəs Ruh mənə Filipililərə 4:7-ci ayəni xatırladırdı: "Onda Allahın ağılagəlməz sülhü ürəklərinizi və düşüncələrinizi Məsih İsada qoruyacaq". Rəbb təkcə ürəyimi deyil, əqlimi də qoruyurdu.

Hər azan zamanı kamera yoldaşlarım *ibriqdən* gələn su ilə yuyunanda mən Vəhy 4:8-ci ayədəki sözlərlə müntəzəm olaraq Allahı mədh edirdim: "Bu dörd məxluqdan hər biri... gecə-gündüz dayanmadan deyir: "Var olmuş, Var Olan və Gəlməli Olan Külli-İxtiyar Rəbb Allah Müqəddəsdir, müqəddəsdir, müqəddəsdir!"" Əgər o dörd canlı məxluq durmadan "müqəddəsdir, müqəddəsdir, müqəddəsdir" sözlərini əbədi olaraq deyirsə, onda mən də onları bir dəqiqə və ya beş dəqiqə və ya da bir saat ərzində təkrarən deyə bilərəm. Fikrimdə bu ayəni dönə-dönə təkrar etməyə başladım: "Külli-İxtiyar Rəbb Allah Müqəddəsdir, müqəddəsdir, müqəddəsdir!"

Bu sözlər məni Allahın xüsusi atributları — Onun müqəddəsliyi, paklığı, şəfa vermək qabiliyyəti haqqında düşünməyə vadar

etdi. “Müqəddəsdir, müqəddəsdir, şəfa verən Allah müqəddəsdir”. Nigeriyada bir sıra hücumlar zamanı yaralanmış təqib olunan məsihçilərin sağalması üçün dua etməyə başladım. “Əsirləri azad edən Allah müqəddəsdir, müqəddəsdir, müqəddəsdir”. Mən on ildən çox həbsdə olan Eritreyadakı məsihçilər üçün dua etdim. “Rəbb müqəddəsdir, müqəddəsdir, müqəddəsdir” — deyə öz-özümə dönə-dönə təkrarlayırdım. Mən bilirdim ki, ilahilərimi ucadan oxuya bilməyəcəyəm və ya Müqəddəs Yazıların sözlərini ucadan deyə bilməyəcəyəm. Amma şübhəsiz ki, ürəyimdə onları oxuya biləcəyəm.

Mən Allahın daha çox müqəddəsliyinə, gücünə və öz vəziyyətimə daha az diqqət yetirməyə başlayanda kameradakı dinamika daha da pisləşməyə başladı. İŞİD kamera yoldaşlarım bu ibadət sözlərini səssizcə təkrar etdiyimi bilmirdilər. Lakin fevralın ilk həftəsində mən Allahı nə qədər çox tərənnüm edib Onun adını ucaldırdımsa kameradakılar mənimlə bir o qədər sərt davranırdılar. Həbsxanada mən yeganə ağdərili olduğum üçün daimi istehza mənbəyinə çevrilmişdim. Onlar istehza ilə dabanlarımı göstərib deyirdilər: “Bax, onun ayaqları necə çirklidir, amma bizim ayaqlarımız necə təmizdir”.

Kamera yoldaşlarım o qədər aqressivləşmişdilər ki, otaqda hərəkətimi məhdudlaşdırmaq onları daha razı salmırdı. Otaqda nə vaxt gəzirdimsə, məni saxlayıb əvvəlcə onlara yol verməyə məcbur edirdilər. Kamera yoldaşlarım məni saatlarla yerdə ayaqlarım çarpaz tərzdə oturmağa məcbur edirdilər. Müsəlmanların adət-ənənələrinə öyrəşmədiyim üçün belə vəziyyətdə oturmaq mənin üçün ağrılı idi.

Onlar məni alt paltarlarını yumağa, çılpaq əllərimlə tualeti sürtməyə məcbur edirdilər və mən özümü alçaldılmış hiss edirdim. Mənə onlarla birgə yemək yeməyə icazə vermirdilər. “Sən kafirsən” — deyə mənə xatırladırdılar. Məni məcbur edirdilər ki, tualetin yanında qoyduqları ayrıca qabdan yemək yeyim. Hər dəfə onlardan biri tualetə gedəndə qabıma sidik damcıları sıçrayırdı.

Mənə hər cür alçaldıcı adlar “murdar donuz” və ya “murdar siçovul” deyirdilər. Onlara dərhal cavab verə bilməyəndə süpürgənin taxta sapını yerindən çıxarıb onunla başıma vururdular. Hər səhər bədənimdə təzə qançırlar və baş ağrısı ilə oyanırdım.

İndiyə qədər Rəbb mənə güc vermişdi ki, onlar məni döyəndə qisas almayım. Sağ yanağıma vuranda sol yanağımı da onlara çevirirdim. Təbii ki, mən geri çəkilməyi seçsəm və onların hücumlarına qarşı özümü müdafiə etməyə çalışsam belə, altı nəfərə qarşı çıxa bilməyəcəkdim. Onlara qarşı heç bir çıxış yolum yox idi. Ona görə də anlayırdım ki, sağ qalmaq istəyirəmsə, mənə nə ad qoysalar da cavab verməli deyiləm.

Rəbb təkcə Müjdəni onlarla bölüşmək üçün deyil, həm də onların arasında Müjdəni yaşamaq üçün mənə xüsusi lütf verdi. Bilirdim ki, bu mənim köhnə mənliyim deyil, amma mənə dözməkdə kömək edən Məsihdir. Kamera yoldaşlarım görəndə ki, mən onların etdikləri pis hərəkətlərə cavab vermirəm, onların nifrət və təcavüzü daha da artırdı. Amma bilirdim ki, biz məsihçilər düşmənlərimizi sevməli, bizə nifrət edənlərə yaxşılıq etməli, bizi söyənlərə xeyir-dua verməli və bizi təhqir edənlər üçün dua etməliyik (Luka 6:27). Əslində məsihçilik öz ardıcıllarına düşmənlərini sevməyi öyrədən yeganə dindir.

MKTX-nin həbsxanasına qəbul olunandan bəri toy üzüyümü özümdə gizlədə bilmişdim. Əvvəllər bədən çəkim çox olduğu üçün üzük barmağımdan çıxmırdı. Amma burada qalarkən arıqladığıma görə barmağım da arıqlamışdı. Kamera yoldaşlarımın mənim nişan üzüyümə göz qoyduqlarını hiss etmişdim.

Bir gün onlar mənə dedilər: “Üzüyü bizə verməlisən. Əgər verməsən, səni öldürəcəyik”. Mən bəzən onların bıçaq kimi istifadə etmək üçün metal qabın kənarını və kondisionerin jalyuzlarından birini çıxarıb itilədiyini görürdüm.

Kamera yoldaşlarımdan biri liviyalı idi və vaxtilə Üsamə bin Ladenin şəxsi mühafizəçisi olmuşdu. Bir dəfə o, ayağındakı güllə çapıqlarını bizə göstərdi. Həmçinin o, həbsxanaya gizlincə gətirdiyi

balıqtutan leska ilə adamı arxadan necə öldürməyi göstərdi. Cibindən leskanı çıxararaq izah etdi ki, əgər düzgün edilsə, ölüm bir neçə saniyə ərzində baş verəcək. 2015-ci ilin fevralında İŞİD döyüşçüləri Liviya sahillərində iyirmi bir misirli məsihçini edam edəndə o da öldürənlərin arasında olduğunu və bunun bütün dünyada çox baxılan bir edam videosu olduğunu söylədi. O düşünmədən balıqtutan leskanı əlinə doladı və mənə baxaraq dedi: "Mən kimisə bir neçə saniyəyə öldürə bilərəm, əgər rus və ya amerikalı olsaydın, səni yerindəcə öldürərdim".

İŞİD-in üzvü olan kamera yoldaşlarım onu qəhrəman hesab edirdilər. Onun nişan üzüyümə həsəd apardığını görmək məni narahat edirdi və özümü aciz hiss edirdim. Bilirdim ki, əgər bu adam istəsə, bir saniyə içində üzüyümü barmağımla birgə qopara bilər. Barmaqlarımı qalın qızıl üzüyün ətrafına doladım, evdəki dəyərli həyat yoldaşımı mənə xatırladan yalnız bu idi.

Kamera yoldaşlarım özlərini Sudandakı məsihçi fəaliyyətimlə bağlı məni sorğu-sual edən bir qrup kimi aparırdılar və ayaqlarım çarpaz şəkildə yerdə oturmağa məcbur edirdilər. Hər dəfə onların xoşuna gəlməyən cavabı verəndə məni yumruqlayaraq qışqırırdılar: "Kim olduğunu bizə de! De ki, sən murdar donuzsan!"

Bir dəfə onların sorğu-sualı daha qorxulu bir dönüş aldı. Abd əl Bari məni diz çökməyə məcbur etdi və süpürgənin taxta dəstəsi ilə məni döyməyə başladı. Bu, mühafizəçilərin kamerada bizə icazə verdiyi yeganə alət idi. Hər bir zərbə bədənimdə dözülməz ağrılar yaradırdı və mən zərbələrin təsirindən dişlərimi sıxırdım.

"Sizinlə birlikdə həbs olunan digər məsihçilər kimlərdir?" — deyə Abd əl Bari tələb etdi. Başım hələ də sinəmə sıxılmış halda ürəyimin döyüntüsünü hiss edirdim. "O nə danışır? Başqa hansı məsihçilər?" Mən düşündüm. Yenə kürəyimə güclü bir zərbə vurdu və sonra sualını təkrarladı: "Həsən və Monimi hardan tanıyırsan?"

Mən məəttəl qaldım. "Görəsən onlar da həbs olunub?" Bu məlumatı anlamağa çalışdıqca bədənim ağrıyırdı. Ürəyimin döyüntülərini kürəyimdəki zərbələrin yerində hiss edirdim, amma

bu fiziki yaralar növbəti düşüncəm qədər ağrılı deyildi. "Görəsən Həsənlə Monim mənə görə həbs olunublar?"

Pastor Həsən haqqında suallara cavab verməkdən imtina edəndə, kişilər taxta çubuqla barmaqlarımı əzməyə başladılar. Onlara Əddis-Əbəbədəki konfransda digər pastorların adlarını vermədiyim zaman, tualetin ağır qapısını dirsəklərimə çırpdılar. Ağlım ağrını prosess edənə kimi onun təsirindən mən kəskin, qeyri-insani səslə çığırdım.

Bəzən elə amansızcasına döyülürdüm ki, sağ qalacağımı belə düşünmürdüm. Növbəti sorğu-sual zamanı Abd əl Bari ayaqqabısı ilə kürəyimə o qədər təpiklə vurdu ki, az qala qabırğalarım sınmışdı. Elə gün olmurdu ki, İŞİD kamera yoldaşlarım tərəfindən döyülüb əzab çəkməyim.

Qəribədir ki, işgəncələrim artdıqca fikrim daha da sakitləşirdi. Artıq evdəki ailəmdən və ya mənimlə birlikdə həbsdə olan sudanlı qardaşlarımdan narahat deyildim. Bu fiziki əzab dövründə heç ailəmi düşünə bilmirdim. Mən onları qurbangahın üzərinə qoydum və yalnız İsanın adını onların üzərinə çağıra bildim.

Nə qədər dəhşətli olsa da, bu təcrübələr vasitəsilə mən döyülmüş və əzab çəkmiş İsa Məsihin daha aydın mənzərəsini görməyə başladım. Hər dəfə sillə, yumruq, təpiklə döyüləndə və ya məsxərəyə qoyulanda Məsih və Onun Roma əsgərlərinin əlindən çəkdiyi əzablar haqqında düşünürdüm.

*"Əgər Rəbbim mənim üçün cəzaya dözübsə, mən də Onun davamçısı kimi Onun addımları ilə getməyə və Onun adı naminə əzabları bölüşməyə hazır olmalıyam" (Filipililərə 3:10).*

* * *

Hər axşam İŞİD kamera yoldaşlarım məni sorğu-sual edirdilər. Xüsusilə də, Abd əl Bari Sudandakı məsihçi işim haqqında daha çox bilmək istəyirdi. Cavablarımın çoxu onları qane etmədiyi üçün kameramızda olan süpürgənin taxta dəstəsi ilə məni döyməkdə

davam etdilər. Başıma və barmaqlarıma, çubuğun ucu ilə qarnıma vurdular. Bədənim ağrıdan qıvrıldı, amma çox təəccüblüsü o idi ki, ürəyimdə və düşüncəmdə böyük bir rahatlıq hiss edirdim. Məni döyəndə hətta ailəm üçün dua edə bilirdim.

Birdən mən gözümün önündə İsanın simasını gördüm. Bu görüntü yəhudi dini rəhbərlərinin İsanı həbs edib taxta çubuqla başına döydüyü məqamı canlandırırdı (Matta 27:30). Mən dua etdim: "Ya Rəbb, Sən bu yolu məndən əvvəl getdin, günahlarım üçün döyüldün, çarmıxa çəkildin və hətta öldün". Mən heyrətləndirici bir şeyi dərk etdim. İŞİD kamera yoldaşlarımın məni amansızcasına döyməsinə baxmayaraq, ağrını hiss etmirdim!

Bilirdim ki, həmin an Rəbb kamerada mənimlədir. Sonralar mənə aydın oldu ki, elə həmin anda Allah mənə görə bir ordu məsihçiləri duada ruhani döyüşmək üçün ayağa qaldırıb. Lakin o zaman mən bunu bilmirdim.

* * *

Bir gün mən İŞİD kamera yoldaşlarımın oturub ölkəm Çexiyanın ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinə "Əl-Qaidə" terrorçularına su ilə işgəncə verməsinə icazə verməsi barədə danışdıqlarını eşitdim. Onların danışdıqlarına düzəliş verərək dedim ki, ölkəmi Polşa ilə səhv salıblar.

Onlar təkid edirdilər ki, ABŞ-a terrorçuları su altında saxlamağa icazə verən Polşa deyil, mənim ölkəmdir. "Sən *uaterbordinq* (ağız və burunu parça ilə örtüb ağıza su tökmək) işgəncə növünün nə olduğunu bilirsən?" — deyə məndən soruşdular.

Mən də dedim: "Bəli, *uaterbordinqin* nə olduğunu bilirəm".

"Yaxşı, amma bunun necə icra edildiyini bilmirsən, ona görə də sənə göstərəcəyik". Əvvəlcə narahat olmadım. Otağımızda su az idi, ona görə də bunların boş təhdidlər olduğunu düşündüm.

Ancaq tezliklə onların ciddi olduğunu anladım. Abd əl Bari hamımızı mərtəbəmizdəki daha böyük otağa köçürmək üçün mü-

hafizəçiləri inandırdı. Məhbuslar oranı "su otağı" adlandırırdılar, çünki həbsxanada davamlı suyu olan yeganə otaq idi.

Fevralın 6-da səhər daha yeddi məhbusu yeni kameramıza köçürdülər və kamera yoldaşlarım məni çirkli tualetin olduğu küncdə alt paltarlarını yumağa məcbur etdilər. Arxamda altı kişinin ərəbcə mənim haqqımda danışdıqlarını eşitdim və narahat olmağa başladım. Bir neçə həftə əvvəl gecələr dua etdiyini eşitdiyim Osama Ramazan, yəqin ki, su işgəncəsinə rəhbərlik edəcəkdi. Mən onu müsəlmanların uzun libasları olan cilahbiyyədən kəsilmiş uzun parça zolaqlarını qatladığını gördüm. Onlar mənə lağ etdilər: "Sənə nə etdiyimizi müstəntiqə deməlisən". Hətta həbsxanada belə, kafirlərlə münaqişədə onları heç nə dayandıra bilməzdi.

Fiziki vəziyyətimdə bilirdim ki, su ilə işgəncə həyatıma son qoya bilər. Dəfələrlə döyülmələrdən zəifləmişdim, həm də anemiya və hipoksiyadan əziyyət çəkirdim. Kişilər mənə tərəf addımladıqca ürəyim döyünürdü və baş verəcək hər hansı işgəncə üçün ağlımı hazırlamaq bir neçə saniyə çəkdi.



# 13

Fevralın 6-da günorta saatlarında İŞİD-ə hörmət bəsləyən kamera yoldaşlarım işgəncələrə hazırlığı yekunlaşdırarkən, onların tələblərini inkar edən “əclaf mühafizəçi” adlandırdıqları kişi kameranın çölündə dayanıb bizə qulaq asdı. Onun əlindəki açarların səsini eşitdik. “Əclaf mühafizəçi” otaqda nə baş verdiyini anladı və əvvəllər mənə heç vaxt qayğı göstərməsə də kameraya daxil oldu.

Qəzəbli sözlərlə ərəbcə nəsə dedi və mənə əşyalarımı yığıb onunla getməyi əmr etdi. Yuyulmamış paltar yığınını yerdə qoydum və “əclaf mühafizəçi”nin ardınca kameradan çıxanda dönüb kamera yoldaşlarımın məyus üzlərini gördüm. Yəqin ki, Daniel də şirlərin yuvasından çıxarılanda özünü belə hiss edib.

Bir gecəni başqa bir kamerada iki müsəlman iş adamı ilə keçirdim. Bu həbsxana otağı digərindən bir qədər kiçik, lakin daha çirkli idi. Orada ilk günümü çirkli kameramızı birlikdə təmizləməklə keçirdim, ona görə də onlar hörmətlə yeməklərini mənimlə bölüşdülər. Onlar mənim yaralarımı, başımda, dirsəklərimdə və kürəyimdəki qara və göy qançırlarımı görəndə dəhşətə gəldilər. Mən İŞİD üzvləri ilə birlikdə qalarkən başıma gələnləri onlara danışdım.

O biri gün axşam məni MKTX-nin həbsxanasında növbəti sorğu-sual üçün aşağı mərtəbəyə apardılar. Kondisionerin havası düz üstümə vururdu və dərhal üşüməyə başladım. Kiçik otağın ortasındakı masa arxasında iki nəfər oturmuşdu. Mən artıq nə baş verəcəyini bilirdim. Kişilərdən biri “yaxşı polis”, digəri isə “sərt xasiyyətli polis” rolunu oynayacaqdı. İstintaq edəcək müstəntiqi nəzərdən keçirdim. O gözəl pencək, qalstuk geyinmişdi və ondan

odekolon qoxusu gəlirdi. Burada olduğum müddətdə artıq buna öyrəşmişdim. Sudan camaatı ətri Avropa və ya Amerikaya nisbətən daha çox vururdu. Mənim üçün ayrılmış stulda əyləşdim və masadakı sənədlər olan açıq rəfə nəzər saldım. Maraqlı idi, görəsən məni niyə dindirməyə çağırmışdılar. Nəhayət, Sudan Təhlükəsizlik Xidmətinin müstəntiqindən öyrəndim ki, atam dünyasını dəyişib. Artıq onun ölümündən bir aydan çox vaxt keçmişdi və Allah məni yuxu vasitəsilə bu xəbərə hazırlasa da, bunu eşidəndə sanki qarnıma bir yumruq dəydi. Ailəmin bu itki ilə necə mübarizə apardığını düşündüm. Fikrim Çexiyaya, ailəmə yönəldi. Heç olmasa bu çətin yas vaxtında ailəmə dəstək olmaq üçün orada olmaq istədim.

Fikrim orta məktəbdə oxuduğum axırıncı ilə qayıtdı. Valideynlərim bizim evdə gənclər üçün şagird yığıncağı təşkil etmişdi. Dörd otaqlı evimizdə bir-iki gün qalmaq üçün əlli nəfərdən çox adam gəlmişdi. Oğlanlar bir otaqda, qızlar isə başqa otaqda yatırdılar.

Görüş başa çatıb hamı sağ-salamat evlərinə qayıdanda hamımız rahatlandıq. Polis bizi aşkar etmədiyinə, evimizə axtarışa gəlmədiyinə və hər şeyin problemsiz keçdiyinə görə Allaha şükür etdik.

Məktəbim evimizdən cəmi beş yüz metr aralıda idi, ona görə də hər gün dərsə piyada gedirdim. Evimizdəki həmin gənclər toplantısından təxminən iki həftə sonra evə qayıdanda gördüm ki, evdə heç kim yoxdur. Bacılarım məndən böyük idi. Hər üçü oxuyub və işlədikləri üçün artıq bizimlə yaşamırdılar. Anam uşaq bağçasında müəllim işləyirdi və onun məsihçi olduğunu biləndən sonra tapdığı yeganə iş yeri evimizdən qatarla otuz dəqiqəlik uzaqda idi. O, evimizə daha yaxın olan məktəbdə dərs deyə bilərdi, lakin anam bütün şagirdlərini ateist Kommunist Partiyasının böyük ideallarını yetişdirmək üçün olan “vəd”i imzalamaqdan imtina etmişdi. Adətən günortalar mən onunla qatar stansiyasında görüşərdim və birlikdə evə piyada gedirdik.

Bir-iki saat ərzində evə heç kimin gəlmədiyini görəndə mən narahat olmağa başladım. Valideynlərimə nəsə olub? Görəsən polis evimizdə təşkil etdiyimiz gənclər toplantısını aşkar edib? Onlar

həbs olunub? Bəlkə mən məsihçi rəhbərlərdən birinə zəng edib xəbər verməliyəm.

Həmin axşam atam evə gec gələndə mən getdikcə daha çox qorxurdum. Bir az sonra isə anam gəldi. Ağlımda və ürəyimdə yaranan gərginliyin azaldığını hiss edərək hər ikisini qucaqlamağa tələsdim.

Həmin gecə şam süfrəsində valideynlərim həmin gün ilə bağlı öz fikirlərini bölüşdülər. Uniformalı iki polis atama yaxınlaşıb onlarla birlikdə yerli polis bölməsinə getməyə "dəvət etmişdilər".

Anam üçün bu daha alçaldıcı olmuşdu. Uniformalı iki polis və iki gizli polis əməkdaşı sinif otağına girərək uşaqların qarşısında onu küçəyə çıxarmışdılar. Anam şad idi ki, heç olmasa, ərinə zəng etməyə icazə vermişdilər. "Məni aparırlar" — deyə telefonda o pıçıldadı. "Məni də" — deyə atam zəng kəsilməmiş cavab verdi.

Valideynlərim bunun nə vaxtsa baş verəcəyini bilirdilər. Bu, kommunist ölkəsində Məsihin ardınca getməyin bir hissəsi idi və onlar iman yolu ilə getdikləri üçün bədəl ödəyəcəklərini bilirdilər.

Valideynlərimin sorğu-suallarını müzakirə edərkən, verilən suallara dair qeydləri və onların necə cavab verdiklərini müqayisə edərkən şam süfrəsi arxasındakı söhbəti heç vaxt unutmayacağam. Xüsusi olaraq sorğu-sual edənlərin onları necə çaşdırmaq istədiklərini xatırladılar və gələcəkdə bu cür suallara necə cavab verməyin ən yaxşı yollarını müzakirə etdilər. Həmin vaxt söhbət məni şoka salmışdı. Axı hansı ailə şam yeməyində polis tərəfindən sorğu-sual olunmaq barədə müzakirə edir? Heç düşünməzdim ki, ailəmizin süfrə arxası söhbəti məni nə vaxtsa indi olduğum həbs üçün hazırlayır.

Həmin gecə atam mənə bir kitab verdi. Bu, Müqəddəs Kitabdan sonra həyatımda ikinci ən vacib kitab idi. Onu atamın iş yoldaşına Almaniyadakı məsihçilər vermişdi. Bu, alman dilində Riçard Vurmbrandın "Allahla gizlində" kitabı idi. Atamın o kitabı mənə verib "sən bu kitabı oxumalısan" dediyini yaxşı xatırlayıram. Alman

dilini mükəmməl bildiyim üçün bütün digər işlərimi qoyub onu oxudum. Riçardın kitabında dediyi bir ifadəsi məni çox təsirləndirdi.

İndi, illər sonra oturub bu sorğu zamanı atamın ölümü haqqında eşidəndə Riçardın çəkdiyi dəhşətli işgəncələr barədə düşündüm və anladım ki, mənim vəziyyətim onun vəziyyəti ilə müqayisə olunmaz. Daha sonra müstəntiq məndən soruşdu: “Burada necəsiniz?”

“İndi daha yaxşıyam, çünki məni başqa kameraya köçürdülər” — deyə cavab verdim.

“Sizi niyə başqa kameraya köçürdülər?” — deyə müstəntiq sual verdi.

Titrəyən səslə ona döyülmələr, əzablar və suda boğulmaq işgəncəsi barədə danışdım. O, qəzəblənərək mobil telefonunu çıxarıb zəng etdi. Uzun söhbətin çox hissəsini ərəbcə başa düşə bilirdim. O, həbsxana rəisinə zəng edərək, bunların başıma necə gəldiyini bilmək istədi.

Sonra o, telefonu söndürdü və məndən özüm haqqında soruşmağa başladı. Onun tam adımı və dəqiq detalları soruşması, yalnız bir şeyi ifadə edə bilərdi. MKTX mənim barədə araşdırmanı bitirmişdi və məni azadlığa buraxmaq üzrə idi.

Müstəntiq mənimlə görüşünü bitirəndə artıq çox gec idi. Məni dördüncü mərtəbədəki yeni kameraya apardılar, kamera yoldaşlarımın hər ikisi artıq yatmışdı. Döşəmədə özümə bir yer tapıb əlimdəki ədyala büründüm və yatmağa çalışdım.

Atamla bağlı düşüncələr məni narahat edirdi və yata bilmirdim. Əslində uzana da bilmirdim, ona görə düşündüm ki, durub yeriyim.

Uşaqlıq xatirələrim yadıma düşdükcə, atama görə qəlbim Rəbbə minnətdarlıq hissi ilə doldu. Gözlərimdən yaş axdı, amma bu, kədər göz yaşları deyildi. Əksinə, onlar məsihçi ailəsində böyüdüyüm həyat və atamın hətta təqiblər altında yaşadığı sadiqlik nümunəsi üçün minnətdarlıq və sevinc göz yaşları idi.

Bir gün atamı göylərdə yenidən görəcəyimi bilirdim və kamerada Allahın mənimlə birlikdə olduğuna tam əmin idim.

Birdən otağa mühafizəçi daxil oldu. "Beter" o dedi və kiçik plastik torbada paltarlarımı mənə göstərdi. Digər ərəb mühafizəçiləri kimi "P" hərfini tələffüz etməkdə çətinlik çəkərək, "əşyalarını götür və mənimlə gəl" dedi. Özümü bir qədər həyəcanlı hiss etdim, nəhayət məni azad edəcəklərini düşündüm.

"Ədyalımı da götürüm?" — deyə soruşdum.

"Xeyr, xeyr. Ədyalı burada qoyun" dedi.

Nəhayət, məni azad edəcəklər! Niyə mənim ədyala ehtiyacım olmasın? Bir neçə gündən sonra Çexiyaya qayıdacağam, ailəmlə birlikdə olacağam və iki aylıq həbsdə olduğum müddətdə Allahın sədaqətinə dair şəhadətimi onlara danışacağam. Gecələr həyat yoldaşımla isti yataqda yatacağam.

Plastik torbanı götürüb otaqdan çıxdıq. Mən onun ardınca dəhlizlə liftə tərəf getdim, amma anlaşılmaz şəkildə başqa kameranın qapısında dayandıq. Birdən anladım ki, mən ciddi yanılmışam. Bu, məşhur bir otaq idi. Bura həbsxanada olan hər bir məhbusun qorxduğu bir otaq idi. Mən dindirilmək üçün aparılanda dəfələrlə onun yanından keçmişdim və indi onun qapısında dayandığım üçün damarlarımda qanımın donmağa başladığını hiss etdim.

Məni "soyuducu" adlı otağa köçürürdülər.



# 14

Boş otağa girdim və dərhal soyuq havanın axınını hiss etdim. Orada döşəksiz metal çarpayı və onun üzərində qurumuş qan ləkəsi var idi. Tualet çirkli idi və burada su yox idi. Mən ədyalımı götürmədiyimi düşündüm və yeni kameramdakı temperaturun təxminən on dərəcə olduğunu təyin etdim. Bu soyuq bir gecə olacaqdı.

Mənim bu soyuq otağa köçürülməyimə səbəb, çox güman ki, mənə qarşı pis rəftarla bağlı həbsxana rəisinin töhmət verdiyi mühafizəçilərin məndən qisas alması idi. Onların indi mənə burada kimin böyük olduğunu sübut edəcəklərini başa düşdüm və narahat olmağa başladım.

Bu qədər uzun vaxtda həbsxanada qaldıqdan sonra başımdakı qısa çal saçlarım uzanmışdı, amma çox deyildi, ona görə də əlavə köynəyimi başıma papaq kimi doladım. Yenə plastik torbanın içini axtardım və başqa bir şalvarımı çıxardım. Pencəyim olmadığına görə onunla açıq qollarımı örtdüm.

Bütün gecəni otaqda gəzişdim. Hərəkət etməyib dayananda, soyuğa dözmək olmurdu. Bir dəfə otaqdakı dəmir stulda dincəlmək üçün oturmaq istədim, amma ayaqlarıma dəyən metal məni daha da üşütdü.

Bu narahatlığın eyni zamanda mənim üçün bir xeyirli cəhəti də var idi. Belə ki, həbsxanaya gəldiyim gündən bəri ilk dəfə idi ki, mən otaqda tək qalırdım. *İndi mən yüksək səslə danışa bilərdim!* Mən atam üçün Rəbbə minnətdarlığımı bildirdim və fikirləşdim ki, Riçard Vurmbrandın həbsi zamanı olduğu kimi Tanrı məni də

mələklərlə əhatə edəcəkmi? Riçard və onun on dörd illik həbsi haqqında düşünəndə qəribə bir şey baş verdi.

Sanki arxadan kimsə məni isti paltoya bürüdü və istilik bütün bədənimə yayıldı və birdən dilimdən “Rəbbim, Allahım” sözləri çıxdı. Məni isidən Rəbb idi. Mənim tək qalmağım bir cəza olsa da, hiss etdim ki, həbsxana divarları arasında bu mənim ilk azadlığımdır! İki aydan sonra ilk dəfə mən ucadan dua etdim.

Gecə boyu hətta bəzi ilahilər oxumağa çalışdım. On beş yaşım olanda Georq Fredrix Handelin yazdığı “Sənə izzət olsun” adlı gözəl ilahisini əzbərləmişdim. Mən hələ İŞİD üzvləri ilə birlikdə olarkən onu oxumağa çalışmışdım, amma ilk üç-dörd sətri yadımdan çıxmışdı. Amma birdən təkadamlıq otaqda yaddaşımda bir möcüzə yaşadım. Müqəddəs Ruh dərhal mənə bu mahnının ilk iki sətrini xatırlatdı. Bir anlıq mən özümü ilham alaraq gözəl və tam bir şeir alınana qədər yazıb-yaradan şair kimi hiss etdim. Mən imanla, yüksək səslə oxuyurdum və bilirdim ki, növbəti sətiri Rəbb mənə verəcək. Əmin idim ki, mühafizəçilər və bütün digər məhbuslar, bir nəfərlik kamerada yalnız bir gecə qalandan sonra dəli olduğumu düşünürdülər.

Nəhayət, ertəsi gün mühafizəçilər otağıma soyuq hava verməyi dayandırdılar və ədyalımı gətirdilər. Mən ədyalımı iylədim, ondan başqa bir məhbusun iyi gəlirdi. Keçən gecə onu başqası istifadə etmişdi. Buna baxmayaraq, ədyalımı geri aldığım üçün çox sevindim.

O vaxta qədər, aclıq aksiyam bitdikdən üç həftə sonra mən çox susamışdım, ancaq yaxınlıqdakı krandan yalnız bir damla su axırdı. Aclıq aksiyasından sonra səhər yeməyimdən qalan plastik torbamda bir balaca qabda qatıq tapdım. Qatığı yedim və su damcılarını toplamaq üçün qatığın plastik qabını istifadə etdim. Su damcılarını yığmaq on beş dəqiqə çəkdi və qabım doldu.

Addım-addım Rəbb mənə bundan sonra nə edəcəyimi göstərdi. Əvvəlcə suyun qarşısını alan maneəni axtarmağa başladım. Rəbb məni tualetin qaranlıq küncünə apardı, orada mən bağlı olan əsas su klapanını tapdım. Onu açmaq üçün əlimdə heç bir şey yox idi.

Döşəmədəki zibillərin arasından kranı açmaq üçün bir şey axtardım. Nəhayət, bir metal parçası tapdım və yenidən tualetə tərəf getdim. Oradakı əsas kranı açanda su sərbəst şəkildə tualetə axdı. Sonra kiçik bir əski tapdım və krandan sərbəst axan suya batırdım. Yaş parçadan və həbsxanada bizə verilən karbolik sabundan istifadə edərək bədənimi silib dezinfeksiya etdim.

Bədənim təmizləndikdən sonra diqqətim otağa yönəldi. Bütün günü oranı təmizlədim, çarpayıdakı qan ləkələrini yudum. Nəhayət, ədyalımı sərmək üçün yataq yerim kifayət qədər təmiz idi.

Tək kameraya köçürülməyim mənim üçün qismən azadlığın bir növü oldu. İŞİD adamları həmişə təkadamlıq otağa salınmaqdan qorxurdular və bilirdilər ki, istənilən məhbus orada bir həftədən çox qalarsa, ağlını itirəcək. Bu səbəbdən mühafizəçilər həbsdə olan döyüşçülərin qorxusundan heç vaxt İŞİD üzvlərini iki-üç gündən artıq təkadamlıq kamerada saxlamırdılar.

Mən təkadamlıq kamerada qalan zaman yaddaşım bərpa olmağa başladı. Kommunist təqibləri zamanı oxuduğumuz mahnıları xatırladım. Gəncliyimdə əzbərlədiyim Müqəddəs Yazıları xatırlamağa başladım. Bütün bunlar mənə ən lazımlı anda, ən çox ehtiyac duyduğum anda yadıma düşdü. Üçüncü gün Müqəddəs Ruh "Sənə izzət olsun" ilahisinin axırıncı bəndini yadıma saldı. Adətən hər mahnını yada salmaq üçün ən azı bir və ya iki həftə vaxt lazım olurdu, nəticədə mən bir çox ilahilərin bütün sözlərini xatırlaya bildim.

Şükürlər olsun ki, otaqda soyuq hava axını dayandı və bir daha verilmədi.

Gücümü bərpa etmək üçün səhər saat 6:00-dan başlayaraq ən azı gecə saat 9:00-a qədər dayanmadan günlərimi gəzməklə keçirirdim. Hesabladım ki, hər gün təxminən iyirmi beş kilometr məsafə qət etmişəm və gəzərkən dua edirdim.

Allahla bu ünsiyyətim məni heyrətə gətirirdi. Riçard Vurmbrand kimi mən də Tanrının hüzurunu, Onun müalicəvi gücünün yaxınlığını hiss edirdim. Fevralın 7-dən martın 29-a kimi bir ay yarım ərzində kameramı yalnız Rəbblə bölüşdüm.

Təbii ki, heç də hər səhər işıqlı və şən keçmirdi. Çox vaxt ürəyimi və beynimi böyük bir kədər bürüyürdü. Gündüz yatmağa çalışırdım, amma yatanda kədərim daha da artırdı, dərhal yerimdən sıçrayıb dua edərək otaqda yeriməyə davam edirdim. Elə günlər olub ki, mən sadəcə "Rəbb İsa mənim sülhümdür! Rəbb İsa mənim sevincimdir!" deyərək iqrar edirdim. Ağır kədər içində olanda bu iqrar etdiyim həqiqətlər mənim reallığıma çevrilənə qədər kameramın ətrafında gəzərkən bir neçə dəqiqə bu sözləri təkrarlayırdım.

* * *

Bazar ertəsi, 2016-cı il fevralın 22-də səhər saatlarında həbsxana mühafizəçiləri təkadamlıq kamerama gəlib məni aşağı mərtəbəyə keçirdilər. Orada gözlənilmədən MKTX-nin zabiti sorğu-sual etmək üçün mənə baş çəkdi.

O mənim uzanmış saqqalıma qaşlarını çataraq baxıb dedi: "Üzünüzü qırxmaq lazımdır".

"Burada üz qırxmaq o qədər də asan deyil" — deyə izah etdim. Ayaqlarıma baxdı, ayaqqabılarım yox idi. O, həbsxananın anbar otağından ayaqqabılarımı gətirib mənə uzatdı və dedi: "Yaxşı paltar geyinin". Mənsə imtina etdim, çünki bütün geyimlərim bir-birinə bənzəyirdi və bundan əlavə, əynimdəki paltarlarımı müntəzəm olaraq yuduğum üçün onlar təmiz idi.

*Nə geyinməyimin əhəmiyyəti var?* Xarici görünüşümə edilən bu diqqət məni çaşdırdı. *Yoxsa Çex hökumətindən kimsə Sudana məni görməyə gəlir? Mənim necə görünməyimin başqa nə əhəmiyyəti ola bilər?* Sonra, demək olar ki, inana bilmədiyim yaxşı bir fikir ağlıma gəldi. *Bəlkə məni azad etmək istəyirlər?*

Həbsxana mühafizəçiləri əllərimi ağır qandallarla bağladılar, onlar məni ağrıdırdı. Məni çölə çıxarıb mikroavtobusa mindirdirlər. Ağır silahlı altı mühafizəçi məndən sonra mikroavtobusa mindi. Bu, əvvəllər, Milli Klubda cənab Slama ilə görüşdüyüm gündə olduğu kimi idi. Ancaq bu dəfə xoşagəlməz bir dəyişiklik də oldu. Yolda

küçə adlarını görməməyim üçün mühafizəçilərdən biri başıma qalın, qara kapüşon keçirdi. Kapüşon nəfəs almağıma mane olduğunu anlayanda narahat olmağa başladım.

Mikroavtobus dayanana yaxın nəhayət, yanımdakı mühafizəçi qara kapüşonu başımdan çıxardı və yenidən Milli Klubda olduğumuzu görüb rahatladım. Mikroavtobusda gözlədiyimiz zaman qara rəngli "Mercedes"in dayanacağımıza yaxınlaşdığını gördüm. Maşın dayanandan sonra oradan dörd kişi düşdü. Onlardan işçisi idi və digər iki ağdərili kişi isə çexə oxşayırdı.

Mühafizəçilərimdən biri soruşdu: "Onları tanıyırsan?"

Mən dedim: "Xeyr".

Dörd nəfər Milli Kluba daxil olan kimi məni də onların ardınca apardılar və biz onların gözlədikləri otağa gəldik. Onlar özlərini mənə təqdim etmədilər, yalnız Çexiya Kəşfiyyat Xidmətindən olduqlarını bildirdilər. Sonra isə onlar mənə bir sıra qəribə suallar verdilər:

"Hər hansı xarici kəşfiyyatla əlaqəniz varmı?"

"Xeyr, yoxdur" — dedim.

"Hər hansı hərbi kəşfiyyatla əlaqəniz varmı?" — yenə soruşdular.

"Mən kommunizm dövründə bir illik məcburi hərbi xidmətimi başa vurmuşam və bundan başqa heç bir hərbi işim olmayıb" — deyə onlara cavab verdim.

Tezliklə görüşümüz sona çatdı və mən dəhşətli bir xəbər aldım: "Sudan hökuməti məni azad etməyəcək. Əvəzində mənim işim Sudan məhkəməsinə ötürülüb".

Məyusluq hissi məni bürüdü. Milli Klubdan ruh düşkünlüyündə ayrıldım, geyimim və ayaqqabımla bağlı narahatçılığı indi anlamağa başladım. MKTX-nin sorğu-sual edən zabiti məni aydın başa salaraq bildirdi ki, onlar danışıqları diplomatlar, konsulluq idarəsi və hətta səfir ilə deyil, yalnız kəşfiyyat xidməti ilə aparacaqlar.

* * *

Fevralın ortalarında hansısa məqamda beynəlxalq media mənim həbsimdən xəbər tutdu. İnterpolun saytında mənim şəklim çıxdı. Onlar məni Xartumda itkin düşənlər siyahısına salmışdılar. Sonra, 27 fevral 2016-cı il şənbə günü mən Milli Kəşfiyyat və Təhlükəsizlik Xidmətinin təkadamlıq kamerasında olarkən həyat yoldaşım Praqadan kənarda yerli yanacaqdoldurma məntəqəsinə daxil oldu. O vaxt həyat yoldaşımla heç bir əlaqəmiz yox idi. Birdən onun gözləri qapının yanındakı qəzet yığınına sataşdı. Orada Çexiyanın gündəlik buraxılan "DNES" adlı qəzetini gördü.

"Sudanda saxlanılan çex vətəndaşını edam cəzası gözləyir" başlığını oxuyanda az qala onun ürəyi dayanacaqdı. Gözlərindən axan yaşlarını saxlaya bilməyən Vanda qəzeti aldı və uşaqlarına dəhşətli xəbəri çatdırmaq üçün tələsərək maşınına tərəf qaçdı.



# 15

Mən təkadamlıq kameraya köçürüləndən bir həftə yarım sonra İnterpolun internet saytında şəklim dərc olunanda, Çexiya səfirliyinin konsulluq əməkdaşı cənab Slama mənimlə yenidən görüşmək üçün Misirdən Sudana gəldi. Titrək səslə və göz yaşları ilə əvvəlcə İŞİD kamera yoldaşlarım tərəfindən, sonra isə soyuq kamerada çəkdiyim işgəncələr barədə ona danışdım. Ona yalvararaq dedim: "Xahiş edirəm, bunları ailəmə deməyin, çünki onlar mənim üçün daha çox narahat olacaqlar". Cənab Slama başa düşdü və başı ilə razılıq işarəsi verdi. Görüşümüzdən sonra kamerama qayıdanda yenidən soyuq hava axınının səsini eşitdim və otağım dondurucu soyuq hava ilə doldu. Dərhal başa düşdüm ki, kamerama yenidən soyuq havanın verilməsi bir qisas aktıdır. Cənab Slamaya mənə verilən işgəncələr barədə danışdığıma görə MKTX-nin zabitləri tərəfindən cəzalandırıldım.

Cənab Slaman 10 mart 2016-cı ildə olan növbəti səfərində mənə xoş bir sürpriz — Çexiyadakı ailəmdən iki məktub və qanazlığıma kömək etmək üçün onların göndərdikləri vitaminləri gətirdi. Ürəyim sinəmdə şiddətlə döyünməyə başlayanda adrenalinim yüksəldi. Bacardığım qədər cəld məktubları açdım. Ailəmlə məktubla yazışmağımdan çox vaxt keçmişdi. Onların necə yaşadıqları barədə eşitmək mənim üçün çox vacib idi.

MKTX-nin qaydalarına görə, məktublar ingilis dilində yazılmalı idi, ona görə də ailəmdə bu işi qızım Vava öz üzərinə götürmüşdü. Fevralın 1-də yazılan ilk məktubu oxumağa başlayanda gözlərim yaşardı. Qızım yazırdı: "Ümid edirik ki, bu məktubu oxuyanda

sağ-salamatsan və sənə yaxşı baxırlar. Bilirsən ki, biz sənin üçün çox darıxırıq və tezliklə evdə olmağını səbirsizliklə gözləyirik”. Vava sağlam idi və həyat yoldaşım qripin son əlamətlərindən sağaldıqdan sonra işə qayıtmışdı. “Anam sənin üçün çox darıxır və sənin haqqında çox düşünür” sözlərini oxuyanda daxilimdə sanki hər şey istiləşdi.

Qızım daxili xəstəliklər üzrə buraxılış imtahanını təzəcə vermişdi. Növbəti həftə, o, Ginekologiya və Mamalıq üzrə yekun imtahanını versə, xəstəxanada işləmək üçün müraciət edəcəyinə ümid edirdi. Oğlum Peterin də fevralın 3-də buraxılış imtahanı üçün həvəslə hazırlaşdığını öyrənəndə üzümə təbəssüm yayıldı. Bu imtahanı verdikdən sonra o, bakalavr dissertasiyasına hazırlaşmağa başlayacaqdı. Övladlarımla çox qürur duydum. Kaş mən də onların yanında olardım. Sonra səhifənin aşağı hissəsində yazılanlara nəzər salarkən sanki ürəyim düşdü.

Qızım yazırdı: “Sənə təəssüflə deyirik ki, babamız yanvarın əvvəlində vəfat etdi. O, Milad bayramını evdə ailəsi ilə birgə keçirdi, lakin Miladdan dərhal sonra səhhəti pisləşdi. Onu yenidən xəstəxanaya aparmaq lazım oldu və o, bir neçə gündən sonra, yanvarın 4-də sakitcə dünyasını dəyişdi”. Atamın ölümünün xatırlanması məni yenidən təsirləndirdi və onun müstəntiqin mənə xəbər verməsindən bir neçə həftə əvvəl öldüyünü biləndə hirsləndim.

Məktubu oxumağa davam etdim və gördüm ki, bütün ev işləri öz qaydası ilə gedir. Qaynanam bu müddət ərzində ailəmlə qalırdı və mənim həbsimə görə məyus olsa da, səhhəti yaxşılaşmağa başlamışdı. Qardaşım da atamızın ölümünə deyəsən öyrəşirdi. Amma bilirdim ki, adətən qardaşım atamın qayğısına qaldığı üçün ailə üzvünü itirmək onun üçün çətin idi.

Gözlərim bir neçə saniyə yol çəkdi və sonra səhifənin aşağı hissəsində yazılanları oxudum. Ailəm Çexiya Xarici İşlər Nazirliyi, həmçinin cənab Slama ilə əlaqə saxlamışdı. Məktubun sonu çox tez gəldi və ürəyim sıxıldı. “Hamımız sənin üçün çox darıxırıq,

bütün qohumlar və dostlar sənin barəndə düşünürlər. Sevgilərlə, Vanda, Vava və Peter.”

Birinci məktubu yerə qoyub iki həftə sonra 16 fevral tarixli növbəti məktubu açdım. Onu gözümə yaxınlaşdıranda əllərim titrəməyə başladı. Vanda yazırdı: “Əziz Peter, biz çox şadıq ki, sənə əvvəlki məktubu yaza bildik və sən onu oxuya bildin. Ümid edirik ki, sağlamsan, fiziki və ya psixoloji problemin yoxdur. Sənin üçün çox darıxırıq və hər zaman sənin haqqında düşünürük. Ana sənin evdə olmadığına görə kədərlənir, amma hamımız inanırıq ki, tezliklə sənin barəndə daha çox xəbər eşidəcəyik”.

Vanda Vava vasitəsilə izah etdi ki, uşaqlarım babalarının ölümünə görə çox kədərlənirlər, qardaşım isə daha dərin kədər hissi keçirir. Öyrəndim ki, ailəm bacılarımla yaxın ünsiyyət saxlayır. Qayınanamın səhhəti yaxşılaşmağa davam edir və həyat yoldaşım da xəstəliyindən tam sağalıb və əmisi qızı Yanaya baş çəkmək üçün səfər etməyi planlaşdırır. Qızım Mamalıq və Ginekologiya üzrə yekun imtahanını verdi və hətta ən yüksək qiymət aldı. Ailənin qayğısına qalmaq və ev işlərinə kömək etmək üçün bir neçə gün istirahət etdikdən sonra qızım Pediatriya üzrə son imtahanını vermək üçün hazırlaşacaqdı. Mən əmin idim ki, o imtahandan keçəcək. Oğlum da son imtahandan problemsiz keçərək semestrini uğurla başa vurdu. Ailəmin Xarici İşlər Nazirliyi və Çexiyanın Qahirədəki səfirliyi ilə əlaqə saxladığını bilmək məni sevindirdi və məktubun son bir neçə sətirini bacardığım qədər daha həvəslə oxudum. Orda yazılmışdı: “Səni tanıyan hər kəs sənin barəndə düşünür”.

Bu səfər zamanı nəhayət ki, həbsxanadan ailəmə ilk məktubumu yazmağa icazə verdilər. Bu anı çoxdan arzu edirdim, məktubu beynimdə tərtib edirdim və daim nələri yazacağımı düşünürdüm. Nəhayət, bu fürsətin gəldiyinə inana bilmirdim. Onlara demək istədiyim çox şey var idi. Onlara aylar boyu düşüncələr və dualar, duyğular və təşviqlər, təsəllilər və izahatlar barədə yazmaq istərdim. Ancaq bir tərəfimdə konsulluq məmuru, digər tərəfimdə isə müstəntiq oturduğundan məktubu yalnız ingilis dilində yazmaq

üçün mənə cəmi bir neçə saniyə vaxt verildi. Sözlərimə diqqətli yanaşmağım lazım olduğu üçün beynimdə tez nə yazacağımı götür-qoy etdim.Tələsik böyük hərflərlə Vandaya yazdım:

*"Mənim əzizim,*

*Mənim sağ-salamat olduğumu sənə çatdırmaq üçün Sudandan sənə qısa bir məktub yazıram. Çexiya nümayəndələrinin iştirakı ilə oxuya bildiyim iki məktubunuza görə sizə təşəkkür edirəm. Mən yaxşıyam və hamınız üçün dua edirəm. Bilirəm ki, mənim işim Rəbbin əlindədir. Mən şadam ki, siz də yaxşısınız. Tezliklə evə qayıdacağımı gözləyirəm.*

*Allah hamınıza xeyir-dua versin!*

*Peter".*

Müstəntiq öz qeydləri üçün məktubumun fotosunu çəkdi və sonra onu cənab Slamaya verdi. Konsulluq məmuru məktubumu qatlayıb portfelinə qoydu.

"Aprelin 8-də yenə sizinlə görüşəcəyəm" deyib çıxıb getdi.

* * *

Məhbusu özündən çıxarmaq üçün bir-iki gün soyuq kamerada saxlamaq kifayətdir. Ancaq mənim soyuq kamerada qalmağım mühafizəçilərin böyük təəccübünə səbəb oldu, çünki həftələrlə təkadamlıq kamerada qaldıqdan və iki gün dözülməz soyuqdan sonra hələ də sağlam idim. Bir gün gözlənilmədən o "kobud mühafizəçi" soyuq kamerama gəldi və onu görəndə çox təsirləndim. O, məni şirlərin arasından xilas etmişdi. Məni suda boğmaq işgəncəsindən xilas etdiyinə görə göz yaşları içində ona təşəkkür

etdim. Sakitcə ona elektron poçt ünvanımı dedim və nə vaxtsa Avropaya gələrsə, onu evimdə qalmağa dəvət etdim. O da təsirləndi, gözləri doldu.

Axırıncı həftələrdə onunla yaxın dost olduq. O növbədə olan vaxt təkadamlıq kamerama gəlib səhər çayından və ya axşam yeməyindən mənə əlavə pay verirdi. Nəhayət, bir stəkan çay içmək mənim üçün təsirili bir an idi, çünki hələ də ağlımda çirkli fincanımın dibində mənə bir az çay verən İŞİD üzvlərinin xatirəsi qalmışdı. Rəbb mənə İncildən bir ayəni xatırlatdı. Mark 9:41-ci ayədə deyilir: "Məsihə mənsub olduğunuz üçün kim sizə bir kasa su içirdərsə, sizə doğrusunu deyirəm: mükafatsız qalmayacaq". Mən isti çayı içərkən mənə göstərdiyi xeyirxahlıq üçün Rəbbə minnətdarlıq etdim. Hətta təkadamlıq kamerada olsam da, Rəbb mənə "kobud mühafizəçi" ilə dostluq vermişdi.

* * *

Martın 29-da həyat yoldaşıma məktubu yazandan iki həftə yarım sonra MKTX-nin mühafizəçilərindən biri kamerama gəlib mənə mehriban bir tonla minnətdarlıq edərək dedi: "Sən burada hər şeyi təmizləmisən". Əslində mən kameranı və tualet tərəfi silib təmizləmişdim ki, yerdə ayaqyalın gəzə bilim. "Peter, bütün əşyalarını götür və mənimlə gəl" dedi. *Deyəsən məni azad edirlər!*

Çirkli həbsxana paltarlarımı plastik torbama basdım. *Ədyalımı da özümlə götürməliyəm?* Artıq ona ehtiyacım olmasa da, onu xatirə olaraq saxlayıb özümlə götürməyə qərar verdim. Axı bu, mənim mehriban kamera yoldaşımın hədiyyəsi və burada həbsxanada Allahın mənə sadiqliyinin ilk xatirəsi idi.

Dəhlizlə gedərkən yaxınlıqdakı kameranın qapısındakı pəncərədən pastor Həsənin və mənim tərcüməçim Monimin mənə baxdıqlarını gördüm. Onların həbs olunduğunu ilk dəfə İŞİD kamera yoldaşlarımdan öyrənmişdim. İşim və Sudana hansı səbəblə gəlməyim barədə məni "sorğu-sual" edəndə mənə dedilər ki, "iş yoldaşlarım"

da həbs olunub. Həmin "iş yoldaşlarının" kim olduğunu sonradan öyrəndim. Bir gün mən kameramın pəncərəsindən baxarkən pastor Həsənin sorğu-sual üçün dəhlizdə aparıldığını gördüm və dərhal onun üçün dua etdim.

İndi qapıdakı pəncərədən Həsən və Monimi görəndə, onları nə vaxtsa, bir daha görəcəyim barədə fikirləşdim və səssizcə Allahdan sudanlı qardaşlarımı ruhlandırması, gücləndirməsi və qoruması üçün dua etdim. Ümid edirəm ki, onlar da tezliklə azad olacaqlar.

Mühafizəçi məni aşağı mərtəbədəki anbar otağına apardı və orada çamadanımı mənə qaytardı. Onu açanda təəccübləndim, çünki ailəmin mənə göndərdiyi bütün dərmanlar orada idi. Mühafizəçilər bütün bu müddət ərzində onları, hətta çox lazım olan anemiya dərmanını belə mənə verməmişdilər. Çamadanımda bundan əlavə tualet kağızı, dezodorant və odekolon da var idi. Onları Cənab Slama mənə baş çəkməyə gələndə özü ilə gətiribmiş. Mən isə onları ilk dəfə idi ki, görürdüm və çamadanın içindəkilər mənə xoş təəssürat bəxş edirdi.

Dörd ay idi ki, üzümü təraş etmək üçün dəsmal, şampun və ülgücdən istifadə etməmişdim. Yalnız karbolik sabun və bir neçə şüşə qab su ilə bədənimi təmiz saxlamışdım. Mühafizəçi anbar otağından çıxanda mən çirkli şalvarımı və köynəyimi çıxarıb onları çamadana qoydum və təxminən dörd ay görmədiyim və geyinmədiyim təmiz paltarlarımı geyindim. Vandanı yenidən görmək fikri ilə gülümsəyərək dezodorant və odekolon vurdum.

"Bizimlə gəl" deyən mühafizəçi çamadanımı özümlə götürməyimə icazə verdi. Azadlığa çıxacağımı düşünərək rahat nəfəs aldım. Nəhayət! Hətta əllərimi də bu dəfə qandallamadılar və hava limanına aparmaq üçün məni çöldəki mikroavtobusa mindirdilər. Saat 21:00 idi və mən bilirdim ki, Türk Hava Yollarının saat 1:00 radələrində Xartumdan uçan reysi var.

Bir neçə saat ərzində mən yenidən azad bir insan olacaqdım. Nəhayət, evə gedirəm!

Pəncərədən baxdım və hava limanında təyyarələrin qalxıb-endiyini gördüm. Mikroavtobusumuz sola dönərək terminalın girişinə yaxınlaşanda, sürücü sürətini azaltmadı. Mən çaşqınlıqla gözlərimi ona tərəf zillədim, lakin sürücünün gözləri qarşıdakı yola dikilmişdi. Nə baş verir? O, sürəti azaltmadan sürəndə gözlərimi hava limanına tərəf çevirdim. Mən hava limanının arxada gözdən itməsinə baxdım, özümü çox pis hiss etdim. Bu sarsıdıcı hisslər qarnıma dəyən bir yumruqdan daha ağrılı idi. Ailəmə qayıtmaq üçün bütün ümidlərim bir anda azalmağa başladı və yol qarşımda uzandıqca onlar tamamilə yox oldu.

Bir neçə dəqiqədən sonra yerli Xartum polis bölməsi olan "Niyaba Mendola" adlı binaya çatdıq. Bina dəhşətli dərəcədə yararsız vəziyyətdə idi. Bura o qədər dəhşətli idi ki, MKTX-nin həbsxanası ilə müqayisədə ora saraya bənzəyirdi.

Məni daimi polis və MKTX-nin əməkdaşlarının olduğu səs-küylü ofisə apardılar. Kiçik otaqda stolun üstündə noutbuk çantamı gördüm. İçimdə bir ümid qığılcımı yenidən alovlandı. Yəqin bütün əşyalarımı qaytarmaq üçün məni bu mühafizə binasına gətiriblər! Kişilərdən biri masaya tərəf getdi və əlini noutbukumun çantasına uzatdı.

"Bu sizin kompüterinizdir?" — deyə noutbuku stolun üstünə qoyub məndən soruşdu.

"Bəli" həvəslə cavab verdim.

Həmin şəxs bir kağız parçasına nəsə yazdı, sonra kameramı və digər elektron cihazlarımı götürdü. O, bir-bir mənə hər bir avadanlıq haqqında eyni sualı verdi və sonra onları siyahıya aldı. Bu yəqin ki, azad olmağım üçün sənədləşdirmə prosesinin bir hissəsi idi.

Onun növbəti hərəkəti məni yenə də ruhdan saldı. O, avadanlıqları yenidən çantaya qoymaq əvəzinə, onları otaqdakı digər polislərə verdi. "Hansı həbsxananın daha yaxşı olduğunu müqayisə etmək şansınız olacaq" deyərək o gülümsədi.

Həmin an anladım ki, mühafizəçilər məni hava limanına aparmaq fikrində deyillər. Məni istintaq otağına yerləşdirdilər. Bir neçə dəqiqədən sonra bir nəfər içəri girdi və dedi: "Səni indi

bizə təhvil verirlər, məhkəməyə getməzdən əvvəl işini diqqətlə hazırlayacağıq".

Təhlükəsizlik generalı otağa daxil oldu. Mən onu damalı pencəyindən tanıdım və Xartum hava limanında məni sorğu-sual etdiyini xatırladım. Təmiz paltarımı geyindiyimi görüb gülməyə başladı. Məni çaşqın halda görəndə o daha da bərkdən güldü. Çarəsiz halda gözləməkdən başqa heç nə edə bilmədim və onun bundan həzz almasına baxdım. Mühafizəçilərin oyunu — onların məni aldatmaq və azad olunacağımı düşünmək cəhdi — uğurlu alınmışdı.



# 16

Təmiz paltarlarımı bir daha nə vaxt geyinəcəyimi bilmirdim. Onları çıxartdım və çamadanıma yığdığım çirkli həbsxana paltarını geyindim. Mən ədyalımı, bir neçə əlavə geyim, bir az şampun və tualet kağızı çıxartdım və pul kisəmi açanda orada hələ də Sudan pulunun qaldığını görəndə təəccübləndim. Polis məmurları mənə dərmanlarımı, dəmiri artırmaq üçün lazım olan preparatları və bəzi antibiotikləri özümlə götürməyə və qalan əşyalarımı isə polis qəbulunun anbar otağında saxlamağa icazə verdilər. Mən mühafizəçilərin ardınca sadə bir kameraya gəldim.

Otağın eni dörd yarım, uzunluğu isə beş metr yarım idi. Çirkli qırmızı xalça ilə örtülmüş döşəmədə on beş kişi oturmuşdu. Kişilərdən üçü siqaret çəkirdi və tüstülər kifli havası olan otağı doldururdu. Gəzmək üçün kifayət qədər yer yox idi, ona görə də ədyalımı yerə sərib ayaqlarımı qatlayaraq oturdum. Ancaq bu vəziyyətdə çox otursam, damarlarımda asanlıqla qan laxtası yaranacağını bilirdim və belə olarsa çox güman ki, öləcəyəm.

Gecə vaxtı kameramıza daha çox məhbus gətirdilər və iyirmi nəfərdən çox məhbus otuz kvadrat metrdən az olan yerə yığıldı. Otağın yeganə pəncərəsinin kənarından bir ventilyator isti havanı dolandırırdı. Bu darısqal kamerada məhbus yoldaşlarımın isti dərisi mənə toxunanda özümü çirkli hiss edirdim.

Ertəsi gün səhər məni kameradan çıxardılar və polis bölməsindən keçərək “baş prokurorun” kabinetinə apardılar. O mənə gülümsədi və kondisionerli kabinetində dəri divanda əyləşib köməkçisinin mənim üçün toyuq sendviçi və kola gətirməsini sifariş etdi.

Həmçinin mənə öz dırnaq qayçısından istifadə etməyə də icazə verdi. Dırnaqlarımı kəsmək çox lazım idi və o, dırnaq qayçısının məndə qalmasını xahiş etdi, amma mən etiraz edib onu özünə qaytarmağa çalışdım. O dedi: "Sizin gələn dəfə dırnaq qayçısına ehtiyacınız olanda daha burada olmayacaqsınız".

Tezliklə öyrəndim ki, bu polis bölməsi yalnız MKTX-nin həbsxanasından işləri qəbul edir. Bu, Sudan Təhlükəsizliyinin genişləndirilmiş bir hissəsi idi, lakin rəsmi olaraq onun yurisdiksiyasında deyildi.

Prokuror dedi: "Əminəm ki, siz burada qısa müddət qalacaqsınız. Tezliklə hər şey diplomatik yolla həll olunacaq və siz azad olunacaqsınız".

"Bəlkə bu həbsxana çox pis olmayacaq" — deyə mən prokurorun sözlərinə inanaraq düşündüm.

Qan azlığından əziyyət çəkdiyimi və xəstəxanada yenidən müayinədən keçməyə ehtiyacım olduğunu bildirdim. Ertəsi gün səhər o bunu təşkil etdi və məni başqa yerə köçürdülər.

Bu yer Daxili İşlər Nazirliyi tərəfindən idarə olunurdu və MKTX-nin xəstəxanasına nisbətən daha çox avadanlığı var idi və daha təmiz görünürdü. Mən tərəzinin üstünə çıxdım və dekabrdan bəri əlli beş kilo arıqladığımı biləndə dəhşətə gəldim.

Həkim bir çox qan analizi apardı və hemoqlobinin əvvəlkindən daha aşağı olduğunu bildirdi. İndi hemoqlobinin miqdarı normanın yarısı idi. Məndə daxili qanaxma olduğundan şübhələnirdim. Kameradakı döyülmələr və aspirin əsaslı baş ağrısı dərmanının gündəlik qəbulu nəticəsində məndə daxili qanaxma olmasını ehtimal edirdim. Əgər mən Çexiyada evdə olsaydım, bizim çex həkimləri qanköçürməyə başlayardılar.

Amma burada Sudanda həkim ancaq dəmir preparatlarını qəbul etməyimi məsləhət gördü. Həkim müayinəsinin pulunu özüm ödəməli oldum və kameraya qayıtdım.

* * *

Sonrakı bir neçə gün ərzində daha çox kişi bizim havasız kameramıza salındı. İndi təxminən iyirmi nəfərlə bir otağı paylaşırdıq. Bir səhər özümü xüsusilə depressiyada hiss edərkən belə dua etdim: “Ya Rəbb, mən nə vaxt azad olacağam?” Dua edərkən bir eritreyalı kişi məni gördü və özünü təqdim etdi. Onun bacısı Xartumdakı Eritreya kilsəsinə gedirmiş, amma hiss etdim ki, o, İsa Məsihin yenidən doğulmuş davamçısı deyil. O, Sudandan keçərkən insan alverinə görə həbs olunduğunu deyəndə şübhələrim özünü təsdiqlədi.

Mən İsa barədə ona və bizim izdihamlı kameramızda müvəqqəti qalan digər insanlara danışanda, Allahın məni niyə bu həbsxanaya saldığını anlamağa başladım. Bu, Məsihin məhəbbətini belə bir şəraitdə heç vaxt qarşılaşmayacağım insanlarla bölüşmək idi.

Bir səhər, eritreyalı on iki cavan kişi, iki qadın və iki uşaqdan ibarət bir qrup həbsxanaya gətirildi. Onlar Liviya-Sudan sərhədində həbsə alınmışdılar. Qadınlarla uşaqlar bizimlə üzbəüz daha kiçik kameraya salındılar. On iki kişi isə indi qırx üç məhbusun saxlanıldığı kameramıza salındı, vəziyyət daha da pisləşməkdə davam edirdi. Digər kişilərlə belə yaxın yatmaq çox çətin idi. Dözülməz dərəcədə soyuq gecələrdə kameradakı kişilərin ədyal oğurlamaq üçün bir-birini təpikləyib vurması sanki bir döyüş səhnəsinə çevrilirdi.

Eritreyalı məhbusların yaşı təxminən on dörd yaşdan iyirmi dörd yaşa qədər idi. Gündüzlər onlar otağın bir tərəfinə çəkilərək siqaret çəkib tütün çeynəyirdilər. Müsəlmanlar isə onlardan əks tərəfdəki yeri tuturdular.

Bir gün küncdə oturub dua edərkən hiss etdim ki, Tanrı mənimlə danışır. Onun səsi eşidilmirdi, amma qəlbimdə hiss etdim ki, Müqəddəs Ruh ürəyimə rəhbərlik edərək deyir: “Get, bu insanların yanında otur və onlara İsa haqqında danış”.

Mən Rəbbə itaət etməyi seçdim və otağın digər tərəfinə keçdim. Mən yerdə oturan kimi ingiliscə danışan iki eritreyalı kişi

dərhal haradan olmağım və həbsxanaya nə səbəbə düşməyim barədə suallar verdi. Müsəlmanlardan qorxmadan İsa Məsih haqqında açıq danışmağa başladım. Öz şəhadətimi onlarla bölüşdüm, imana olan təcrübəmi təsvir etdim və sonra onları İsa Məsihi şəxsi Xilaskarları kimi qəbul etməyə dəvət etdim. Mən öyrəndim ki, bu adamlar pravoslav kilsəsinə mənsubdular, lakin divarda asılan ikonanı öpüb ona dua etməkdən başqa dinlərinə dair heç bir dəlil yox idi.

Söhbətlər dərinləşdikcə, Allah mənim ürəyimə böyük bir rahatlıq verdi. “İndi başa düşürəm ki, Sən burada nə etməyimi istəyirsən” — deyə Rəbbə dua etdim. Allahın köməyil ilə ağlıma belə gətirə bilmədiyim nəticələr baş verdi! İngilis dilində danışan eritreyalı kişilər qrupun qalan hissəsi üçün tərcümə etməyə başladılar. Günorta və axşam, getdikcə daha çox məhbus söhbətimizə qoşuldu, on iki nəfərin hamısı Məsihi öz Xilaskarları kimi qəbul etdi.

Ertəsi gün səhər bir qrup eritreyalı məhbuslar kameradan çıxarılaraq başqa həbsxanaya köçürüldü. Onları bir daha görmədim. Allahın onların həyatında belə böyük bir iş gördüyünü və mənə bu işdə iştirak etməyimə yol verdiyini biləndə ürəyim sülhlə doldu. Nəhayət anladım ki, həbsdə olmağımın məqsədi bu imiş. Bu, duama cavab idi. Həmin an fikrim dəyişdi. Artıq mən təhlükəsizliyim üçün narahat deyildim. Allah məni buraya yalnız bir səbəbə görə, Onun nuru olub Müjdəni yaymaq üçün qoymuşdu. O andan etibarən başıma nə gələcəyinə görə daha narahat deyildim. Bilirdim ki, gələcəyim Allahın əlindədir və hər gün həbsxana otağımız nə qədər qaranlıq olsa da, mənim missiyam Məsihin işığı olmaq idi.

Mən Allahın yoluma çıxardığı hər kəsə Müjdə barədə danışmağa başladım. Ətrafımda olan müsəlmanlardan özümü qoruyurdum. Onlardan bəziləri Sudanın Milli Kəşfiyyat və Təhlükəsizilik Xidmətinin gizli polis xəbərçiləri idi və mənim barəmdə araşdırmalarında

onlara kömək edəcək məlumatları toplayıb Sudan Təhlükəsizliyinə hesabat verəcəkdilər.

Mənim ingiliscə danışmağımı dinlədikdən sonra onlar "Sən amerikalısan?" — deyə soruşdular. Bilirdim ki, onlar mənim haqqımda məlumat toplamağa və məni tələyə salmağa çalışacaqlar, ona görə də adətən belə cavab verirdim: "Mən amerikalı deyiləm. Mən çexəm". Hər yerdə casuslar var idi, amma mən onları çoxlu şübhəli sualları ilə tanıyırdım və adətən bir neçə gündən sonra belə adamlar izdihamlı kameramızdan çıxarıldıqda şübhələrim təsdiqlənirdi.

Kişilərin sayı qırxa çatanda kamerada tavanın yüksək olmasına görə Rəbbə şükür etdim. Tavan aşağı olsaydı, kiminsə burada sağ qalacağına əmin deyildim. Xüsusilə havanın isti olduğu günlərdə darısqalçılıq kəskin problemə çevrilmişdi. Bilirdim ki, çöldə istilik qırx dərəcədən çoxdur. Otaqdan kənarda olan ventilyatorun hesabına otaqdakı hava tamamilə durğun olmurdu. Lakin o, fasilələrlə işləyirdi və heç vaxt otağımızı sərinləşdirmirdi. İmkan düşəndə pəncərənin yanında təmiz hava udmaq üçün tərli bədənlərin arasından keçməli olurdum. Dəmir barmaqlıqlı qapıya tərəf gedəndə orada zəif mehin əsdiyini hiss edirdim. Artıq yerə uzanıb yatmaq imkanım yox idi. Ona görə də ya ayaqlarım çarpaz vəziyyətdə otururdum və ya da ayaq üstə dururdum. Ayaq üstə dayanmaq mənim üçün daha az ağrılı idi, buna görə də günün çox hissəsini mənim kimi bəxti gətirməyən digər məhbuslarla çiyin-çiyinə ayaq üstə dayanırdıq.

Aclıq yaman güclü idi və daim mədəmi narahat edirdi. Hər gün bizə iki dəfə yemək üçün qaynadılmış lobya verirdilər. MK-TX-nin həbsxanasındakı Sudanın milli yeməyi olan fuhldan fərqli olaraq, bu lobya çox dadsız idi. Onlar bir böyük qabda xörək və bir plastik torbada kiflənmiş Sudan çörəyi verirdilər. Lobyalı xörəyi götürüb yemək üçün çörəyə ehtiyacımız var idi, amma bizə verilən çörək heç vaxt hamımıza kifayət etmirdi. Sudanlılar altdan yuyun-

maq üçün sol əllərini, yemək üçün isə yalnız sağ əllərini istifadə edirdilər. Məhbusların inciməsinə səbəb olmamaq və bizə verilən yeməyi çirkləndirmədiyimi düşünmələri üçün mən ümumi qabdan yalnız sağ əlimlə yemək yeyirdim.

Bəzən ilk yemək səhər saat 11:00-da, amma bəzən daha gec verilirdi. Lobya və çörəyin ikinci porsiyası hava qaralandan bir müddət sonra verilirdi. Dəmir preparatlarımı qəbul etmək üçün mənə bir az yemək lazım idi. Səhər yeməyi gec verildiyinə görə şam yeməyindən özüm üçün bir tikə çörək saxlamağa çalışırdım. MKTX-nin həbsxanasında olarkən İŞİD kamera yoldaşlarımla paylaşdığım yeməyin nə qədər pis olduğunu düşünürdüm, amma indi o yeməyin həsrətində idim.

Kameramızın döşəməsinə çirkli və çürümüş qırmızı xalça sərilmişdi. Çöldə iki tualet var idi və gündə iki dəfə mühafizəçilər qapının kilidini açıb bizə tualetdən istifadə etməyə icazə verirdilər. Həbsxanada pis rəftar etdiklərinə görə mənə yazığı gələn iki mühafizəçi tualetdən istifadə etmək üçün mənə birinci icazə verirdilər. Lakin digər mühafizəçilər qəsdən bütün məhbuslardan sonra mənə yol verirdilər. Polis idarəsinin susuz qalması adi hal idi və tualetdən istifadə edəndən sonra su buraxılmırdı. Orada bir balaca sabun var idi və əgər əlimi tələsik yusaydım o, əlimdən sürüşüb çirkli döşəməyə düşürdü.

Burada qaldığım ilk üç gündə prokurorlar mənə dedilər: “Əgər buranın şəraitini bəyənmirsənsə, yazılı şəkildə şikayət etməlisən. Səni geriyə mühafizə təcridxanasına qaytararıq”.

MKTX-nin həbsxanasına qayıtmaq fikri xoşuma gəldi. Mən yeni kamera yoldaşlarımdan rəsmi şikayəti yazmaq barədə soruşdum. Onlar mənə xəbərdarlıq edərək dedilər: “Nə olursa olsun, amma geriyə qayıtma. Sən buradakı şəraitə öyrəşəcəksən.”

Polis idarəsində olduğum vaxtdan cəmi bir həftə sonra İsveçrə səfirliyinin nümayəndəsi məni yoxlamağa gəldi. O, prokurorlarla uzun müzakirə apardı və dedi ki, cənab Slama planlaşdırıldığı kimi

aprelin 8-də mənə baş çəkə bilməyəcək və mənim işimə isveçrəlilər nəzarət edəcək.

* * *

“Niyaba Mendola” adlı polis idarəsinə gələndə bilirdim ki, Sudan prokurorları tərəfindən aparılan istintaq hələ bir müddət davam edəcək, lakin mən təxminən bir aya yaxın gözləməliyəm. “Bəlkə biz sabah gələrik” — deyə məmurlar təkrar-təkrar deyirdilər. Hər gün daha da narahat olurdum. Məhbuslarla dolu olan kameranın üfunət qoxusu ilə mübarizə apararkən məni narahatçılıq bürüdü və fikirləşirdim ki, nə vaxtsa azadlığa çıxacağam?

Nəhayət, aprelin 20-də “cinayətlərim”lə bağlı istintaq davam etdirildi. Mən istintaq otağına daxil oldum və dekabrdan bəri cavab vermək istəmədiyim eyni sualları gözləyərək prokurorun qarşı tərəfində oturdum.

Masaya nəzər saldım və onun qarşısında açıq olan qalın bir qovluğa baxdım, əlifba sırası ilə yazılan adların siyahısını gördüm. Diqqətimi siyahıdan aşağıda yazılanlar cəlb etdi. Bir neçə saniyə ərzində orada Əddis-Əbəbədəki məsihçi konfransında iştirak edən kişilərin adlarını gördüm. Dərhal anladım ki, konfransa casusluq etmək üçün göndərilən hökumət adamlarından əlavə, konfrans iştirakçıları arasında bir nəfər məlumat toplayan da olubmuş. *Sudan hökuməti bu adların siyahısını başqa necə əldə edə bilərdi?*

Prokuror məndən iştirakçılar haqda soruşmağa başladı: “Siz Con Martini tanıyırsınız?”

Cavablarım sadə idi, çünki bilirdim ki, ona verdiyim hər hansı məlumat həm mənim, həm də siyahıdakı məsihçilərin əleyhinə istifadə oluna bilər. Ona görə də dedim: “Mən Con adlı bir nəfər tanıyıram. Yadımda deyil. Bəlkə də o, Amerikadandır”. Heç bir məlumat açıqlamadan suallara cavab verməyə çalışdım. Üstəlik, prokuror artıq cavabı bilirdi. O məndən soruşdu: “Konfransda koreyalı məsihçi var idi?”

"Xatırladığım qədər orada bir asiyalı adam var idi. Amma dəqiq deyə bilmərəm" — deyə cavab verdim. Suallar bir-birinin ardınca davam edirdi.

Nəhayət, bu dindirmənin heç bir nəticə vermədiyini görən prokuror qovluğu bağlayıb ayağa qalxdı. O çıxıb gedəndən sonra məni yenidən kameraya gətirdilər.



# 17

Çexiya konsulluğunun mənimlə ilk görüşündən sonra başa düşdüm ki, çox güman ki, üç ay ərzində işimə baxacaqlar. Aprelin ortalarında artıq dörd ay yarım idi ki, Sudanda həbsdə idim.

Tezliklə məni məhkəməyə çağırdılar. Nəhayət, ilk dəfə nədə ittiham olunduğumu bildim. Məlum oldu ki, mənə qarşı bir neçə ittiham irəli sürülüb. Amma onlardan ölüm hökmü verilməsinə səbəb olan əsas ikisi yadımda qaldı. Bilirdim ki, ölkənin rəhbərliyi əcnəbi vətəndaşa qarşı ölüm hökmünü icra etməyəcək, amma mənə verilən hökmü eşidəndə özümdən asılı olmadan qaşlarımı çatdım. Mənim üçün çıxarılan ölüm hökmü xəbərini ailəmin necə qəbul edəcəkləri barədə düşündüm. Mən ömürlük həbs cəzası çəkmək təhlükəsinin çox real bir ehtimal olduğunu biləndə mat qaldım. Vəkilim mənə baxdı, gözlərimdə sıxıntı və qorxu gördü.

Həyatımın qalan hissəsini Sudan həbsxanasında keçirməyi, həyat yoldaşımı, qızımı, oğlumu və digər ailə üzvlərimi bir daha görməyəcəyimi təsəvvür etməyə çalışdım. İyirmi il həbsdə olmaq mənə qeyri-mümkün görünürdü.

Çox ümid edirdim ki, Sudan hökumətinin mənə verəcəyi cəza müddəti elə həbsdə olduğum vaxt qədər olacaq. Vəziyyətim ölkədə tez-tez baş verən bir hadisə kimi qeyd olunsaydı onda mən tezliklə azad olardım.

Həmin anlarda mən həvari Peter haqqında düşündüm. Bunu mənim adımın Peter olduğuna görə qeyd etmirəm. Rəbb diriləndən sonra şagirdləri ilə görüşəndə İsa üç dəfə Peterdən soruşdu: “Məni sevirsənmi?” Peterin cavabından sonra İsanın dedikləri o zaman

yadıma düşdü: "Cavan olanda qurşağını özün bağlayıb istədiyin yerə gedərdin, amma qocalanda əllərini uzadacaqsan və başqası sənin qurşağını bağlayıb istəmədiyin yerə aparacaq" (Yəhya 21:18). Həbsxana mənim getmək istəmədiyim bir yer idi, amma buna əmin idim ki, məni Rəbb oraya göndərib və Onun xüsusi niyyəti var idi.

* * *

Məhkəmədən qayıdanda mühafizəçilər məni izdihamlı kameradan eni iki, uzunluğu isə üç metr olan daha kiçik təkadamlıq kameraya keçirdilər. MKTX-nin həbsxanasındakı "soyuducu" bir nəfərlik kameradan fərqli olaraq, bu kameram isti idi. Burada tavan keçən dəfəki böyük otağın tavanından xeyli alçaq idi. Tavan elə alçaq idi ki, hətta ona toxuna bilirdim. Divardakı iri, boz plitələr otağı izolyasiya edir və otağıma düşən günəşin istisini saxlayırdı.

Keçən dəfəki təkadamlıq kameramdan fərqli olaraq, bu otağımda mən heç də tənha deyildim. Dəhlizin o biri başında məhbusla dolu böyük bir otaq var idi və əgər səsimi qaldırsaydım, zalın o tayındakı kişilərlə danışa bilərdim. Onların bəziləri mənə pastor Həsən və Kuvanı xatırlatdı və mən bir daha sudanlı qardaşlarım üçün dua etdim.

Kiçik otağım bəzən o qədər isti olurdu ki, dərimdəki tər dərhal buxarlanırdı, alnımda və bədənimdə duz kristalları qalırdı. Çöldəki toz içəri dolurdu və mən hər səhər küncdəki balaca süpürgə ilə tozu süpürməli olurdum.

Gecələr öz ədyalımın üstündə yatmağa çalışırdım, amma hər səhər üzüm yerdəki çirk, sidik və nəcislə ləkələnmiş qırmızı xalçanın üstündə oyanırdım. Hətta o çətin şəraitdə belə, mən tez bir zamanda və rahatlıqla dərin yuxuya gedə bilirdim. Maraqlıdır ki, MKTX-nin həbsxanasında, eləcə də "Niyaba Mendola" adlı polis bölməsində olduğum müddətdə mən rahat yata bilirdim.

Mən bilirdim ki, bəzən gördüyüm yuxular sadəcə olaraq yorğun beynimin və tükənmiş təxəyyülümün nəticəsidir. Ancaq bəzən də

hiss edirdim ki, yuxularımda Tanrı mənimlə birbaşa danışır. Bir dəfə yuxuda gördüm ki, pasportumu mənə qaytardılar. Pasportum köhnəlmişdi və az qala çırılacaqdı. Bu nə deməkdir? İlahi, Sən demək istəyirsən ki, həbsim gözlədiyimdən də çox çəkəcək?

* * *

Aprelin sonunda cənab Slama polis bölməsində bir daha mənə baş çəkdi. O dedi ki, bir neçə ay ərzində Çexiya hökuməti tərəfindən başqa vəzifəyə təyin olunacaq və artıq Qahirədə yaşamayacaq. Mən onun xeyirxahlığına və ailəmə verdiyi təsəlliyə görə minnətdar idim və dua etdim ki, növbəti vəkilim cənab Slama kimi ruhlandırıcı olsun.

Bu səfərdə cənab Slama mənim üçün yenə də sürpriz, ailəmdən üçüncü məktubu və Çex dilində Müqəddəs Kitab gətirdi! Gözlərimə inanmadım. O izah etdi ki, mənim Müqəddəs Kitabım Çexiyadakı ailəmin xahişi ilə konsulluq əməkdaşının hədiyyəsidir. Nəhayət, Allahın qiymətli Kəlamını əlimdə tutub Onun gözəl vədlərini oxuya biləcəyəm. Dekabrda həbs olunduqdan bəri bu ən xoşbəxt günüm idi və bu, cənab Slama ilə dostluğumu daha da yüksək səviyyəyə qaldırdı.

İlk dəfə olaraq mənə ailəmdən gələn məktubları saxlamağa icazə verdilər. Cənab Slama ilə son görüşdən sonra məktubu Müqəddəs Kitabın arasına qoyub kamerama qayıtdım. Oxumaq üçün yerdə oturdum, lakin eynəyim olmadığına görə, gözümü qıysam da onu oxuya bilmədim. Müqəddəs Kitabın sözləri çox kiçik idi.

Nəhayət, iki gündən sonra eynəyimlə qələmimi çamadanımdan götürüb gizlicə kamerama qayıtdım. Eynəklə görə bildiyimə görə məktubumun kənarında qalan boş yerlərdə Müqəddəs Kitabdan oxuduğum ayə ilə bağlı qeydlərimi yazdım. Tezliklə ailəmdən gələn məktub Müqəddəs Yazılara istinadlar, dualar və Rəbbin mənə verdiyi fikirlərin qeydləri ilə doldu. Müqəddəs Kitabı nə qədər vaxt

özümdə saxlayacağımı bilmirdim, ona görə də böyük həvəslə ayələri əzbərləməyə başladım.

Səhər 8:00-dan 16:30-a və hətta 17:00-a qədər hər gün günortadan sonra oxumaq üçün kamerama kifayət qədər günəş işığı düşürdü. Müqəddəs Kitabı qapının və ya pəncərənin barmaqlıqlarına söykəyib işıq gələn yerdə bacardığım qədər oxuyurdum. Mən heç vaxt Allahın Kəlamını oxumaq üçün bu qədər darıxmamışdım. Cəmi üç həftə ərzində Yaradılış kitabından Vəhy kitabına kimi oxudum. Diqqətimi cəlb edən hər hansı bir ayəni yadda saxlayırdım. Məzmurlar mənə xüsusilə təsəlli verirdi və 1 Korinflilərə 10:13-cü ayə kimi digər ayələr də məni ruhlandırırdı: "Siz insanın qarşılaşdığı sınaqdan başqa bir sınaqla qarşılaşmadınız. Allah sadiqdir və O sizi gücünüzdən artıq sınağa çəkilməyə qoymaz. Sınaqla yanaşı bu vəziyyətdən çıxış yolu ilə də təmin edəcək ki, tab gətirə biləsiniz."

Tezliklə mən Müqəddəs Kitabı tam oxumaq üçün plan tərtib etdim. Bazar ertəsi Matta İncilini, çərşənbə axşamı isə Markı oxudum. Çərşənbə günü Lukanın, Cümə axşamı isə Yəhyanın İncilini oxuyub bitirdim. Cümə günü gələndə Həvarilərin İşləri kitabını oxuyub bitirdim və növbəti gün Romalılara keçdim. Hər gün mən Müqəddəs Kəlamın yeni kitabına nəzər salırdım. Allahın Kəlamını bu cür gərgin oxumağım bütün Müqəddəs Yazılar haqqında mənə dərin və yeni düşüncələr verirdi.

Mən Müqəddəs Kitabı tamamilə fərqli perspektivlərdən anlamağa başladım. Yaxşı başa düşmədiyim ayələri indi anlayırdım və onlar mənim üçün yeni məna kəsb edirdi. Başa düşmədiyim ayələrin mənası indi aydın olurdu. İstər Əhdi-Ətiqdə, istərsə də Əhdi-Cədiddə Müqəddəs Kitabı haradan açsam, Müqəddəs Ruh orada yazılan ayələrin dərin mənasını mənə öyrədirdi. Gizlicə gətirdiyim qələmdən və ailəmdən gələn məktubdan istifadə edərək Rəbbin mənə açdığı gözəl, həqiqət haqqında fikirlərimi qeyd edirdim. Hər gün Allahın Kəlamı ilə bu qədər vaxt keçirə bildiyimə görə heyrətlənirdim və nə üçün Müqəddəs Kitabı oxumaqdan başqa heç nə etməyə həvəsim olmadığı barədə düşünürdüm.

Ramazan bayramından əvvəl polis akademiyasından ingilis dilində danışan bir neçə gənc tələbə təlim keçmək üçün mühafizəçilərlə həbsxanaya gəldilər. Təcrübəli mühafizəçilər qəbulda oturanda və heç kim gənc kursantlara nəzarət etməyəndə onlardan bəziləri mənimlə çox mehriban davranırdı. Onlarla İsa Məsih barədə danışmaq üçün bir neçə dəfə fürsət düşdü.

"Nə oxuyursunuz?" — deyə gənc tələbə məndən soruşdu.

"Mən İncil oxuyuram" — dedim.

"İncil nədir?" — deyə o soruşdu.

Mən ona dedim: "Ərəbcə "İncil" İsanın Müjdəsi barəsində olan kitabdır".

Söhbətə başqa bir tələbə də qoşuldu. "Bəs onda İncil və Quran arasında fərq nədir?" — deyə soruşdu. Bu, mənə Məsihin necə öldüyünü, onları necə sevdiyini və İsanın Allaha aparan yeganə yol olduğunu izah etmək üçün lazım olan bir sual idi. Hər iki gənc tələbə İncildə yazılanları qəbul edirdilər və söhbətin sonunda bu barədə daha çox eşitmək istədiklərini söylədilər. Rəbbin hətta həbsxanada belə məndən güclü şəkildə istifadə etməsinə görə çox sevindim.

* * *

Altı həftədən sonra cənab Slama son görüşümüzə gəldi. O, ailəmdən mənə başqa bir məktub gətirdi. Bu, qızımın ingilis dilinə tərcümə etdiyi həyat yoldaşımın şəxsi məktubu idi. Eynəyimi taxıb onu oxumağa başladım.

*"Əzizim Peter,*

*Keçən həftə sənin barəndə yeni məlumat aldıq və göndərdiyimiz məktubları oxuya bildiyinə görə şad olduq. İndi sənə daha tez-tez məktub göndərəcəyik.*

*Mən məktubunu gizlətmişəm və tez-tez onu oxuyuram. Çox şadam ki, bu məktubu sən öz əlinlə yazmısan*".

Mən Vandanın bu məktuba bir neçə vacib, gizli detallar daxil etdiyini gördüm. O məni Çexiyada yazın gəlişi, ailəmizin iti və öz valideynləri barədə məlumatlandırdıqdan sonra belə yazmışdı: "İngilis dili müəllimi və onun əri mütəmadi olaraq bizə baş çəkir". Bilirdim ki, bu sözlər mənim təlim aldığım "Şəhidlərin Səsi" təşkilatının Afrika üzrə regional direktor müavininə aiddir. Mən həbsdə olduğum müddətdə Afrikadakı işlərimin çoxunu o icra edirdi.

Vanda tibb sahəsində işlədiyim günlərdən bəri tanıdığım və indi mənimlə maraqlanan əziz dostum, "Şəhidlərin Səsi" təşkilatında işləyən köməkçim Keytin adını qeyd edərək yazırdı: "Vandaya hematologiyadan dərs keçən əmi yenidən bizə qonaq gələcək". Mən uzaqda olduğum müddətdə o, vəzifəmi yerinə yetirir və ailəmə kömək edirdi. "Onun şimaldakı dostları deyirlər ki, çoxlu qar yağıb hər şeyi örtərək ağardıb" sözlərini oxuyanda rahatlandım. Çünki bilirdim ki, Vanda Keytin Şimali Amerikadakı "şimaldan olan dostları" deməklə, "Şəhidlərin səsi" təşkilatının mənimlə bağlı bütün hesabları və şifrələri silmişdi fikrini çatdırmaq istəyir.

Vanda məktubun sonunda qəlbimə toxunan sözlər yazmışdı. O, hər zaman mənim üçün dua etdiyini, darıxdığını, mənə sülh arzuladığını və tezliklə evə qayıdacağıma ümid etdiyini qeyd edirdi. Bu illər ərzində birlikdə keçirdiyimiz gözəl vaxtlarımızı xatırlayırdı. Gecələr yuxuya getməmişdən əvvəl, məni xatırladığını və hər səhər oyananda "ilk günəş şəfəqləri ilə" mənə salam göndərdiyini yazırdı.

Məktub uzun deyildi və həyat yoldaşım deyirdi ki, qələm və mürəkkəbdən istifadə etmək əvəzinə, tezliklə mənimlə üz-üzə danışacağına ümid edir. Vandanın sonra yazdıqları mənə niyə ona aşiq olduğumu, xəstəxanada diqqətimi cəlb etdiyini, onunla evləndiyimi, onu ürəkdən sevdiyimi xatırlatdı. "Bu çətin vəziyyətdə belə, biz tək deyilik. Biz Allahın əlindəyik" — deyə yazırdı. O, məktubu

bu sözlərlə bitirdi: "Səni qucaqlayıb çoxlu öpüşlər göndərirəm. Sənin Vandan".

Cənab Slama və "Niyaba Mendola" adlı polis bölməsində prokurorun iştirakı ilə ailəmə ingilis dilində ikinci məktubu yazmağa yenidən icazə verildi. Mən yazdım:

*"Mənim əzizlərim!*

*Məktublarınız üçün çox sağ olun. Onlar məni çox ruhlandırdı. Çox şadam ki, yaxşısınız. Mən də yaxşıyam. Bütün bu müddət ərzində Rəbb burada mənimlədir və Öz Padşahlığına xidmət etmək üçün məndən istifadə edir. Rəblə gözəl vaxt keçirirəm və sizin hamınız üçün daim dua edirəm.*

*Bu sınaq bizim gücümüzdən artıq deyil və Rəbb sadiq və saleh olmaqla bizim üçün vəziyyətdən çıxış yolu hazırlayıb. Xahiş edirəm, Rəbdə güclü olun və Ona etibar edin, çünki hər şey Onun nəzarətindədir, kameramın açarları da Onun əlindədir.*

*Fevralda mənə göndərdiyiniz dərmanlara görə də təşəkkür edirəm. Məndə hələ də kifayət qədər dərman var. Səhhətim stabildir, yavaş-yavaş qanımda hemoqlobin qalxır. Bundan başqa, gücüm tam bərpa olub və hər gün kamerada çox gəzirəm.*

*Dualarınızı həqiqətən yüksək qiymətləndirirəm və hamınızı nə qədər çox sevdiyimi və sizin üçün nə qədər darıxdığımı sözlərlə ifadə edə bilmirəm.*

*Ümid edirəm ki, dualarımız sayəsində tezliklə azadlığa çıxacağam.*

*Bütün ailə üzvlərimə, dostlarıma, bacı-qardaşlarıma və həmkarlarıma salam deyin.*

*Rəbbin böyük məhəbbəti ilə,*
*Peter*".

* * *

Mayın 5-də pastor Həsən və Monim Milli Kəşfiyyat və Təhlükəzilik Xidmətinin (MKTX-nin) həbsxanasından bizimlə üzbəüz kameraya köçürüldülər. Onları qonşu kamerada görmək məni sevindirdi. Onlar da məni görəndə təəccübləndilər. Çünki sonradan öyrəndiyimə görə, o vaxta qədər onlar mənim artıq azad olunduğumu düşünürdülər. Martın 29-da, mən hələ MKTX-nin həbsxanasında olarkən, onların kamerasının yanından keçərək çamadanımı götürmək üçün mühafizəçinin məni anbar otağına apardığını görmüşdülər. On gündən sonra pastor Kuvanı həbsxanaya gətirdilər.

Bu qardaşları axırıncı dəfə bir ay əvvəl görmüşdüm və onlarla ünsiyyət qurmağı arzulayırdım. Bəzən onlara təkadamlıq kameramın yanında dayanmağa icazə verirdilər və biz pıçıltı ilə danışırdıq. May ayında öyrəndim ki, pastor Həsənin ailəsi onun üçün İncil kitabı göndərib. Mən minnətdar idim ki, indi onun da ruhlanmaq və öyrənmək üçün əlində Allahın Kəlamı var.

Fərqli kameralarda qapalı saxlansaq da, dəfələrlə bir-birimizlə Kəlamdan ruhlandırıcı ayələr bölüşürdük. Kameralarımız cəmi beş metr aralıda idi, amma ventilyatorun gurultusu səsi batırırdı. Məni kiminsə eşidə biləcəyini vecimə almayaraq bərkdən dedim: "Romalılara 8:18-ci ayəni oxuyun! Mən düşünürəm ki, çəkdiyimiz indiki əzablar bizə zahir olacaq izzətlə heç müqayisəyə gəlməz". Əvvəllər bu ayə ilə ailəmi ruhlandırırdım, indisə onu dostlarımı ruhlandırmaq üçün istifadə etdim.

Monim qardaş Müqəddəs Yazılar haqqında söhbətlərimizdə sakit iştirak edirdi, lakin o, digər məhbusların qarşısında Müqəddəs

Kitab ayələrini bərkdən demirdi və ya Kəlamı oxumurdu. Kuva və Həsənin ailəsi Nuba dağlarından olan məsihçilər olsa da, Monim müsəlman ailəsində doğulmuşdu. Buna görə də digər müsəlmanların və Sudanın islamçı hökumətinin nəzərində o, müsəlman idi. Əgər onun məsihçi olduğu aşkar olunarsa, müsəlman məhbusların təhdidlərindən əlavə, üzləşdiyi digər ittihamlara islamdan dönmək kimi əsas ittihamı da əlavə oluna bilərdi. Buna görə də o, həbsdə olarkən Rəbbə imanını gizli saxlayırdı. Bizim qaldığımız həbsxanada bəzi müsəlmanlar Monimdən imam kimi xidmət etməsini xahiş etmişdilər!

Sonra Kuva və Həsən mənə izah etdilər ki, onlar müsəlman ailələrindən olan yeni imanlılara öz ailələrinə Məsihə imanları haqqında necə və nə vaxt danışacaqları barədə ehtiyatlı olmağı tövsiyə edirlər. Həbsxanada və məhkəmədə olmaq Monim üçün bu çətinliyi daha da artırdı.

İki həftə sonra bir mühafizəçi İsveçrə konsulluğunun əməkdaşından mənə bir hədiyyə gətirdi. Paketin içərisində iki şampun və Pol Consonun çex dilində tərcümə olunan *"İsa. Bir Salehin Bioqrafiyası"* adlı kitabı var idi. Kitabı açanda üz qabığının içərisində ailəmdən olan gizli bir məktub gördüm. Orada yazılmışdı: "Biz şadıq ki, sənin vəziyyətin yaxşıdır və sənə yaxşı yemək verirlər".

Təbii ki, bu doğru deyildi. Aprel ayında onunla görüşümdən sonra baş prokuror və konsulluq məmuru vasitəsilə bu məlumat ailəmə çatdırılmışdı, əslində isə vəziyyətim daha pis idi. Yeməyim gündə dörd dəfədən cəmi iki dəfəyə keçmişdi və gecələr kameramda siçovullar gəzirdi.

Demək olar ki, bütün cəhətlərinə görə bu polis idarəsindəki şərait indiyə qədər qaldığım yerlərdən qat-qat pis idi. Amma vəkilimlə müntəzəm görüşmək və ehtiyaclarımı ödəmək üçün məndəki Sudan valyutasından istifadə etmək imkanım olduğuna görə İsveçrə konsulluğunun əməkdaşı ailəmə demişdi ki, vəziyyətim yaxşılaşıb. Ailəmin indi mənim üçün çox narahat olmayacağını düşünəndə təsəlli tapırdım.

Məktubu oxumağa davam etdim. Kilsə üzvlərinin mənim üçün oruc tutduğunu və hər axşam saat 20:00-da müntəzəm dua etdiyini öyrəndim. Oxumağı dayandırdım və Praqa ilə Xartum arasındakı vaxt fərqini hesabladım. *"Saat səkkiz... Yatmaq üçün uzandığım vaxtdır!"* — deyə mən düşündüm. Bilirdim ki, kilsəmin sədaqətli duaları mənə hər gecə rahat yuxuya getməyə imkan verirdi.

Kitabın üz qabığının içərisində ikinci məktub var imiş və bu, qızım Vavanın şəxsi məktubu olduğunu görüb çox sevindim. Onun sözlərini oxuyarkən Sudanda həbsdə olduğum müddətdə qızımın böyük bir məsuliyyəti öz üzərinə götürdüyünə görə heyran oldum.

O, mənə yazırdı ki, qardaşı Peter bakalavr işini yazır və son anda stresə düşməmək üçün kifayət qədər bu işə görə vaxt ayırıb. Vava həmçinin qeyd edirdi ki, məktubumda yazdıqlarım həqiqətən onu və bütün ailəni ruhlandırdı. O belə yazırdı: "Məktubun anama yeni qüvvət verdi". Bunu eşidəndə həyəcanlandım. Bu qədər uzaqda, Sudanda həbsdə olsam belə, ailəmə dəstək olub onlara sevinc bəxş edə bilmişəm.

Həyat yoldaşım Vandanın ad günü yaxınlaşırdı. Onunla evləndiyimizdən sonra ilk dəfə idi ki, onun ad günündə iştirak edə bilməyəcəkdim. Bu fikir məni kədərləndirdi, lakin Peter və Vavanın onun üçün yaxşı ad günü hədiyyəsi seçdiklərini biləndə çox sevindim. Onlar analarına yeni telefon almağa qərar vermişdilər, çünki bu günlərdə çoxları onunla əlaqə saxlayırdı. Özümü saxlaya bilmədim, gülümsədim. Bir anlıq qızım Vavanın Vandaya yeni telefonu necə idarə etməyi öyrətməsini təsəvvür etdim.

Həyat yoldaşım mənim üçün çox darıxırdı və onun uşaqların yanında öz hisslərini gizlətməyə çalışdığını təsvir edirdim. "Bəzən anam bizim yanımızda sənin üçün darıxmağını gizlətməyə çalışır, amma gizlədə bilmir" — deyə Vava məktubunda qeyd edirdi. Mən Vandanı fikirlərimdə təsəvvür etdim. Tənhalıq və çarəsizlik hissi keçirəndə onun çöhrəsini qəm bürüdüyünü gözümün önündə canlandırdım. Mən onun uşaqlarımızın xatirinə güclü olmağa çalışdığını və mənim orada olmamağımın ağrısı ilə mübarizə apardı-

ğını təsəvvür edirdim. Övladlarımın onun yanında olması, onunla ünsiyyət yaratması, ona təsəlli verməsi mənə bir qədər rahatlıq gətirirdi. Vanda tək olsaydı və bu vəziyyəti təkbaşına həll etməyə məcbur olsaydı, onun öhdəsindən gələ bilməyəcəkdi. Qızım onun Müqəddəs Kitabı və həmçinin Almaniyada Protestant İslahatının başlamasından təxminən yüz il əvvəl, XV əsrin əvvəllərində Praqada yaşamış çex ilahiyyatçısı və kilsə islahatçısı Yan Husun məktublarını oxuduğunu görmüşdü. Yan Hus Romanın qeyri-Müqəddəs Yazılarına qarşı yazıb təbliğ etdiyinə görə Konstansda həbs olundu. O, 1415-ci ildə odda yandırılmağı gözləyərkən *"Konstansadan məktublar*" yazdı.

Yan Husun altı yüz il əvvəl həbsxanada yazdığı sözlər indi mənim Vandamı 2016-cı ildə həbsdə olan ərini gözləyib narahat olarkən ruhlandırırdı. Öyrəndim ki, digər ailə üzvləri və kilsəmizdən olan dostlar da həyat yoldaşımı dəstəkləyir. Bilirdim ki, onlar hər gün onunla danışıb daim bizim üçün dua edirlər.

Oğlum haqqında düşünəndə gülümsədim. Kaş ki, onu ruhlandırmaq üçün evdə olardım. Qızım Vava mənə öz işi haqqında yazarkən, illər öncə xəstəxanada ilk işimi xatırladım. Qızım Praqadakı xəstəxanada işə düzəldiyini söylədi, lakin işə getmək təxminən bir saat çəkəcəkdi. O, işə avtobusla gedə bilərdi, lakin nişanlısı Honza ona avtomobilindən istifadə etməyi təklif etmişdi. Qızım yazırdı: "Honza burada evdə bizə kömək edir. Bağdakı ağaclarımızı sulayır, ona görə də balaca əriklər bitməyə başlayıb. Biz həm də sənə görə və azadlığın üçün birlikdə dua edirik".

Vava ev xərclərində onlara kömək edən "Şəhidlərin səsi" təşkilatının işçiləri ilə gündəlik əlaqə saxladığını söylədi. O, ailəmin ipotekanı necə ödəyəcəyi, maliyyə işlərini necə idarə edəcəyi barədə narahat olduğumu bilirdi. Qızımın yazdığı "bütün xərclərimiz ödənilib" sözlərini oxumaq mənə böyük arxayınlıq gətirdi. Onun "bizə böyük dəstək olan" Keyt "əmisi" ilə tez-tez əlaqə saxladığını bilmək dualarıma cavab idi.

Vava mənim üçün dua edən dostlarımdan birinin səhhəti barədə yeni xəbərlə məni məlumatlandırdı və məktubunu ailəmin Xarici İşlər Nazirliyi və Qahirədəki səfirliklə sıx əlaqə saxlaması barədə yazmaqla bitirdi. Xarici İşlər Nazirliyi mənim üçün başqa bir vəkil təyin edəcəkdi. Qızım yazırdı:

> *"Heç nə üçün narahat olma. Sənin üçün darıxıram, ata.*
> *Qızın Vava, həyat yoldaşın Vanda və oğlun Peter".*

Məktubu oxuyub qurtardım və dərhal mühafizəçiyə zəng edib ondan kağız istədim. Qəribədir ki, o mənim üçün kağız tapıb gətirdi və tezliklə ailəmə şifrəli sözlərlə məktub yazmağa başladım. Lakin əmin deyildim ki, yazdığım məktubu göndərə biləcəyəm.

> *"Sizin məktublarınız məni çox ruhlandırdı, xüsusən də, eşidəndə ki, mənim üçün imanlı bacı-qardaşlarımız hər gün dua edib oruc tuturlar! Əminəm ki, Keytin şimalda yaşayan dostları da bunu edirlər.*
>
> *Səfirlik əməkdaşının son səfəri zamanı gətirdiyi çex dilində Müqəddəs Kitabı alanda çox sevindim! İlk iki həftə ərzində kitabın yarıdan çoxunu oxudum! Beş aydan sonra mən Allahın Kəlamı üçün çox darıxmışdım! Mən Kəlamı, xüsusilə də, Zəburları oxuduqca ruhlanıram.*
>
> *Rəbbimiz mənə bu vəziyyətdə səbirli olmağı öyrədir (Romalılara 12:12-yə baxın). Əvvəlki məktubumda yazdığım kimi, Rəbb bu sınaqdan uğurla keçmək üçün bizə güc verir (1 Korinflilərə 10:13-ə baxın). Hər gün Onunla əla vaxt keçirirəm. Aprelin 20-dən yenidən kameramda təkəm, ona görə də Kəlam oxu-*

*yub dua edirəm, ilahi oxuyuram. Rəbb gəncliyimdə və ölkəmizdə kommunist dövründə öyrəndiyim bir çox ilahilərin sözlərini yadıma salır.*

*İndi Müqəddəs Kitabı oxuyanda və burada ilk beş ay ərzində Rəbbin mənə dediyi ayəni tapanda, sanki itirilmiş mirvarimi tapmışam! 1 Peter 4:12-14 ayələrini oxuyanda da çox ruhlanıram. Əminəm ki, siz də bu ayələrdən ruhlanacaqsınız!*

*Qızım Vanda və oğlum Peterin dərslərini yaxşı oxuması haqqında eşidəndə Rəbbə çox minnətdar oldum. Mən sizinlə həqiqətən fəxr edirəm, uşaqlar! Şadam ki, ananız yaxşı müəllimlə ingilis dilini ciddi şəkildə öyrənməyə başlayıb. Bu sənə lazım olacaq, Vanda, mən azadlığa çıxandan sonra mənimlə səyahət etməli olacaqsan ki, mənim üçün narahat olmayasan!:-)*

*Fiziki cəhətdən yaxşıyam. İyirmi kilo arıqlasam da, özümü yaxşı və güclü hiss edirəm. Mənim qan təzyiqim də normaldır.*

*Burada işlər çox yavaş gedir, ona görə də səbirli olmalı və Rəbbə etibar etməliyik, çünki kameramın açarları Onun əlindədir.*

*Mən ümidimi insanlara yox, Ona bağlamışam. Bizə nəzarət edən Odur. Biz hamımız sevən Rəbbimizin əlindəyik və Padşahımız qayğımıza qalır!*

*Hamınızın ürəyimdə necə əziz olduğunuzu sözlə ifadə edə bilmirəm! Mən sənin üçün çox darıxıram! Sizi*

*tezliklə görmək və evdə sizinlə birgə olmaq ümidi ilə sevinirəm! Hər gün Müqəddəs Kitabı oxuyub fasilə edəndə hər biriniz üçün dua edirəm və hamınıza xeyir-dua verirəm (Saylar 6:24-26).*

*Böyük sevgi ilə,*
*Peter*".

Sonra kiçik bir kağız parçası tapıb lazım olan əşyaların siyahısını — dabandaşı, müxtəlif tualet əşyaları, kif və bakteriya əleyhinə kremi qeyd etdim. Kağız parçasını dörd yerə qatladım və İsveçrə konsulluğunun məmurunun gəlişini gözlədim.

O, beş gün sonra, mayın 24-də gəlib çıxdı. Məni onunla söhbət etmək üçün kameradan çıxaranda yazıb qatladığım kiçik kağız parçasını əlimdə tutdum. Görüşərkən əlini sıxıb qatlanmış kağızı astaca onun əlinə verdim. O, görüşdən çıxıb Avropaya qayıdanda məktubumun ailəmə çatması üçün dua etdim.

# 18

May və iyun aylarında bütün gün ərzində, hətta binanın içərisində belə temperatur əlli dərəcədən yuxarı olurdu. Mən əvvəllər qadınların saxlanması üçün nəzərdə tutulmuş kiçik, təkadamlıq kamerada qalırdım. Kamerada tək olub çamadanımdan götürdüyüm şortiki geyinə bildiyim üçün şükür etdim. Əgər mən hələ də böyük kamerada olsaydım, müsəlman kamera yoldaşlarım dizlərim görünürdüyünə görə məni həyasız hesab edəcəkdilər. Şortik geyinməyimə baxmayaraq otağımdakı isti hava məni çox haldan salırdı.

Mayın 21-də eşitdim ki, qanundan kənar olan insan haqları qrupunun on iki üzvü polis idarəsinə gətirildi. Onlardan biri, körpəsi olan qadın həmin gün evə buraxıldı. Doqquz kişi əsas kameraya sıxışdırıldı. Mən adətən qadınlar üçün nəzərdə tutulmuş kamerada tək qaldığım üçün digər iki qadın polis bölməsinin qəbul otağına köçürülməzdən əvvəl ofis otaqlarından birində saxlanıldı. Onlar adətən oturub televizora baxan mühafizəçilərlə eyni otaqda qalmalı olurdular. Bu qrupda olanların irqi fərqli idi və onlar müxtəlif qəbilələrə məxsus idilər. Onlardan bəziləri əl-Bəşirin rəhbər qrupundan çıxmış Şaiqiya qəbiləsindən idilər və Sudan prezidenti ilə razılaşmırdılar. Həmin qrupda ofisdə təcrübə toplamaq üçün işləyən kamerunlu bir qadın var idi.

Digərləri isə demək olar ki, hamısı ali təhsilli və böyük beynəlxalq təcrübəyə malik olan sudanlılar idi.

Bu qrupun rəhbəri ürəyi xəstə olduğuna və izdihamlı otaqda boğulduğuna görə bir polisə rüşvət verdi ki, mənim tək kamerama köçürülsün. O, ingilis dilində səlis danışırdı və mən onunla danış-

maqdan həzz alırdım. Vəkilləri onun üçün əlavə yemək — qatıq, sendviç, çay paketləri gətirəndə yeməyini mənimlə bölüşdü və üç həftə dəbdəbəli həyat yaşadım.

Bu qrupun üzvlərindən biri Beynəlxalq Cinayət Məhkəməsində müxbir işləmişdi və bu çox təhlükəli iş idi. BCM ilə əlaqəsi olan hər kəs Sudanda xain hesab edilirdi. Bu qurum tərəfindən prezident Bəşir müharibə cinayətləri və insanlığa qarşı cinayətlər törətməkdə ittiham olunurdu. Müxbir mənə dedi ki, Sudan hökumətinin təhlükəsizlik qüvvələri onun işlədiyi ofisə basqın edildikdən sonra o, Xələfələ Afifiyə səfəri zamanı həbs edilib. MKTX-nin əməkdaşları qrupdan olan üçüncü kişinin noutbukuna homoseksual pornoqrafiya şəkilləri yerləşdirmişdilər. Hökumət onların hamısını prezident əl-Bəşiri tənqid etməkdə, Sudandakı seçkiləri izləməkdə və Sudan xalqını səsvermə hüququ uğrunda mübarizə yollarını öyrətməkdə ittiham edirdi.

Mən Müqəddəs Kitabı oxuyanda kamera yoldaşım da Quran oxuyurdu. O, "Niyaba Mendola" adlı polis bölməsində digər məhbuslar kimi sakit bir müsəlman kimi görünürdü və MKTX-nin həbsxanasındakı İŞİD kamera yoldaşlarım kimi döyüşkən müsəlman deyildi. Məhbus yoldaşım Qurani-Kərimdə maraqlı yerlərə rast gələndə mənə Müqəddəs Kitabda bu mövzuda deyilənlərlə bağlı suallar verirdi. Mən hər gün Rəbbə dua edirdim ki, bu insanın ürəyini açsın və Özünü Xilaskar, Rəbb və Allah kimi ona göstərsin.

MKTX-nin zabitlərindən biri başa düşdükdə ki, günlərimizi ingilis dilində danışaraq keçirtməkdən həzz alırdıq, bizə qəzəbləndi və kamera yoldaşımı oradan çıxarmağı əmr etdi. Mən kamera yoldaşımın çıxıb getməsinə görə narahat oldum və yayın qalan hissəsini otağımda tək qaldım.

* * *

İyunun 12-də "Niyaba Mendola" adlı polis bölməsində İsveçrə konsulluğunun əməkdaşı məni növbəti dəfə ziyarət etdi. Ailəmdən

mənə xəbər gətirdi. Öyrəndim ki, onlar mayın 19-da məktubumu alanda çox ruhlanıblar və sözlərimi oxuyanda ağlayıblar! Ailəm Müqəddəs Kitabdan bütün qeyd etdiyim ayələri tapıb oxuyublar. Həmin ayələr həqiqətən mənim vəziyyətimə uyğun gələn təsirli sözlər idi. Onlardan biri Luka 18:7-ci ayə idi: "Məgər Allah Öz seçdiklərini, gecə-gündüz Ondan imdad istəyənlərin haqqını qorumayacaqmı? Onları çox gözlədəcəkmi?" Onlar oxumaq üçün Müqəddəs Kitab tapdığımı biləndə çox sevindilər. Onlar bunu "göydən göndərilmiş bir möcüzə" adlandırdılar və Müqəddəs Kitabın mənə gəlib çatmasında iştirak edən bütün insanlara görə Allaha təşəkkür etdilər. Hər gün Müqəddəs Yazıların həyat verən sözlərini — əsrlər boyu mənim kimi Məsih uğrunda əzab çəkmiş insanlara təsəlli verən sözlərini mənə çatdırdığına görə Allaha təşəkkür edirdim.

Məktubda öyrəndim ki, ailəm mənim üçün təkcə kilsədə deyil, həm də evdə hər gün saat səkkizdə ailəmizdəki dua saatında dua edir. Mayın 29-da bazar günü kilsəmizin pastorunun vəzi ailəm üçün xüsusi məna kəsb edirdi. Həmin səhər onlar "Allahın yaxınlığını hiss etdilər". İsa Luka 18:1-ci ayədə şagirdlərinə həmişə dua etməyi, ruhdan düşməməyi və təslim olmamağı xatırladırdı. Bu sözləri oxuduqda mən də Allahın yaxınlığını hiss etdim. Ayələr mənə duanın qüdrətini xatırlatdı. Allahın övladları istər həbsxanada, istərsə də kilsədə olsunlar, onları sevən və qayğılarına qalan Ata Allahın lütf taxtına cəsarətlə yaxınlaşa bilərlər.

Məktubda deyilirdi: "Biz sənin üçün çox darıxırıq və səbirsizliklə səni gözləyirik. Çox istərdik ki, bizimlə olasan. Hamı sənə salam göndərir, sənin haqqında düşünür və durmadan dua edir". Vanda izah etdi ki, mənim üçün çox qorxur və narahatdır, lakin məktubumu oxuyandan sonra Allahın rahatlığı onun ürəyini sakitləşdirdi. Ailəmin mənə lazım olan bütün əşyaları qısa zamanda göndərəcəklərini biləndə minnətdar oldum. Məktubu yerə qoyub başımı ovuşdurdum və həyat yoldaşımın son cümləsini düşündüm: "Həqiqətən hamımız evdə bir yerdə olmaq istəyirik". O, həmçinin Getsemani bağında İsanın əzabları haqqında Mark 14:36-cı ayədə

yazılanları qeyd edirdi: "Abba — Ata, Sənin üçün hər şey mümkündür. Bu kasanı Məndən uzaqlaşdır. Amma Mənim yox, Sənin iradən olsun".

Əziz dostum və köməkçim Keyt məktubun axırına son qeydini əlavə etmişdi. Onun sözlərini oxumaq məni çox ruhlandırdı: "Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir" (1 Korinflilərə 12:26). Keytin vasitəsilə Rəbb məni çox ruhlandırdı, başqaları da əzablarıma şərik idi. Mən bu dünyada məsihçilərin ümumi bədəni olan İsa Məsihin bədənindən kəsilib atılmamışam. Xeyr, mən Məsihin bədənin bir hissəsi, Onun Sudanda bir nümayəndəsi idim. Həbsxanada oturub əzab çəkdiyim halda başqa məsihçilərin mənim üçün dua etdiklərini bilmək ürəyimi sevinclə doldurdu.

Yenə də onların məktubuna sevinclə cavab verdim:

*"Mənim əzizlərim!*

*Bu gün sizdən aldığım məktub məni çox ruhlandırdı! Bütün ruhlandırıcı sözlərə və ayələrə görə təşəkkür edirəm. Üç həftə ərzində bütün Müqəddəs Kitabı oxuyub bitirdim və onu ikinci dəfə oxumağa başladım. Buna görə də Müqəddəs Yazıları, xüsusən də Zəbur kitabını oxuyanda (Məzmur 62:6) böyük sevinc, (Məzmur 86:16) güc, ümid (Məzmur 62:6) və təsəlli (Məzmur 94:19) əldə etdim! Mənə və ailəmizə etdiyi bütün yaxşılıqlara görə qəlbim Rəbbə minnətdarlıqla doldu. Mən, xüsusilə Məzmur 103:1-6-cı ayələrini minnətdarlıq göz yaşları ilə oxudum və 103-cü Məzmurun demək olar ki, hamısını əzbərlədim. Əminəm ki, siz də onu oxuyanda ruhlanırsınız.*

*Belə düşünürəm ki, çəkdiyimiz indiki əzablar bizə zahir olacaq izzətlə heç müqayisəyə gəlməz (Romalılara 8:18). Biz nə üçün və necə dua etmək lazım olduğunu bilmirik, lakin Ruh Özü dillə deyilməyən ahlarla vəsatətçilik edir (Romalılara 8:26-28). Biz bilirik ki, hər şey birlikdə Allahı sevənlərin, Onun məqsədinə görə çağırılanların xeyrinə işləyir!"*

Mən bir anlıq dayandım və yaxınlıqdakı kamerada olan məhbuslarla Müjdəni bölüşmək imkanları barədə onlara necə danışacağımı düşündüm. Polis məmurlarının başa düşməyəcəyi şifrəli sözlərdən istifadə edərək əkinçi məsəlindəki "toxumların bir hissəsi münbit torpağa düşdü" ayəsini düşündüm.

*"Son üç həftə ərzində mən Efeslilərə 6:15-ci ayəni yenidən yaşayıram. Dua edirəm ki, Matta 13:23-cü ayədə yazılanlar tezliklə baş versin."*

* * *

İsveçrə konsulluğunun məmuru və cənab Slama ilə polis bölməsində görüşüm bütün yay fəsli ərzində davam etdi. Onlar həyat yoldaşıma, qızıma və oğluma yazdığım məktubları aparıb onlardan da mənə gətirirdilər. İsveçrə konsulluğunun məmuru mənə ailəmdən istədiyim bütün lazım olan əşyalarla dolu bir paket də çatdırdı. Allahın mənə qayğı göstərməsinin müxtəlif yolları məni həmişə heyrətləndirirdi.

Növbəti ay yarım ərzində qızım Vava tibb fakültəsini bitirib həkim oldu, oğlum Peter isə bakalavr dərəcəsini qazandı. Bu hadisələri əldən verdiyim üçün kədərləndim, amma bilirdim ki, həbs olunmağımda Rəbbin məqsədi var. Mən həm də əmin idim ki, Rəbbin ailə üzvləri üçün xüsusi planı var. Allah dəfələrlə mənə sadiq olduğunu göstərdi və bilirdim ki, O, bizi tərk etməyəcək.

Mən həbs olunmamışdan üç il əvvəl qızım Vavanın tibb fakültəsini bitirəcəyi günü yuxuda görmüşdüm və həmin yuxu gerçəkləşdi. İndi isə həbsdə olduğum üçün onun tibb məktəbini bitirməsini görmədim. Oğlum üçün də çox darıxmışdım.

Bir dəfə cənab Slama mənə baş çəkərkən o, ailəmdən başqa bir bağlama çatdırdı və orada ilahilər kitabı var idi. Belə dəyərli kitabı görəndə çox sevindim. Müqəddəs Kitab, indi isə ilahilər kitabı mənim üçün əsl xeyir-duadır! Həmişə olduğu kimi, konsulluq məmurunun iştirakı ilə bu əşyaları aldığıma görə sənədləri imzaladım, lakin prokuror onları öz kamerama aparmağa icazə vermədikdə çox məyus oldum. Mən əliboş və peşman halda otağıma qayıtdım.

Həmin gün polis akademiyasının bir tələbəsi yanıma gəldi və baş prokurorun məni kabinetində gözlədiyini bildirdi. Otağa girəndə gördüm ki, o, ailəmdən gələn paketdəki əşyaları yoxlayır və ilahilər kitabını qaldıraraq soruşdu: “Bu nədir?”

Mən dedim: “Bu, ilahilər toplusudur”.

O soruşdu: “Məgər sən mahnı oxuya bilirsən?”

“Əlbəttə, oxuya bilərəm” — deyə cavab verdim.

Prokuror dedi: “Onda mənim üçün bir mahnı oxu”. Mən Müjdəni prokuror və polis akademiyasının tələbəsi ilə bölüşmək üçün bu fürsətdən istifadə etdim. Ona görə də təkadamlıq kamerada qaldığım ilk gecədə Müqəddəs Ruhun mənə verdiyi gözəl himni oxumağa başladım. Bu, Handelin “Sənə izzət olsun” ilahisi idi. Prokuror və tələbə üçün mahnıdan üç misra oxudum.

Mahnını bitirdim, amma tez təslim olmamaq üçün danışmağa başladım: “İcazə verin, sizə bu mahnının nədən bəhs etdiyini söyləyim!” Mən müsəlman mühafizəçilərinə İsa Məsihin həqiqətini söyləmək üçün daha bir fürsət əldə etdiyimə görə minnətdar idim və Müjdəni bu iki kişi ilə bölüşdüm. Kamerama qayıdanda gülümsədim. Mən özümü Babil əsirliyinə aparılan israillilər kimi hiss etdim: “Bizi əsir edənlər bizdən nəğmə oxumağımızı tələb edirdilər, bizə zülm verənlər onları şənləndirməyimizi istəyirdilər, “bizim üçün

Sion nəğmələrini oxuyun" deyirdilər" (Məzmur 137:3). Bilirdim ki, Rəbb yol versə, yenə də ilahi oxuyacağam.

İyulun 18-də İsveçrə konsulluğunun məmuru və onun yeni həmkarının səfərindən sonra mən ailəmə növbəti məktub yazdım. Mən onları ruhlandıraraq bildirdim ki, çətinliklərimizdə möhkəm dayanmalıyıq. Əbəs yerə əziyyət çəkmədiyimizi və əzablarımızda Allahın böyük məqsədi olduğunu onlara xatırlatdım. Onlara yazdım ki, həbsxanada vaxtımdan istifadə edərkən Allahın Kəlamını öyrənirəm və daima Rəbbin hüzuruna görə sevinirəm. Mayın 1-dən mən Əhdi-Ətiqi üç dəfə oxumuşdum və Əhdi-Cədidi beşinci dəfə idi ki, oxuyurdum. Rəbb mənə yeni bir şey göstərirdi!

Hətta bu çətinliyə görə Allaha şükür etdikdə mən böyük sülh, sevinc, güc və ümid mənbəyi tapırdım. Çünki Müqəddəs Kitab bizə deyirdi ki, hər vəziyyətdə Ona şükür etməliyik (1 Saloniklilərə 5:18). Ailəmə xatırlatdım ki, biz Rəbbi gözləyərkən imanımızda möhkəm dayanmalı və cəsarətli olmalıyıq (Məzmur 31:24). Çünki sevən Rəbb bizi Öz əlində möhkəm saxlayıb qoruduğuna inanmalıyıq (Məzmur 139:5). Bizə nəzarət edən də Allahdır və Rəbbin sirli iradəsini yerinə yetirmək üçün Onun Öz yolları var. Rəbbin yollarını görə bilmədiyimiz və ya başa düşmədiyimiz halda belə, ürəyimiz Ona həmd etməyə və Onu tərifləməyə yönəlməlidir (Məzmur 109:30-31).

Kamerada oturub gözlədiyim müddətdə Tanrının fəal hərəkətdə olduğunu bilmək çox gözəl bir şey idi. O, Sudanda hakimiyyətdə olan insanların ürəyini istədiyi tərəfə çevirə bilərdi (Süleymanın məsəlləri 21:1). Bu çətin vaxtda Allah bizə sədaqətlə kömək edir, bizi qoruyur, təsəlli verirdi ki, bir gün belə vəziyyətlə üzləşən insanlara biz də təsəlli verə bilək (2 Korinflilərə 1:3-7). Məktubumda ailəmə xatırlamağa çağırdım ki, bu qısa çətinlik, hazırda hamımız üçün ağrılı olsa da, bir gün Rəbbə izzət gətirəcək (2 Korinflilərə 4:17-18).

Məktubun sonunu bu sözlərlə bitirdim: "Siz həmişə ürəyimdə və fikrimdəsiniz. Hər zaman sizin üçün Allaha dua və minnətdarlıq

edirəm. Tezliklə hamınızı görməyi və sizinlə birgə evdə olmağı səbirsizliklə gözləyirəm!"

* * *

Bir nəfərlik kamerada Müqəddəs Kitabı öyrəndiyim vaxtdan həzz almağıma və möcüzəvi, gözəl ilahiləri oxumaq imkanına baxmayaraq, bəzən kədər və özümə yazığım gəlmək anları ürəyimi və düşüncəmi zəbt edirdi. Rəbbin mənim rahatlığım və sevincim olduğunu bəyan etməklə bu hissləri necə aradan qaldıracağımı öyrənsəm də, bəzən belə hisslər yenə də məni bürüyürdü.

Bir gün günortadan sonra özümə yazığım gələndə qəflətən fikrimi kameramın divarındakı görüntü cəlb etdi. Mən görüntüdə Hayle Nayzgi, həkim Kiflu Gebremeskel və Kidane Ueldoy adlı üç eritreyalı dostumun təsvirini gördüm. Onlar bir neçə il əvvəl Eritreyaya səfər edən zaman tanış olduğum kilsə rəhbərləri idilər və onların hamısı məsihçi imanına və kilsə fəaliyyətlərinə görə hələ də həbsdə idilər. Çox güman ki, onlar saysız-hesabsız günlərini gündüzlər dözülməz dərəcədə isti, gecələrsə çox soyuq olan yük konteynerlərində keçirmişdilər. Onlar on iki il həbsxanada əziyyət çəkdilər.

Sonra divardakı şəkil itdi, lakin Rəbbin mənə nə demək istədiyi aydın fikrimdə qaldı: "Niyə şikayət edirsən? Niyə özünə yazığın gəlir? Sən cəmi altı aydan çox həbsdəsən, bəs onlar? Bəs Eritreyadan olan qardaşların? O gündən etibarən mən bu üç əziz məhbus yoldaşım üçün güclü dualar etdim və Rəbdən xahiş etdim ki, əzablarında onlarla birlikdə olsun. Həbsdə olduğum müddətdə Tanrı Çindən, Şimali Koreyadan və Orta Asiyadan olan digər məsihçi məhbusları, kişi və qadınları yadıma saldı. Böyük şahid buludları içində bu cəsarətli imanlılar üçün dua etdikcə, mənim gündəlik daşıdığım çarmıx daha da yüngülləşirdi.

* * *

Tezliklə cənab Slama yenidən mənə baş çəkdi və bu dəfə mənimlə vidalaşmağa gəlmişdi. Bu, onun Avstraliyada yeni vəzifəyə getməzdən əvvəl Sudana son səfəri idi. Biz həmişəki kimi baş prokurorluqda görüşdük, lakin bir neçə dəqiqədən sonra prokuror təsadüfən otaqdan çıxdı.

Cənab Slama cəld ayağa qalxdı. Cibindən mobil telefonunu çıxarıb mənə verib dedi: "Bu mənim telefonumdur. Zəng edib ailənlə danış".

Mən tələsik telefonda nömrəni yığdım. Otuz saniyə ərzində qızımın səsini eşidib onunla danışa bildim. Telefonla danışığı bitirəndən bir neçə saniyə sonra baş prokuror kabinetə qayıtdı və bu qeyri-adi vəziyyət mənə aydın oldu. O, bu vaxt ərzində mənə ailəmə zəng etməyə icazə veribmiş. Buradakı dəhşətli bir vəziyyətin ortasında mənim üçün bu gözəl bir lütf anı idi.

* * *

Hər ayın onunda həbs olunmağımı qeyd edirdim, görəsən işim nə vaxt məhkəməyə göndəriləcək? Ya Rəbb, mən nə vaxta qədər burada olacağam? Yuxuda Rəbb mənim sualıma cavab verdi. Qızmar iyulun sonunda daha bir yuxu gördüm. Yuxuda hündür təpəyə aparan uzun yolda bir adamla yanaşı gedirdim. Bu adam sentyabrın əvvəlində cənab Slamanı əvəz edən yeni təyin olunmuş konsulluq məmuru idi. Mən ondan ərəb dilində danışa bilməsini soruşmağa başladım. Rəbb, bu yuxu vasitəsilə demək istəyirsən ki, mənim üçün ərəbcə danışan, məhkəmə görüşlərini daha yaxşı anlayan bir konsulluq əməkdaşı göndərəcəksən? Yuxuda mən yol boyu addımladıqca başıma qar yağmağa başladı. *Niyə qar? Ya Rəbb, demək istəyirsən ki, iyulda, avqustda, sentyabrda deyil, yanvarda, fevralda azadlığa çıxacağam?*

Bütün yay həbsxanada qaldım. Tualetlərdən yalnız biri işləyirdi, duş otağı isə daha işləmirdi, ona görə də yuyunmaq üçün krandan axan su ilə yaxalanırdıq. Yağışdan sonra isə su qəhvəyi

və çirkli olurdu. Suyu bir vedrəyə töküb palçığın dibinə çökməsini gözləyirdik və sonra suyu başqa bir qaba süzürdük. Bu proses əziyyətli, lakin vacib bir iş idi və indiyənə kimi o sudan heç birimiz xəstələnməmişdik.

Ancaq bir gün tualetin yanında qaldığı üçün çirklənmiş vedrəni təmizləmək qərarına gəldim. Çox keçmədi ki, vedrəni yuduğum sağ əlimdə irinli iltihab əmələ gəldi. Tezliklə infeksiya bütün bədənimə yayıldı. Dərimdə yaranan iltihab qollarımın və ayaqlarımın tük köklərini qıcıqlandırırdı. Bütün bədənim dəhşətli dərəcədə qaşınırdı. Mən Əyyubu yadıma saldım. Onun bədəni başdan ayağa kimi iyrənc yaralarla örtülmüşdü və o, kül içində oturub qaşınırdı (Əyyub 2:7-8).

Avqustun 3-də Ədliyyə Nazirliyi "Niyaba Mendola" adlı polis bölməsində yoxlama işi apardı. İnsan haqları qrupu öz vəkilləri vasitəsilə qeyri-insani şəraitin olmasından şikayət etmişdi və indi ən yüksək rütbəli prokuror məsələyə baxmaq üçün özü gəlmişdi.

O, bütün binanı gəzib dustaqların şəraitini araşdırarkən dayanıb kameramın qapısının pəncərəsindən içəri baxdı.

"Hər şey qaydasındadır?" — deyə soruşdu. Nəhayət! İşimi müdafiə etmək üçün fürsət yaranmışdı. Mən dedim: "Düzünü desəm, burada heç nə yaxşı deyil. Artıq dörd aydır ki, burada saxlanılıram, amma hələ də məhkəməni gözləyirəm". Kişi səssizcə qulaq asdı, sonra çıxıb getdi.

Ertəsi gün kamerama bir mühafizəçi gəlib dedi: "Bütün əşyalarını götür. Sizi başqa həbsxanaya köçürürlər". Prokurorun mənim sözlərimdən qərar çıxarmasına görə təəccübləndim və tez paltarlarımı, əşyalarımı, Müqəddəs Kitabımı, ilahilər toplusu olan kitabımı və eynəklərimi götürüb təkadamlıq kameradan çıxdım.

Bir neçə dəqiqə ərzində pastor Həsən və digərləri mənə qoşuldular və biz birlikdə polis bölməsini tərk etdik. O zaman hara aparılacağımızın heç bir əhəmiyyəti yox idi. Şübhəsiz ki, gedəcəyimiz yer "Niyaba Mendola" adlı polis bölməsindən daha yaxşı olacaqdı.



# 19

Avqustun 4-də Sudanın baş prokuroru “Niyaba Mendola” adlı polis bölməsindəki pis şəraitimiz barədə bizim adımızdan şikayət etdi və bizim dördümüzü — pastor Həsən, pastor Kuva, Monim və məni Xartumdakı məhkəmə binasının yaxınlığındakı həbsxana kamerasına köçürdülər. O, Sudandakı bütün prokurorlara, o cümlədən MKTX-nin həbsxanasında işlərə baxanlara nəzarət edirdi. Məhbus yoldaşlarım mənə dedilər ki, bu prokuror hər şeyi göstəriş verildiyi kimi icra edən MKTX-nin prokurorlarını bəyənmir. Üç saatdan sonra hakim öz qərarını verdi və biz daha yüngül rejimli, az mühafizə olunan Omdurman şəhərindəki həbsxanaya köçürüldük.

Oraya gələndə bizə aydın oldu ki, o həbsxana iki hissəyə bölünüb. Oranın “Kolumbiya” bölməsi tavanı olmayan bir yerdə, yatmağa məcbur edilən minə yaxın narkotik alverçilər, sərxoşlar və oğrulardan ibarət idi. Yağış yağanda oranı su basırdı və toz palçığa çevrilirdi.

Daha kiçik “VİP” bölməsi üç yüzə yaxın məhbus üçün nəzərdə tutulmuşdu və burada əsasən, saxta pul çıxarmaqla məşğul olanlar idi. Bu məhbuslara xüsusi imtiyazlar verilirdi. Onlara metal çarpayılarda və döşəklərdə yatmağa icazə verilirdi və çöldə oturmaqları üçün tərsinə çevrilmiş vedrələr əvəzinə plastik stullarla təmin olunurdu. Biz dördümüz də bu kiçik bölməyə yerləşdirildik. Oradakı məhbuslardan bəziləri hər yerdə müsəlman casuslarının olduğunu bizə bildirdilər. Biz də bundan şübhələnirdik, çünki gün ərzində bəzi məhbus yoldaşlarımız şübhəli şəkildə bizi izləyirdilər.

Bizim səhhətimiz pisləşirdi. Açıq havada qalmaqdan günəş yanıqlarına əlavə olaraq, pastor Həsən onikibarmaq bağırsağın xorasından əziyyət çəkirdi və pastor Kuva bu yaxınlarda keçirdiyi malyariya xəstəliyindən sağalırdı. Çirkli vedrəni yuduqdan sonra polis bölməsində yoluxduğum dəri infeksiyası üçün karbol sabunundan istifadə etməyi arzu edirdim, amma təəssüf ki, bu yeni həbsxanada karbol sabunu yox idi. Mühafizəçilər bizə lazım olan bütün dərmanlarımızı verirdilər. Görünür ki, bu qədər dərmanı bizə versələr də onlar bizim vəziyyətimizlə maraqlanmırdılar. Buradakı daimi toz, palçıq, tər və ümumiyyətlə, pis gigiyena hamımıza təsir edirdi və avqust ayında isti dözülməz idi.

Pastor Həsənin kilsəsinin gənclər qrupu bizim üçün plastik stul gətirdi və Həsən mənim üçün 250 Sudan funtuna (təxminən 40 dollar) metal çarpayı tapdı. Çarpayı döşəklə birlikdə olmalı idi, amma onun üstündə döşək yox idi. Mən çirkli torpaqda yatmaqdansa döşəksiz, narahat metal çarpayıda yatmağı daha üstün hesab etdim. Gecələr siçovullar yatmış məhbusların arasında gəzir, çantalarımıza girib yemək axtarırdı.

İki gün sonra pastor Həsənin kilsəsindən olan gənclər qrupu bizim üçün üç metal çarpayı və dörd döşək gətirdi. Nəhayət, hamımız rahat çarpayıda yatmaqdan həzz alırdıq! Gecələr sudanlı qardaşlarım və mən dar otaqlarımızdan uzaqda, açıq səmanın altında yatmaq üçün çarpayılarımızı çölə daşıyırdıq.

Həbsxananın Kolumbiya bölməsində, təxminən doxsan metr aralıda, bizə getməyə icazə verilən kiçik bir kilsə var idi. Burada olduğum müddət ərzində ziyarət etdiyim ilk kilsə idi və hətta digər məhbuslar iki dəfə orada vəz etməyimə icazə vermişdilər.

* * *

Şənbə günü, avqustun 6-da mən Omdurman şəhərindəki kişilər həbsxanasında iki gün keçirdim və məhbusların öz ailə üzvlərinə zəng etmək üçün mobil telefonlarından istifadə etdiklərini gördüm.

Sudanlı məhbus yoldaşlarım gizli yolla mobil telefonları əldə etmişdilər və məndə qalan Sudan pulumdan onların telefonlarına kredit köçürərək ailəmə zəng edirdim. Övladlarım mobil telefon nömrələrini tez-tez dəyişdiyindən yadımda qalan tək nömrəni yığdım.

Həbsimdən bir həftə yarım sonra bir neçə saniyəlik telefon danışığımı və prokuror otaqdan çıxanda cənab Slamanın telefonundan otuz saniyəlik danışığımı nəzərə almasaq, sonuncu dəfə Vanda ilə səkkiz ay əvvəl uzun-uzadı danışmışdım. Mən Xartum hava limanına getməzdən əvvəl "Cənnət" adlı oteldən Skype vasitəsilə ona zəng etmişdim. Onun səsini yenidən eşitmək və əhvalını bilmək Allahın möcüzəvi hədiyyəsi idi.

Nömrəni yığdım və zəng getdi. Çexiyada şənbə axşamı idi və Vanda oğlumuzla söhbət edirdi. Birdən onun cib telefonunda qəribə telefon nömrəsi peyda oldu. O, ölkə kodunun Sudana aid olduğunu gördü. "Bu kim ola bilər? Bəlkə Sudan təhlükəsizlik polisidir" — deyə təəccübləndi. Vanda zəngə cavab verdi və qeyri-müəyyən səslə dedi: "Salam!"

"Mənəm, Peter!"

Mən susdum, səsim bir az titrəyirdi.

Vandanın ürəyi döyünməyə başladı, sanki sinəsindən çıxacaqdı. "Səni azad ediblər?" — deyə o, ümid dolu bir səslə soruşdu.

Mən dedim: "Xeyr, mən Omdurman şəhərindəki həbsxanadayam və bir dostumun mobil telefonundan gizli istifadə edərək sənə zəng etmişəm".

Telefona daxil etdiyim kreditin nə qədər davam edəcəyini bilmirdim, ona görə də ailəm haqqında mümkün qədər çox məlumat almağa çalışdım, lakin Vanda mənim haqqımda məlumat almaq istəyirdi. Mən tələm-tələsik ona burdakı vəziyyətimdən, səyahətimdən danışdım və Allahın məni belə uzun müddət həbsdə saxlamağında bir məqsədi olduğunu dedim. Onun səsindəki nəvaziş mənə bir yüngüllük gətirdi və özümü Afrikada adi səfərlərdə olduğum kimi hiss etdim. Hava limanının baqaj şöbəsinin çıxışında məni qarşılayan həyat yoldaşımla evə getdiyim vaxtları xatırladım.

Mobil telefonunda həyat yoldaşımla iyirmi dəqiqə danışdım və zəngin sonunda Vanda könülsüz olaraq söhbəti bitirdi. İndi onun üzündə böyük bir təbəssüm var idi. Telefon danışığımızdan sonra o, bütün gecəni oyaq qaldı, yata bilmədi. Onun ürəyi böyük sevinc və hədsiz minnətdarlıqla dolu idi, çünki bu çətin vaxtda Rəbb hər ikimizə sadiq qalmışdı.

* * *

Avqustun 8-də biz gələndən dörd gün sonra mühafizəçi bizə yaxınlaşdı və dedi: "Hər şeyi götür və mənimlə gəl". Dördümüz metal çarpayılarımızı və plastik stullarımızı qoyub onun arxasınca mal-qara aparan yük maşınına tərəf getdik. Bizi yaxınlıqdakı işgəncə verməyi ilə məşhur olan "Kober" həbsxanasına aparırdılar.

Ora çatanda isə təəccüblü xəbərlə qarşılaşdıq. "Kober" həbsxanasının nəzarətçisi məhkəmə işlərimizin hələ də aparıldığını öyrəndi və məhkəmələrimiz bitənə qədər heç birimizi qəbul etməyəcəkdi. Mal-qara daşınan yük maşını ilə Omdurman şəhərindəki kişi həbsxanasına qayıtdıq və MKTX-nin zabitləri bizi istehzalı gülüşləri ilə qarşıladılar. Üzlərindən görürdüm ki, vaxtlarını itirdiyimizə görə bizi cəzalandırmaq üçün bir yol tapacaqlar.

* * *

Üç gün sonra, cümə axşamı, avqustun 11-də bir mühafizəçi yenidən bizə yaxınlaşdı və dedi: "Bütün əşyalarınızı götürün və mənimlə gəlin". Bu dəfə buradan həmişəlik gedəcəyimizə əmin idik. Nəhayət, MKTX-nin zabitləri bizə cəza vermək qərarına gəldilər.

Mühafizəçilər bizi yenidən mal-qara daşınan yük maşınına mindirdilər və bir saatdan çox yol getdik. Tezliklə məhbus yoldaşlarım hara getdiyimizi başa düşdülər. Onlar bizi şəhərdən uzaqda yerləşən nəhəng həbsxana kompleksi olan "Əl-Huda" həbsxanasına aparırdılar. Siyasi məhbusların və daha yüngül cinayətlərdə ittiham

olunan şəxslər üçün nəzərdə tutulan qaldığım həbsxanalardan fərqli olaraq, "Əl-Huda" həbsxanasında əsasən oğurluq, narkotik maddələr alveri, uşaq istismarı, zorlama və qətl də daxil olmaqla ağır cinayətlər törətmiş şəxslər saxlanılırdı. "Əl-Huda" həbsxanasında on minə qədər məhbus yerləşdirmək olardı.

Sudan səhrasındakı yeni evimizdə bizi nələrin gözlədiyini düşündüm.

# 20

Sürücümüz bizi səhranın daha dərinliyinə paytaxt Xartum şəhərindən təxminən bir saat yarım şimalda onun qardaş şəhəri olan Omdurmandan şimal-qərbə tərəf apardı. Mən bayıra baxdım və sağ tərəfdə üç təpənin — Gebu Aba Mera, Gebel Mexiat və Gebel Leyrikin yanından keçdiyimizi gördüm. Biz sola, tozlu yola tərəf dönüb yaşıl və ağ rəngli böyük giriş darvazalardan keçərək səhra həbsxanasına daxil olduq.

Uzaq bir yerdə yerləşən "Əl-Huda" həbsxanası çox böyük idi. Həbsxana çoxlu böyük hissələrə bölünmüşdü. Hər bölmə də özlüyündə dörd kamerası olan daxili hissələrə bölünmüşdü. Bu kameraların hər biri yüz məhbus üçün nəzərdə tutulmuşdu. Bizi maşından düşürüb həbsxanaya aparanda daxilimdə sanki bir narahatlıq hiss etdim.

Bizim dördümüzü də 2-ci bölmənin izdihamlı kamerasına yerləşdirdilər və dərhal yeni mühitimizə alışmağa başladıq. Döşəmə boz və bej rəngli kafellərlə örtülmüşdü və bir neçə işçi divarları ağ boya ilə rəngləməklə məşğul idi.

"Niyaba Mendola" adlı polis bölməsində tez-tez düşünürdüm ki, niyə mənim Müqəddəs Kitabı oxumaq imkanım var. Bütün bunlar Tanrının gözəl planının bir hissəsi idi və nəhayət, üç aydan sonra "Əl-Huda"ya ayaq basdığım gün mən bunu anladım.

"Əl-Huda" həbsxanasına köçürülməyim məyusluqla nəticələndi. "Niyaba Mendola" adlı polis bölməsindəki təkadamlıq kamerada olan şəxsi rahatlığımı itirmişdim, həm də bu yeni kamera axşamlar

Müqəddəs Kitabımı oxumaq üçün çox qaranlıq idi. Tezliklə bildim ki, Tanrının mənim üçün səhrada daha maraqlı bir niyyəti var.

"Əl-Huda"ya çatdığımız gün günortadan sonra izdihamlı kameramıza mehriban, gözəl təbəssümlü iki məhbus daxil oldu. "Bu gün həbsxanaya qəbul edilən pastorlar haradadır?" — deyə onlardan biri soruşdu. Mən və imanlı həmkarlarım yavaş-yavaş əllərimizi qaldırdıq və kişilər bizə yaxınlaşdılar. Sonra onların dedikləri məni çox heyran etdi. Onlar bizi həbsxana kilsəsinə dəvət etmək üçün gəlmişdilər.

"Həbsxana kilsəsi? Burada həbsxana kilsəsi var?" — deyə mən inamsızlıqla soruşdum.

Onlardan biri gülümsəyərək cavab verdi: "Bəli var!"

Tezliklə bu xəbərin doğru olduğunu öyrəndim. Müsəlmanların məscidə getməsinə icazə verməyən MKTX-nin həbsxanasından və ya "Niyaba Mendola" adlı polis idarəsindən fərqli olaraq, bu böyük həbsxanada bir neçə məscid var idi. Hər bölmədə bir məscid dörd yüz məhbusa xidmət edirdi. Hər kəs iştirak etməkdə sərbəst idi. Gündə beş dəfə namaz qılanlar hələ də azan verirdilər. Ancaq burada "Əl-Huda"da çoxlu qeyri-müsəlmanlar — ilk növbədə cənubi Sudandan olan məsihçilər, həm də ənənəvi Afrika dinlərinə etiqad edən animistlər var idi. Nəticədə həbsxana rəhbərliyi qeyri-müsəlman məhbusları üçün kiçik kilsə açmışdı.

Bir vaxtlar bu kilsə həbsxana kompleksinin 5-ci bölməsinin ikinci mərtəbəsində yüz nəfərin yerləşdiyi adi bir kamera idi. Çarpayılar çıxarıldıqdan və divarlar mavi boya ilə rəngləndikdən sonra ora iki yüzə yaxın məhbus üçün ibadət evinə çevrilmişdi. Əgər hamı ayağa qalxarsa, o yerə daha çox adam yerləşə bilərdi. Vəz edənin arxasındakı divarda ikona, xristian dininə və çarmıxa dair şəkillər asılmışdı. Ön tərəfdə kafedra funksiyasını yerinə yetirən uzun, plastik stol və xidmət zamanı məhbusların oturması üçün stullar var idi.

Məlum oldu ki, bizi kilsəyə ilk dəvət edənlər həbsxana kilsəsinin rəhbərləri imiş. Biz "Əl-Huda"ya gələndən sonra kilsə rəhbərləri

oraya müntəzəm gələnləri bir yerə topladı. Ənənəvi Afrika zərb alətlərini çalaraq bizim gəlişimizi salamlamaq üçün ilk toplantımıza iyirmidən çox məhbus gəlmişdi. O kilsənin rəhbərləri iki sudanlı pastoru və məni irəli çağırdılar və Həvarilərin İşləri 13:15-ci ayədə olduğu kimi bizdən bir xahiş etdilər: "Qardaşlar, xalqa ürəkləndirici müraciətiniz varsa, buyurun deyin".

"Niyaba Mendola" adlı polis idarəsində üç ay ərzində Müqəddəs Kitabı oxumaq imkanım olduğundan sudanlı dostlar xəbərdar idilər, ona görə də mənə tərəf dönüb işarə etdilər. Mən Müqəddəs Kitabımı açdım və Yəhya 15:1-10-cu ayələrdən Rəbbin sözünü oxudum. Bu, İsanın həqiqi meynə və Ata Allahın bağban olması barədə idi.

Rəbb bizi budaqlar kimi budama prosesi haqqında öyrədirdi. Mən dedim: "Bəzən Rəbb həyatımızı budayanda bizi ağrıdır". Onlara nigeriyalı Monika Dranın hadisəsini danışdım. Orada olan məsihçi kişilər bu maraqlı hadisəni eşidəndə çox təsirləndilər və MKTX-nin həbsxanasında İŞİD üzvlərinin bu hadisəyə reaksiyasını eşidəndə təəccübləndilər.

Rəbb mənə Omdurman şəhərindəki kişilər həbsxanasında Müjdəni bölüşmək üçün bir fürsət vermişdi, lakin bu, yalnız Allahın "Əl-Huda"da mənim üçün hazırladıqlarını qabaqcadan xəbər verirdi. Bu, səhra həbsxanasında mən canım və ruhum üçün sanki bir oazis tapmışdım.

Həbsxanaya gəldiyimizdən iki gün sonra məni "Əl-Huda"nın 2-ci bölməsindən ən təhlükəli məhbusların saxlandığı 3-cü bölməyə köçürdülər. Buradakı məhbuslar on il əvvəl dostunu əlbəyaxa davada öldürdüyünə görə 7 il yarım həbs cəzasına məhkum edilmiş Şukvan kimi adamlar idi. O, bədəni çapıqlarla örtülmüş təbiətcə dalaşqan bir insan idi.

Lakin Şukvan "Əl-Huda"da olan məsihçi məhbus yoldaşlarının şəhadəti vasitəsilə artıq üç il idi ki, İsa Məsihin davamçısı olmuşdu. O, qəsdən adam öldürməyə görə cəza müddətini bitirsə də, 38000 Sudan funtu (rəsmi məzənnəyə görə 6300 dollar, inflyasiyadan

dəyişən məzənnəyə görə təxminən 2000 ABŞ dolları məbləğində), məhkəmə haqqını ödəməyincə azadlığa buraxılmayacaqdı.

Köçürüləndən sonra ilk gecə Şukvan qardaş yerdə yatdığımı görüb, mənim yerimi dəyişməyimi istədi. Şukvan çarpayısından qalxıb yerdə yatdı və mənə öz çarpayısında rahat yatmağım üçün icazə verdi. Bu fədakar hərəkəti, İsa Məsihin məhəbbəti ilə yumşalmış və formalaşmış ürəyi onun imanını sübut edirdi. "Əl-Huda"da kişilər onlardan əvvəlki məhbusun çarpayısını əldə etmək üçün aylar və hətta illərlə gözləyə bilərdilər, ona görə də onun bu təklifi diqqətəlayiq idi. Bu, həm də kameramızdakı digər müsəlmanlar üçün böyük bir şəhadət idi. Əvvəllər güclü döyüşçü olduğu üçün Şukvana hörmət göstərsələr də, indi bu fədakarlıq və məhəbbət dolu hərəkətinə görə ona daha çox hörmət edirdilər.

Şukvanın bu hərəkəti nə qədər inanılmaz olsa da, gecə rahat yatmağım belə həyatımın qalan hissəsini həbsxanada keçirəcəyim barədə olan daimi narahatlığımı aradan qaldırmırdı.



# 21

"Əl-Huda" həbsxanasında kilsədən başqa hər şey çirkli idi. Biz oranı son dərəcə təmiz saxlayırdıq və hətta ağcaqanadları məhv etməkdən ötrü ayda bir dəfə dezinfeksiya etmək üçün mühafizəçilərə əlavə pul ödəyirdik. Otaqda su var idi, amma təzyiq aşağı olduğundan suyu yuxarı binaya gətirmək üçün elektrik nasosu tələb olunurdu. Su gələndə biz həmişə fürsətdən istifadə edərək bir neçə böyük çəlləyə su doldururduq ki, gözlənilmədən elektrik kəsiləndə içməyə su olsun.

Kilsədəki axar suyu mən iki litrlik dörd plastik qablara doldurub kameramıza daşıyırdım ki, vanna otağımızda çimmək üçün su olsun. Hər səhər saat 7:00-da, səhər yoxlamasından dərhal sonra bir vedrə su ilə yaxalanmaq üçün kilsəyə gedirdim. Mən öyrəndim ki, ora mümkün qədər tez, digər məhbuslar gəlməmişdən əvvəl getməliyəm ki, kimsə əşyalarımı oğurlamasın.

Biz kilsəmizdə hər həftə beş ibadət xidməti keçirirdik və bütün məzhəblərdən olan məsihçilər orada iştirak edə bilərdi.

Bazar günləri ibadətə bir qrup eritreyalı gəlirdi. Onlar öz ənənələrinə sadiq qalaraq ayaqqabılarını çıxarıb divardan asılmış Məryəmin şəkilini üç dəfə öpürdülər. Onlar divardakı çarmıxla da eyni cür rəftar etdilər. Bu qrupun ənənəvi ayinlərinə baxdıqca ürəyimdə ağırlıq hiss edirdim. Mən onların diqqətinin ənənəvi rituallardan və Məsihin təsviri olan ikonalardan canlı İsanı tanımağa doğru yönəlməsini istəyirdim.

Bir dəfə mən Yəhya 3:14-15-ci ayələr barədə danışırdım. Həmin hissədə İsa Nikodimə izah etdi ki, Musa səhrada ilanı qaldırdığı

kimi, Bəşər Oğlu da qaldırılmalıdır ki, Ona iman edən hər kəs əbədi həyata malik olsun. Mən Saylar 21-ci fəsildəki hekayəni onlara xatırlatdım. İsraillilər səhrada dolaşarkən onları ilanlar sancmışdı. Musaya tapşırılmışdı ki, tunc ilanı dirəyin üstündə qaldırsın və ilan sancmış hər kəs ona baxanda sağalsın. "Bu bizə də aiddir" dedim. Günahkar olduğumuzu anlayanda xilas olmaq üçün çarmıxdakı İsaya baxmaq lazımdır. İsa Məsihə baxmaq sağalmağın və həqiqətən yenidən doğulmağın yeganə yoludur.

Sonra Müqəddəs Ruhun mənə xatırlatdığı 2 Padşahlar 18:4-cü ayəni onların yadına saldım. Həmin ayə kilsəmizin divarlarındakı dini simvollara səcdə etmək və onları öpmək məsihçi bütpərəstliyini ifadə edirdi. Kəlamın bu hissəsində səcdəgahları sökən, dirəkləri sındıran və Aşeranı (səcdə olunan dirək və ya ağacı) kəsən Yəhudeya padşahı Xizqiyadan bəhs edilirdi. O, Musanın düzəltdiyi tunc ilanı sındırdı, çünki həmin günlərə qədər İsrail övladları ona qurban gətirirdilər (onun adı Nexuştan idi). Mən məhbus yoldaşlarıma izah etdim ki, əvvəlcə israillilərin həyatını xilas etmək üçün nəzərdə tutulmuş dirəkdəki tunc ilan bütpərəstlik obyektinə çevrildiyi kimi, biz də Məsihin özünə deyil, həmin ilanın fiziki surətinin qarşısında səcdə etməyi və onu öpməyi üstün tuturuq.

Xidmətimdən sonra heyrətamiz bir hadisə baş verdi. Bir çox eritreyalı məhbus yoldaşlarımız yanıma gəlib minnətdarlıqlarını bildirdilər və dedilər ki, Müqəddəs Ruh onların gözlərini açdı və bundan sonra onlar çarmıxa yox, Məsihin qarşısında səcdə edib həyatlarını Ona həsr edəcəklər.

Eritreyalıların əksəriyyəti əvvəlcə Liviyaya, sonra isə Avropaya səyahət etmək ümidi ilə Sudana qanunsuz daxil olduqları üçün həbs edilmişdilər. Bu cinayətə görə məhbusdan dörd min Sudan funtunun ödənilməsi tələb olunurdu və ya üç ay müddətində həbsdə qalmaqla cəzalandırılırdı. Onların bir çoxu üçün bu fidyəni qohumları ödədiyinə görə tez buraxıldı, digərləri isə cəzanı tam çəkməli oldu.

Gəldiyim gündən bəri Rəbb mənə sadiq idi və həftədə bir dəfə, bəzən iki dəfə kilsədə ibadət keçirirdim. Bizim ibadətə gələnlərin əksəriyətinin məsihçi olmadığına görə, mənim kilsədə danışdıqlarım adətən müjdəçilik xarakteri daşıyırdı. Amma hər üçüncü vəz daha çox məsihçilərə yönəlmişdi. Mən vəzlərim vasitəsilə onları təqiblərə hazırlayırdım.

Mən ibadətdə "təqib müjdəsi"ndən, yəni iztirablar çəkmiş Xilaskarımızın ardınca gedərkən bizə həyatımızda əzab çəkməyə yol verdiyindən danışdım. Məsihçilərin günah və ölümün əsarətindən xilas olub əbədi yaşaması üçün İsa ağlasığmaz əzablara dözərək çarmıxda öldü. Onun davamçıları olaraq biz də yer üzündə əzab çəkəcəyik. Biz imanımız üçün əziyyət çəkəndə Məsihin əzablarında iştirak edirik. Mən məsihçilərin təqibləri barədə, Monika kimi qadınların və Dancuma kimi gənc oğlanların başına gələnlər barədə danışdım və "Əl-Huda" həbsxanasında olan imanlıları təqiblərə dözməyə və bunu Müqəddəs Yazıların nurunda anlamağa hazırlamaq üçün əlimdən gələni etdim.

Mən inanıram ki, bu təqib müjdəsi İsa Məsihin Müjdəsidir.

* * *

Kilsə xidmətləri eyni şəkildə, həftədə beş dəfə səhər saat 9:00-da zəng çalınması ilə başlayırdı. Duaya və vəzə başlamazdan əvvəl həmişə ibadətdə ilahilər oxuyurduq. Məhbuslar ərəb dilində ənənəvi Afrika ilahilərini oxuyurdular, gitara və ya digər qərb musiqi alətlərinin əvəzinə, marakas və bonqo kimi Afrika musiqi zərb alətlərindən istifadə edirdilər. Müsəlmanlar bu zərb alətlərini "Qurban bayramı" üçün düzəltmişdilər.

Geniş qeyd olunan bu bayramda həbsxananın hər kamerasına kəsilmiş bir qoç paylandı. "Əl-Huda"dakı bəzi məsihçilər Əhdi-Cədidin bütlərə təqdim edilən əti yeməyi qadağan etdiyinə inandıqları üçün qurban əti yeməkdən imtina etdilər (1 Korinflilərə 8). Mən həvari Paulun izahatına əsasən izah etdim ki, ət bazarında

nə satılırsa, vicdan məsələsini qaldırmadan hər şeyi yeyə bilərik. Çünki "Rəbbindir yer üzü və orada mövcud olanlar" (1 Korinflilərə 10:25-26). Ona görə də mənim üçün bu ət Rəbbin hədiyyəsi idi və mən ləzzətli zülalın hər qramından həzz alırdım.

Qoçun hər bir hissəsindən istifadə edirdik. Məhbuslardan bəziləri ibadət üçün nağara hazırlamaqdan ötrü kilsəmizə qoç dərilərini gətirdilər. Dərinin aşılanması mürəkkəb bir proses idi. Üç həftə ərzində dəri natrium hidroksiddə isladıldı, bu da pis qoxu verirdi. Amma kimyəvi maddə dəridəki bütün yağları, əti və digər qalıqları yox edirdi. Məhbuslar dərini kəsib yuyandan sonra günəşdə qurudurdular və daha sonra dartıb nağaraya keçirirdilər.

İbadət incə səsi olan bir neçə nəfərdən ibarət məsihçi qrupunun ilahi oxuyub nağara çalması ilə başlayırdı. Tezliklə digər məhbuslar da onların mahnı oxuduğunu eşidib onlara qoşuldular. Səs getdikcə ucaldı, kameradan kameraya və bölmədən bölməyə yayıldı. Beləliklə, bütün həbsxananın hər yerində olan məsihçilər birlikdə Allahı mədh etməyə qoşuldular və onlar ibadət etmək üçün kilsəyə axışdılar.

Bu, məsihçilərin "Əl-Huda" həbsxnasında Allahı həmd etməsi müsəlmanların azanına bir cavab idi.

* * *

Hərdən ibadətə katolik keşişi gəlirdi və o, camaata rəhbərlik edərək Rəbbin süfrəsini təşkil edirdi. Bəzən də kilsəmizə ortodoks keşişi gəlib ortodoks Sudan məsihçiləri üçün ənənəvi ibadət keçirirdi. Bizim xarizmatik təbliğatçılarımız da olurdu. Bu adamlar məhbusların şəfası üçün dua edir və hətta Afrikada adi bir hal olan cinləri də qovurdular.

Mənimlə birlikdə həbsdə olan iki sudanlı pastor də bu təbliğatçılar arasında idi. Həbs olunana kimi onlar Sudanda ruhani sağlam denominasiyaya aid kilsələri idarə edirdilər və onlar Müqəddəs Kitaba əsaslanaraq danışırdılar. Mən adətən cümə və bazar günləri,

eləcə də mənə təyin olunan başqa günlərdə də vəz edirdim. Mənşəyimizdən və ya məsihçi ənənəmizdən asılı olmayaraq, hamımız ibadətdə İncilin əsas elementləri, Müqəddəs Kitabın və yenidən doğulmağın əhəmiyyəti barədə danışırdıq.

Bir cümə günü mən Yəhya 9-da yazılan anadangəlmə kor adam haqqında vəz edirdim. İbadətin sonunda mən iştirakçıların Allahın çağırışına cavab verməsi üçün imkan yaratdım. İsa Məsihə iman etmək istəyən hər kəsi qarşıya gəlməyə dəvət etdik. Həmin gün Allahın lütfü ilə on iki nəfər ayağa qalxıb irəli çıxdı. Hər həftə Allah nə qədər insan həyatının dəyişməsi ilə bizi heyrətləndirirdi.

Ancaq kilsəmizə gələn məhbusların hamısı məsihçi deyildi. Biz kilsəmizdə cənubi Sudandan olan, heyvanlara sitayiş edən və hər cür ənənəvi Afrika dinlərinə etiqad edən kişiləri qarşıladıq.

Ürəyim onlar üçün çox ağrıyırdı və mən əlimdən gələni edərək onlara uyğun danışmağa çalışırdım ki, mənim qırıq-qırıq sözlərimdən Allah istifadə edərək onların ürəyinə toxunsun.

Bu ibadətlərdə məqsədim məhbusların mənşəyini və mədəniyyətini alçaltmaq və ya tənqid etmək deyildi. Əksinə, mən onları Məsihə doğru aparmaq istəyirdim, çünki O demişdi: "Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz" (Yəhya 14:6).

Hər ibadətdən əvvəl və sonra həmişə dua edirdim ki, Müqəddəs Ruh bu insanlara həqiqəti açsın və onlar bilsinlər ki, keçmişdə nə iş gördüklərindən asılı olmayaraq Allah onları sevir, bağışlayır və onlarla şəxsi ünsiyyət qurmaq istəyir. Allahın insanların ürəyində iş görməsi nəticəsində, bu animistlərin çoxu Müjdəni qəbul edib Rəbbi tanıdılar.

Artıq həbsxanada nə qədər qalmağım məni narahat etmirdi. Rəbb burada nə qədər vaxt qalmağımı istəyirdisə, o qədər də qalmalıydım.

* * *

Omdurmanda gündə üç dəfə sudanlı pastorları ailə və kilsə üzvləri ziyarət edirdi. "Əl-Huda" həbsxanası uzaq olduğundan iki dostum həftədə yalnız iki dəfə mənə baş çəkirdi.

Vanda həbsxanada məni ziyarət etmək istəyirdi, lakin Çexiyadakı xarici işlər naziri əvvəlcə onu fikrindən daşındırdı. Bir təşkilat onun mənə baş çəkməsi üçün pul toplayanda, Çex hökuməti nəhayət razılaşdı. Lakin mən Çex konsulluğunun əməkdaşına çatdırdım ki, ailəmin Sudana gəlməsini istəmirəm. Oğlumla mənim adım eyni idi və Sudana gəlsələr, onların başına nəsə gələ biləcəyindən qorxurdum.

* * *

Tezliklə öyrəndim ki, bu həbsxanada ən pis davranışlar məhbuslar deyil, məhz sudanlı mühafizəçilər tərəfindən olub. Bu həbsxananın təmiri üçün külli miqdarda vəsait ayrılsa da, mühafizəçilər onu müsadirə edərək öz aralarında bölüblər. Onlar mütəmadi olaraq narkotik maddələrdən istifadə edir və məhbuslardan pul tələb edirdilər.

Yeni kamera yoldaşlarımdan öyrəndim ki, ən azı həftədə iki dəfə həbsxanada elektrik kəsilirdi. Belə olanda tavandakı ventilyatorlar dayanır, işıq lampaları qaralır və yemək bişirən avadanlıqlar işləmirdi. Uzun müddət cəza çəkən məhbuslar mühafizəçiləri gəlir əldə etmək üçün elektrik enerjisini qəsdən kəsməkdə günahlandırırdılar.

"Bu problemi həll etmək üçün hər kamera bizə yüz funt verməlidir" — deyə mühafizəçilər bizdən pul tələb edirdilər. Məhbuslar tələb olunan pulu ödəyəndə birdən-birə elektrik bərpa olurdu.

Saat 17:00-da mühafizəçilər məhbusların sayını qeyd edəndən sonra kameranın qapılarını qıfıllayırdılar. "Onlar qapılarımızı qıfıllayandan sonra bizim azadlığımız var" — deyə bir məhbus mənə çatdırdı. 2-ci bölmədəki ilk gecəmizdən sonra bunun səbəbini başa düşdüm. Qapılar kilidlənəndən sonra gördüm ki, məhbuslar mobil telefonlarını çıxarıb zəng etməyə başladılar.

Elektrik kəsiləndə izdihamlı kameralarımızda gərginlik daha da artdı və bir çox məhbuslar təmiz hava almaq və sərinləmək üçün kilsəyə axışdılar. Kilsə sakit bir yer idi və mən vaxtımı orada Müqəddəs Kitabı öyrənməkdə, digər məhbusları ruhlandırmaqda və yenicə iman etmiş məsihçilər və ya Məsihin ardınca getmək istəyənlərlə uzun-uzadı söhbət etməklə keçirirdim. Bu həbsxanada insanlar Allahı axtarırdılar və kilsəmiz ruhani söhbətlər üçün ideal bir yer idi.



# 22

Səkkiz aydan çox həbsdə qaldıqdan sonra, nəhayət, 21 avqust 2016-cı il bazar günü məhkəmə günüm təyin olundu. Pastor Həsən, pastor Kuva, Monim və mən müttəhimlər idik.

Səhər tezdən kilsədə bir vedrə su ilə yuyunub məhkəməyə getmək üçün geyindik. İki pastor qara şalvar və köynək geyinib, ağ dini boyunluq taxdılar. Mən isə cins şalvar, boz köynək və ayaqqabılarımı geyindim. Gümüşü saçım və saqqalım çox uzunmuşdı və ilk məhkəmə iclasına getmək üçün özümü tamamilə səliqəsiz hiss edirdim.

Məhkəmə polisi olan xüsusi mühafizəçilər bizi “Əl-Huda” həbsxanasından Xartum Mərkəzinin həbsxanasına apardılar. Mal-qara daşıyan yük maşınında təxminən iki saat yol getmək üçün mühafizəçilər qandallarımızı çıxartdılar. Biz yük maşınındakı uzun metal skamyalarda oturduq.

Həbsxana binasına çatanda mühafizəçilər yenidən qandalları biləklərimizə taxdılar və bizi saxlama kamerasına gətirdilər və orada gözləməli olduq.

Orada kiçik bir otağa sıxışdırılmış onlarla məhbus var idi. Çirkli döşəməsi olan gözləmə otağında oturmağa belə yer yox idi. Ona görə də hasarları tikanlı məftillərlə hörülmüş üstü açıq yerdə saatlarla gəzməli olduq. Mən orada gəzişərkən məhkəmə binasından kənarda yüksələn mahnı səsini eşitdim.

Mən və imanlı qardaşlarım tezliklə mahnının nədən bəhs etdiyini anladıq və çox heyrətləndik. Nuba dağlarında pastor Kuvanın qəbiləsindən olan yüzlərlə məsihçi bizə dəstək olmaq üçün

avtobusla Xartuma gəlmişdi. Sudan polisi qalxanlar, dəyənəklər və gözyaşardıcı qazla onların binaya girməsinə mane oldu. Onlar çöldə dayanıb Davud və Qolyat haqqında ilahi oxudular. Biz həyətdə dayanıb ilk dinləməni gözləyərkən məsihçilərin bizim üçün ruhlandırıcı ilahi oxumasına qulaq asdıq. Bizə açıq şəkildə dəstək olmaqla öz həyatlarını təhlükəyə atdılar və onların cəsarəti məni heyrətə gətirdi. Onlardan neçə nəfərin həbs olunduğunu düşündüm. Pastor Kuva öz ana dilində ilahilər eşidəndə gözləri yaşardı.

Nəhayət, saat 13:00-a az qalmış ilk dinləmə üçün bizi Xartum Mərkəzinin məhkəmə zalına çağırdılar. Göy hərbi geyimli və AK-47 avtomatı ilə silahlanmış mühafizəçilər bizi saxlama kamerasından çıxarıb apardılar. Biz dördümüz birlikdə rəngarəng bir heyət kimi görünürdük. Mühafizəçilər bizi elə qandallamışdılar ki, təhlükəli cinayətkarlara oxşayırdıq. Pastor Həsənlə mən, pastor Kuva ilə Monim birlikdə zəncirlənmişdik və biz həyətdən binaya doğru gedəndə Nuba dağlarından gələn məsihçilərin yanından keçməli olduq. Həsənlə mən əlimizi qaldırıb yellədik və camaat qışqırmağa başladı. Mən onların sözlərini başa düşmürdüm, amma Həsən və Kuvanın gözlərindəki yaş mənə hər şeyi anlatdı. Kameradan binaya qədər biz onların səsini eşidirdik və mən emosiyalarımı cilovlamağa çalışırdım.

Tezliklə məhkəmə zalına daxil olduq. Bura bərbad, baxımsız, divarlarından solğun, sarı suvağı tökülmüş, kif iyi gələn bir yer idi. Çirkli və sınıq şüşələri olan alüminium pəncərələr açıq olduğuna görə əsən meh oradakı qoxu və istini azaldırdı. Pəncərədən təmiz havanın gəlməsinə baxmayaraq mən tərləmişdim.

Otağa girəndə gördüm ki, içəridə təhlükəsizlik tədbirləri gücləndirilib. MKTX-nin zabitləri, məhkəmə və həbsxana polisi ilə yanaşı, orada xüsusi uniforma geyinmiş, gözyaşardıcı qaz daşıyan silahlı şəxslər də var idi. Çöldəki məsihçilərlərlə yanaşı, bizim tərəfdarımız olan böyük bir qrup da içəridə idi. Həsən və Kuva mənə dedi ki, bunlardan bəziləri yerli kilsələrin üzvləridir. Öyrəndim ki, digərləri Sudanda səsvermə hüquqlarını və demokratik sistemləri

inkişaf etdirmək üçün yaradılmış insan haqları təşkilatının gizli nümayəndələridir. Mən məhbus yoldaşlarım arasında o təşkilatın bəzi üzvləri ilə tanış olmuşdum. ABŞ səfirliyinin və İsveçrə konsulluğunun nümayəndələrini, Çexiya konsulluğunun əməkdaşı və Beynəlxalq Cinayət Məhkəməsi ilə bağlı nümayəndəni də gördüm. Onların yanında başqa Avropa ölkələrinin və Avropa İttifaqının diplomatları kimi görünən peşəkar geyimli digər kişi və qadınlar da var idi. Oradakı bütün oturacaqlar tutulmuşdu, hətta yerdə oturanlar da var idi.

Üç ay əvvəl MKTX nəhayət ki, 41/2016 saylı işi açmışdı. Lakin avqust ayında Omdurman həbsxanasına, oradan isə "Əl-Huda"-ya köçürüldükdən sonra iş məhkəməyə verilmişdi. İlk məhkəmə iclası əvvəlcə keçən bazar gününə təyin edilmişdi, lakin tezliklə təxirə salındı. Bizi inandırdılar ki, həbsxanadan məhkəməyə köçürülməyimizə əngəl olan yağış idi, amma tezliklə biz bunun əsl səbəbini öyrəndik.

Məhkəmə iclası yalnız ərəb dilində keçirilirdi. Jurnalist və azsaylı hüquq müdafiəçiləri istisna olmaqla, məhkəmə zalının qalan hissəsi bizə dəstək olmaq üçün gələn cəsur məsihçilərlə dolmuşdu. Sudanlı məhbus yoldaşlarımın ailə üzvləri məhkəmə zalının ön cərgəsində oturmuşdular.

Nəhayət, dinləmə başladı.

Cənab Əbdürrəhman elan etdi: "Dekabrın 18-də bir qrup məsihçi, pastor və digər rəhbərlər Sudan MKTX tərəfindən həbs olunub. Bu gün burada təqsirləndirilən şəxs qismində iştirak edən dörd nəfər istisna olmaqla, hamısı azadlığa buraxılıb. Onlar 2015-ci ilin oktyabrında Əddis-Əbəbədə keçirilən məsihçilərin konfransında iştirak etdiklərinə görə həbs olunublar".

Cənab Əbdürrəhman 1991-ci il Sudan cinayət məcəlləsinin 21, 50, 51, 53, 57, 64 və 66-cı maddələri, "Vətəndaşlıq Qanunu"nun 30.1-ci maddəsi və "Könüllü Humanitar Əməkdaşlıq Qaydası"nın 23-cü maddəsi ilə ittihamların siyahısını oxudu. Mənə qarşı irəli sürülən ittihamlar çox idi. Bunlara cinayətkar sui-qəsdin həyata

keçirilməsində birgə fəaliyyət göstərmək, konstitusiyanı pozmaq, dövlətə qarşı müharibə aparmaq, ölkəyə qarşı casusluq etmək, fotoşəkil çəkmək üçün hərbi bölgələrə və müəssisələrə daxil olmaq, təriqətlərə qarşı və ya məzhəblər arasında nifaq salmaq, yalan xəbərlər dərc etmək, Sudana qanunsuz daxil olmaq və lisenziya olmadan xeyriyyə təşkilatları üçün fəaliyyət göstərmək kimi ittihamlar aid idi.

Müstəntiqin sözlərinə görə, bizi Sudana qarşı kəşfiyyat fəaliyyəti aparmaqda və Nuba dağlarında fəaliyyət göstərən Sudan Xalq Azadlıq Ordusuna əhəmiyyətli dəstək olmaqda ittiham edirdilər. O, iştirak edənlərə izah etdi ki, biz Sudan hökumətinə qarşı müxtəlif ittihamları dəstəkləmək üçün sübutlar toplayırıq. Bu sübutlara zorakılıq aktları, o cümlədən mülki əhalinin köçməsi, məhkəməsiz qətllər, kəndlərin yandırılması və soyqırımı, məsihçilərə edilən işgəncələr və kilsələrin sökülməsi kimi məlumatlar aid idi.

Mən MKTX-nin təqdim etdiyi tərcüməçiyə inanmadım. Onun ingilis dili acınacaqlı idi, çünki o, mənim ilk dəfə Sudana "turizm vizası" əvəzinə "terror vizası" ilə gəldiyimi tərcümə etdi. Yanımdakı skamyada əyləşən sudanlı qardaşlarım da şübhələrimi təsdiqlədilər ki, tərcüməçi dəqiq tərcümə etmir. Etiraz etməyə başlayanda hakim onları susdurdu.

Vəkillərimiz bizə qarşı irəli sürülən ittihamları rədd etdi və məhkəmə avqustun 29-na kimi təxirə salındı. Biz vəkillərimizə tərcüməçidən şikayət etdik, sonra pastor Həsənlə pastor Kuvanı və Monimlə məni cüt-cüt qandalladılar, məhkəmə zalından çıxarıb geriyə həbsxananın gözləmə otağına apardılar. Bir neçə saatdan sonra biz yenidən mal-qara daşınan yük maşınına minib səhrada yerləşən həbsxanaya qayıtdıq.

Mənə qarşı irəli sürülən ittihamlar dəhşətli idi, lakin narahat deyildim. Çünki mən Ali Hakimlə şəxsən tanış idim. O, qara mantiya geyinmir.

* * *

Həbsxanaya qanunsuz gətirilən mobil telefonlar müxtəlif qeyri-qanuni yollarla alına bilərdi. Monim bu telefonlardan birini aldı. O mənə icazə verirdi ki, telefonundan hər gün ailəmə zəng edib təxminən bir saat danışım. Mən sim kart aldım və məhbus yoldaşlarımdan xahiş etdim ki, lazım olduqda onu yeni kreditlə doldursunlar. Ailəm konsulluq əməkdaşı vasitəsilə mənə sadə bir mobil telefon göndərmək qərarına gəldi. Növbəti məhkəmədə mən ailəmdən içərisində təmizlik əşyaları, quru yeməklər və yaddaşında bəzi vacib nömrələr saxlanmış cib telefonu olan plastik torba aldım. Məhkəmə binasında heç kim bizi yoxlamadı, çünki onlar bilirdilər ki, "Əl-Huda"ya girməzdən əvvəl bizi diqqətlə yoxlayacaqlar. Beləliklə, mobil telefonumu həbsxanaya keçirmək bir problem idi.

Xartumun Mərkəzində keçirilən ilk məhkəmə iclasından qayıdarkən yolda bizi müşayiət edən mühafizəçilərimizdən xahiş etdik ki, çörək bişirilən yerdə dayansınlar və biz bir neçə ədəd çörək alaq. Kiçik bir rüşvət sayəsində mühafizəçilər dayandılar.

Daha təcrübəli məhbus yoldaşlarım mənə telefonumu və onun adaptorunu plastik torbanın ortasındakı çörəklərin içərisinə salmağı öyrətdilər. Beləliklə, mühafizəçilər torbadakı çörəkləri yoxlayanda ortada olanlara toxunmadan, yalnız yan tərəfdəki çörəkləri yoxladılar.

Planımız mükəmməl yerinə yetdi. Otağımda çörəyin içində gizlətdiyim mobil telefonumu çıxardım və kameranın qapılarının bağlanmasını gözlədim. Nəhayət, ailəmə zəng edə bildim. Vanda, Vava və Peter ilə müntəzəm təmasda olduğum üçün çox rahatlandım və telefonda danışarkən Allahın Müqəddəs Kitab vasitəsilə mənə açıqladığı ayələrlə onları ruhlandırdım.

Hər səhər saat 6:00-da kameranın qapıları açılırdı və biz mobil telefonlarımızı yenidən axşama qədər gizli saxlayırdıq. Adətən telefonumu özümlə aparırdım, lakin bir dəfə mühafizəçi axtarış üçün məni saxlayıb mobil telefonumu tapanda onu geri qaytarmaq üçün məndən əlli Sudan funtu tələb etdi. Bundan sonra hər səhər yoxlanmasında iştirak etmək üçün sırada durmazdan əvvəl telefo-

numu Şukvana verirdim. O, telefonumu çarpayımın altındakı taxta qutuda kilidləyib saxlayırdı və bilirdim ki, gecəyə qədər telefonum təhlükəsiz yerdədir. Səhər yoxlamasından sonra bizə həbsxana kompleksində məhdudiyyətsiz gəzməyə icazə verilirdi və vaxtımın çox hissəsini mən kilsədə keçirirdim.

* * *

Əvvəlki həbsxanalarda məktubların göndərilməsi və qəbul olunması zəhmətli, uzunmüddətli bir iş idi və məktublarım senzuradan keçirdi. Bu, məktublarımda tamamilə şəffaf olmağıma mane olurdu. Mən ingilis dilində yazırdım və onlar Gizli Polis tərəfindən yoxlanılırdı. Məktublarımın konsulluq məmuru vasitəsilə ailəmə çatdırılması çox vaxt aparırdı.

Amma indi "Əl-Huda" həbsxanasında əlimizdə smartfonlar var idi. Anladım ki, çex dilində məktub yazaraq telefonla hər səhifənin şəklini çəkib onu şifrəli WhatsApp proqramı vasitəsilə qızımın mobil telefonuna göndərə bilərəm.

İlk məhkəmə iclasımızdan bir həftə sonra və ikinci görüşdən bir gün əvvəl ailəmə çex dilində gizli məktub yazdım. Bu məktubumda mən həbsxanada çəkdiyim əzabların qısa vaxtını İsa Məsihin davamçıları olan "Əl-Huda" həbsxanasındakı məhbusların əbədi həyatı ilə müqayisə etdim. Şifrəli sözlə "qoruyucu mələyim" — deyə müraciət etdiyim kamera yoldaşım Şukvan qardaşa təşəkkür etdim. Şukvan tez-tez həbsxana yeməklərini hazırlayır və mənə itirdiyim çəkini bərpa etməkdə kömək edirdi. Ailəmə yazdım ki, Şukvan müsəlman kamera yoldaşlarımızın qarşısında məndən yeməklərimizə xeyir-dua verməyi xahiş etdi. Bu, mənə dualarımı ingilis dilində başa düşənlər üçün qısa vəzlər etməyə imkan verirdi.

Mən tez-tez Şukvanın ərəbcə İncili oxuduğunun və kameramızdakı müsəlman məhbusların ona Müqəddəs Kitabda yazılanlar barədə suallar verdiyinin şahidi olmuşdum. Şukvan yaxşı bir tərəfdar olduğunu sübut edərək onların etirazlarına cavab verirdi.

O, hər dəfə Müjdəni müsəlmanlarla bölüşəndə onun üçün səssizcə dua edirdim.

Məktubumun sonunda yalnız Rəbbin məni burada istifadə etmək istədiyi vaxta qədər qalacağıma əmin olduğumu qeyd etdim. Mən yazmağı bitirəndə məktubum səkkiz səhifə çıxdı. Axır ki, həyat yoldaşıma və uşaqlarıma öz fikirlərimi belə sərbəst yaza bilirdim. Bu, xoş hisslər idi.

"Əl-Huda" həbsxanasında smartfonlarımızın olmasının başqa faydası bu idi ki, Həsənin telefonundan Sudan səhrasının ortasındakı son dərəcə yavaş işləyən 2G internetindən istifadə edərək dünyanın hər yerindən insanların vəziyyətimizi izləyib bizə daha çox dəstək olduqlarını görə bilirdik. Təqib olunan insanların adından kampaniya aparan CitizenGo insan haqları təşkilatı bizim üçün onlayn petisiyaya başladı. Həsənin telefonunun ətrafında yığışaraq imzaların sayının artmasına heyranlıqla baxır və saytı dönə-dönə təzələyirdik. Hər birimiz ərizəyə imza atdıq və hər səhər həbsxanamıza yeni gələn məhbus bizi kənara çəkib deyirdi ki, o da ərizəmizi imzalayıb. Biz petisiyanı hər gün izləyirdik və imzaların sayı yarım milyona çatanda heyrətlənirdik.

Bir dəfə bizə İspaniyanın Madrid şəhərində Sudan səfirliyi qarşısında dinc nümayişin YouTube videosu barədə xəbər verdilər. O videonu zəif internet bağlantımızda fasilələrlə izləsək də, adımın yazıldığı plakatları görmək, insanların mənim üçün qışqırdığını eşitmək məni təsirləndirdi. İyirmi dəqiqəlik videoda kamera izdihamda Peter Yaşek üçün azadlıq tələb edən bir plakatdan o birisinə keçdi.

* * *

İlk dindirilməmizdən bir həftə sonra biz Xartum Mərkəzində ikinci dəfə keçirilən məhkəməyə getmək üçün yola düşdük. Əvvəlki kimi kiçik, çirkli kamerada saat 13:00-a qədər iki saat yarım gözlədik. Sonra dinləmə başladı. Kameramızda bizimlə birlikdə onlarla uşaq da var idi. Onlar kasıbçılıq içində böyümüş, sonra oğurluqla

məşğul olmuş uşaqlar idi. Pastorların ailələri bizə yemək gətirəndə yeməyimizi onlarla bölüşürdük. Onların arasında ən kiçik uşağın doqquz yaşı olardı.

İclas başlayanda gördüm ki, işimizin istintaqını aparan və ittihamımıza rəhbərlik edən müstəntiq məhkəmə zalında proyektor quraşdırıb. O, MKTX-nin kompüterimdə tapdığı fotoşəkilləri göstərməyə başladı. Bunlar şimalda dağıdılmış kilsələrin və Nuba dağlarında müharibə zonasının fotoşəkilləri idi.

Ekranda göstərilən şəkillərə baxarkən birdən gözüm küncdəki kiçik bir detala yönəldi. Şəkillərin üzərində tarix rəqəmsal olaraq 2011-ci il kimi möhürlənmişdi. Mən skamyada dik oturdum və damarlarımda adrenalin sürətlə cərəyan etdi və dərindən nəfəs aldım. Nəhayət, mənim bu ittihamda günahsız olduğumun sübutu üçün dəlil var idi! Əyilib vəkilimin qulağına pıçıldadım: "Bunlar mənim şəkillərim deyil. Mən 2011-ci ildə Sudanda olmamışam!" Vəkilimlə ingilis dilində danışmağımı görən prokuror buna etirazını bildirdi və hakim də onunla razılaşdı. Vəkillərlə hakim arasında səs-küylü mübahisə yarandı.

Lakin bir az sonra binada elektrik kəsildi və müstəntiqin proyektoru qaranlığa qərq oldu. Məhkəmə zalında olanların əksəriyyəti gülməyə başladı. Elektrikin kəsilməsi Sudan camaatı üçün gündəlik adi hal idi və yalnız varlıların generatoru var idi. Binada elektrik enerjisi kəsildiyi üçün məhkəmə sentyabrın 1-nə keçirildi. Cəmi iyirmi dəqiqə idi ki, biz məhkəmə zalına gəlmişdik. Amma gördüm ki, Sudan Təhlükəsizliyi bizim dinləmələrimizi təxirə salmaq üçün bu fürsətdən istifadə etmək istəyir. Artıq bu məni çox narahat etmirdi. İndi mən 2011-ci ildə Sudana səfər etmədiyimi sübut edən bir dəlil tapmalı idim.



# 23

“Əl-Huda” həbsxanasına qayıdanda dərhal Vava ilə əlaqə saxladım və xahiş etdim ki, həmin gün məhkəmədə gördüyüm Nuba dağlarında çəkilən fotoşəkillərdə qeyd olunan tarixdə mənim Praqada olduğumu sübut edən sənədləri elektron poçtla vəkilimə göndərsin. Bu mənim günahsızlığımı sübut etmək üçün lazım olan dəlil idi! Tezliklə bəraət alacağımı düşünəndə həyəcan bədənimə yayıldı.

Sentyabrın 1-i səhər biz Xartuma uzun səyahətə yola düşmək üçün yenidən kameramızı tərk etdik. “Əl-Huda” həbsxanasından keçərkən mən dəhşətli bir mənzərənin şahidi oldum.

“Sağ tərəfə baxın” — deyə Həsən və Kuvanı dirsəklə yavaşca vuraraq pıçıldadım. Həbsxananın həyətindən keçəndə bir məhbusun nəcis ilə dolu açıq kanalizasiyaya batırıldığını gördük. Mühafizəçilər məhbusu boynuna qədər kanalizasiya suyuna salırdılar. Mən bunu görəndə onun halına acıdım və Allahdan onu qoruması üçün dua etdim.

Digər məhbuslardan öyrəndik ki, o məhbus yəqin ki, gözətçini vurduğuna görə belə ağır cəzaya məhkum olunmuşdur. Bu cəza ən azı yarım saat kanalizasiyada saxlanmaq idi. Bu, mühafizəçilərin verdikləri ağır cəza növü idi. Ciddi olmayan cəza isə axar suyu məhdud olan bir yerdə tam yuyuna bilməyəcəklərini bilərək mühafizəçilərin məhbusları çirkli suyun içində yuvarlanmağa məcbur etməsi idi. Daha ciddi cinayətlərə görə mühafizəçilər məhbusların ayaqlarını bir, iki və ya hətta üç həftə zəncirlə bağlayırdılar və nəticədə ağır metal onların topuqlarına batırdı. Həmin zəncirləri

çıxarmaq daha da əzablı idi, çünki qıfılı kəsmək üçün istifadə edilən dəmir mişar məhbusların dərisini kəsirdi.

Ən ağır cəza isə indicə şahidi olduğumuz mənzərə idi və "Əl-Huda" həbsxanasında bu, adi bir şey idi. Hər dəfə donuz fermasındakı üfunəti xatırladan pis qoxu gələndə bilirdik ki, kanalizasiya sisteminin qapağı açılıb və başqa bir məhbus cəzalandırılacaq. Otuz dəqiqə ərzində məhbus kanalizasiya suyunda saxlanılarkən oradakı ifrazat onun çiyinlərini örtür və boynuna kimi qalxırdı. Bu cəzadan sonra məhbusun yuyunması üçün su yox idi. Təəccüblü deyildi ki, vəba bütün "Əl-Huda" həbsxanasında buna görə geniş yayılmışdı. Yoluxucu xəstəliyin qarşısını almaq üçün həbsxana həkimləri hər sağlam məhbusa üç ədəd doksisiklin dərmanı verirdilər. Onlar səhvən antibiotikdən profilaktik məqsədlə istifadə edirdilər. Hər gün dua edirdim ki, Rəbb məni xəstəliklərdən qorusun. Həbsxanada vərəm xəstəliyi də çox yayılmışdı və mühafizəçilər meyitləri aramızdan çıxarmaq üçün vaxtaşırı kameralara daxil olurdular.

* * *

Üçüncü dinləməmiz başlayanda tərcüməçi işdən çıxarılmışdı. Məhkəmə zamanı tərcüməçinin olmaması məni xüsusi narahat etmədi.

Bu sessiyalar mənə 1950-ci illərdə Çexoslovakiyada keçirilən məhkəmə proseslərini xatırlatdı. O zaman kommunistlər ideoloji cəhətdən təhdid hesab etdikləri müttəhimlərə ömürlük həbs cəzası verirdilər. Belə vəziyyətdə narahat olmaq əvəzinə, mən də Rəbbə həmd etməyi, səssizcə dua etməyi seçdim. Bundan əlavə, məhkəmə bir neçə həftəyə başa çatmalı idi.

Üçüncü dinləmə başqa bir yorucu və gərgin prosess idi. Bu zaman istintaq prokuroru Məsihi qəbul edən və bədəni yanmış gənc müsəlmanla görüşümə dair sübut təqdim etdi. Vəkilim prokurorun təqdim etdiyi materialların həqiqiliyini yoxlamaq üçün texniki ekspertlərin cəlb olunmasını tələb etdi.

Həbsxana otağıma qayıdandan sonra ailəmə məktub yazdım.

*"Avropalıların gözündə bu cür məhkəmə iclası çox qarmaqarışıq görünür. Hakim, müdafiəçilər, prokurorlar bir-birinin üstünə qışqırırlar. Gizli polis işçiləri də dinləmələrdə iştirak edir və hər şeyi istədikləri istiqamətə yönəldirlər. Hakim özü də gizli polisin üzvlərindəndir, ona görə də bilirik ki, hökm ittiham edənlərin istədiyi kimi olacaq.*

*Mən və mənimlə birlikdə eyni işdə təqsirləndirilən üç qardaş narahat deyilik. Biz bilirik ki, hər şey Rəbbin əlindədir, son və həlledici sözü də O deyəcək. Mən Məzmur 109:30-31-ci ayələri oxuyanda çox ruhlanıram və güclənirəm.*

*Məni ruhlandırmaq üçün göndərdiyiniz bütün ayələrə görə sağ olun. Bu ayələrdə hər gün Rəbbin mənə açdığı həqiqətlərin təsdiqini görürəm. Rəbb burada mənə Onunla ünsiyyətimi yeniləmək və Müjdəni bölüşmək, özümü ruhani inkişaf etdirmək və əziz məsihçi qardaşların köməyi ilə məni ruhlandırmaq üçün vaxt verir.*

*Həbsxanada olduğum doqquz aydan dörd ayını təkadamlıq kamerada keçirmişəm. Burada qaldığım ilk beş ayda Müqəddəs Kitabım yox idi. Lakin Rəbb mənimlə Müqəddəs Ruh vasitəsilə danışırdı və bildiyim ayələri yadıma salaraq Öz sözünü mənə xatırladırdı. Daha sonra Müqəddəs Kitabın əvvəllər başa düşmədiyim və ya səhv başa düşdüyüm hissələri barədə O, mənə yeni, daha dərin anlayışlar verirdi.*

*Dualarınız və ruhlandırıcı sözləriniz üçün təşəkkür edirəm. Rəbb sizi qorusun və hamınıza xeyir-dua versin. 1 Peter 2:20-23".*

* * *

İki həftə əvvəl, avqustun 15-də Vanda və uşaqlarımın yazdıqları məktubu və bəzi lazımlı əşyalar olan plastik torbanı Çex konsulluğunun yeni məmuru cənab Afifi vasitəsilə mənə göndərdilər. Vanda yazırdı: "Mən cəsarətinə və bütün vəziyyətlərə dözüb səbr etdiyinə görə səninlə həqiqətən fəxr edirəm. Sən hamımız üçün gözəl nümunəsən və bizi ruhlandırırsan. Mən bütün məktublarını oxuyuram və sözlərini ürəyimdə saxlayıram!"

Üçüncü dinləmədən sonra ilk dəfə cənab Afifi ilə görüşəndə ailəmin göndərdiyi hədiyyələri və məktubu aldım. Onların yazdıqlarını oxuyub cavab yazdım:

*"Mənim əzizlərim!*

*Cənab Afifi vasitəsilə göndərdiyiniz pula görə çox sağ olun. Mobil telefonu həbsxanaya keçirə bildim və bu, mənə mühafizəçilərə cəmi iki kiçik "hədiyyə" verməklə başa gəldi. Sudan həbsxanasına pulun hesabına demək olar ki, hər şey gətirmək olar.*

*Mən Riçard Vurmbrandın "Həbsxana divarları danışa bilsəydi" kitabını oxuyanda böyük sevinc hissi keçirirəm. Bu kitabı təxminən iyirmi il əvvəl oxumuşam. Amma indi Vurmbrand qardaş kimi həbsxanada olanda bu kitabda yazılanlar birbaşa ürəyimlə danışır! Burada keçirdiyim hisslər Riçardın hissləri ilə çox oxşardır. Bir neçə dəfə bu kitabda yazılanlar mənə elə təsir etdi ki, hətta ağladım. Mən bu*

*kitabı bir gün günortadan sonra tam oxuyub qurtardım, amma onu bir daha oxumağı səbirsizliklə gözləyirəm*".

Mənim həbsxana təcrübələrimin, hisslərimin, Müqəddəs Yazılara dair teoloji düşüncələrimin və vəziyyətlərimin zaman və məkan baxımından fərqli olmasına baxmayaraq, Riçard Vurmbrandın vəziyyəti ilə çox oxşar idi. Mən 2016-cı ildə Sudanın totalitar hökuməti tərəfindən həbs olunmuşdum. Riçard isə onilliklər əvvəl Rumıniyanın totalitar kommunist hökuməti tərəfindən həbs edilmişdi. Təqiblər zamanı onun keçirdiyi eyni vəziyyətləri hiss etdim. Bizi bir-birinə ortaq bir əlaqə, vəziyyət və Məsih birləşdirirdi. Dua etdim ki, əgər Allah məni Vurmbrandı azad etdiyi kimi nə vaxtsa həbsdən azad etsə, başqaları Məsihin məhəbbətini anlasınlar deyə, öz şəhadətimi yazmaq üçün mənə cəsarət versin.



# 24

“Əl-Huda” həbsxanasında keçirdiyim vaxtda mən emosional və mənəvi cəhətdən inkişaf edirdim. Ailəm mənə Müqəddəs Kitabın həm çex, həm də ingilis dillərində audio yazısı olan bir MP3 pleyer və fransız dili dərsliyi göndərmişdi. Günəş batdıqdan sonra otağımda oxumaq üçün kifayət qədər işıq olmadıqda axşam saatlarında Müqəddəs Kitabın audio yazısına qulaq asırdım. “Əl-Huda” kilsəsində ingilis və fransız dillərini öyrətmək üçün pleyerdəki audio yazılardan istifadə edirdim.

Burada düşüncəm və ruhum mənəvi qidalansa da, Xartum məhkəməsinə həftəlik səfərlər mənə çox çətin gəlirdi. Sudanda hələ də qızmar isti idi və mal-qara üçün olan yük maşınında yorucu yol getmək son dərəcə xoşagəlməz idi. Bazar günü səhər Xartum məhkəməsinin binasına getməkdən qorxmağa başladım.

Sentyabrın 5-də növbəti məhkəmə prosesimiz üçün yenidən ora getdik. Yeni tərcüməçim Xartum Universitetinin tərcümə fakültəsinin müəllimi idi.

Bütün dinləmələr boyu tərcüməçi mənim cavablarımı təhrif edərək səhv tərcümə edirdi. Həsən mənə tərəf əyilib pıçıldadı ki, məni Amerika təşkilatının nümayəndəsi olub yaralı gəncə yardım etməkdə günahlandırırlar. Halbuki, bunu mən heç vaxt demək istəməzdim. O tərcümə edərək mənə dedi ki, hökuməti devirmək üçün rüşvət verməkdə məni ittiham edirlər. Məhkəmə davam edərkən, mən Həsən və Kuvanın reaksiyalarını izləyirdim, onların məyusluğunu və narahatlığını görürdüm.

“Etiraz edirəm” — deyə vəkilim dönə-dönə fikrini bildirdi, amma hakim buna əhəmiyyət vermədi.

Əsasən yaralı məsihçi tələbənin üzərində qurulan məhkəmə prosesindən sonra səfirlik işçiləri əlimizi sıxaraq bizi əmin etdilər ki, məhkəmə prosesimiz dinlə və siyasi vəziyyətlə bağlı olduğunu başa düşürlər. Onlar bizə səbrli olmağımıza görə təşəkkür etdilər və məhkəmədə özümüzü necə apardığımıza görə heyran olduqlarını söylədilər.

Onların sözlərindən ruhlanaraq növbəti bir neçə saatı saxlama kamerasında keçirdik. Bizi yenidən “Əl-Huda” həbsxanasına aparmazdan əvvəl, orada digər məhbuslar arasında gəzişərkən bizə dəstək olan Nuba məsihçilərinə və səfirlik işçilərinə görə Tanrıya şükür etdik.

* * *

Dinləmələr hər həftə davam etdi və biz “Əl-Huda” həbsxanasından Xartuma qədər təkrarən çətin səfər etdik. Bəzən nəqliyyatımız yavaş getdiyindən və ya havanın şiddətli isti olduğundan yolumuz üç saata qədər uzanırdı. Biz tez-tez Xartumdakı digər məhkəmə binalarında dayanırdıq və mal-qara üçün olan yük maşınımız məhbuslarla o qədər dolu idi ki, nəfəs almaq belə çox çətin idi.

Sentyabrın 26-da yenidən hakimin qarşısına çıxdıq və prokurorun bizə qarşı iddiasını dinlədik. O, 2011-ci ildə Nuba dağlarında çəkilmiş videonu göstərdi və mən buna görə sevindim. Bilirdim ki, ailəm tərəfindən təqdim edilmiş o vaxtlar Sudanda olmadığımı sübut edən dəlillər var. Hökumətin mənə qarşı ittihamlarının çoxu Nuba dağlarından çəkilmiş videolarla bağlı idi. Amma orada olmadığımı sübut etmək üçün vaxt lazım idi.

Müstəntiq videonu göstərdi və tərcüməçi isə onun mənasını tərcümə etdi.

Müstəntiq mənə işarə edərək dedi: “Bu video 1 saylı təqsirləndirilən şəxsin kompüterinin sərt diskində tapılıb. Burada müttəhimlə

birlikdə digər üç nəfərin maşınla Nuba dağının döyüş bölgəsindən keçdiyini görürük".

Vəkilim mənə tərəf dönüb pıçıldadı: "Peter, onlar deyirlər ki, sən bu videoda orada olmusan".

"Bu, açıq cəfəngiyatdır, çünki həmin vaxt mən Çexiyada olmuşam və bunu sübut edə bilərəm" — deyə ona pıçıltı ilə cavab verdim.

Etiraz etmək üçün o, əlini qaldırdı, yəqin ki, ona dediklərimi izah etdi. Sonra qarşısındakı masadan bir yığın kağızı götürdü və dedi: "Bunlar video çəkilən zaman cənab Peter Yaşekin Praqada olduğuna dair sübutlardır".

O, qəbzlərin və digər sənədlərin surətlərini hakimə göstərdi və sonra videonun hətta mənim kameramla çəkilmədiyi barədə ekspertin sübutunu da təqdim etdi. Mənim kameram Canon Rebel XT3 idi, lakin videodakı rəqəmsal möhür "Canon Rebel XTi" kamerasına məxsus idi.

Onun təkzibi tutarlı və mübahisə edilməz idi, amma nədənsə bunlar hakimi inandırmadı və skan edilmiş sənədləri kənara qoymazdan əvvəl onlara ötəri nəzər saldı. Hakim ərəbcə nəsə dedi və vəkilim razılaşmayaraq sadəcə çiyinlərini çəkdi. Beləliklə, mənim təkzibedilməz dəlilimi qəbul etmədilər.

Məhkəmə zalında ətrafa baxdım, vəkilimin etirazlarını heç kim qeyd etmirdi. Məni azad edəcəyini düşündüyüm dəqiq dəlillər məhkəmə prosesimin rəsmi protokoluna belə daxil edilməyəcəkdi!



# 25

Oktyabrın 17-də səkkizinci məhkəmə iclasımız üçün yenidən Xartuma gəldik. Məhkəmənin artıq iki ay çəkməsi məni çox ruhdan salmışdı. Ailəmdən gələn məktublar və gizli telefon zəngləri vasitəsilə öyrəndim ki, dünyanın hər yerində məsihçilər mənim üçün dua edirlər və bu məni çox ruhlandırdı.

Çexiyadakı kilsəmizdə mənim üçün gündəlik dua və oruc davam edirdi və bilirdim ki, onlar birlikdə dua etməkdən ötrü müntəzəm olaraq görüşürdülər. Mən onu da bilirdim ki, hər çərşənbə axşamı səhər ABŞ-dakı "Şəhidlərin səsi" təşkilatının ofisində keçirilən ibadətdə iş yoldaşlarım da mənim üçün dua edirlər. Pastor Həsən və pastor Kuva mənə Sudandakı bütün kilsənin bizim üçün dua etdiyini söylədilər və mən bütün o məsihçiləri düşünərək növbəti məhkəmə iclası üçün Xartum mərkəzinə yollandım.

Məhkəmədə müstəntiq və prokuror olan cənab Əbdürrəhman yaralı tələbə ilə gecə görüşümüzün videosunun çəkildiyini bildirdi və mən başa düşdüm ki, onlar gecəgörmə kameraları ilə qeydə alınıb. O, həmçinin xəsarət almış tələbənin Məsihi qəbul etməsində mənimlə Moniminin səs yazısının olduğunu bildirdi. Mən bunun qeyri-mümkün olduğunu hesab edirdim, çünki o görüşü mən yaxşı xatırlayırdım. Biz səs-küylü restorandaydıq və belə şəraitdə mənim iPhone-dan hər hansı anlaşılan səs yazısı əldə etmək demək olar ki, mümkün deyildi.

İclasın növbəti hissəsində vəkillərimizdən ibarət qrupla cənab Əbdürrəhman arasında olan sual-cavablar məni çox maraqlandırdı.

"Bir nömrəli müttəhimi niyə dindirdiniz?" — deyə vəkilim mənə istinad edərək soruşdu.

"Ona görə ki, 2012-ci ildə onun Sudana ilk səfəri qeyri-qanuni olub. O, Nuba dağlarında bir çox ərazilərə baş çəkib və üsyançı döyüşçülərlə görüşüb. Həmin səfər zamanı o, Nuba xalqının zülm, işgəncə və zorla islamlaşdırılmasını və ərəbləşdirilməsini təsdiq edən sübutlar toplamağa çalışıb. Fotoşəkillərlə bağlı araşdırmalara əsasən o, üsyançı döyüşçülərə maddi, fiziki və mənəvi dəstək olub və bunlar barədə beynəlxalq qurumlara, xüsusilə bir nömrəli müttəhimin özünün işlədiyi baş ofisə hesabat təqdim edib" — deyə cənab Əbdürrəhman cavab verdi.

Mən bildim ki, baş ofis deyəndə o, "Şəhidlərin səsi" təşkilatını nəzərdə tuturdu.

""Şəhidlərin səsi" təşkilatının baş qərargahı haradadır?"

"ABŞ-da" — deyə o cavab verdi.

"Təqdim olunan hesabatların "Şəhidlərin səsi" təşkilatına hər hansı təsiri varmı?"

"Bəli, hesabatlar Sudanın beynəlxalq aləmdə siyasi, iqtisadi və hərbi baxımdan imicini açıq-aşkar ləkələdi" — deyə cənab Əbdürrəhman cavab verdi.

Bu etiraf məni heyrətə gətirdi. Sudan hökuməti məsihçiləri təqib etdiyini inkar etmədi, lakin bu məlumatın ölkədən kənarda yayılmasına qəti etiraz etdi. Prokurorun bu şərhini eşidəndə mən başımı tərpətdim. İttihamçılarımın fikrincə, problem onların məsihçiləri təqib etməsi deyil, bu məlumatın ölkənin reputasiyasına xələl gətirməsi idi!

Bu sorğu-sual bir müddət davam etdi. Cənab Əbdürrəhman pastor Həsən, pastor Kuva, Monim və mənim müxtəlif qeyri-qanuni fəaliyyətlərimiz haqqında ifadə verdi. Vəkillərimiz mübahisə və etiraz etdilər, amma təsiri olmadı. Hər dəfə hakim ittiham edənlərin tərəfini tuturdu.

Mən bilirdim ki, məhkəmə işim saxtakarlıqdır və ittiham edənlə istintaqı aparan eyni adamdı. Vəkilimin hər hansı sübutu mənim

günahkar və ya günahsız olmağıma heç bir təsir göstərmir. Pis cəhət bir də o idi ki, hakim aşkar şəkildə ittiham edən tərəfdə idi. İttiham edənlər dindirildikdə və kifayət qədər cavab verə bilməyəndə hakim müdaxilə edərək onların adından danışırdı. Mən yaxşı bilirdim ki, bu məhkəmə Çexoslovakiyadakı kommunist dövründə olduğu kimi gedir və çıxarılacaq hökmün xeyrimə olmaq ehtimalı çox azdır.

* * *

İki gündən sonra ailəmə daha bir məktub yazdım:

*"Əzizlərim!*

*"Əl-Huda" həbsxanasından hamınıza salamlar. Yorulmadan etdiyiniz dualarınıza, oruclarınıza və dəstəyinizə, həmçinin mənə böyük sevinc gətirən məktublarınıza görə hamınıza səmimi qəlbdən təşəkkür edirəm. Mənə belə böyük kömək etdiyinizə və Rəbbə lütf üçün yalvardığınıza görə minnətdaram (2 Korinflilərə 1:11). İnanıram ki, tezliklə hamımız birlikdə Allaha həmd edəcəyik.*

*Mən sizdən aldığım bütün məktubları dəfələrlə oxuyuram və onlardan, xüsusən də, göndərdiyiniz Müqəddəs Kitab ayələrindən çox ruhlanıram. Dualarınız sayəsində Allahın əlinin mənə toxunuşunu hiss edirəm. Dualarınızdan aldığım mənəvi güc bu iman mübarizəsini davam etdirməyimə kömək edir. Allah zəifliyimdə mənə güc verir (2 Korinflilərə 12:10) və bu mübarizəni mənim əvəzimə O bitirəcək (Məzmur 57:3).*

*Bu gün Paulun 2 Korinflilərə 6:3-cü və xüsusilə 10-cu ayədəki sözləri mənə çox təsir etdi. Hələ də həbsdə olmağıma baxmayaraq, Rəbbin mənə verdiyi heyrətamiz sevinci yalnız minnətdarlıqla izah edə bilərəm. Həbsxanada nə qədər uzun müddət olsam, sevincim də bir o qədər artır və İsanın mıxlanmış əllərinin mənə toxunuşunu hiss edirəm. Bütün bunları yalnız bizi sevən İsa Məsihin qurbanı ilə izah edə bilərik. Mən yaşayıram və xüsusən də, təhlükə olduqda Allahdan gələn böyük müdafiəni və Onun müdaxiləsini hiss edirəm*".

Mən məktubda həm də "Əl-Huda" həbsxanasında baş vermiş əlamətdar bir vəziyyəti — Rəbbin həyatıma müdaxiləsini təsvir etdim. İki həftə əvvəl daha bir təhlükəli məhbus təxminən doxsan beş nəfərlik izdihamlı həbsxana kameramıza köçürüldü. Bizim kamerada isə cəmi yetmiş beş çarpayı var idi. Mən Şukvan qardaşdan öyrəndim ki, yeni məhbus yeniyetmə ikən cinayət törətməkdə məhkum edilmişdi və hal-hazırda iyirmi illik həbs cəzasının on dördüncü ilini çəkirdi. Məni təəccübləndirən o idi ki, həmin adam gəlib yanımdakı çarpayıda oturdu və digər məhbuslara marixuana paylamağa başladı. O, kameranın sakit küncünü səs-küylü narkotik yuvasına çevirmək məqsədilə məhbusların siqaret çəkməyi və döyüş filmlərinə baxmağı üçün müasir böyük televizor və DVD pleyer gətirdi.

"Cangüdənim" Şukvan qardaş qəzəbləndi və ertəsi gün o, üçmərtəbəli çarpayımızı təxminən doxsan dərəcə çevirdi ki, kameramızın küncünü bağlasın və məhbuslar orada yığışıb filmə baxmasınlar. Narkotik satan məhbus qəzəbləndi və asanlıqla təslim olmaq istəmədi. O, çarpayımın yanına siqaret çəkmək üçün daha çox məhbus yığdı. İki dəfə qarşılarına çıxdım və ərəbcə qırıq-qırıq sözlərlə dedim ki, onların əməlləri ilə qəti razı deyiləm və xahiş etdim ki, çıxıb getsinlər. Məni təəccübləndirən o idi ki, məhbuslar

mənə hörmət edərək marixuana çəkmək üçün bizim küncdən otağın o biri tərəfinə çıxıb getdilər.

Narkotik satan məhbus indi müştərilərini itirirdi və buna görə məndən qisas almaq istəyirdi. Hamıya məlum idi ki, bu həbsxanada narkotik satan hər kəs mühafizəçilərlə yaxın dost olmalı idi. Ona görə də ertəsi gün mən kilsədən otağıma qayıdanda bəzi mühafizəçilər gözlənilmədən məni yoxlamaq üçün saxladılar. Paltarlarımı hərtərəfli yoxladıqdan sonra mühafizəçilərdən biri alt paltarımın kəmərində gizlətdiyim pulumu və mobil telefonumu tapdı. Telefonumu geri "almaq" üçün o məndən əlli Sudan funtu (təxminən 8 dollar) tələb etdi.

Daha bir neçə dəqiqə yoxlamadan sonra nəhayət otağımıza qayıtdım. Deyəsən, hamı, xüsusən də, əllərini sinəsinə qoyaraq oturan və məni qorxutmağa çalışan narkotik satan məhbus məni gözləyirdi. O, günün qalan hissəsini mənə sataşırdı. Axşam televizoru ayaqlarımın yanına qoydu. O bütün kameradakıların qadın boks matçını eşitməsi üçün televizorun səsini tam yüksəltdi.

Növbəti gün o, gecə saat ikiyə qədər qulağımın dibində musiqiyə qulaq asdı. Möcüzəli şəkildə, Rəbb mənə kifayət qədər dinclik və mərhəmət bəxş etdi ki, bütün səs-küydə rahat yata bilim. O biri məhbuslar gecə yüksək musiqi səsindən əsəbləşdilər. Narkotik satan məhbusdan incisələr də, amma heç kim onunla üzləşməyə cəsarət etmədi. Mən məhbusların ona olan hörmətinin qəzəbə çevrildiyini gördüm, amma bu kişiyə nifrət əvəzinə başqa bir şey hiss etdim. Rəbb o insana qarşı mənə fövqəltəbii məhəbbət bəxş etdi, xüsusən də, Zəkəriyyə 4:6-cı ayəni oxuyandan sonra, bu ayə mənə çox təsir etdi: ""Güclə, qüdrətlə yox, yalnız Mənim Ruhumla iş görəcəksən" deyir Ordular Rəbbi".

O ayə və həmin insan haqqında düşündükcə, Müqəddəs Ruh ürəyimi yumşaltdı. Mən ona Məsih kimi məhəbbətlə baxmağa çalışdım. Bəs o, hansı həyat haqqında bilməli idi? Bu adam yeniyetməlik illərindən etibarən on dörd il idi ki, həbsxanada yaşayırdı.

Bundan sonra mən etdiyim və ya dediyim hər şeydə onun qəddarlığına xeyirxahlıqla cavab verməyə çalışdım.

Növbəti gecə müəmmalı şəkildə sakit keçdi. Həbsxana nəzarətçiləri tərəfindən nə yüksək səsli musiqi, nə hədə-qorxu, nə təqib, nə də gözlənilməz axtarışlar olmadı. O gün günortadan sonra mən ibadətgahdan qayıdanda narkotik satan məhbusun çarpayısı boş idi. Televizor və DVD pleyer də yox idi. Nə baş verdiyini soruşandan sonra öyrəndim ki, həmin şəxs qəfil və anlaşılmaz şəkildə təxminən min kilometr uzaqda başqa bir həbsxanaya köçürülüb. Mən bu xəbərə inanmadım və gecəni onun üçün dua edərək, Allahdan mərhəmət dilədim. Rəbbin bu vəziyyətə müdaxiləsi mənə xatırlatdı ki, hətta bu kamerada cinayətkarlar, qatillər, oğrular və narkotik alverçiləri ilə əhatə olunsam belə, Allah məni qoruyurdu. Rəbb yadıma saldı ki, mən Ona məxsusam. Zəkəriyyə 2:8-ci ayədə deyildiyi kimi “...sizə toxunan Onun göz bəbəyinə toxunmuş olur”.



# 26

Növbəti iki həftə ərzində məhkəmə iclaslarımız təxirə salındı və biz səbirsizliklə xəbər və ya yenilik gözləyirdik. Noyabrın 3-də nəhayət, Xartuma qayıtdıq və məlum oldu ki, məhkəmə öz işini dayandırıb. İndi öz müdafiəmizi təqdim etmək vaxtı idi.

Vəkilim prokurora sual verməyə başladı. Onun məhkəmə qarşısındakı cəsarəti heyrətamiz idi. İndi belə onu düşünəndə ürəyimi minnətdarlıq hissləri bürüyür.

“Sudana viza ilə ziyarət edən şəxsin sudanlılarla görüşməsinə mane olan hər hansı qanun var? Sudan və Çexiya arasında hər hansı bir müharibə mövcuddurmu?” — deyə o soruşdu.

“Xeyr” — deyə cənab Əbdürrəhman cavab verdi.

“Araşdırmanıza görə, bu fotoların əksəriyyəti 2011-ci ildə Nuba dağlarında çəkilib. Cənab Yaşek həqiqətən həmin vaxt orada olub?” — deyə vəkilim sual verdi.

Suallar davam etdi, vəkilim ittiham edən tərəfin təqdim etdiyi saxta audio, video və foto sübutları etibarsız saydı. Vəkilim yenə sual verdi: “Siz səsləri müqayisə etmisiniz? Bilirsinizmi ki, yeni texnologiya vasitəsilə səs yazıları dəyişdirilə bilər? Sizcə bura gətirdiyiniz kamera Peterin fotoşəkillər çəkdiyi həmin kameradır?”

Cənab Əbdürrəhman mənim 2011-ci ildə həmin şəkillərin çəkildiyi məkanda olmadığımı etiraf etdi, lakin o, 2012-ci ildə başqa model Canon kamerası ilə çəkilən fotoşəkillər tapıb çıxardı.

Vəkillərimiz Əddis-Əbəbədəki konfransa, xəsarət alan tələbənin fotolarına və ona təklif olunan humanitar yardıma diqqət yetirərək sorğularını davam etdirdilər. Cənab Əbdürrəhman demək olar ki,

məni müdafiə edən bütün sübutları qəbul etdi və mən bir ümid işığı görməyə başladım.

Bizə qarşı ittihamın irəli sürülməsi üç ay vaxt aparmışdı, amma vəkillərimiz cəmi üç saat ərzində onun tamamilə əsassız olduğunu sübut etdilər.

* * *

Lakin sevincim uzun sürmədi. Noyabr və dekabr aylarında daha yeddi həftəlik dinləmələrimiz keçirildi və aydın oldu ki, bizə qarşı olan ittiham işində çoxlu qeyri-müəyyənliklərə baxmayaraq, onların mənə qarşı xeyli sübutları var. İttiham tərəfi iddia etdi ki, guya mən ölkənin milli və sosial təhlükəsizliyini təhdid edən dövlətə qarşı düşmənçilik fəaliyyəti aparmışam. Mənim apardığım "qeyri-qanuni humanitar iş" guya milli təhlükəsizliyi təhdid edir və Sudan cəmiyyətinin maraqlarına zərər verirdi. Sudan hökuməti demokratik proses olduğunu göstərməyə çalışırdı, lakin mən bilirdim ki, vəkillərimin təqdim etdiyi hər hansı sübutdan asılı olmayaraq, məhkəmə istədiyini edəcək. Hakim öz qərarını faktlara əsasən deyil, MKTX-nin göstərişi ilə verəcəkdi.

Hər dinləmədən sonra hökumət tərəfdarı olan qəzetlər dördümüzü Sudan hökumətinin ən pis cinayətkarları və ən təhlükəli düşmənləri kimi təqdim edən məqalələr dərc edirdilər. Baxmayaraq ki, mən eyni şeyi dünyanın bir çox totalitar ölkələrində görmüşəm və buna oxşar vəziyyətlərdə öz xidmətimlə təqib olunan məsihçiləri dəstəkləmişəm. Burada hökümətin ədalətsiz sistemi məni son dərəcə məyus edirdi. Bilirdim ki, mən təqsirkar çıxarılıb ölümə məhkum oluna bilərəm. Ən azından həyatımın növbəti iyirmi ilini həbsxanada keçirmək ehtimalı var idi. Gecə telefonla rahat danışmaq imkanı olanda ailəmə zəng vurub onları gözlənilən şeylər barədə xəbərdar etdim. Ola bilsin ki, azadlığa çıxacağam, amma onu da bilirdim ki, məni uzun müddətli və ya ömürlük həbs, hətta ölüm cəzası da gözləyir. Ailəmə bunları bildirdim ki, onlar da hazır olsunlar.

Konsulluq məmurları və hətta Qahirədən gələn Çexiya səfiri də bir çox məhkəmə dindirmələrimdə iştirak edirdi və onlar hökm elan olunan kimi azadlığa çıxmağım üçün danışıqlara başlayacaqları barədə məni əmin etdilər. Bəs görəsən, bu danışıqlar prosesi nə vaxta kimi davam edəcəkdi?

"Ola bilsin ki, məhkəmə məni iyirmi il müddətinə azadlıqdan məhrum etsin" — deyə mən məhkəmə prosesi başa çatdıqdan bir gün sonra Çexiya konsulluğunun əməkdaşına öz fikrimi bildirdim.

"Xeyr, xeyr. Belə hallarda məhbusun həbsxanada qaldığı vaxt cəza dövrü sayılır. Əminəm ki, siz azad olunacaqsınız" — deyə məni əmin etdi.

Dua etdim ki, onun dedikləri həqiqət olsun.

# 27

Mən ilk dəfə Xartumda həbs ediləndə üzüm təraş olunmuşdu və keçəl idim. İndi, təxminən səkkiz aydan sonra arxada saçlarım və üzümdə saqqalım uzanmış, boğazımı örtmüşdü. Bu, həqiqətən də, səhrada yaşamağın nəticəsi idi və mən özümü vəhşi kimi hiss edirdim.

Çox vaxt "Əl-Huda" həbsxanasında elektrik olmayanda yeməyimizi hazırlamaq üçün öz bacarığımızdan istifadə edirdik. Kömürdən istifadə etmək heç də yaxşı seçim deyildi, çünki tüstü otağımızı bürüyürdü. Qapının yanında kömür yandıranda demək olar ki, nəfəs almaq mümkün olmurdu. Ürək bulandıran qoxunu aradan qaldırmaq üçün kiminsə ağlına gəldi ki, xoş ətir verən yaşıl qəhvə dənələrini odda qovursun.

Kömürlə yemək bişirmək bizim üçün əlverişli üsul deyildi. Məhbuslar bacarıqlı olduqlarına görə digər məhbuslara satmaq üçün gizli yol ilə hər cür əşyaları keçirməyə müvəffəq olmuşdular. Ona görə də həbsxanada, demək olar ki, hər şeyi almaq mümkün idi. Kamera yoldaşlarımla birgə Afrika elektrik sobalarımızı düzəltmək üçün istiyə davamlı naqillər aldıq. Bir dəfə təsadüfən iki naqilə eyni vaxtda toxunduğum üçün böyük elektrik cərəyanı məni vurdu. Lakin sonda biz müqavimətli naqillərin köməyi ilə elektrik cərəyanını birbaşa dairəvi barmaqlıqlara qoşub soba kimi istifadə etdik.

Mən daima əşyalarımın oğurlanmasına görə narahat olurdum. Əvvəlki qaldığım həbsxanalarda mühafizəçilər çamadanımı həmişə öz otaqlarında saxlayırdılar, lakin burada oğurluq tez-tez baş verirdi. Hər bir məhbus əşyalarına özü cavabdeh idi. Bura gələndən

üç gün sonra çamadanımdan əşyalarımın yoxa çıxdığını görəndə bu mənə yaxşı dərs oldu. Çamadanımdan dezodorant, sabun, yemək və dərman, bir sözlə hər şey yoxa çıxmışdı. Bu səbəbdən hara gedirdimsə, çamadanımı da özümlə aparırdım.

Mobil telefonu, kredit kartları, pul kisəsi kimi lazımlı əşyalarımı və pulumu Vandanın kəmərimin iç tərəfində tikdiyi gizli cibdə saxlayırdım. Mən kəmərimi yalnız həbsxana tualetində çimmək üçün paltarlarımla birgə çıxarırdım.

"Əl-Huda" həbsxanasına gəldikdən təxminən bir həftə sonra kəmərimi vanna otağında asılqanda asmaqla səhv etdim. Mən üzümdəki sabunu yumaq üçün bir neçə saniyəlik gözlərimi yumdum və yenidən açanda bütün əşyalarımın oğurlandığını gördüm. Yəqin ki, kimsə yandakı tualet bölməsində məni güdürmüş və gözlərimi yumduğum zaman asanlıqla kəmərimi oğurlamışdı. Buna görə çox məyus oldum və son dərəcədə qəzəbləndim. Cəld məhbuslardan bir mobil telefonu götürüb ailəmlə əlaqə saxladım. Onlara dedim ki, banka zəng edib mənim kredit kartlarımı bağlasınlar.

Bir neçə dəqiqədən sonra Şukvan qardaş əlində kredit kartlarımla mənə yaxınlaşdı. Görünür, o, məhbuslar arasında nüfuzundan istifadə edərək oğrunun izinə düşüb, telefonumu və digər qiymətli əşyalarımı geri ala bilmişdi. Amma pul kisəmdəki pulu geri qaytarmadılar.

Bir gün kilsəmizin rəhbərinə dedim ki, dərmanımı çamadanımdan oğurlayıblar. O dedi: "Çamadanınızı bura gətirin. Niyə bunu siz əvvəllər demirdiniz?" Mən məbədə kimi onunla birgə getdim. O izah etdi ki, beş tualet bölməsindən yalnız ikisi işləyir. Qalan üç bölməsi işləmədiyinə görə kilsənin rəhbərləri oranın qapısını açarlayaraq öz əşlayarını saxlamaq üçün istifadə edirdilər. O, çamadanımı orada saxlayacağını söylədi və məni əmin etdi ki, əşyalarım etibarlı şəkildə qorunacaq.

Dekabr ayı yaxınlaşdıqca, açıq havada gündəlik adların qeyd olunması üçün hava çox soyuq olurdu. Beş nəfərdən ibarət cərgələrdə oturan böyük məhbus izdihamı adətən susurdu. Çoxumuz

üçün səhərlər həbsxanada günün ən kədərli anları idi. Qaranlıqda və soyuqda titrəyərək hamımız gələcəyimizi düşünürdük. Daha bir günü dəmir barmaqlıqlar arxasında keçirəcəkdik! Daha neçə gün burada olmalıyıq?

Bizim cərgəmizin düz qabağında içməli su üçün nəzərdə tutulan *dabanqa* adlı üç ədəd böyük, boş gil qab var idi. Mən qərara gəldim ki, bu maraqsız səhər saatlarımdan kifayət qədər yararlanmaq üçün günümü dua ilə başlayım. Bu gil qablar fikirlərimi sakitləşdirməkdə və ailəmi təsəvvür etməkdə mənə kömək edəcəkdi. Birinci dabanqa gil qab mənim üçün həyat yoldaşımı, ikinci qızımı və üçüncü oğlumu təsvir edəcəkdi və mən onlar üçün ayrı-ayrılıqda dua edəcəkdim. Mən ailəm üçün dua etdikdən sonra fikrimdə onlarla danışmağa başladım: "Ay canım dabanqa Vanda, daha neçə səhəri burada oturmalıyam? Nə vaxt səni yenidən qucaqlayacağam?"

Səhərin aydın səması hələ də parlaq ulduzlarla dolu idi və mən başımı qaldırıb ayı və Böyük Ayı bürcünü gördüm. Görəsən Vanda da bu anda həmin ulduzlara baxırmı? O, hal-hazırda nə edir? Həmin dəyərli anlarda başımı qaldırıb ulduzlara baxarkən sanki onların vasitəsilə həyat yoldaşıma bağlandım.

Aylar sonra, həbsdən çıxandan və nəhayət evə qayıtdıqdan sonra Vanda mənə dedi ki, o da səhər tezdən soyuqda avtobus dayanacağında dayanarkən dua vasitəsilə mənə bağlı olduğunu hiss edibmiş.

Hər səhər adların yoxlanmasından sonra həbsxanadakı kilsəmizə tələsirdim. Rəbbin hər gün mənim üçün hazırladığı yeni şeyləri gözləyərək pilləkənlərlə kilsənin mərtəbəsinə qalxanda ürəyim sevinirdi. Mənim əzizlərimə olan həsrət və şiddətli istək tezliklə Rəbbin ürəyimdəki sevincində əriyirdi.

Məhbuslara xidmət edərkən vaxtımı əsasən Allahın Kəlamına həsr edirdim və bu yolla Rəbb mənə xidmət edirdi. Çexiya səfirliyinin konsulluq əməkdaşının verdiyi Müqəddəs Kitab hələ də məndə idi. "Prison Fellowship" adlı ümumdünya təşkilatı Sudanda təbliğ etmək üçün vaxtaşırı gəldiyinə görə burada Müqəddəs Kitab tərcümələri də var idi. Həbsxanada həmin təşkilatın pastorları ara-sıra

bizə baş çəkirdi və bəzən onlar kasad yeməyimizə əlavə olaraq meyvə və digər ərzaqlar gətirirdilər. Onların ziyarətləri ruhumuza və mədəmizə sanki bir məlhəm idi.

Həbsxana xidmətimiz də səmərəli idi. Bir gün günortadan sonra pastor Həsən, pastor Kuva və mən həbsxanadakı kilsəmizdə oturmuşduq. Birdən biz tamamilə ümidsiz və unudulmuş məhbus yoldaşlarımıza Müjdəni bölüşməkdə Rəbbin xüsusi məqsədinin olmasını güclü hiss etdik. Bu itmiş adamlar Müjdəni eşidib Rəbb İsanın qiymətli qanı vasitəsilə Allahla barışa bilərlər və nəticədə cənnətdə əbədi həyata qovuşarlar. Xidmətimiz vasitəsilə iman etmiş şəxs üçün cənnətdəki əbədi həyat bir və ya bir neçə il həbsxanadakı əzablı həyatla müqayisə oluna bilməzdi. Həsən və Kuva xüsusilə ölüm hökmü verilmiş məhbusları düşünürdülər. Bizim yadımıza düşürdü ki, Allahın fikirləri və yolları bizim düşüncələrimizdən və yollarımızdan qat-qat yüksəkdir (Yeşaya 55:8-10). Onun planları bizim planlarımızdan daha böyükdür.

* * *

Emosional olaraq nə qədər tükənirdimsə, bir o qədər də Rəbb məni Öz Kəlamının bərpaedici gücü, Ruhunun şəfası və "Əl-Huda" həbsxanasının kilsəsindəki xidmətim vasitəsilə ruhlandırırdı. Bilirdim ki, Çexiyadakı kilsəm mənim üçün müntəzəm olaraq dua edib oruc tutur, onlar da, Allah da məni unutmayıblar. Mənim burada olmağım Rəbbin iradəsi idi və bu işdə Onun Öz niyyəti vardı.

Ən çətin günlərimdə Allah sadiq olduğunu sübut edirdi və növbəti səhərə çıxmaq üçün mənə güc verirdi. Hər gün müsəlman məhbuslarla, eləcə də mühafizəçilərlə danışarkən əməl etməyə çalışdığım 1 Peter 3:15-ci ayəsini Rəbb mənə xatırlatdı: "Daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır olun".

Gözlənilməz və möcüzəli yollarla Müjdəni bölüşmək üçün Rəbb məni lazım olan hər şeylə təmin edirdi. Bəzən Allah

mənə yeni fikirlər verirdi ki, sonralar həbsxanadakı kilsədə o barədə vəz edim.

Allahın məni bütün bu sınaqlardan keçirməsində bir məqsədi olduğunu hiss edirdim. Yalnız "Əl-Huda" həbsxanasında olanda bu məqsəd tam aydın oldu. Nəhayət, mən hava limanında həbsimdən tutmuş istintaqlarıma və təcrid olunmağıma qədər hər vəziyyətimin Tanrının nəzarətində olduğunu anladım. O, "Əl-Huda" həbsxanasında olan bu məhbuslara xidmət etmək üçün məni hazırlamışdı və hər bir şeylə təchiz etmişdi.

Həbsdə olduğum ilk beş ayda, Müqəddəs Kitabım olmayanda dua həyatım daha da dərinləşmişdi. Sonra təkadamlıq kamerada Müqəddəs Kitabı oxuduğum üç ay ərzində Kəlamı daha dərindən öyrənmək üçün imkan yarandı. Mən oxuduqlarımdan yüzlərlə qeydlər etdim. Müqəddəs Kitabın hər bir səhifəsinin kənarlarını və ön hissəsindəki boş yerləri kiçik qeydlərlə yazıb doldurdum. Bu qeydlərimin çoxu sonralar vəz mövzularına çevrildi. Müqəddəs Kitabı dərindən öyrənməyim məni növbəti altı ay ərzində "Əl-Huda" həbsxanasındakı kilsədə vəz etmək üçün hazırladı. Rəbb mənə istifadə etmək üçün bir çox mövzular verdi. Mən ingilis dilində çox vəz etməsəm də, inanırdım ki, danışmaq üçün Allah mənə həmişə düzgün sözlər verəcək.

Müjdəni bölüşmək üçün hər fürsətdən istifadə etməyə çalışırdım.



# 28

Mən bir ildən çox idi ki, Sudanda əsirlikdə idim və ailəmlə demək olar ki, hər gecə telefonla danışmaq imkanım olsa da, məktubumda bu hadisəni qeyd edərək onlara yazdım:

“Əzizlərim! Hamınıza salamlar və Milad bayramı ərəfəsində sizə Allahdan sülh arzulayıram!”

Mən onlara dua və oruclarına, ruhlandırıcı məktublarına, xüsusən də, mənə mənəvi dayaq verən Müqəddəs Kitab ayələrinə görə təşəkkür etdim. Bildirdim ki, Allah onların dualarına cavab verir, O məni və məhbus yoldaşlarımı böyük sevinc və səmavi sülhlə doldurur. Bəşəri dillə desək, bu il çətin, saysız-hesabsız vəhşiliklər, cinayətlər, işgəncələr və qeyri-insani qəddarlıqla yadda qaldı. Buna baxmayaraq, Rəbb fikirlərimi Öz əbədi məqsədinə yönəldirdi. Allahın mənim üçün xüsusi bir niyyəti var idi və mən buna şübhə etmirdim. Həbsxanada qalmağımın bir ili tamam olanda mən daha da əmin oldum ki, burada keçirdiyim hər saat və hər dəqiqə əbəs yerə deyil. Allah hər şeyi əvvəldən nəzərdə tutub və Öz izzəti üçün istifadə edir.

Əlimi kağızdan ayırdım və bir anlıq əsirlikdə olan son on iki ay ərzində Rəbbin məni necə mənəvi təmizləməsi və formalaşdırması barədə düşündüm. Bir çox cəhətdən mən özümü Əhdi-Ətiqdəki Yusif kimi hiss edirdim, çünki qərib ölkədə o da mənim kimi yalan ittihamlarla həbs edilmişdi. Həbsxanada onun ayaqları qandallardan əzilmişdi və boynuna dəmir zəncirlər taxmışdılar. Lakin məzmurçu haqlı idi: “Rəbbin sözü onu təmizlədi” (Məzmur 105:19).

Hər gün dua edirdim ki, bu böyük sınaqdan keçmək, əzablara dözmək və Allahın lütfkarlıqla çiyinlərimə qoyduğu yükü layiqincə daşımaq üçün mənə güc versin. Allahın dünya yaranmazdan əvvəl hazırladığı heyrətamiz xilas planını və həbsxanalarda həyatları xilas etmək niyyətini yerinə yetirmək üçün məndən istifadə etməsi məni heyrətləndirirdi. Həyat şəraitim getdikcə pisləşsə də, hər yeni həbsxanada yeni çətinliklər və müsibətlərlə üzləşsəm də, Allah mənə Öz planı və iradəsi haqqında fikirlərini bildirirdi. Ən qaranlıq anlarımda belə İsa mənim nurum və həyatım idi.

10 dekabr 2015-ci il tarixində hava limanında necə həbs olunduğumu, təxminən dörd aya yaxın MKTX-nin həbsxanasında qaldığımı və "Niyaba Mendola" adlı polis bölməsinə köçürülməyimi düşünəndə ürəyim minnətdarlıq hissi ilə dolub daşdı. Evdən məlumat aldığım dəhşətli ilk dörd ay ərzində mən Rəbbə təkrarən sadə bir sual verirdim: "Ailəmi yenidən görmək üçün bu həbsxanada nə qədər dözməliyəm?" Artıq dörd ay həbsdə qalmağım tamam olan gün, aprelin 10-da Allah sualıma cavab vermədi. Amma bunun əvəzinə Rəbb, ertəsi gün Liviya sərhəddində həbs edilmiş Eritreyadan olan on iki mühacir izdihamlı kameramıza gələnə qədər gözlədi. Həmin axşam Xilaskarın səsini aydın eşitdim: "Gedin və Müjdəni onlarla bölüşün!"

Ailəmə məktub yazmağa davam etdim. Beləliklə, mən onlara şəhadətimi danışdım. Dedim ki, mən məsihçi ailəsində böyüsəm də, elə bir vaxt gəldi ki, həyatımın ən vacib qərarını verdim. Həm İsa Məsihi həyatıma dəvət etdim, həm də Ondan həyatıma nəzarət etməsini istədim. Bu adamlar prezidentin dini azlıqları təqib etdiyi post-kommunist, totalitar Eritreyadan qaçan köçkünlər idi. Onlara dedim ki, 1988-ci ildə sərhədlər açıq olanda kommunist dövründə Çexoslovakiyadan mən də qaçmağa çalışmışam, amma sonda alınmadı, çünki bu, Rəbbin iradəsi deyildi. Mən onlara kommunizmdən qaçmaq üçün sonrakı cəhdlərim barədə də danışdım və bildirdim ki, kimsə həyatını Rəbbə verəndə, O, insana qayğı göstərir və onu gözəl gələcəklə təmin edir.

Biz bütün gecəni danışdıq və demək olar ki, göz yaşları içində yeni eritreyalı dostlarımı dünyada hər kəsə uzanan Məsihin yaralı əllərinə toxunmağa dəvət etdim. O əllər bizim üçün canını verən, yaşamağımız üçün ölən və dirilən Rəbbə məxsusdur. Həbsxana kameramızda olan bütün eritreyalılar diqqətlə mənə qulaq asdılar və Müqəddəs Ruhu ürəklərinə dəvət etdilər. Ertəsi gün başqa həbsxanaya köçürülməzdən əvvəl onlar tövbə duası etdilər. Bundan sonra Allahın mənim həbs olunmağımla bağlı məqsədini anladıqda, Müjdəni məhbuslarla və mümkün qədər daha çox adamla bölüşmək üçün hər fürsətdən istifadə etməyə başladım.

Məktubumda buna oxşar başqa bir hadisə barədə də yazdım. Bu bir həftə əvvəl baş vermişdi. Bir səhər mən həbsxananın kilsəsində oturmuşdum və bu vaxt mənimlə danışmaq üçün ümidsiz sudanlı gənc içəri daxil oldu. Bu zaman Kəlamdan Məzmurları oxuyurdum. Kitabı kənara qoydum və cavan oğlandan Allahla münasibəti haqqında soruşdum. Gəncin cavabını dinləyərkən hiss etdim ki, Rəbb onunla Müjdəni açıq şəkildə bölüşməyimi və onun İsa Məsihi öz şəxsi Xilaskarı kimi qəbul etməsini istəyir. Təsadüfən onun adı İbrahim idi və bir az sonra öz məşhur adaşının getdiyi yol ilə həyatını Rəbbə vermək qərarına gəldi. Həmin gün Müqəddəs Kitabı yenidən başdan-ayağa oxumağa başlayanda və tarixi qeyd edəndə anladım ki, həbsdə olmağımın bir ili tamam olur! Rəbb mənə qarşı lütfkar idi və həbsxanada olmağımın ildönümünü bir məhbusu Məsihə gətirməklə qeyd etmək imkanı vermişdi.

Demək olar ki, Tanrı hər gün kilsəyə kimisə göndərirdi və mən Müqəddəs Ruhun sakit səsini eşidirdim, O mənə rəhbərlik edir və danışmaq üçün düzgün sözlər verirdi. Rəbbin niyyəti çox böyükdür və "bizi həmişə Məsihin zəfər təntənəsində addımladan, Onu tanımaqdan yaranan ətri bizim vasitəmizlə hər tərəfə yayan Allaha şükür olsun!" (2 Korinflilərə 2:14).

Məktubumun sonunda ailəmə son xeyir-dua sözlərini əlavə edərək yazdım: "Rəbb hamınıza xeyir-dua verib qorusun. Sevgi ilə, Peter".



# 29

Milad ərəfəsi idi. Sudanda həbs ediləndən bəri ikinci dəfə idi ki, Milad bayramını burada keçirirdim. Mən kilsəmizə sıxışdırılmış iki yüzdən çox məhbusa nəzarət edirdim. Onların hamısını yerləşdirmək üçün daha çox stul və skamyalar əlavə etməli olduq. Sudanlı məhbuslar mahnı oxuyanda səs gücləndiricilərdən istifadə etməyi xoşlayırdılar. Həbsxana rəhbəriyi səs gücləndiricilərdən müvəqqəti istifadə etməyə icazə verdi. Yüksək mahnı sədaları Milad bayramını bizimlə keçirmək istəyən müsəlmanları da cəlb etdi.

Bu, çox emosional bir xidmət idi. Çıxış etməzdəm bir az əvvəl mən kilsədə işləyən tualetlərin birindən ailəmə zəng edib qısa danışdım. Tələsərək onlara dedim ki, o gecə vəz etməyə az vaxt qalıb və söhbət etməyə cəmi bir neçə dəqiqəm var.

Biz bütün gecəni kilsədə qaldıq, dua edib növbəti günə hazırlaşdıq və səhər yerli katolik keşiş kilsəyə gəldi. "Əl-Huda" həbsxanasının tarixində ilk dəfə olaraq yüz nəfər ölüm hökmü verilmiş məhbusa kilsəmizə getməyə icazə verildi. Bunlar ölüm kamerasında yerləşdirilən edam olunacaq məhbuslar idi. Pastor Həsənlə pastor Kuva hər bazar günü ölüm kamerasına baş çəkir və oradakılara Məsihdən danışırdılar. Mən də dostlarıma qoşulub ora getmək istərdim, amma əcnəbi olduğuma görə mühafizəçilər mənə icazə vermirdilər.

Nəhayət, Milad bayramında ilk dəfə mən ölüm hökmü verilən iki məsihçi ilə görüşə bildim. Gözümüzdən yaş süzülərək biz bir-birimizi qucaqladıq. Bu adamlar ölümə məhkum olunmuşdular, edam

ediləcəklərini və yer üzündə yenidən görüşmək şansımız olmayacağını düşünərək onları qucaqladım.

İndi əminliyimiz var idi ki, tezliklə biz cənnətdə yenidən görüşəcəyik.

* * *

Nəhayət, dekabrın sonunda məhkəmə qarşısında durdum. Prokuror məni dindirdi, arxayınlıqla cavab verdim.

“Sudana nə vaxt gəlmisiniz?” — deyə soruşdu.

“Mən 2012-ci ildə Cənubi Sudanda olmuşam, lakin Sudana daxil olmamışam və heç bir hərbi komandirlə görüşməmişəm” — deyə cavab verdim.

O yenə soruşdu: “2015-ci ildə Sudana hansı viza ilə gəlmisiniz?”

“Ölkəyə turist vizası ilə daxil olmuşam” — dedim.

“Siz “Şəhidlərin səsi” təşkilatı üçün işləyirsiniz?”

“Mən sadəcə o təşkilatla müqavilə əsasında işləyirəm, amma Amerika vətəndaşı olmadığıma görə onların işçisi deyiləm.”

“Niyə Əddis-Əbəbədəki konfransda iştirak etmisiniz?”

“Mən Sudanda sülhün olması üçün dua etmək məqsədilə konfransda iştirak etmişəm” — dedim.

İşimlə, Sudana səfərlərimlə və xəsarət almış gənc məsihçiyə göstərdiyim yardımla bağlı çoxlu suallardan sonra mən cəsarətli bir bəyanatla ifadəmi yekunlaşdırdım: “Başqa ölkələrdə xaricdən kiməsə kömək etmək üçün pul gətirəndə hökumət ona minnətdarlığını bildirir. Mən Sudana casusluq məqsədi ilə deyil, sadəcə ehtiyacı olan bir nəfərə kömək etmək üçün gəlmişəm. Sudan ölkəsi buna görə minnətdar olmalıdır”.

Şəhadətimin güclü olduğunu bilirdim, amma bunun kifayət etməyəcəyini də başa düşürdüm.

* * *

Bazar günü, yanvarın 29-da səhər açılmamış oyandım və yenidən Xartuma getmək üçün hazırlaşdım. Bizim tam məhkəmə işimiz təxminən altı ay ərzində keçirilən iyirmi bir dindirmə iclasından ibarət idi. Bütün bu müddət ərzində mənim həbsimlə bağlı Sudan mediası öz hökumət tərəfdarı olan qəzetlərində təbliğat xarakterli xəbərlər dərc etmişdi. Mən üç ay müddətinə həbs olunacağımı düşünürdüm. Amma indi 2017-ci ilin yanvar ayı idi və mən bir ildən artıq idi ki, hələ də həbsdə idim.

Nəhayət, məhkəmə işim başa çatmaq üzrə idi. İndi heç olmasa "Əl-Huda" həbsxanasından Xartumdakı məhkəmə binasına getmək üçün mal-qara daşınan yük maşınında isti havada uzun və tozlu səyahətlər daha olmayacaqdı. Əşyalarımı əlimdəki çamadana yığdım və son dəfə mal-qara maşınına mindim.

Monim qardaş həbsxanada davamlı olaraq qəzet oxuyurdu. Dinləmələrimizin çoxu bazar günü baş verirdi, adətən, bazar ertəsi və ya çərşənbə axşamı qəzetlərdə bu barədə yeni məqalə yazılırdı. Monim qardaş orada yazılanları oxuyub sonra mənim üçün tərcümə edirdi. Məqalələrdə mənim kompüterimin sərt diskindən götürülmüş fotoşəkillər təsvir olunurdu və hökumət mənim casus olduğumu "sübut" edirdi.

Hökumətin nəzarətində olan qəzetlərin bizim işimizlə bağlı yazdıqlarından hiss edirdim ki, cəza müddətimiz qısa olmayacaq. Sudan hökuməti bizi təhlükəli cinayətkarlar və casuslar kimi qələmə vermək üçün böyük səy göstərmişdi. Sudan hökuməti üçün bizim məsihçi fəaliyyətimizi bütün dünyaya nümayiş etdirmək çox vacib idi, çünki bununla onlar öz dövlət sistemlərinin və İslam qanunlarının yaxşı olmasını sübut etmək istəyirdilər. Mən bilirdim ki, həbs olunmağım siyasi xarakter daşıyır və gələcəkdə hətta məni uzun aylar və illər həbs gözləsə də bunlara hazır idim. Bilirdim ki, Tanrı burada məndən istifadə edir. Əmin idim ki, istər burada — Sudandakı həbsxanada, istərsə də, Çexiyada öz ölkəmdə olum Rəbb məndən olduğum yerdə istifadə edəcək.

Hər gecə ailəmlə gizlətdiyim cib telefonumla danışırdım və məhkəmədə məni təqsirkar çıxarmaq ehtimalı olduğuna görə onları buna hazırlayırdım. Onlara bildirdim ki, əgər mənə on beş ildən iyirmi ilə qədər həbs cəzası versələr, buna təəccüblənməsinlər. Mən istəmirdim ki, ailəm belə məhkəmə qərarını eşidəndə sarsıntı keçirsin. Ruhdan düşməsinlər deyə onlara xatırlatdım ki, Çexiya hökuməti mənim işimlə bağlı Sudan ölkəsi ilə danışıqlar aparır, məhkəmə hökm qərarı çıxaran kimi işin nə yerdə olacağını hamı dəqiq biləcək və ölkələr arası danışıqlar da ona uyğun aparılacaq!

2017-ci il yanvarın 2-də əvvəlki məhkəmə iclasında hakim müəyyən etdi ki, pastor Kuva mənimlə eyni vaxtda Xartumda olmayıb və sadəcə öz avtomobilini pastor Həsənə müvəqqəti istifadə etmək üçün verib. Beləliklə, pastor Kuvaya qarşı olan məhkəmə işi kifayət qədər dəlil olmadığından bitdi. Onun azad olmasına görə çox sevindim və dua etdim ki, bizim də şad xəbər almağımız üçün bu bir əlamət olsun.

Amma Həsən, Monim və mən hələ də hökm çıxarılmağı gözləyirdik və bu gün hər birimiz üçün qərar veriləcəkdi. Biz sakitcə məhkəmə binasına daxil olduq və hər birimiz fikirləşərək dua edir, ətrafa baxıb gözləyirdik. Bu anda Vandanın evdə nə etdiyini düşündüm və onun üçün dua etdim ki, bu gün alacağım xəbər onu sarsıtmasın. Məhkəmə zalına daxil olduq və gördük ki, orada fəallar, media, müxtəlif səfirliklərin nümayəndələri, çox sayda camaat var. Hakim içəri girdi və biz ayağa qalxdıq.

Hazırlanmış hökm sənədini oxuyan hakimin səsi yüksək və aydın idi. Pastor Həsən və Monim qardaş hər biri onlara qarşı irəli sürülən dörd ittiham üzrə təqsirkar hesab edilərək on iki il müddətinə azadlıqdan məhrum edildilər. Bizdən arxada pastor Həsənin yeniyetmə qızı bu xəbəri eşidəndə göz yaşları içində yerə yıxıldı.

Mənim üçün çıxarılan hökmü gözləyirdim, lakin məhkəmə ərəb dilində olduğu üçün bütünlüklə pastor Həsənin tərcüməsindən asılı idim. Skamyada oturub dərindən nəfəs alır, əsəblərimi sakitləşdirmək üçün əlimdən gələni edirdim, amma ürəyimin döyüntüsü-

nü sinəmdə eşidirdim. Gözlərimi hakimə dikib onun danışmasını gözləyirdim. Mənim hökmümü oxuyanda Həsən mənə tərəf əyildi və eşitdiklərini ingiliscə mənə çatdırdı. O, səsindəki sarsıntını gizlədə bilmirdi.

"Hakim sizə qarşı irəli sürülən səkkiz ittihamın hamısında sizi təqsirli hesab edir və sizə ömürlük həbs cəzası verildi. Bu, ölüm cəzasından sonra ən ağır cəza idi!"

Cəzanın bir hissəsinə yüz min Sudan funtu (təxminən on yeddi min ABŞ dolları) cərimə ödəmək də aid idi. Mənim bütün əşyalarım, Canon fotoaparatım, böyüdücü linzalarım, noutbukum, iPhone-um, video kameram və xarici sərt disklərim Sudan hökuməti tərəfindən müsadirə olundu.

Mən həyatımın Rəbbin əlində olduğuna tam əmin idim, ona görə də sakit qaldım. Təsəvvür etmək çətin olsa da, özümdə bir rahatlıq hiss etdim. Daha yaxşı nəticə ümidi ilə dua etsəm də, Sudan hökumətinin mənə ömürlük həbs cəzası verməsinə (bu, Sudanda iyirmi il cəzaya bərabər idi) heç təəccüblənmədim. Uzun dindirmələr axır ki, başa çatdı.

Bir sözlə, bu sərt cəza hökmü mənə, əziz sudanlı məhbus yoldaşlarıma, qardaşlarıma qarşı siyasi və dini məhkəmə işinin cəfəngiyat olduğunu açıq şəkildə göstərdi. Əgər hökumət daha ağlabatan qərar verib altı ay və ya bir il hökm çıxarsaydı, onda çoxları ittihamların qanuni olduğunu və mənim həqiqətən Sudanda hansısa cinayətdə iştirak etdiyimi düşünə bilərdi. Ölkəyə yardım gətirən birinin ömürlük həbs cəzasına məhkum olması bütün məhkəmə prosesinin mənasız və məzhəkəli bir tamaşa olduğunu açıq şəkildə göstərdi.

Mənə məxsus olan əşyalarımı itirməyim məni qətiyyən narahat etmirdi. Yeni kompüter və ya kamera ala bilərdim. "Verən də Rəbdir, alan da Rəbdir. Rəbbin isminə alqış olsun" (Əyyub 1:21). Hətta ömürlük həbs cəzası da məni narahat etmirdi. Axı mənim həyatım artıq mənə deyil, İsa Məsihə aid idi! Rəbb həyatımı çox baha qiymətə almışdı.



# 30

Pastor Həsən, Monim və mən daha Xartumda növbəti məhkəmə iclasımızı gözləmirdik. Biz artıq təqsirləndirilən şəxs deyildik. İndi biz cinayətkarlar idik və buna görə də yeni həbsxanaya köçürüləcəkdik. Həsən və Monim qardaşa qarşı dəlillər zəif olduğuna görə onlar azadlığa çıxacaqlarına əmin idilər. Ona görə də onlar bütün paltarlarını və əşyalarını "Əl-Huda" məhbuslarına vermişdilər.

Hökm elan edildikdən sonra biz gecəni Omdurmanda yerləşən keçid həbsxanasında, onlarla məhbusla birgə açıq havada, çox soyuq bir yerdə keçirdik. Biz uzunmüddətli cəzaya məhkum edilmiş cinayətkarlar hesab olunurduq. Ona görə də bizi qəbul edəcək son təyinat məntəqəsinə qədər barmaq izlərimizi on dəfədən artıq götürdülər. Bu çətin bir proses idi. Açıq havada keçən soyuq bir gecədən sonra, ertəsi gün bizi mal-qara üçün nəzərdə tutulan yük maşınına mindirdilər və bunlar mənə tanış idi. Ancaq bu dəfə hara gedəcəyimizi bilmirdik. Bu cür qeyri-müəyyənlik narahatlıq təhlükəsi yaradırdı, lakin mən özümə xatırlatdım ki, Rəbb hər bir vəziyyəti Öz nəzarətində saxlayır.

Mal-qara üçün olan yük maşını Xartumun tozlu şəhər yolları ilə hava limanına doğru irəlilədi. Nəhayət, Xartum şəhərinin şimalında yerləşən "Kober" adlı həbsxanaya çatdıq. Kütləvi həbsxana kompleksinə yaxınlaşdıqca, mən qəribə hisslər keçirdim. Tanrının mənimlə olduğunu bilirdim, lakin Sudan həbsxanasındakı bu son dayanacaqda nələr olacağını bilmirdim.

Kompleksin əsas binası 1905-ci ildə Kuper adlı britaniyalı tərəfindən tikilmişdi, lakin onun K-U-P-E-R soyadı ərəbcə yazılanda K-O-B-E-R sözünə çevrilirdi. Koberin əsas binasındakı dəmir barmaqlıqlı kamera qapılarını elə bil ki, Amerikanın kino çəkiliş məkanından gətirmişdilər.

Qəbuldan keçdikdən sonra bizi həbsxananın ayrı-ayrı bölmələrinə apardılar. Mühafizəçilər MP3 pleyerimi məndən aldılar və SİM kartımı özümdə saxlasam da, mobil telefonumu təhvil verməyə məcbur oldum. Mən Müqəddəs Kitabımı müsadirə edəcəklərindən qorxurdum, amma təəccüblü olsa da, onu saxlamağa icazə verdilər. Həsənlə mən ayrı-ayrı bölmələrə düşdük, hər ikimizin yeri nisbətən yaxşı vəziyyətdə idi. Ərazimizdəki tualet və duşların işlək vəziyyətdə olduğunu görüb sevindim.

Monim qardaşın o qədər də bəxti gətirməmişdi. Onu həbsxananın ən köhnə hissəsinə, cənab Kuper tərəfindən tikilmiş ilk binaya apardılar. Qaldığı çirkli yerin nə axar suyu, nə də işləyən tualeti vardı. Monim Darfurdan idi və Sudanda vətəndaş müharibəsinə görə darfurlulara az qala vətən xaini kimi baxırdılar. Bundan əlavə, Monimin qəhvəyi dərisi onu Sudanda bir çox ərəb müsəlmanları arasında yayılmış irqçilik probleminə görə asanlıqla hədəfə çevirirdi.

Son illərdə "Kober" həbsxanası Sudanın bəzi "kabus evləri"-nin — siyasi məhbusların fiziki və psixoloji işgəncələrə məruz qaldığı gizli saxlanma yeri olmuşdu. Bəzən məhbusları burada edam edirdilər. Onların edam vaxtı çatanda "Əl-Huda" həbsxanasındakı ölüm kamerasından onları bura köçürürdülər. Həsən və Monim "Kober"də asılaraq edam olunanlar barədə xəbər əldə etmişdilər. Bu xəbəri onlara "Əl-Huda"dakı ölüm hökmü verilən məhbuslar çatdırmışdılar.

* * *

“Kober” həbsxanasının iki mətbəxi var idi. Birinci mərtəbədə yerli məhbuslar üçün, o biri mərtəbədə isə qonşu MKTX-nin həbsxanasındakı məhbuslar üçün yemək hazırlanırdı. Yeməklərimiz burada bişirildiyi üçün hər gün bizə verilən yastı Sudan çörəyi bəzən təzə və isti olurdu. “Kober”dəki yeməklər “Əl-Huda” həbsxanasındakı yeməklərə nisbətən daha yaxşı idi. Amma qaldığım keçmiş “Əl-Huda” həbsxanasındakı məhbuslar onlara verilən yeməkləri elektrik sobalarında yaxşıca qızdırmamış yeməzdilər. Hətta “Kober”də də məhbuslar verilən yeməyi yenidən yaxşıca qızdırırdılar. “Əl-Huda”da olduğu kimi “Kober”də də bir az pulu olan məhbuslara yemək üçün ərzaq, o cümlədən buğda və bəzən ət almağa icazə verilirdi.

Pastor Həsənlə mən bilirdik ki, “Əl-Huda”dan olan bəzi müsəlman kamera yoldaşlarımız mühafizəçiləri aldatdıqlarına görə “Kober” həbsxanasına köçürülüblər. Onları cəzalandırmaq üçün “Kober”in ən sərt bölməsinə göndərdilər. Həsən, Monim və mən bura gələndən bir neçə gün sonra onlarla üzləşəndə qaçıb məni qucaqladılar. Onların üzündə geniş təbəssüm var idi. Mən anladım ki, onlar bizim dostluğumuzu yüksək qiymətləndirirlər və Rəbbə məndən bu cür istifadə etdiyi üçün Ona yenə şükür etdim.

* * *

Çox vaxt həbsxana rəhbəri və ya onun müavini məhbusların şikayətlərini dinləmək üçün ora gəlirdi. Bir dəfə mən ondan soruşdum: “Mən MP3 pleyerimi “Əl-Huda”da özümdə saxlaya bilirdim. Bəs niyə burada saxlamağa icazə vermirlər?” Mənə söz verdilər ki, mühafizəşilərdən istəsəm MP3 pleyerimi özümə qaytaracaqlar. Amma onu heç vaxt mənə vermədilər.

Hətta MP3 pleyerim olmasa belə, mən “Kober”də ingilis dilini öyrətməyə davam etdim. Yəhyanın İncilindən istifadə edərək, müsəlman məhbus yoldaşlarıma ingilis dilini öyrədirdim və dua edirdim ki, İncildə yazılanlar onların ürəklərinə toxunsun.

"Əl-Huda" həbsxanasındakı kilsədən fərqli olaraq, burada mənim yalnız arabir vəz etmək imkanım olurdu. Kilsə xidmətlərinə bəzi müsəlmanların qatıldığı üçün vəz edərkən danışdıqlarım əsasən Müjdəni bölüşmək xarakteri daşıyırdı. Lakin "Niyaba Mendola"da Müqəddəs Kitabı öyrənərkən hazırladığım saysız-hesabsız vəzləri hələ də istifadə etməmişdim. Mən ruhumun dərinliklərində müntəzəm vəz etmək fürsətini itirdiyimi hiss edirdim.



# 31

Yavaş-yavaş “Kober”dəki şəraitə öyrəşdim. Gün ərzində pastor Həsənlə görüşə bilərdim, lakin günorta adlarımızı yoxlayandan sonra biz həbsxananın müxtəlif bölmələrindəki ayrı kameralarda qapalı qalırdıq. Qaldığım “VİP” bölməsində dövlət işçiləri və polis məmurları var idi. Darfurda, hətta Yəməndə prezident Bəşirin əmri ilə Səudiyyə Ərəbistanı üçün vuruşmağa göndərilən və döyüşdən qaçdıqlarına görə həbs olunan təhlükəsizlik əsgərləri də burada mənimlə birgə qalırdı. “VİP” bölməsində belə bir əmri yerinə yetirməkdən imtina edən hətta bir Sudan Təhlükəsizlik polkovniki də var idi.

Bu adamlar mənimlə mehriban davranır, hətta qohumlarının həbsxanaya gətirdikləri yeməyi bölüşürdülər. Onlardan birinin peyk televizoru ilə təchiz olunmuş kondisionerli şəxsi otağı var idi. Bir gün bu adam podaqra ağrısından əziyyət çəkirdi və mən ona bir neçə dənə ibuprofen dərmanı verdim. Nəhayət, ağrısı itdiyinə görə o mənə minnətdarlığını bildirdi. Telefonum olmadığına görə ailəmlə əlaqə saxlaya bilmədiyimi eşidəndə mənə təklif etdi ki, nə vaxt istəsəm, onun kondisionerli otağına gəlib ailəmə zəng etmək üçün telefonundan istifadə edə bilərəm. Mən düşünürdüm ki, görəsən bu mənim üçün bir tələ deyil ki? Əvvəlcə onun təklifini qəbul etmədim, lakin bir neçə gündən sonra mən həyat yoldaşıma zəng etdim.

Həbsxana hava limanına çox yaxın idi və kameramdan yaxınlıqdakı uçuş zolağından qalxan təyyarələri görürdüm. Onlar o qədər yaxın idilər ki, havaya qalxarkən təkərlərinin yuxarı qalxdığını görürdüm və mən gecə Vanda ilə danışanda, hətta o, nəhəng rus

yük təyyarələrinin qulaqbatırıcı gurultusunu eşidirdi. Ailəm mənim cəzam barəsində Çexiyanın Qahirədəki səfirliyinin konsulluq əməkdaşından xəbər tutmuşdu. Çox məyus olsalar da, onlar buna hazır idi. Mənim azadlığa buraxılmağım üçün onlar diplomatik danışıqların tezliklə uğurla bitəcəyinə ümid edirdilər, lakin ailəm bu prosesin həftələr, aylar və ya illər çəkəcəyini bilmirdi. Yenə də oruc tutub dua edirdilər.

"Kober"də həbsdə olan MKTX-nin əsgərləri bir az ingiliscə danışa bilirdilər və onlara ingilis dilini öyrətməyimi istədilər, buna görə də əlimdəki Müqəddəs Kitabdan Yəhyanın İncilindən dərslik kimi istifadə etdim. Davamlı olaraq buraya çoxlu əsgər gəlirdi və sonra da çıxırdılar. Çoxları döyüşə qayıtmağa razılaşan kimi onları azad edirdilər.

Şükürlər olsun ki, kondisionerli kamerada olan yeni dostum MKTX-nin casusu çıxmadı, amma həbsdə olduğum müddətdə başqaları ilə rastlaşdım. Bizə hökm oxunan gün Omdurmandakı keçid həbsxanasına köçürüldük. Barmaq izlərimizin götürülməsi üçün növbədə gözləyərkən məndən yaşca bir qədər böyük olan ağdərili kişi gördüm. Onunla ingiliscə salamlaşdım və soruşdum: "Siz haradansınız?"

Əvvəlcə o, əlini dodaqlarına aparıb, mənə susmağı xəbərdar etdi. Sonra ağır rus ləhcəsi ilə "No inqliş" cavabını verdi. Eyni sualı rusca təkrarladım, o da cavab verdi. O, mənə Sudanda ona "yaxşı iş" vəd edən bir şirkət tərəfindən aldadılan mühəndis olduğunu söylədi. Nəhayət, şirkət nümayəndələri Sudandan yoxa çıxmışdılar və ona ödənilməmiş otel hesabı qalmışdı.

Bu görüş qəribə idi və o, "Kober" həbsxanasında məni, Həsəni və Monimi müşayiət edəndə heç də təəccüblənmədim. İngiliscə danışmadığını iddia etsə də, bizim ətrafımızda olub ingiliscə söhbətlərimizi dinləmək üçün həmişə həvəsli görünürdü. Onun yanımızda olmasından narahat oldum və mən Müjdəni rus dilində onunla bölüşmək qərarına gəldim. O, dərhal rus pravoslav məsihçisi olduğunu iddia etdi!

Bir gün o, yenidən yanımızda gəzəndə misirli bir məhbus onu tanıdı və onun Xartumdan Darfura təhlükəsizlik əsgərlərini daşıyan rus pilotu olduğunu dedi. Misirli ingiliscə pis danışsa da, rus məhbusu dəhşətli qorxudaraq dedi: "Anatoli... təhlükəsizlik... pilotu..." və əli ilə onun çiyinlərinə işarə edərək, zabit rütbəsini göstərdi. Rus pilotu bacardığı qədər yanımızdan tez qaçıb getdi və biz onu xeyli vaxt görmədik.

Monim qardaşa "Kober"də bizim olduğumuz bölməyə gəlməsinə az icazə verilirdi. Gün ərzində mən adətən kölgədə oturub Müqəddəs Kitabımı oxuyurdum. Həbsxana kilsəsinə tez-tez getməyimə icazə verilmədiyinə görə Afrika ölkələrindən olan bəzi məhbus yoldaşlarımla Müjdəni fransız dilində bölüşmək qərarına gəldim. Qvineyadan olan gənc müsəlman futbolçu mənim fransızca vəzlərimə qulaq asmağa xüsusi həvəs göstərdi və biz yaxın dost olduq. Mən hər gün dua edirdim ki, İsa Özünü gənc müsəlman dostuma Rəbb, Xilaskar və Allah kimi göstərsin.

* * *

"Kober" həbsxanasında Rəbb hər gün vaxtımın və həyatımın Onun əlində olduğunu mənə xatırladırdı. Hər şey Onun nəzarətində idi. Bir gün səhər həyətdəki ağacın altında oturub Müqəddəs Kitabdan oxuyanda ən sevdiyim hissəsiyə, 126-cı Məzmura gəlib çatdım:

> "Rəbb Siona bəxtəvər günlərini qaytaranda bizə röya kimi gəldi. Dodaqlarımızdan gülüş tökülürdü, dilimizdən sevinc harayı yüksəlirdi. Millətlər öz aralarında belə deyirdi: "Rəbb onlar üçün böyük işlər görüb". Bunun üçün sevinirik, çünki Rəbb bizim üçün böyük işlər görüb" (Məzmur 126:1-33).

Birdən iki mühafizəçi qarşımda peyda oldu. Onların verdiyi xəbər qədər məni heç nə sevindirə bilməzdi və mən xəbəri başa düşməkdə çətinlik çəkdim.

Onlar dedi: “Peter, sən bu gün həbsdən azad olursan!”

126-cı Məzmurda təsvir olunan hiss məni bürüdü. Bu doğrudurnu? Bu yuxu deyil ki? Mən əvvəllər dəfələrlə aldanmışdım və bunun doğru olmasına inanmaq çətin idi. Əslində isə xəbər doğru idi! Gözlərimdən yaş süzüldü və mən Vanda haqqında düşündüm. Nəhayət!

Mənim azad olunmaq xəbərim bölməmizdəki bütün məhbuslar arasında alov kimi yayıldı. Məhbusun azadlığa buraxılması xəbəri həmişə olduğu kimi həbsxanaya bir anlıq sevinc və şənlik gətirdi. “Bəlkə gələn dəfə mən azad olacağam” — deyə hər kəs düşünürdü. Məhbus yoldaşlarımdan şən qışqırıqlar yayıldı və onlar məni möhkəm qucaqladılar. Həsənlə Monimin tələsik mənə tərəf addımladıqlarını gördüm, onlar da sevinirdilər. Əgər məni azad etdilərsə, tezliklə onlar da mütləq azad olunacaqdılar.

Buradakı adətə uyğun olaraq paltarlarımı digər məhbuslara bağışladım. Kişilər həvəslə əşyalarıma əl atdılar və dərmanlarımı Həsən və Monimin əldə etməsi üçün paylanma prosesinə diqqətlə nəzarət etdim. Mühafizəçilər gözləyirdilər və mən getməli idim. Əlimdə yalnız kiçik, yarıboş əl çamadanı ilə həbsxananın qəbul bölməsinə kimi onların ardınca getdim.

Orada məni MKTX-nin iki təhlükəsizlik işçisi gözləyirdi. Onlar mənə dedilər: “Sudan prezidenti sizi əfv edib. Bundan sonra siz azadsınız”.

Onların köynəklərinin altındakı silahlara nəzər saldım. Həbsxanadan çıxmağıma baxmayaraq, mən hələ də Sudanda — istədiyi hər şeyi edə bilən totalitar rejimin nəzarəti altında olduğumu çox yaxşı bilirdim. Darıxdırıcı bir narahatlıq hissi məni bürüdü. Prezident Bəşir təxminən otuz ildir hakimiyyətdə idi və mən bilirdim ki, yeni əldə etdiyim “azadlıq” hələ mənim həqiqətən azad edilməyim olmaya bilər.

Həbsxana mühafizəçiləri qiymətli əşyalarımı, o cümlədən MP3 pleyerimi və mobil telefonumu geri qaytardılar. SİM kartımı hələ də alt paltarımın gizli cibində yaxşıca gizlətmişdim.

Mühafizəçilər dedi: “Bizimlə gedək!”



# 32

Zabitlər əlimdə olan çamadanımı kiçik ağ maşının arxasına qoyub, sonra saqqalımı qırxmaq üçün təkidlə məni bərbərxanaya apardılar. Bərbər məni kresloya söykədi və sonra üzümə sakitləşdirici müalicə maskası çəkdi. Bu proses məni təəccübləndirdi, çünki bununla onlar Sudanda məhbuslara yaxşı qulluq edildiyini sübut etmək istəyirdilər. Bərbər bu proseduru üç dəfə təkrarladı və uzun müddət eyni narahat vəziyyətdə oturmaqdan bədənim ağrımağa başladı. O, üz üçün bir neçə proseduru etdikdən sonra kiçik, mobil masaj edənlə boynum və çiyinlərimdəki gərginliyi aradan qaldırdı.

Nəhayət, bərbərdən çıxanda zabitlər mənə dedilər: “Siz rahatlanmalısız”. Əlbəttə ki, bunu etməkdənsə demək daha asan idi. Məni sorğu-sual edib həbsxanaya qəbul edən MKTX-nin həmin zabitlərinin yanında idim və onların görünüşü məni son on beş ayın ən pis anlarına qaytardı. Ən əsas məni narahat edən onların köynəklərinin altındakı silahları idi.

Onlar dedi: “İndi sizi saunaya aparacağıq”.

Mənsə saunaya getmək istəmirdim, çünki bu, onlara çantalarıma girib cib telefonumu axtarmaq imkanı verəcəkdi. Amma mənim yenicə əldə etdiyim “azadlığım” onlarla getməyimi məcbur etdi. Heç bir problem yaratmaq istəmədim, ona görə də şikayət etmədən saunaya getdim. Biz şəxsi saunaya gəldik və mən geyim dəyişmə otağına girdim.

Soyunan kimi paltarımı səliqə ilə çantamın üstünə qatlayıb qoydum və mobil telefonumu çıxardım. Bir neçə dəqiqədən sonra məmurlar sahib olduğum hər şeyi axtarmağa başlayacaqlar. Cib

telefonumu özümlə saunaya apara bilmədim, lakin onların SİM kartımı götürməsinə də yol verə bilməzdim. Çünki SİM kartımda həbsxanadakı bütün telefon zənglərimin və mesajlarımın məlumatları var idi. Ona görə də onu tez alt paltarımın gizli cibindən çıxarıb ağzıma saldım və azı dişimin arxasında saxladım.

Onlar getməyimi israr etməzdən əvvəl isti saunada on dəqiqə rahatlandım.

Sonra zabitlər məni yerli fastfud restoranına apardılar və orada mənə qızardılmış toyuq budu, kartof qızartması, salat və Sprite içkisi ilə böyük yemək sifariş etdilər. Onlar mənim yemək yeməyimə tamaşa edirdilər. Mənim mədəm həssas idi və bir ildən çox idi ki, az yemək yeyirdim. Həm də indi mənə tamaşa edənlərin qarşısında yemək yeyərkən özümü narahat hiss edirdim.

Biz restorandan çıxıb dəbdəbəli geyim mağazasına getdik. Kişilərdən biri dedi: "Siz odekolon almaq istəyirsiniz? Sizə kostyum, köynək və qalstuk da lazımdır". O, gözümün qarşısında əlindəki böyük pul yığınını yellətdi.

*"Xeyr. Mən Afrikadayam və kostyumda yola çıxmaq fikrində deyiləm"* — deyə fikirləşdim.

Anladım ki, məni müşayiət edənlərə göstəriş verilib ki, mümkün qədər səliqəli görünməyim üçün lazım olanı etsinlər. Əgər mən dəbdəbəli oteldən çıxan yaxşı geyinmiş bir iş adamı kimi azad edilmişəmsə, onda dünya mənimlə pis rəftar edildiyimə görə necə şikayət edə bilərdi? Mühafizəçilərimi qəzəbləndirmədən tamaşanın bu hissəsində əməkdaşlıq etməməyə çalışdım.

Mən dedim: "Geyimim yaxşıdır".

Onlar dedi: "Xeyr, xeyr, sizin geyiminiz kifayət qədər yaxşı deyil".

Deyəsən, onların məndən daha çox məlumatı var idi.

"Mənim cins şalvarım var" dedim və çamadanımdakı təmiz paltarlarımı onlara göstərdim. Onlara mənim səliqəli görünməyim üçün ciddi göstəriş verilmişdi, lakin mühafizəçilər könülsüz halda mənə kəmər almağa qərar verdilər ki, şalvarımı saxlayan plastik ipi əvəz etsin.

Sonra biz bir ərzaq mağazasına yollandıq. Mənə dedilər ki, üç-dörd günlük səhər yeməyi üçün kifayət qədər yemək alım. Mən də çay, çörək, yumurta, meyvə, şokolad konfetləri və tez hazırlanan qəhvə götürdüm.

Biz yenidən maşına mindik və tezliklə yaşayış binası kimi görünən bir yerə gəlib çatdıq. Binanı üstü tikanlı məftillərlə örtülmüş nəhəng beton divar əhatə edirdi və biz maşından düşən kimi hasarın arxasından ovçarka itləri hürməyə başladı. MKTX zabitləri məni içəri apardılar və dedilər ki, bazar ertəsinə qədər dörd gecə burada qalacağam. Mənim ən yaxşı köynəyimi quru təmizləməyə apardılar. O, mənim evə səfərim üçün saxladığım köynək idi və tezliklə onu qaytaracaqlarına söz verdilər.

SİM kartım hələ də ağzımda idi.

* * *

Zabitlər getdilər. Nəhayət, mənzildə, yataq otağımda tək qaldım. Bilirdim ki, mənə qulaq asırlar, amma buna baxmayaraq Vandaya zəng etmək istədim. Tez mənzilə nəzər saldım və hamamın çox güman ki, ən gizli yer olduğunu düşündüm. Ona görə də hamam otağına girdim və SİM kartı ağzımdan çıxarıb köynəyimlə qurutdum, onu cib telefonuma yerləşdirdim. Tələsik Vandanın nömrəsini yığdım.

Vanda Çexiyadakı evimizdən telefona cavab verdi. Mən pıçıltı ilə və tez danışmalı idim.

“Nə baş verir?” — deyə Vanda həyəcanla soruşdu.

Mən pıçıltı ilə dedim: “Mən bu səhər “Kober” həbsxanasından azadlığa buraxılmışam və indi naməlum bir yerdəyəm. Bu, Sudan məxfi polisinin gizli yaşayış yerlərinə bənzəyir. Mənə dedilər ki, bir müddət burada qalacağam”. Çexoslovakiyada kommunizm dövründə də məmurlar belə mənzillərdən və ya evlərdən istifadə edirdilər. Belə yerlər onlar adam gizlətmək, xəbər gətirən adam

ilə görüşmək, məhbus dindirmək və ya heç kim görmədən məşuqə gətirmək üçün istifadə etdikləri gizli məkan idi.

Vanda bu sirli telefon zəngindən çaş-baş qaldı və mənim təhlükədə olduğumdan narahat oldu. Çexoslovakiyada kommunizm dövründə böyüyən Vanda həbsdən "azad edilmiş" siyasi məhbusların yalnız ölü tapıldığı bir çox hadisələrdən yaxşı xəbərdar idi. Hökumət məhkəmə işlərini belə həll edirdi və indi o qorxurdu ki, Sudan rəhbərliyi də mənim işimi belə həll edər.

Vanda bir-birinə qarışan sevinc və narahatlıq duyğuları ilə dua etməyə başladı. Biz telefon söhbətini bitirdik.



# 33

Üç gecə MKTX-nin mənzilində qalıb gözlədim. Bütün günü çarpayıda uzanıb MP3 pleyerimdə Müqəddəs Yazılara qulaq asırdım və bundan sonra nə olacağını düşünürdüm.

Bu kiçik mənzilin yataq otağında böyük bir çarpayı var idi və ondan təmiz çamaşır qoxusu gəlirdi, ona görə də yorğanın üstünə uzandım. Mənzildə gün ərzində ancaq bir neçə dəqiqə su gəlirdi, ona görə də çirkli vanna otağında açıq kranın altına vedrə qoyub suyun gəlməsini gözlədim. Vedrə dolduqdan sonra plastik butulkadan istifadə edərək çimirdim və oradakı dəsmalla qurulanırdım. Bəzən gecələr axar suyun səsini eşidəndə cəld yerimdən qalxıb tualetin suyunu buraxırdım.

Gecələr təhlükəsizlik işçiləri qaçmadığıma əmin olmaq üçün hər yarım saatdan bir gəlib məni yoxlayırdılar. Onlar məndən soruşurdular: “Sizin üçün şərab gətirməyimizi istəyirsinizmi? Bəlkə sizin üçün bura qadınlar gətirək?” Onların şərab və qadın təkliflərini rədd etdim, lakin tezliklə mənzilimə başqa qonaqların gəldiyini öyrəndim. Gecə işığı söndürəndə siçanlar yerdən düz yatağıma tullanırdılar. Bəzən onlar üstümdə və yastığımda, ya da başımın üstündə gəzirdilər. Yatağımdan sıçrayıb işığı yandıran kimi siçanlar dərhal gözdən itirdilər. Ertəsi gün səhər mənzildə onların gələn yerini axtararkən öyrəndim ki, hamamdakı kanalizasiya sistemindən gəlirlər.

Gəmiricilər və mühafizəçilərin əlindən mən çətinliklə yatırdım, amma hər gün günorta yatmağa imkan olurdu. Yəqin ki, mühafizəçilərə əmr verilmişdi ki, məni yaxşı yedizdirsinlər, çünki gündə iki

dəfə məni yemək yeməyə aparırdılar. Qalan vaxtlarda isə onların mənim üçün dükandan aldıqları yeməkləri yeyirdim. Mənzildəki sobada su qaynadıb çay içirdim, suda yumurta bişirirdim. Mən səbirsizliklə bazar ertəsini gözləyirdim.

* * *

Fevralın 26-da, bazar günü saat 15:30-da mənim yola düşməyimdən bir gün əvvəl, mühafizəçilər mənzilimə gəlib dedilər: "Hazırlaşın! Sizinlə bir nəfər danışmaq istəyir". Hər ehtimala qarşı mən tez çıxmaq üçün əşyalarımı yığıb hazır etmişdim, ona görə də çamadanımı götürüb qapıya doğru getdim. "Nəhayət ki, gedirəm" — deyə düşündüm.

Kişilərdən biri dedi: "Xeyr, xeyr, narahat olmayın! Sizinlə bir nəfər telefonla danışmaq istəyir". Çamadanımı yerə qoydum və o, mobil telefonunu mənə verdi.

Telefonda Çexiya səfirinin səsini eşidəndə sevindim.

O dedi: "Cənab Yaşek. Haradasınız? Sizi aparmaq üçün təyyarə ilə gəlmişik və hava limanında sizi gözləyirik". Mən sevincimdən çətinliklə danışa bildim: "Nə yaxşı!"

Amma harada olduğumu bilmirdim və hava limanına necə gedəcəyimi düşündüm.

"Axşam saat 17:00-da biz yola düşməliyik!" — deyə səfir mənə bildirdi. Amma mən bilirdim ki, biz hava limanına yaxın deyilik və oraya vaxtında çata biləcəyimə şübhə edirdim. Təyyarənin qalxmasına bir saat yarımdan az vaxt qalırdı və mən hələ də MKTX işçilərinin nəzarətində idim.

Telefonu söndürdüm və təhlükəsizlik işçiləri otağımdan çıxıb getdilər. Mən yenə gözləməli oldum. Mənzildə tək idim və oturub dəqiqələrimi sayırdım. Bu, əbədiyyət kimi uzun görünürdü. Nəhayət, saat 16:00-dan bir az sonra mühafizəçilər geri qayıtdılar, amma əmin idim ki, təyyarənin uçuş vaxtına çata bilməyəcəyəm.

Biz maşına minib Xartum hava limanına doğru yola düşdük. Məndə pasportum və ya başqa şəxsiyyət vəsiqəm yox idi. Mənimlə gedən sudanlılardan pasportlarımdan heç olmasa birinin olub-olmadığını soruşdum, çünki mən Xartuma iki pasportla gəlmişdim. Bir anlıq kompüterim, kameram və digər əşyalarım haqqında düşündüm. Əgər tam əfv olunduğum doğru idisə, onda mənimlə heç vaxt cinayət törətməmiş biri kimi rəftar etməli idilər. Onda əşyalarımın müsadirə edilməsi də ləğv edilməli idi. Amma mən risk edib əşyalarım barədə mühafizəçilərdən soruşmaq istəmədim. (Məni əfv etmişdilər ya yox, amma məhkəmədən sonra öz əşyalarımı görmədim. Yəqin ki, MKTX-nin işçilərindən biri indi mənim kameramla gözəl videolar çəkir.)

On beş ay əvvəl otel avtobusuna mindiyim vaxtı xatırladım və dua etdim ki, bu səfər ondan çox fərqli olsun.

* * *

Nəhayət, hava limanına gəldik. Məni gətirən mühafizəçilər mülki paltar və qara günəş eynəyi geyinmişdilər və tezliklə anladım ki, onlar belə geyinməklə hava limanının işçiləri kimi maskalanırlanmış. Mühafizəçilər döş nişanlarını təqdim etdilər və bizi hava limanının təhlükəsiz ərazisinə apardılar. Sonra onlar maşının qapısını açıb məni VİP zonaya qədər müşayiət etdilər. Çex kəşfiyyatının zabitləri iki həkimlə birlikdə məni gözləyirdi. Həmin zabitlərdən biri ilə mən bir il əvvəl MKTX-nin Milli Klubunda tanış olmuşdum.

İki MKTX zabitləri orada məni izlədi. Onlardan birini MKTX həbsxanasından tanıyırdım. O mən həbs olunarkən fotoşəkillərimi çəkən adam idi.

Həkimlər tam hazır şəkildə gəlmişdilər, onların özləri ilə gətirdikləri mənə hərbi çöl xəstəxanasını xatırlatdı. Onlar məni fiziki olaraq tam müayinə etməyə başladılar. Əvvəlcə məni EKQ aparatına qoşdular, oksigenimi ölçdülər və elektrolitlərlə zəngin içkiləri

verdilər. Onlar Çexiya konsulluğunun əməkdaşından özümü normal apardığımı və əqlən sağlam göründüyümü öyrənmişdilər, lakin bədənimin susuzlaşmasından narahat idilər. MKTX-nin iki işçisi təəccüb içində mənə baxdı. Mən əmin idim ki, Çexiya kəşfiyyatının həkimlərinin məni diqqətlə müayinə etməsi, onlarda şübhəsiz ki, mənim casus olmaq fikrini sübut edirdi.

Mən müayinə olunduqdan sonra biz gözlədik. Öyrəndim ki, Çexiyanın xarici işlər naziri tezliklə gələcək və biz onun təyyarəsi ilə Praqaya qayıdacağıq. Mən "ayaqyoluna getməliyəm" dedim.

Ayaqyolunda cib telefonumu çıxarıb sakitcə Vandaya zəng etdim. Üç gün əvvəl qorxuya səbəb olan telefon zəngindən sonra Vanda səsimi yenidən eşidəndə rahatlandı. O, rəsmi internet saytında xarici işlər nazirinin səyahət cədvəlini izləyirdi və bilirdi ki, ayın 26-da Sudana bir günlük səfərə yola düşüb. Bilirdi ki, səfər plana uyğun getsə, bir neçə saatdan sonra evə qayıda bilərəm.

Həvəslə dedim: "Mən hava limanındayam, deyəsən, tezliklə uçacağıq. Biz naziri və onun komandasını gözləyirik".

Mən tezliklə anladım ki, telefon danışığım təhlükəli idi. Xarici işlər nazirinin yolda olduğu xəbərini alanda gözləmə zalından çıxdıq. Sudan mühafizəçiləri Çex hökumətinə məxsus nəhəng rəsmi təyyarənin pilləkənlərinə qədər bizi müşayiət etdilər. Təyyarəyə mindik və mən həyat yoldaşıma yenidən zəng etməyi onlardan xahiş etdim.

Kəşfiyyat əməkdaşı dedi: "Yaxşı olar ki, bunu etməyəsiniz. Əslində həyat yoldaşınıza ayaqyolundan zəng etməklə siz böyük səhv etmisiniz". Azadlığa buraxılmağımla bağlı gərgin danışıqlar elə bir gün əvvəl yekunlaşmışdı və kəşfiyyat əməkdaşları bilirdilər ki, təyyarə yuxarı qalxana qədər hər şey baş verə bilər.

Mən öz azadlığımı təhlükə altına sala biləcəyimi düşünərək təyyarənin yumşaq dəri oturacağına əyləşdim.

Qırx beş dəqiqədən sonra xarici işlər naziri öz əməkdaşları ilə birlikdə gəldi. Onun məni necə qarşılayacağı narahatlığıma səbəb oldu. Mənim Sudanda təqib olunan məsihçilərin hüquqlarının po-

zulmasını sənədləşdirərkən xoşagəlməz hal ilə üzləşəcəyimi o açıq şəkildə demişdi. Bunu mən ailəmdən eşitmişdim. Düşünürdüm ki, o, Sudan kimi təhlükəli bir ölkəyə səyahət etdiyim üçün başıma gələnlərdə özümün günahkar olduğumu demək istəyirdi.

Nazir Lubomir Zaoralek təyyarəyə mindi, mənə gülümsəyərək dedi: "Cənab Yaşek, Çexiya Hərbi Hava Qüvvələrinin təyyarəsinin göyərtəsinə xoş gəlmisiniz! İlk növbədə, humanitar fəaliyyətiniz haqqında mənə danışan Most şəhərindəki "Məsihçi Qardaşlar" kilsəsində olan dostlarımın salamını sizə çatdırmaq istərdim. Mən gördüyünüz işi çox yüksək qiymətləndirirəm".

Ürəyim tam rahatlandı. Mən onun əlini sıxdım, sonra onun əməkdaşları və sözçüsü mənimlə görüşdülər.

Praqaya uçuşumuz altı saatdan bir qədər çox çəkdi. Bu müddət ərzində nazir Zaoralek biznes klasdakı yerini tərk edib mənimlə arxada oturdu. Təxminən iki saat ərzində məndən dəhşətli həbsxana təcrübəm barədə ətraflı soruşdu. Sakitcə qulaq asdı, sonra mənə tərəf əyilərək yaşadıqlarımı dərindən izah edən və mənim də həqiqət olduğuna inandığım fikri söylədi: "Mən sizi dinlədikcə əmin oluram ki, siz məhz həvari Pauldan nümunə götürmüsünüz".



# 34

Fevralın 26-da axşam Vandanın telefonuna yenidən zəng gəldi. Çexiya konsulluğunun əməkdaşı Yaroslav Veyriç şad xəbərlə telefon xəttinin o biri başında belə dedi: “Peter təyyarədədir”.

Vanda ağlayaraq uşaqları bərk-bərk qucaqladı. Onlar Rəbbə həmd etdi və on dörd ay mənim üçün dua edib oruc tutan məsihçilər arasında xoş xəbəri tez bir zamanda yaymağa başladılar.

Ailəm bilirdi ki, mən Praqadakı hərbi hava limanına gəlirəm və mənimlə orada görüşə bilməyəcəklər. Onlar hərbi hospitala gedib səbirsizliklə məni gözlədilər.

Mən bir neçə saat sonra təyyarədən enəndə çoxlu müxbirlər mətbuat konfransı üçün toplaşmışdılar. Mikrofonlar dənizində mənim azad olunmağımla bağlı danışıqlarda gərgin, müntəzəm işinə görə xarici işlər nazirinə təşəkkür etmək imkanım oldu. Ona bildirdim ki, Beynəlxalq Cinayət Məhkəməsində Sudan prezidentinə qarşı ittihamlar irəli sürdüyü üçün belə bir ölkədə mənim azad edilməyimin nə qədər çətin olduğunu anlayıram. Kladnodakı ev kilsəmə və pastorumuz Daniel Kaletaya dərin minnətdarlığımı bildirdim. Mən “Şəhidlərin səsi” təşkilatından olan ABŞ nümayəndələrinə bu çətin dövrdə mənə, vəkilimə və xüsusən də, ailəmə böyük dəstəyə görə təşəkkür etdim. Nəhayət, mənim üçün dua edən yüz minlərlə məsihçilərə və bütün dünyada təqib olunan insanlar üçün kampaniya aparan CitizenGo təşkilatının onlayn petisiyasını imzalayanlara minnətdarlığımı bildirdim.

Praqada limanda dayanarkən və müayinə üçün hərbi xəstəxanaya aparılarkən ürəyim və ağlım hələ də Sudanda idi. Gecə ya-

rısından azca keçmiş mən təcili yardım maşınından çıxdım və ailə üzvlərim maşından düşüb mənə tərəf qaçanda, bir ildən artıq müddətdən sonra ilk dəfə onları qucaqlayanda Rəbbə şükür etdim ki, biz daha böyük ailənin bir hissəsiyik. Bu ailə dünyanın hər yerində yaşayan bir ailədir. Mən Allaha şükür etdim ki, hətta Sudan həbsxanası da bizi bir-birimizdən ayıra bilmədi.



# EPİLOQ

Yenidən Praqaya qayıdandan sonra Sudanda olarkən mənim üçün ürəklə dua edən ailəm və kilsə üzvlərimizin əhatəsində olanda, həbsdə olduğum on dörd ay yarım ərzində Allahın məni necə dəyişdirməsi barədə düşünməyə başladım.

Sudanda Xilaskarımızın adı naminə şərəfsizliyə düçar olmaq imtiyazına görə mən Rəbbə çox minnətdar idim. Ailəmə görə Rəbbə şükür etdim ki, həbsim uşaqlarım böyüdükdən sonra baş vermişdi və onlar ən çox əziyyət çəkən həyat yoldaşım Vandanı ruhlandırmışdılar. Amma mən istərdim, Allah həbsimin daha tez baş verməsinə yol verəydi, çünki həyatımın qalan hissəsi çox fərqli olacaqdı.

Allah çox vaxt bizə səbir etməyi öyrədir. Onu necə gözləməyi öyrətmək üçün həyatımızda çətinliklərə yol verir. Məzmurçu yazırdı: “Rəbbi gözləyirəm, döyünən ürəyim gözləyir, Onun sözünə ümid edirəm” (Məzmur 130:5). Rəbbi gözləmək məsihçi həyatının açarıdır. Belə ki, bu açar dua, oruc və başqalarına xidmət etmək üçün qapı açır. Eləcə də, “səthi məsihçilik”dən bizi azad edir, mən həbsdə olarkən ilk vaxtlarda bundan əziyyət çəkirdim.

2016-cı ilin martında azadlığa çıxacağımı düşünürdüm, amma məni həbsdə saxladığına görə Allahdan incimişdim. Ailəmlə birlikdə olmaq üçün evə getmək istəyirdim. Mən Çexiyadakı kilsəmə qayıtmaq və əvvəlki kimi imanlı bacı-qardaşlarımla birlikdə ibadət etmək istəyirdim. Amma həbsdən sonra vəziyyəti başqa cür gördüm. Rəbbin mənim üçün daha yaxşı niyyəti var idi. O, məni yalnız bir səbəbə görə Sudanda saxlayırdı. Rəbb məni Omdurman şəhərdindəki həbsxanada, “Əl-Huda” və “Kober” adlı həbsxanalar-

da Müjdəni bölüşmək və məhkəmə proseslərində müstəntiqlərə və vəkillərə Allahın sevgisini göstərmək üçün hazırlayırdı. Allahın vaxtı həmişə bizimkindən daha yaxşıdır. Diqqətimi düşdüyüm vəziyyətdən kənara yönəldəndə özümü bədbəxt hiss etmək düşüncələri də məni tərk etdi. Kiçik hissələrdən böyük bir şəklin yarandığını gördüm.

Sudandakı həbsxanada keçirdiklərim mənim üçün ağrılı olsa da, orada Məsih barədə danışmaq üçün böyük bir fürsət idi. Mən gördüm ki, Allah bəzən öz gücümüzə deyil Onun gücünə güvənməyi öyrətmək üçün bizə "ölüm kölgəsinin dərəsində gəzməyə" yol verir (Məzmur 23:4). Məsihin ən gur parladığını ancaq vadidə, kölgələrdə və qaranlıqda görürük. Nə qədər köməksiz, ümidsiz və müdafiəsiz olsaq, bir o qədər də çomağı və ayaq izləri ilə bizə yol göstərən Çobanın səsinə qulağımız həssas olur.

Mən dəfələrlə, xüsusən də, MKTX-nin həbsxanasında səhhətim pisləşdiyinə görə ruhdan düşürdüm və dua etmək üçün düzgün söz tapa bilmirdim. Bəzən İŞİD kamera yoldaşlarım tərəfindən döyülərkən əlimdən yalnız inildəmək gəlirdi. Lakin o dəhşətli anlarda Müqəddəs Ruh mənimlə birlikdə idi və mənim üçün vəsatətçilik edirdi (Romalılara 8:26).

Həbsimdən dörd ay sonra, Allah mənə Müjdəni on iki eritreyalı ilə bölüşmək imkanı verəndə fikrim tamamilə dəyişdi. O vaxta qədər ancaq azad olub evə getmək barədə düşünürdüm, lakin o adamlara Məsihin məhəbbəti haqqında danışmağa başlayanda və onların Allahın çağırışına itaətlə cavab verdikdə mən düşündüm: "Cənnətdəki əbədiyyətlə müqayisədə dörd ay həbsdə qalmaq nədir?"

Həmin an davranışım dəyişdi. Mən öz vəziyyətim haqqında deyil, Məsihə ehtiyacı olan insanlar haqqında daha çox düşünməyə başladım. Allah mənə həyata daha yüksək, əbədiyyət prizmasından baxmağı göstərdi.

Sudanda qalarkən mən Müqəddəs Kitaba görə daha çox minnətdar olmağa başladım. Onun Kəlamını oxuyanda Müqəddəs Ruh

həmişə bizimlə danışır. Bunu Çexiya səfirliyinin konsulu Müqəddəs Kitabı mənə verəndə daha çox hiss etdim. Kitabı həbsxana otağıma gətirib oxumağa başlayanda məndə Allahın Kəlamı üçün heç vaxt hiss etmədiyim böyük bir həvəs yarandı. Mən kameramda Məsihin hüzurunun güclü və həqiqi olduğunu hiss etdim.

Allahın Kəlamını nə qədər çox oxuyurdumsa, Tanrını daha çox tanımağa başlayırdım. Mən indi Paulun yazdıqlarında nəyi nəzərdə tutduğunu daha yaxşı başa düşürdüm: "Çünki müvəqqəti, yüngül əziyyətlərimiz bizə heç bir şeylə müqayisə edilməz dərəcədə böyük və əbədi izzət qazandırır. Gözlərimizi görünən şeylərə deyil, görünməyən şeylərə dikirik. Çünki görünənlər gəldi-gedər, görünməyənlərsə əbədidir" (2 Korinflilərə 4:17-18). Zəbur kitabında məzmurçu bəyan edir: "Amma Rəbb mənə qala oldu, Allahım mənə sığınacaq bir qaya oldu!" (Məzmur 94:22). Məzmurçunun bu sözləri deyərkən keçirdiyi hissləri indi mən də duydum. Müqəddəs Kitabı dərindən və gərgin oxuduğum o vaxtlarda mən bir çox vəzlər hazırladım və bu günə kimi onların hamısını hələ bölüşməmişəm.

2 Timoteyə 2:9-cu ayədə yazılıb ki, hətta Allahın xalqı əsarətdə olduqda belə Allahın Kəlamı zəncirlənməmişdi. Müqəddəs Yazı canlı və təsirlidir. Mən həbsxanada Kəlamın təsirini hiss etməyə başlayanda onu özümdə saxlaya bilmədim. Rəbb məni Müjdəni məhbus yoldaşlarımla, nominal məsihçilərlə, animistlər və hətta müsəlmanlarla bölüşməyə həvəsləndirdi. Rəbb mənə nəinki müxtəlif həbsxanalarda Müjdəni bölüşmək, həm də məhbus yoldaşlarıma Məsihin məhəbbət göstərmək imtiyazını verdi. Onların çoxu Müjdəni əvvəllər heç vaxt eşitmədikləri üçün ona düşmən idilər. Rəbbin lütfü ilə mən onların ürəklərinə Allahın həqiqət toxumunu əkə bildim və dua etdim ki, başqaları onu sulasın və Rəbb onu böyütsün. Həbsxanada düşmənlərimi həqiqətən sevməyi öyrəndim. Mən hələ də dua edirəm ki, Sudandakı məsihçi məhbuslar İŞİD-in üzvləri olan məhbuslara Müjdəni paylaşa bilsinlər.

Həyatımın ilk illərində həmişə düşünürdüm ki, kimsə pastor işini necə görə bilər? Bir dəfə həyat yoldaşıma dedim: "Pastor

olmaq çox tələbkar bir işdir. Necə olur ki, hər bazar günü vəz hazırlayıb, hər dəfə təkrarlamadan yeni bir şey danışasan? Mən heç vaxt pastor ola bilmərəm". Hər bazar günü vəzlər hazırlamağı heç təsəvvürümə də gətirə bilməzdim, amma həbsxanada hər gün Tanrı ilə yaxın ünsiyyətdə vaxt keçirməklə pastor işini görmək çox təbii bir hal oldu. Müqəddəs Ruh mənə Onun səsinə qulaq asmağı öyrədirdi.

Hər şeydən əvvəl, mən həbsxanada olduğum vaxtda duanın vacibliyini öyrəndim. Bəzən insanların düşünmədən "Sənin üçün dua edəcəyəm" dediklərini eşitmişəm. Mən də bir vaxtlar belə deyərdim. Amma söz verəndə həqiqətən dua edirəmmi? Neçə dəfə dua edirəm? Nə qədər vaxt dua edirəm? Keçmiş Sovet İttifaqından olan Anatoli adlı bir dostum var, o, hər səhər yuxudan oyanıb mənim üçün dua edir.

Sudanda həbsdə olanda həyat yoldaşımın mənim barəmdə məlumatı az idi. Ailəmin ilk zəng etdiyi şəxs pastorumuz oldu. O, dərhal bir dua zəncirini təşkil etdi və bundan təxminən üç həftə sonra bir oruc zənciri başladı. Hər gün ən azı bir nəfər, bəzən isə üç imanlı bütün günü oruc tutub mənim üçün dua edirdi.

Əvvəllər ailəm həftədə bir dəfə Müqəddəs Kitabı öyrənmək üçün qruplara gedirdi. Mən Sudanda olarkən həyat yoldaşım həftədə ən azı iki, hətta üç müxtəlif Müqəddəs Kitab dərslərində iştirak edirdi. Bir axşam Müqəddəs Kitabı öyrədən qrupun rəhbəri kitabı bağlayıb dedi ki, Müqəddəs Ruh onların Kəlamın müzakirəsinin əvəzinə diz çökərək mənim və həmin vaxt kameramda yaranmış çətin vəziyyət üçün dua etməsini istəyir. Bütün qrup diz çöküb mənim qaldığım kamerada Rəbbin qələbəsini elan etməyə başladı. Duanı bitirdikdən sonra bütün qrup sülh içində evə qayıtdı.

Yalnız həbsdən azad olunduqdan bir neçə ay sonra qonaq otağımızda oturub həyat yoldaşımla ailə təqvimini nəzərdən keçirəndə bir şey diqqətimizi cəlb etdi. Mən həbsdə olarkən hər gün Tanrı ilə yaşadıqlarımı Vanda ilə bölüşürdüm. Məlum oldu ki, Müqəddəs Kitab dərsində mənim üçün dua olunan gün kameramda İŞİD

üzvlərinin məni dizüstə sorğu-sual edib süpürgə çubuğu ilə döyən həmin gün idi. Başqa vaxtlara nisbətən həyatımda həmin anda duaya daha çox ehtiyacım var idi və Rəbb mənə ruhani dəstək üçün dua döyüşçüləri yetirdi. Rəbb böyükdür və Ruh Allahın iradəsinə görə müqəddəslər üçün vəsatətçilik edir (Romalılara 8:27). Bu gözəl təsdiq üçün Rəbbə həmd olsun!

Həbsxanadakı bu təcrübə mənə dünyadakı digər məsihçilər üçün durmadan dua etməyin dəyərini öyrətdi. Döyüş zamanı Musanın qollarını qaldıran Harun və Xur kimi, biz də mübarizə aparan və əziyyət çəkən məsihçilərə, bu gün, bu anda təqib olunanlara dəstək olmalıyıq. Mən azadlığa çıxandan sonra pastor Həsən və Monim üçün çoxlu dualar etdim. Nəhayət, onlar da azadlığa buraxıldı, amma hələ də Sudandakı həbsxanada olan qardaşlarımın halına acıyıram. Mən hələ də onların bir çoxu ilə e-poçt və mesajlar vasitəsilə əlaqə saxlayıram. Allahın xalqı dua edən insanlar olmalıdır.

Allahın Padşahlığı heç vaxt bizim gözlədiyimiz kimi yayılmır. Rəbb həyat dəyişdirən xəbərini dünyaya çatdırmaq üçün zəif, qırıq və çatlamış qablardan — çətinliklərdən keçmiş insanlardan istifadə edir. Əgər Allah Müjdəni yaymaq üçün mənim kimi bir insanı istifadə edə bildisə, onda O sizin kimi insanları da istifadə edə bilər.

Mən dua edirəm ki, həbsxanada keçirdiklərim dünyada təqiblərlə üzləşən və ya bir gün təqiblə üzləşəcək bütün məsihçi bacı-qardaşlarımı ruhlandırsın. İnsanlar məndən tez-tez soruşurlar ki, özümü Məsih uğrunda əzabkeş hesab edirəmmi? Mən əzabkeş deyiləm, amma həbsxanalarda çətinliklər keçirəndə Rəbb uğrunda ciddi təqiblərlə üzləşmiş Monika, Dancuma və tanış olduğum bir çox başqa məsihçilərin siması göz önümə gəlib.

Filipililərə 1:29-cu ayədə Paul Filipidəki kilsəyə deyir: "Çünki sizə yalnız Məsihə iman etmək deyil, Onun uğrunda əzab çəkmək üstünlüyü də ehsan olundu". Mən bu ayəni Müqəddəs Kitabın müxtəlif tərcümələrində araşdırmışam və bir tərcümədə xüsusi olaraq belə deyilir: "Ona təkcə Məsihə inanmaq deyil, həm də Onun naminə əzab çəkmək imtiyazı verilib".

Kommunizm dövründə bir dəfə bacı və qardaşımla Böyük Britaniyaya səyahət etdik. Biz o vaxt maşınla gedib sonra La-Manş boğazından bərəylə əks tərəfə keçdik. Biz Londonun şimalındakı kilsəyə baş çəkdik və Müqəddəs Kitab dərslərində iştirak etdik. Həmin vaxt oradakı qrup təqib və əziyyətlər barədə müzakirə edirdi və budur kommunist ölkəsi olan Çexoslovakiyadan biz üç nəfər orada idik.

Qrupdakılar bizdən təqiblər barədə fikrimizi soruşdular. O vaxt Müqəddəs Kitabı öyrənən kiçik qrup üçün təqiblərə görə biz ekspert hesab oluna bilərdik. Bacım Yananın dediyi ilk sözləri xatırlayıram: "Mən inanıram ki, Rəbb üçün əzab çəkmək şərəfdir". Pastor bunu dərhal başa düşdü, amma digərləri çaşbaş qaldılar. Təqiblərə məruz qalmaq necə şərəf ola bilərdi?

Mən təqib olunanda şəxsən o şərəfi yaşamışam və İsa Məsihin əzabını cüzi də olsa bölüşmək fürsətinə görə minnətdaram.

İsa Məsihin Müjdəsi təqib müjdəsidir və Rəbb İsa şagirdlərini Yəhya 15:18-21-ci ayələrdə təqib üçün hazırlamışdı:

> "Əgər dünya sizə nifrət edərsə, onda yada salın ki, sizdən əvvəl Mənə nifrət edib. Əgər dünyadan olsaydınız, dünya özündən olan sizləri sevərdi. Amma siz dünyadan deyilsiniz, Mən sizi dünyadan seçdim, buna görə dünya sizə nifrət edir. Mənim sizə söylədiyim sözü yadınıza salın: "Qul ağasından üstün deyil". Əgər Məni təqib etdilərsə, sizi də təqib edəcəklər, Mənim sözümə riayət etdilərsə, sizin də sözünüzə riayət edəcəklər. Lakin bunların hamısını sizə Mənim adıma görə edəcəklər, çünki Məni Göndərəni tanımırlar".

Rəbb Müqəddəs Kəlamın ayələri vasitəsilə gələcək təqiblər haqqında bizə daha ətraflı məlumat verir.

> Amma bütün bu hadisələrdən əvvəl Mənim adıma görə sizi yaxalayacaqlar, təqib edəcəklər, sinaqoqlara və zindanlara təslim edəcəklər, padşahların və valilərin qarşısına aparacaqlar. Bu işlər şəhadət etdiyiniz vaxt olacaq. Buna görə də ürəyinizdə qərara alın ki, özünüzü necə müdafiə edəcəyiniz barədə əvvəlcədən düşünməyəsiniz. Çünki Mən sizə elə danışıq qabiliyyəti və hikmət verəcəyəm ki, sizə qarşı çıxanların heç biri nə ona etiraz edə biləcək, nə də ona qarşı dura biləcək. Hətta ata-analarınız, bacı-qardaşlarınız, qohumlarınız və dostlarınız sizi təslim edəcək və bəzinizi edam etdirəcək" (Luka 21:12-16).

Bəli, biz məsihçilərdən bəziləri Məsih uğrunda öldürüləcək. Paul bunu bizə Romalılara 8:35-39-cu ayələrdə xatırladır:

> "Məsihin məhəbbətindən bizi kim ayıra bilər? Əziyyətmi, sıxıntımı, təqibmi, aclıqmı, çılpaqlıqmı, təhlükəmi, qılıncmı? Necə ki yazılıb: "Biz gün boyu Sənin uğrunda öldürülürük, qurbanlıq qoyunlar sayılırıq". Lakin bizi Sevənin vasitəsilə bütün bunlarda tam qələbə qazanırıq. Çünki əminəm ki, nə ölüm, nə həyat, nə mələklər, nə başçılar, nə indiki, nə də gələcək şeylər, nə qüvvələr, nə ucalıq, nə dərinlik, nə də başqa bir məxluq bizi Rəbbimiz Məsih İsada olan Allahın məhəbbətindən ayırmağa qadir olmayacaq".

Şimali Nigeriyada hər il çoxlu sayda məsihçilərin öldürülməsi haqqında düşünəndə, belə qərara gəlirəm ki, biz məsihçilər "qurbanlıq qoyunlar sayılırıq". Amma buna əbədiyyət nöqteyi-nəzərindən baxanda, bütün bu çətinliklərdən biz qalib çıxırıq!

Sudandakı həbsxana xidmətimdən çox əvvəl bu sözlərlə mən dünyanın bir çox məsihçilərini ruhlandırmışdım. Mən onları 2 Ti-

moteyə 3:12-ci ayədə Paulun dediyi sözlər ilə təqib olunmaq üçün hazırlayırdım: “Məsih İsada möminliyə yaraşan bir həyat sürmək istəyənlərin hamısı təqibə məruz qalacaq”. Mən başqalarını fəal surətdə təqiblərə hazırladığım halda, özüm bununla üzləşəndə necə təəccüb edə bilərdim?

Rəbb mənə Öz adı uğrunda əzab çəkmək imtiyazını verdi və mən şadam ki, O məni bu çağırışa layiq gördü.



# SON SÖZ

## Əzablar haqqında söz

Sudanda məsihçilərin yaşadıqları dəhşətli təqiblər barədə eşidəndə, yəqin ki, əzabın mənası haqqında düşünmüsünüz. Yəqin mənimlə razılaşarsınız ki, təqib yalnız imanda ılıq məsihçilərə öz cismani təbiətlərindən azad olmaq üçün “nizam-intizam aləti” və ya Müjdəni yaymaq üçün “katalizator” deyil.

Əhdi-Cədid bizə təqibləri başqa nöqteyi-nəzərdən izah edir: “Əksinə, Məsihin əzablarına nə qədər şərik olursunuzsa, o qədər sevinin ki, Onun izzətli zühurunda hədsiz sevinəsiniz” (1 Peter 4:13). Bəli, siz düzgün oxuyursunuz: iztirablara şərik olanda sevinməliyik! Yəhudilər tərəfindən döyülən həvarilərə baxın: “Həvarilər bu ad uğrunda təhqirə layiq görüldükləri üçün sevinərək Ali Şuranın önündən ayrıldılar” (Həvarilərin İşləri 5:41). Bəli, həvarilər Rəbbin uğrunda döyülməyi şərəf hesab edirdilər.

Filipililərə 1:29-cu ayədə həvari Paul məsihçilərin əzab-əziyyətini “təqdim edilmiş bir imtiyaz” hesab edir: “Çünki sizə yalnız Məsihə iman etmək deyil, Onun uğrunda əzab çəkmək üstünlüyü də ehsan olundu”. Mən inanıram ki, əzablar, xüsusən də, Məsih uğrunda dəhşətli şəkildə şəhid olmaq, məsihçilər üçün ən böyük şərəf və vacib bir imtiyazdır. Məsihçilərin edam “mərasim”ində bir çox tamaşaçılar iştirak edirdi. Bunlara təkcə Roma arenalarının tələbkar tamaşaçıları və ya edam edən qəzəbli əsgərləri daxil deyildi. (Yeri gəlmişkən, onlardan bəziləri edam olunan məsihçilərin imanlarında dönməzliyi görəndə sonralar iman edib həqiqi məsihçi oldular.) Məsihçi şəhidləri təkcə bizim görünən dünyamıza deyil, həm də ruhani dünyamıza iman və itaətin şahidləridir. “Çünki

mənə elə gəlir ki, Allah biz həvariləri ölümə məhkum olunanlar kimi ən sonda nümayiş etdirdi. Biz də həm dünya, həm mələklər, həm də insanlar üçün bir tamaşa olduq" (1 Korinflilərə 4:9). Bəli, tamaşa! Əlbəttə ki, məsihçilər həyat səhnəsində və ya camaat qarşısında görünməyə hazır olmalıdırlar.

Mən bilirəm ki, Rəbb Öz xidmətçiləri ilə fəxr edir və onlarla izzətlənir. "Siz heç qulum Əyyuba fikir vermisiniz? Yer üzündə onun kimi qüsursuz və doğru, Allahdan qorxan və pislikdən çəkinən varmı?" Bu sözləri Rəbb şeytana deyir. Burada sınaq obyektinə işarə edən pis niyyətlli iblis deyil, Öz qulu ilə fəxr edən Rəbbdir, çünki O bilir ki, Əyyub ən çətin sınaqlarda belə sadiq qalacaq. O, sizin nələrə dözə biləcəyinizi bilir və gücünüzdən artıq sizi sınağa çəkilməyə qoymaz (1 Korinflilərə 10:13-cü ayəyə baxın).

Bəli, Məsih uğrunda ölən şəhid Tanrının rejissorluq etdiyi tamaşada "canlı" aktyordur və birinci cərgədəki tamaşaçılar öz qulluqçuları ilə birlikdə oturan şeytandır. Allah görünən, eləcə də görünməyən ruhani dünyaya Öz xidmətçilərinin sədaqətini nümayiş etdirir, lakin iblis qürurlandığına görə öz sadiqliyini itirdi.

Rəbb şəhid rolu üçün istənilən adamı seçmir. Buna baxmayaraq, biz Məsihdə bir bədənik. "Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir" (1 Korinflilərə 12:26).

Biz bir bədənin üzvləri olduğumuz üçün bədənimizin bir hissəsinin — qardaş və bacılarımızın harada və necə əziyyət çəkdiyi ilə maraqlanmalıyıq. "Özünüzü həbsdə olanların yerinə qoyaraq onları yada salın. Əzab-əziyyət içində olanları da elə xatırlayın ki, sanki özünüz onlarla birgə əzab-əziyyət çəkirsiniz" (İbranilərə 13:3). Biz "bədən" sözünü təkcə fiziki bədən kimi deyil, həm də ruhani bədən — kilsə kimi başa düşə bilərik. Dünyanın hansı yerində yaşamasından asılı olmayaraq təqib olunan məsihçi bacı-qardaşlarımıza qarşı laqeyd qalmırıq. Onların əzabları bizə də köklü surətdə təsir edir, çünki biz başı Rəbb İsa Məsih olan eyni bədənin üzvləriyik.

Matta 25:36-cı ayədə Rəbb deyir: "Mən zindanda idim, yanıma gəldiniz". Totalitar rejim olan ölkələrdəki həbsxanaların əksəriyyətinə baş çəkmək demək olar ki, mümkün deyil. Buna baxmayaraq, biz məhbusa həvəsləndirici məktub və ya ölkə rəhbərliyinə etirazımızı göndərə bilərik. Əzab çəkən bir bədənin üzvləri olduğumuzu göstərməyin bir çox yolları var və Rəbb bizdən bunu etməyimizi istəyir.

# MÜƏLLİF HAQQINDA

2002-ci ildə Peter Yaşek məsihçiliyə qarşı düşmənçilik və məhdudiyyətlər olan ölkələrdə təqib edilən məsihçilərə kömək etmək üçün "Şəhidlərin səsi" təşkilatına (VOM) qoşuldu. Xəstəxana rəhbərliyində təcrübəsi olduğuna görə Peter "Şəhidlərin səsi" təşkilatının Afrika regionuna nəzarət edirdi. Peter Çexoslovakiyada kommunist dövründə təqib edilən bir pastorun oğlu kimi böyümüşdü. O, təqib olunan məsihçilərlə görüşmək üçün səyahət edərkən öz həyat təcrübələrindən bölüşərək onları ruhlandırırdı.

Peterin həyatı 2015-ci ilin dekabrında Sudanın Xartum şəhərindəki hava limanında həbs edildikdən sonra kəskin şəkildə dəyişdi. O, "Şəhidlərin səsi" təşkilatının təqib olunan məsihçilərə kömək etmək xidmətində onlarla görüşdüyünə görə həbs edildi. Həbsdə olan məsihçilərə və onların ailələrinə kömək etmək əvəzinə, Peter özü həbs olundu.

Peter həbsxanada olarkən ruhdan düşmüşdü, lakin sonra o, Allahın sədaqətinin həqiqi və doğru olduğunu gördü. O, həbsini Məsihdə böyümək və həbs edilmiş məsihçilərlə birgə imanını başqa məhbuslara bölüşmək fürsətinə çevirdi.

Həbsdə olduğu 445 gün ərzində "Şəhidlərin səsi" təşkilatı və dünyanın hər yerindən məsihçilər dua və digər vasitələrlə Peterin ailəsinə dəstək oldular. Peter azad olunduqdan sonra Çexiyaya, həyat yoldaşı Vanda və iki yetkin övladının yanına qayıtdı.

Peter "Şəhidlərin səsi" təşkilatında beynəlxalq kordinator kimi öz xidmətini davam etdirir və həbsxanada keçirdiyi çətinliklər

barədə danışır. O, bir çox ölkələrə səyahət edərək təqib olunan bacı-qardaşlarımız üçün məsihçiləri dua etməyə və onlara kömək etməyə səsləyir.

# “ŞƏHİDLƏRİN SƏSİ” TƏŞKİLATI HAQQINDA

“Şəhidlərin səsi” təşkilatı qeyri-kommersiya, konfessiyalararası məsihçi təşkilatı olub dünyada təqib edilən ailəmizə praktiki və mənəvi yardım vasitəsilə xidmət etməyə və Məsihin bədəninin digər üzvlərini onlarla ünsiyyətdə olmağa yönəldir. “Şəhidlərin səsi” təşkilatı 1967-ci ildə Rumıniyada kommunist dövründə Məsih uğrunda on dörd il həbsdə olan pastor Riçard Vurmbrand tərəfindən yaradılıb. Onun həyat yoldaşı Sabina isə 3 ilini həbsdə keçirmişdi. Riçard ailəsi ilə birgə 1965-ci ildə fidyə ilə Rumıniyadan çıxarıldı və o, təqib olunan məsihçilərə kömək etmək üçün qlobal missiyalar şəbəkəsi yaratdı.

Siz bizim saytımıza daxil olmaqla təqib olunan bacı-qardaşlarımızın Məsihə olan cəsarətli imanından ruhlana bilərsiniz. “Şəhidlərin səsi” təşkilatının pulsuz aylıq bülleteninə abunə olmaqla onlara xidmət etməyin yollarını öyrənə bilərsiniz. Əlavə məlumat üçün siz bizim persecution.com saytımıza baş çəkə və ya 1-800-747-0085 nömrəsinə zəng edə bilərsiniz.




Sudanın xəritəsində münaqişə zonaları göstərilib.



Atam o vaxt pastor idi və mənim cəmi 2 yaşım olardı. Valideynlərim Çexoslovakiyada kommunist dövründə gizli polislər tərəfindən tez-tez sorğu-sual olunurdular və nəzarətdə saxlanılırdılar, çünki hökumətin icazəsi olmayan gizli kilsədə xidmət edirlər.



Mən Riçard Vurmbrandın alman dilində "Allahla gizlində" kitabını əldə edəndə 15 yaşım var idi. Atam gizli polis tərəfindən dindiriləndən sonra evə qayıdanda bu kitabı mənə verdi. Həmin gün ata-anamı eyni vaxtda fərqli yerlərdə həbs etmişdilər. Mən dərsdən qayıdanda evdə heç kim yox idi. Onlar barədə bir xəbər olmadığına görə narahat idim. Həmin gün atam evə qayıdanda qorxduğumu gördü və bu kitabı mənə verib dedi: "Bunu oxu. Bu, sənin imanını gücləndirəcək".



Mən və atam, Çexoslovakiyanın kommunist dövründə məcburi hərbi xidmətdən buraxıldığım gün. Xidmətimin ilk ayında əsgər yoldaşlarıma Məsihə inandığımı etiraf etmək üçün gözəl fürsət əldə etdim. Dördüncü sinifdə atamın pastor olduğunu deməkdən utanmışdım, ona görə də sonralar Rəbdən xahiş etdim ki, mənə Məsihi açıq şəkildə etiraf etmək imkanı versin. Bu fürsət hərbi qulluqçularda ateist dünyagörüşünün formalaşdıran hərbi xidmət zamanı yarandı. Günlərin birində zabit bizdən soruşdu: “Burada Allaha inanan varmı?” Həmin an Müqəddəs Ruhun mənimlə danışdığını hiss etdim: “Peter, indi sənin Məsihi açıq etiraf etmək şansındır”. 300 əsgərin arasında yalnız mən əlimi qaldırdım. O vaxtdan bəri mən həmişə Allah haqqında başqalarına danışmağa çalışmışam.



Sudanda 1989-cu ildə hərbi çevrilişlə hakimiyyətə gələn və dövlət idarəçiliyi quran keçmiş prezident Ömər Həsən əl-Bəşirin hakimiyyəti dövründə məsihçilər təqib olundu. Bütün ölkədə İslam qanunları hökm sürürdü. 2009-cu ilin martında Haaqada yerləşən Beynəlxalq Cinayət Məhkəməsi Bəşir barəsində həbs qərarı çıxardı. İlk dəfə idi ki, qüvvədə olan dövlət başçısı üçün belə qərar verilirdi. Bəşir kütləvi qırğın, deportasiya, işgəncə, müharibə cinayətlərinə və zorlama da daxil olmaqla insanlığa qarşı cinayətlərə görə ittiham olundu. Bəşir 2019-cu il aprelin 11-nə qədər Sudana rəhbərlik etdi və aylarla davam edən etirazlardan sonra Sudan ordusu tərəfindən prezident vəzifəsindən kənarlaşdırıldı.



2002-ci ilin dekabrında ikinci dəfə Sudana getdim. Bu səfərdə biz o zamanlar cəbhə xəttindən təxminən üç kilometr aralıda Yuxarı Nilin şimal bölgəsində təqib olunan məsihçilərə yardım göstərdik. 7 yaşımda aldığım çex dilində Müqəddəs Kitabdan təbliğ etməklə sudanlı məsihçiləri ruhlandırdım. Bu Müqəddəs Kitab 1960-cı illərin sonunda kommunist dövründə Çexoslovakiyaya qaçaqmalçılıq yolu ilə gətirilmişdi. Kommunist təqibləri zamanı məsihçilər mənə kömək edib ruhlandırdığı üçün Sudanda təqib olunan bacı-qardaşlarımı ruhlandırmaq və ehtiyaclarını təmin etmək mənə çox xoş idi.



Aida Skripnikova ilə mən ilk dəfə 2002-ci ilin dekabrında Rusiyanın Sankt-Peterburq şəhərində tanış oldum. 1960-cı illərdə Sovet İttifaqında məsihçi fəaliyyətinə görə Aida dörd il həbsdə qaldı. “Şəhidlərin səsi” tərəfindən nəşr olunan “Yanar ürəklər” kitabında Aida xanımın diqqətçəkən hekayəsi qeyd olunub.



“Şəhidlərin səsi” təşkilatının Nigeriyanın şimalındakı Afrika üzrə regional direktor vəzifəsində çalışarkən, mən Vanq adlı uşağı ziyarət etdim. Vanq cəmi üç həftəlik olanda yaşadığı kənd müsəlman ekstremistləri tərəfindən hücuma məruz qalmışdı. Onun ailəsinin evi yandırılmışdı və qucağında körpəsi ilə qaçmağa çalışan anası isə qətlə yetirilmişdi. Vanq alovun içinə düşmüşdü və ayaqları elə pis yanmışdı ki, sonradan normal inkişaf edə bilməmişdi. Bu səfər zamanı “Şəhidlərin səsi” adından Vanqa öz yaşıdları kimi yerimək və qaçmaq üçün yeni protezlər verdim. Bu fotoşəkil çəkildikdən üç həftə sonra Sudana getdim və orada həbs olundum.



Mən bu qeydləri həbsxanada Müqəddəs Kitabı oxuyarkən, xüsusən də üç ay "Niyaba-Mendola" polis bölməsində təkadamlıq kamerada olduğum zaman gizlicə yazmışdım. Bu müddətdə mən Müqəddəs Ruhun vasitəsilə Allahın Kəlamını öyrənməyə başladım və həqiqətən də Rəbbin hüzurunu hiss etdim. Hər gün səhər saat 8-dən axşam 5-ə qədər kameramın pəncərəsində dayanaraq, üç həftə ərzində Yaradılışdan Vəhyə qədər bütün Müqəddəs Kitabı oxudum, çünki həbsdə olduğum ilk beş ay ərzində mənə Kəlamı özümdə saxlamağa icazə verilməmişdi.



Bu şəkil (soldan sağa: mən, pastor Həsən, pastor Kuva və Monim qardaş) "Əl-Huda" həbsxanasının kilsəsində çəkilib. Yanvarın 29-da pastor Həsən və Monim qardaşa 12 il, mənə isə ömürlük həbs cəzası verildi. Yanvarın 2-də pastor Kuvaya bəraət verildi, çünki mənim səfərim zamanı o, heç Xartumda olmamışdı. O öz ölkəsindəki müsəlmanlar arasında müjdəçilik fəaliyyətinə görə həbs edilmişdi.



Bu, həbsxanada çay içmək üçün mənə verilən ilk fincandır. Onu mənə verəndə çox çirkli idi. Onu yumaq üçün su yox idi, ona görə də "Əl-Hüda" həbsxanasının yerləşdiyi səhradakı qumla fincanı təmizlədim. Saqqalım və saçım çox uzanmışdı və mənə daraq lazım idi. Onu mənim üçün Çexiya səfirliyinin konsulluq şöbəsinin əməkdaşı gətirmişdi. Bu, həbsxanada oxuduğum çex dilindəki Müqəddəs Kitabımdır və 103-cü Məzmur yazılmış səhifə açıqdır. Bu, Kəlamdan əzbərlədiyim hissələrdən biridir, çünki Müqəddəs Kitabın nə vaxta kimi məndə qalacağını bilmirdim.



Pastor Həsən (sağda), həbsxana kilsəsinin başqa bir rəhbəri (solda) və mən "Əl-Huda" həbsxanasında. Mən, pastor Həsən və pastor Kuva bu həbsxanaya gəldiyimiz gün kilsəyə dəvət olunduq. Bizim — daha üç vəz edənin gəlişi ilə kilsə rəhbərləri həbsxana xidmətinin sayını həftədə ikidən beşə qədər artırdılar. Boş vaxtlarımda məhbuslara fransız və ingilis dilini öyrədirdim.



Milad ərəfəsində mən "Əl-Huda" həbsxanadakı kilsədə 200-dən çox məhbusa vəz etdim. Milad günü həbsxana rəhbərliyi 100-ə yaxın ölüm hökmü verilən məhbusa kilsəyə gəlməyə icazə verdi. Bu məhbusların ruhani qidaya böyük ehtiyacı var idi. Mən ilk dəfə "Əl-Huda" həbsxanasının kilsəsinə gələndə orada cəmi 20-25 nəfər var idi. Təxminən beş aydan sonra 200-dən çox məhbus xidmətdə iştirak edirdi. Milad bayramında İtaliyadan gələn katolik keşişinə kilsəmizdə vəz etməyə icazə verildi. O, ərəb dilində vəz etməyə başlamazdan əvvəl ingiliscə dedi ki, Romada belə böyük auditoriyaya heç vaxt vəz etməmişd.



Həbsdən çıxandan sonra ailəmlə birgə evdə çəkdirdiyimiz ilk şəkil. Çexiya Hərbi Hava Qüvvələrinin təyyarəsində xarici işlər naziri ilə evə qayıdanda mənə dedilər ki, Praqa Mərkəzi Hərbi Hospitalında iki-üç həftə karantində qalmalıyam. Lakin bütün tibbi müayinələrdən keçdim və analizlərim yaxşı çıxdı. Allahın lütfü ilə iki gündən sonra mənə xəstəxanadan evə getməyə icazə verdilər.



Mən azadlığa çıxdıqdan sonra həyat yoldaşım Vanda ilə Praqanın tarixi mərkəzində ilk gəzinti zamanı.



Mən azadlığa çıxdıqdan sonra Vanda ilə Çexiyanın Kladno şəhərindəki kilsəmizdə. Kilsə üzvlərimiz hər gün axşam saat 8-də mənə görə dua etmək üçün mobil telefonlarına xatırlatma qoymuşdular. Bu vaxt mən həbsxanada yatmağa gedirdim. Onların hərarətli və müntəzəm duaları mənə hər gecə rahat yatmağa imkan verirdi.



2018-ci ilin mart ayında Riçard Vurmbrand barəsində olan kitaba əsasən qruplar üçün dərslik proqramının çəkilişi zamanı. Bu şəkildə mən Riçardın bir vaxtlar Məsih uğrunda həbs olunduğu Rumıniyanın "Cilava" həbsxanasındakı təkadamlıq kamerada dayanmışam. Çöldə nisbətən isti olsa da, həbsxanada çox soyuq idi. Orada dayanaraq daha aydın başa düşdüm ki, yalnız Rəbbin müdafiəsi və köməyi ilə Riçard bu ağır həbs şəraitində — aclığa, xəstəliklərə, döyülmələrə və işgəncələrə dözərək sağ qaldı.



11 may 2017-ci il tarixində dostlarım pastor Həsən (sağda) və Monim qardaş (solda) Sudan həbsxanasından azad oldular. Dövlət rəhbərləri Həsənə onun fəaliyyətini nəzarətdə saxlayacağını xəbərdar etdilər. Bunun ailəsi üçün stress yaradacağına və kilsəyə diqqəti cəlb edəcəyinə görə o, ailəsi ilə birlikdə Sudanı tərk etdi. Onun ardınca Monim qardaş ölkəsini tərk etməli oldu. Hər ikisi hazırda ABŞ-ın şərqində yerləşən kiçik bir şəhərdə yaşayır və mən ABŞ-a səfərlərim zamanı onlarla görüşmək şərəfinə nail olmuşam.



Həbsdən çıxandan bəri mən dünyanı gəzərək Allahın mənə olan mərhəməti və həbsdə olduğum müddətdə Onun sədaqəti barədə insanlara danışıram. Mənim və ailəm üçün dua edən hər kəsə təşəkkür edirəm. Bu şəkildə mən Oklahoma ştatının Tulsa şəhərində keçirilən "Şəhidlərin səsi" konfransında pastor Həsənlə mən "Şəhidlərin səsi" radiosunun aparıcısı Tod Netltona müsahibə veririk.



# MÜNDƏRİCAT


Sudanda İslamın kəskinləşdiyi dövrdə . . . . . . . . . . . . . . . 5

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 7

FƏSİL 1 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9

FƏSİL 2 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13

FƏSİL 3 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 17

FƏSİL 4 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22

FƏSİL 5 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 26

FƏSİL 6 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 29

FƏSİL 7 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33

FƏSİL 8 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36

FƏSİL 9 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39

FƏSİL 10 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 47

FƏSİL 11 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54

FƏSİL 12 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 57

FƏSİL 13 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 67

FƏSİL 14 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 72

FƏSİL 15 . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 78

FƏSİL 16 . . . . . . . . . . 86
FƏSİL 17 . . . . . . . . . . 94
FƏSİL 18 . . . . . . . . . . 108
FƏSİL 19 . . . . . . . . . . 118
FƏSİL 20 . . . . . . . . . . 123
FƏSİL 21 . . . . . . . . . . 127
FƏSİL 22 . . . . . . . . . . 134
FƏSİL 23 . . . . . . . . . . 142
FƏSİL 24 . . . . . . . . . . 147
FƏSİL 25 . . . . . . . . . . 150
FƏSİL 26 . . . . . . . . . . 156
FƏSİL 27 . . . . . . . . . . 159
FƏSİL 28 . . . . . . . . . . 164
FƏSİL 29 . . . . . . . . . . 167
FƏSİL 30 . . . . . . . . . . 172
FƏSİL 31 . . . . . . . . . . 176
FƏSİL 32 . . . . . . . . . . 181
FƏSİL 33 . . . . . . . . . . 185
FƏSİL 34 . . . . . . . . . . 190
Epiloq . . . . . . . . . . 192
Son söz . . . . . . . . . . 200
Müəllif haqqında . . . . . . . . . . 203
“Şəhidlərin səsi” təşkilatı haqqında. . . . . . . . . . 205

Qəflətən otağa bir sükut çökdü, sonra oradakılar ucadan
“Allahu Əkbər!” deyə qışqırdılar. Mən bunu görəndə heyrətləndim
və dərindən nəfəs aldım. Gözlərim bərəldi. Kamera yoldaşlarım bir
neçə dəqiqə ərzində Fransadakı terror aktının uğurlu keçməsini qeyd
etdilər. Mən televiziyada müsəlmanların buna bənzər terror aktını
bayram etməsini görmüşdüm, amma bunu ilk dəfə yaşamaq
şəxsən mənim üçün bir sarsıntı idi.

Həmin dəhşətli anlarda anladım ki, islamçı ekstremistləri
ilə birgə kameraya salınmışam. Tezliklə öyrəndim ki,
kamera yoldaşlarım İŞİD-in üzvləridir.

* * *

2015-ci ilin dekabrın 10-da Peter Yaşek Çexiyaya — öz vətəninə uçmaq üçün Sudanın paytaxtı Xartum şəhərinin hava limanına yollandı. Orada Sudan Təhlükəsizlik Xidməti tərəfindən ölkədə olmasının əsl məqsədi və fəaliyyəti ilə bağlı sorğu-sual olunmaq üçün saxlanıldı. Əgər onlar əsl məqsədi bilsəydilər, onda bu, Peterin görüşdüyü təqib olunan məsihçilərin həyatını təhlükəyə salardı. Uzun sorğu-suallar zamanı Peter başa düşdü ki, yaxın gələcəkdə evinə qayıtmayacaq…

Bunun əvəzinə Peter çoxsaylı cinayətlərdə ittiham edildi və Sudan hökuməti tərəfindən təqib olunan məsihçilərə kömək etdiyi üçün həbs olundu. Bu kitabda ömürlük həbsə məhkum olunan və İŞİD terrorçuları ilə bir kamerada qalmağa məcbur edilən Peter orada Allahın ona verdiyi güc, cəsarət və yeni məqsəd barədə fikirlərini bölüşür.



Peter Yaşek Çexoslovakiyada kommunist hökuməti tərəfindən təqib olunan bir pastorun ailəsində böyümüşdü. O, Müjdəyə qarşı düşmənçilik mövqeyi olan ölkələrdəki təqib edilən məsihçilərə dəstək vəköməklik işində xidmət üçün 2002-ci ildə “Şəhidlərin səsi” təşkilatına qoşuldu. İndi Peter Yaşek beynəlxalq kordinator kimi xidmətini davam etdirərək dünyanı səyahət edir. Bu kitabda o, Sudan həbsxanasında olduğu zaman yaşadıqları barədə danışır, imanlıları dua etməyə və təqib olunan bacı-qardaşlarımıza imanla xidmət etməyə təşviq edir.

***petrjasek.com***